2023–064

# ƏDƏBİYYAT

DƏRSLİK

8



ƏDƏBİYYAT 8 DƏRSLİK





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhmәd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



HEYDƏR ƏLİYEV
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

SOLTAN ƏLİYEV, BİLAL HƏSƏNOV, AYNUR MUSTAFAYEVA
NURİYYƏ VERDİYEVA, SƏDAQƏT MƏMMƏDOVA

# ƏDƏBİYYAT

# 8

Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün ədəbiyyat fənni üzrə
DƏRSLİK

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

CC BY NC SA

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**bn@bakineshr.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# BAŞLIQLAR

Dərsliklə necə işləməli? . . . . . . . . . . . . 6
Qədim və zəngin ədəbiyyatımız . . . . . . . . . . 8

QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy
("Kitabi-Dədə Qorqud" dastanından) . . . . . . . 12

İNTİBAH DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

*Xaqani Şirvani.* Gənclərə nəsihət . . . . . . . . 27
*Nizami Gəncəvi.* Sultan Səncər və qarı
("Sirlər xəzinəsi" poemasından) . . . . . . . . 31
Qazılıq Qoca oğlu Yeynək boyu
(qiymətləndirmə materialı) . . . . . . . . . . 37

ORTA ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI

*İmadəddin Nəsimi.* Ağrımaz . . . . . . . . . . 40
*Şah İsmayıl Xətayi.* Bahariyyə ("Dəhnamə" poemasından) . 44
*Məhəmməd Füzuli.* Söz . . . . . . . . . . . . 48
*Qurbani.* Bənövşəni
(qiymətləndirmə materialı) . . . . . . . . . . 52

ERKƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Koroğlu ilə Bolu bəy ("Koroğlu" dastanından) . . . . . . 54
*Molla Pənah Vaqif.* Hayıf ki, yoxdur... . . . . . . . 71
*Saib Təbrizi.* Söz
(qiymətləndirmə materialı) . . . . . . . . . . 75

## AZƏRBAYCAN ƏDƏBİYYATINDA MAARİFÇİ REALİZM DÖVRÜ

*Qasım bəy Zakir.* Durnalar . . . . . . . . . . . . . 77
*Aşıq Ələsgər.* Dağlar . . . . . . . . . . . . . 80
*Seyid Əzim Şirvani.* Qafqaz müsəlmanlarına xitab . . . . . 85
*Aşıq Alı.* Bənzərsən
(qiymətləndirmə materialı) . . . . . . . . . . . . 90

## TƏNQİDİ REALİZM VƏ ROMANTİZM DÖVRÜ

*Cəlil Məmmədquluzadə.* Qurbanəli bəy . . . . . . . 92
*Mirzə Ələkbər Sabir.* Əkinçi . . . . . . . . . . 109
*Əbdürrəhim bəy Haqverdiyev.* Bomba . . . . . . . 114
*Abdulla Şaiq.* Məktub yetişmədi
(qiymətləndirmə materialı) . . . . . . . . . . 121
*Məhəmməd Hadi.* Türkün nəğməsi . . . . . . . . 123
*Hüseyn Cavid.* Ana . . . . . . . . . . . . . 126
*Məhmət Akif Ərsoy.* İstiqlal marşı
(dünya ədəbiyyatından seçmə) . . . . . . . . . 154
*Yusif Vəzir Çəmənzəminli.* Zeynal bəy
(qiymətləndirmə materialı) . . . . . . . . . . . 159

İnformasiya xarakterli mətni – məruzəni necə yazmalı? . . . . . 162
Layihələr üzrə iş . . . . . . . . . . . . . . . . . 164
Sinifdənxaric oxu materialları . . . . . . . . . . . . 165
İfadəli oxuda istifadə edilən şərti işarələr . . . . . . . . 187
Lüğət . . . . . . . . . . . . . . . . . . . . 188
Qısa ədəbiyyatşünaslıq terminləri lüğəti . . . . . . . . 200
Mövzular üzrə internet mənbələri . . . . . . . . . . 205
Oxumağı məsləhət görürük . . . . . . . . . . . . 207

## DƏRSLİKLƏ NECƏ İŞLƏMƏLİ?

**İzahlarla tanış olun.** Sizdə yerinə yetirəcəyiniz tapşırıqlar, öyrənəcəyiniz mətnlər barədə aydın təsəvvür yaradacaqdır.

**Yada salın.** Mövzu ilə bağlı bildiklərinizi xatırlatmağa, maraq və istəklərinizi ifadə etməyə istiqamətləndirəcəkdir.

**Düşünün.** İlkin fərziyyələr söyləməyə, araşdırmalar aparmağa yönələcəkdir.

**Məzmun üzrə iş.** Əsərin məzmununun öyrənilməsi, zəruri bacarıqların yaradılması və tətbiqi ilə bağlı yerinə yetirilən işlər əhatə olunur.



• Yada salın
– C.Məmmədquluzadənin hansı əsərləri ilə tanışsınız?
– Bu əsərlərdə diqqətinizi ən çox çəkən nə olub?

• Düşünün
– İnsanın rəzil olmasına, gülüş obyektinə çevrilməsinə səbəb nə ola bilər?

• Oxuda aydınlaşdırın
– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

CƏLİL MƏMMƏDQULUZADƏ (1869–1932)

XX əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri böyük yazıçı Cəlil Məmmədquluzadədir. Onun yaradıcılığı ədəbiyyatımızın ən parlaq səhifələrindəndir. Ədibin hekayələrində gülüşlə bərabər, göz yaşı da vardır.
*Əziz Mirəhmədov*

QURBANƏLİ BƏY
(ixtisarla)

1 Xəbər çıxdı ki, bu gün naçalnik gəlir kəndə və sonra məlum oldu ki, pristavın arvadının ad qoyulan günüdür.
Kəndə şuriş düşdü. Kənd əhlindən bu gün çöl işinə gedən olmadı. Camaatın yarısı çıxmışdı kəndin kənarına və təpələrə dırmaşıb boylanırdılar ki, görsünlər gəlirmi naçalnik. Camaatın yarısı pristavın mənzilini əhatə edib durmuşdu. Qıraq kəndlərdən də camaat xəbər tutub yavaş-yavaş gəlirdi.
Pristavın həyətinə adam əlindən girmək mümkün deyildi, katda, yasavul və qlava mirzələrindən savayı həyətə girməyə heç kəsə izin verilmirdi. Həyətdə it yiyəsini tanımırdı. Səsdən və qiylü-qaldan qulaq tutulurdu; bir yanda quzular mələyirdi, bir yanda qıçları bağlı cücə və toyuqlar bağırırdılar, bir yanda qlavaların atları kişnəyirdilər. Bir tərəfdən pristavın qulaqları uzun tulaları gah qlavanın üstünə atılıb "haff" eləyirdilər, gah katdanın üstünə tullanıb "haff" eləyirdilər. Hərdənbir pristavın

92

II dərs

• Məzmun üzrə iş

Bilik və bacarıqlarınızı tətbiq edin.
1. Əsərin məzmununa aid üç sual yazın. Suallar... vab hazırlayın və müzakirə edin.
2. Əsəri hissələrə ayırıb, birinə ad verin. Məzmu... dıcı nağıl edin.
3. Doğru hesab etdiyiniz fikirləri müəyyənləşdir...
a) Kərbəlayı Zal şöhrətpərəstdir.
b) O, polis qulluğunda qalmaq üçün hər cür...
c) Xırda hislərlə yaşayan Kərbəlayı Zalın ba...
d) Kərbəlayı Zalın usta Feyzulla ilə ədavəti...
e) Kərbəlayı Zal vətəninə, xalqına fayda v... üstünlük verir.
4. Əsərdəki hansı epizodda hadisələr ən gərgin,... nizi əsaslandırın.
5. Dərslikdə əsərlə bağlı verilmiş illüstrasiyala... daha hansı epizoda illüstrasiya çəkilməsini m...

• Evdə iş
• Əsas hadisələrin təsviri və tamamlanması ba... yaxşı bildiyiniz bir hekayə ilə müqayisə edi... cədvəlindən istifadə edin.

III dərs

• Təhlil üzrə iş

Əsərin təhlilinə hazırlaşın
1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən...
Əsər XX yüzilliyin əvvəllərində – Azərbay... olarkən yazılmışdır. Rus hakim dairələri milli... belə diqqətlə izləyir, azadlıqla, müstəqilliklə bağ... Mövcud hakimiyyət insanları idarə etmək, itaət... onların daim qorxu, vahimə altında yaşamaların... çuğulçu, xəbərçi olmağa təhrik edilirdilər. Bu... risində yadelli ağalarına sədaqətli olduqları sü... nökər təbiətli adamlar da az deyildi. Bələləri... masına səbəb olmuşdur. Kərbəlayı Zal da məhz...
Əsər həcmcə kiçik olsa da, yazıçı maraqlı... mişdir. Onun nitqinə – danışığına, əsərdəki əhv... lanmasına diqqət yetirin. Bu, yazıçının əsas niy... şülməsi üçün əhəmiyyətlidir.
Əsəri maraqlı edən cəhətlərdən biri də onun... əsərlər *novella* adlanır.

119

**Oxuda aydınlaşdırın.** Tanış olmayan sözlərin mənasını aydınlaşdırmaq, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək üçün nəzərdə tutulmuşdur.

**Təhlil üzrə iş.** Əsərin təhlili, bununla bağlı zəruri bacarıqların yaradılması və tətbiqi üzrə işlər əhatə olunur.

**Tətbiq. Müzakirə. Yaradıcı iş.** Bilik və bacarıqların tətbiqi, müxtəlif mövzularda müzakirələrin aparılması, yaradıcı xarakterli işlərin icrası üçün nəzərdə tutulmuşdur.

**Müstəqil iş üçün.** Bölmələrdə əsərləri ilə tanış olduğunuz sənətkarların həyatı barədə müxtəlif mənbələrdən məlumatların öyrənilməsi və müzakirəsi üçün nəzərdə tutulmuşdur.




**Qiymətləndirmə materialı.** Bölmələrin sonunda həyata keçirilən kiçik summativ qiymətləndirmə üçün nəzərdə tutulmuşdur.

**Layihə üzrə iş.** Layihələr müxtəlif mənbələrlə müstəqil işləməyiniz, yaradıcı fəaliyyət göstərməyiniz üçün təklif edilmişdir.

- **Unutmayın!**

  **Dərslikdəki cədvəllərdə qeydlər etməyin.**

## QƏDİM VƏ ZƏNGİN ƏDƏBİYYATIMIZ

Tarixən qədim olan ədəbiyyatımızın müxtəlif dövrlərinə aid bədii nümunələrlə aşağı siniflərdə tanış olmuş, onların oxusu, məzmununun öyrənilməsi, təhlili ilə bağlı bacarıqlara yiyələnmisiniz. Səkkizinci sinifdə isə ədəbiyyatımızın qədim dövrlərdən başlayaraq inkişaf yolunu izləyəcəksiniz. Bu, xalqımızın müxtəlif dönəmlərdə həyatı, yaşayış tərzi, düşüncəsi, qarşılaşdığı problemlər barədə aydın təsəvvür qazanmağınıza imkan verəcəkdir. Bu sinifdə, həmçinin yeni ədəbi növ və janrlarla tanış olacaq, məzmun və forma xüsusiyyətlərinin aydınlaşdırılması, qiymətləndirilməsi ilə bağlı bacarıqlar qazanacaqsınız.

Tarixən çox qədim olan söz sənətinin ilk nümunələri insan cəmiyyətinin formalaşdığı uzaq keçmişdə yaranmışdır. Bəşər övladı hələ yazının olmadığı bir dövrdə öz hiss və düşüncələrini dilə gətirməyə, ifadə etməyə ehtiyac duymuş və beləliklə, xalq yaradıcılığı – *şifahi ədəbiyyat* meydana gəlmişdir. İnsanın inkişafı, təfəkkürünün zənginləşməsi xalq yaradıcılığının da məzmunca zənginləşməsinə, müxtəlif növ və janrlarının meydana gəlməsinə səbəb olmuşdur. Xalqımızın yaratdığı nağıllar, əfsanələr, bayatılar, lətifələr, mahnılar, nəğmələr, atalar sözləri və məsəllər, dastanlar, aşıq poeziyası nümunələri və s. yüzillər boyu dinlənilmiş, oxunmuş və öz dəyərini qoruyub saxlamışdır. Xalqın arzusunu, istəyini, adət-ənənəsini, həyat hadisələrinə münasibətini doğma dildə ifadə edən şifahi ədəbiyyat yazılı ədəbiyyatın yaranmasına və inkişafına əhəmiyyətli təsir göstərmişdir. Zaman ötdükcə yazılı ədəbiyyatın da şifahi ədəbiyyatın məzmun və formaca zənginləşməsinə təsiri az olmamışdır. Bu da unudulmamalıdır ki, Azərbaycan ədəbiyyatı öz mənşəyini türk xalqları ədəbiyyatı üçün ortaq olan qədim türk, yaxud ümumtürk ədəbiyyatından almışdır. Söz sənətimiz, həmçinin həm Şərq, həm də Qərb xalqlarının ədəbiyyatı ilə bütün tarix boyu qarşılıqlı əlaqədə olmuş, ləyaqətli inkişaf yolu keçmiş, dünya ədəbiyyatına əvəzsiz töhfələr vermişdir.

Ədəbiyyatımızın taleyi də xalqımızın taleyi kimi keşməkeşli olmuşdur. İşğallara, talanlara məruz qalan, zaman-zaman müharibə meydanına çevrilən vətənimizin maddi və mənəvi sərvətlərinin itkisi az olmamışdır. Elə bunun nəticəsidir ki, ədəbiyyatımızın tarixini ən qədim zamanlardan başlayaraq on birinci yüzilliyə qədər ardıcıllıqla izləmək mümkün deyil. Ədəbiyyatımızın ən çox ərəb istilasından sonrakı dövrlərdə yaranan nümunələri bizə qədər gəlib çatmışdır. Lakin bu dövrdə də yaranan əsərlərin çoxu ya itib-batmış, ya da məhv edilmişdir.

On birinci yüzillikdən başlayaraq ədəbiyyatımızın inkişafını ardıcıl izləmək, qorunub saxlanmış ənənə haqqında inamla danışmaq mümkün olur. Müxtəlif dövrlərdə yaşamış qüdrətli sənətkarlarımız özlərindən əvvəl yaranmış ədəbi irsi mükəmməl öyrənmiş, yaradıcılıqlarında davam və inkişaf etdirmişlər. Bu mənada N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, eləcə də bir sıra digər söz ustalarımızın ədəbi fəaliyyəti örnəkdir. Onların yaradıcılığı bir çox sənətkarlarımız üçün məktəb, ilham mənbəyi olmuşdur.

Azərbaycan ədəbiyyatı humanizmi, insan gözəlliyini, dərin ictimai mətləbləri əks etdirməsi ilə seçilmiş, elə buna görə də dünya şöhrəti qazanmışdır. Təsadüfi deyildir ki, ədəbiyyatımızdan yüzlərlə nümunələr müxtəlif dillərə tərcümə edilmiş, bütün dünyada yayılmışdır. Şərqdə, eləcə də Qərbdə elə bir mədəni ölkə yoxdur ki, orada tanınmış yazıçılarımızın əsərləri oxunmasın, sevilməsin. Ədəbiyyatımızın dünya ədəbiyyatına təsiri barədə də az yazılmamışdır. Azərbaycan ədəbiyyatı da dünya ədəbiyyatının bəşəri ideyalarından, forma zənginliyindən bəhrələnmişdir. Bu, təbiidir, çünki ümumilikdə dünya ədəbiyyatı qarşılıqlı əlaqə, qarşılıqlı təsir və zənginləşmə zəminində yaranır və inkişaf edir.

Nəsillər bir-birini əvəz edir. Hər nəsil mənəvi sərvətimiz olan bu xəzinədən öyrənir və onu yeni töhfələrlə zənginləşdirir. Beləliklə, xalqımızın mənəvi dünyası əbədi yaşamaq hüququnu, ləyaqətini qoruyub saxlayır.

İllər ötdükcə ədəbiyyat məzmununa və formasına görə dəyişir, inkişaf edir, zənginləşir. Bu, həyatda, cəmiyyətdə baş verən dəyişikliklə, mühüm siyasi hadisələrlə və s. bağlı baş verir. Ədəbiyyat tarixinin dövrləşdirilməsinin bir mühüm səbəbi də buradan qaynaqlanır. Dövrləşdirilmə aşağıdakı kimi qəbul edilmişdir:

– Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər).
– Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII – X əsrlər).
– İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI–XII əsrlər).
– Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII–XVI əsrlər).
– Erkən yeni dövr Azərbaycan ədəbiyyatı (XVII –XVIII əsrlər).
– Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr).
– Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü (XIX əsrin doxsanıncı illərindən Azərbaycan sovet hakimiyyətinədək).
– Sovet dövrü Azərbaycan ədəbiyyatı (1920-1991-ci illər): Azərbaycan ədəbiyyatında sosialist realizmi mərhələsi (1920-1960-cı illər); Milli mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi (1960-1980-ci illər).
– Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən bu günə qədər).

Bir-biri ilə sıx varislik əlaqəsi olan bu dövrlərin hər birinin özünəməxsus əlamətləri, gözəl sənət nümunələri, görkəmli nümayəndələri vardır.

Bədii ədəbiyyat söz sənətidir. Bu sənətin yaşamasında, kamilləşməsində və başa düşülməsində onun mahiyyətindən, qanunlarından bəhs edən elmin xüsusi yeri var. Bu elm **ədəbiyyatşünaslıq** adlanır. Onun bir-biri ilə qarşılıqlı əlaqədə olan üç sahəsi mövcuddur: **ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid.**

**Ədəbiyyat tarixi** bədii ədəbiyyatın qədim dövrlərdən başlayaraq bu günə qədər keçdiyi inkişaf yolunu öyrənir. Müxtəlif dövrlərdə özünü göstərən yeniliklər, mühüm ədəbi hadisələr, bunların səbəbləri araşdırılır və təhlil edilir.

**Ədəbiyyat nəzəriyyəsi** bədii ədəbiyyatın mahiyyətini, xüsusiyyətlərini, inkişaf qanunauyğunluqlarını və s. öyrənir.

Siz ədəbiyyat nəzəriyyəsinin bir sıra anlayışları (heca vəzni, hekayə, dastan və s.) barədə bilik qazanmısınız.

**Ədəbi tənqid** daha çox çağdaş ədəbi prosesla məşğul olur. Ədəbi tənqidin başlıca vəzifəsi yenicə çap olunmuş əsərin uğurlu və qüsurlu cəhətlərini, müəllifin yaradıcılığında, eləcə də ədəbiyyat tarixində tutduğu yeri, cəmiyyət üçün faydasını və s. ətraflı araşdırmaqdır.

- **Araşdırın.**
- **Fikirləşin.**
- **Cavab verin**

1. Ədəbiyyatın tarixi-xronoloji ardıcıllıqla öyrənilməsinin əhəmiyyəti nədir?
2. Azərbaycan ədəbiyyatının mənşəyi barədə nə bilirsiniz?
3. Ən qədim zamanlarda yaranmış ədəbiyyatımızı ardıcıl öyrənə bilməməyimizə səbəb nədir?
4. Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatında yeri barədə nə deyə bilərsiniz?
5. Ədəbiyyat tarixinin dövrləşdirilməsi nə üçün lazımdır? Azərbaycan ədəbiyyatı tarixi hansı dövrlərdən ibarətdir?
6. Ədəbiyyatşünaslıq elminin hansı sahələri var? Bu sahələr nə ilə məşğuldur?

- **Tətbiq.**
- **Müzakirə.**
- **Yaradıcı iş**

Müzakirə edin:
Yazılı ədəbiyyatın inkişafını təmin edən başlıca amillər hansılardır?

- **Evdə iş**

Kitabxanadan və ya internetdəki mənbələrdən istifadə etməklə şifahi xalq ədəbiyyatının janrları barədə məlumat toplayın və təqdimat hazırlayın.

# QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Azərbaycan ədəbiyyatı qədim və zəngin bir tarixə malikdir. Ən qədim zamanlardan Azərbaycan ərazisində yaşayan müxtəlif tayfa-qəbilələr arasında türk dilində danışan xalqlar üstünlük təşkil etmiş, bu dildə zəngin şifahi xalq yaradıcılığı nümunələri ilə yanaşı, yazılı abidələr də yaranmışdır.

Həmin dövr ədəbiyyatımızın təməlində qədim ümumtürk ədəbiyyatı dayanır. Ulu babalarımızın ən qədim zamanlarda yaratdığı söz sənəti ortaq türk ədəbiyyatı hesab olunur. Orxon-Yenisey abidələri ortaq türk ədəbiyyatının ilk nümunələridir.

Azərbaycanda ən qədim zamanlarda yaranan bir çox ədəbiyyat və mədəniyyət nümunələri sonrakı dövrlərə gəlib çatmamışdır. Lakin Azərbaycan ədəbiyyatının inkişafı haqqında deyilənləri Herodotun "Tarix" əsərində verilmiş əfsanələr, digər dəyərli nümunələr, eləcə də Midiyanın yüksək mədəniyyətə malik olması haqqında fikirlər bir daha təsdiqləyir.



*Orxon – Yenisey abidələrindən*

VII əsrdə Azərbaycanın ərəblər tərəfindən işğal olunmasından, islam dininin qəbulundan sonra ərəb dilində mədrəsələr açıldı, ərəb əlifbasına keçildi. Ziyalıların ərəb dilli mədrəsələrdə təhsil alması onların bədii yaradıcılığına təsirsiz ötüşmədi. Bu amil sənətkarlarımızın ərəb dilində yazıb-yaratmalarına səbəb oldu. Həmin dövrdə Musa Şəhəvat, İsmayıl ibn Yəsar, Əbu-l-Abbas əl-Əma ərəb dilində qiymətli sənət əsərləri yazan tanınmış şairlər idi. Onlar dövrün tələblərinə uyğun olaraq əsərlərini ərəb dilində yazsalar da, şeirlərində vətənpərvərlik hisslərinin tərənnümü mühüm yer tuturdu.

Qədim dövr Azərbaycan ədəbiyyatında misilsiz xalq yaradıcılığı hadisəsi olan "Dədə Qorqud" dünya ədəbiyyatında çox az rast gəlinən möhtəşəm abidələrdəndir. Ulu babalarımızın – oğuz türklərinin bədii düşüncəsinin məhsulu olan "Kitabi-Dədə Qorqud" dastanları ideya-məzmunu, təkrarolunmaz gözəlliyi ilə yüz illərdir ki, dünya alimlərinin diqqət mərkəzindədir.

## QAZAN BƏYİN OĞLU URUZ BƏYİN DUSTAQ OLDUĞU BOY

("Kitabi-Dədə Qorqud" dastanından)
*(sadələşdirilmiş mətn, ixtisarla)*

**• Yada salın**

– Dastan janrının başlıca xüsusiyyətləri hansılardır?
– Ulu babalarımız "Dədə Qorqud" dastanında hansı adət-ənənələri yaşadırlar?

**• Düşünün**

– Uzaq keçmişdə yaranmış "Dədə Qorqud" dastanının bu gün də qiymətli olmasına səbəb, sizcə, nədir?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

**1**

Bir gün Ulaş oğlu Qazan bəy yerindən durmuşdu. Qara yer üzərində otaqlarını tikdirmişdi. Min yerdə ipək xalça döşətmişdi. Hündür alaçıq göy üzünə dirənmişdi. Doxsan dəstə gənc oğuz məclisinə toplaşmışdı. Ağzı böyük şərab küpləri ortalığa qoyulmuşdu. Doqquz yerdə kef məclisi qurulmuşdu. Qızıl qədəhlər, sürahilər düzülmüşdü... Ulaş oğlu Salur Qazan qızılı sapla tikilmiş çadır-otaqlar, qatar-qatar dəvələr bağışlayırdı. Oğlu Uruz qarşısında yay kimi söykənib durmuşdu. Sağ yanında qardaşı Qaragünə oturmuşdu. Sol yanında dayısı Aruz oturmuşdu.

Qazan sağına baxdı, qah-qah güldü. Soluna baxdı, çox sevindi. Qarşısına baxdı, oğlu Uruzu gördü. Əlini əlinə çalıb ağladı. Oğlu Uruza bu iş xoş gəlmədi. İrəli gəldi, diz çökdü. Çağırıb atasına söyləyir, görək, xanım, nə söyləyir:

Ünüm ünlə mənim, sözümü dinlə, ağam Qazan!
Sağına baxdın, qah-qahla güldün.
Soluna baxdın, çox sevindin.
Qarşıya baxdın, məni görüb ağladın.
Səbəbi nədir, söylə mənə,
Qara başım qurban olsun, ağam, sənə!

... Qazan bəy qızardı. Oğlanın üzünə baxdı. Çağırıb söyləyir. Görək, xanım, nə söyləyir:

Bəri gəl, qulunum oğul!
Sağ tərəfə baxanda mən



... Oğlu Uruza bu iş xoş gəlmədi. İrəli gəldi, diz çökdü...

Qardaşım Qaragünəni gördüm, –
Baş kəsib – qan tökübdür, haqqın alıb, ad qazanıbdır.
Sol tərəfə baxdıqda dayım Aruzu gördüm, –
Baş kəsib – qan tökübdür, haqqın alıb, ad qazanıbdır.
Qarşıma baxanda səni gördüm,
On altı yaşın oldu,
Bir gün ola, düşüb öləm, sən qalarsan;
Yay çəkməmisən, ox atmamısan,
Baş kəsməyibsən, qan tökməyibsən.
Qanlı Oğuz yurdunda bir mükafat almayıbsan.

Sabahkı gün vaxt gələr, mən ölüb sən qalanda taxt-tacımı birdən sənə verməzlər, – deyə sonumu andım, ağladım, oğul! – dedi.

Uruz burada söyləmiş, görəlim, xanım, nə söyləmişdir:

A bəy baba!
... Hünəri oğul atadanmı görər, öyrənər,
Yoxsa atalar oğuldanmı öyrənir?
Sən məni götürüb haçan kafir sərhədinə çıxardın,
Qılınc çalıb baş kəsdin?
Mən səndən nə gördüm ki, nə öyrənim? – dedi.

Qazan bəy əlini əlinə vurub qah-qah güldü. Dedi: “A bəylər, Uruz yaxşı deyir. Siz yeyiniz-içiniz, söhbətinizi eləyin. Mən bu oğlanı götürüb ova gedim. Yeddi günlük azuqə ilə çıxaq. Ox atdığım yerləri, qılınc çalıb baş kəsdiyim yerləri göstərim. Kafir sərhədində Cızıqlara, Ağlağana, Göyçə dağına götürüb aparım. Sonra oğlana gərək olar, a bəylər!”

Qonur atını çəkdirdi, mindi. Donu qaş-daşla bəzənmiş üç yüz igidi seçdi, öz dəstəsinə qoşdu. Uruz da qırx ala gözlü igidini özü ilə apardı. Qazan oğlunu götürüb uca dağlar üzərinə ova çıxdı. Ov ovladı, quş vurdu. Ceyran-cüyür yıxdı. Hündür və gözəl göy çəmənlikdə çadır qurdu. Bir neçə gün bəylər eləcə yeyib-içdilər.

- Qazan bəyin məclisi necə təşkil edilmişdi?
- Qazan bəy sevinməsinin və kədərlənməsinin səbəbini necə izah edir?
- Uruzun atasına cavabı nə olur?
- Oğlunun sözlərindən sonra Qazan bəy hansı qərara gəlir?

**2**

Sən demə, Başı açığın Dadiani qalasından, Aqsaqa qalasından kafirin casusu bunları görüb təkura dedi: “Hey, nə oturursan? İtini ulatmayan, pişiyini miyoldatmayan alplar başçısı Qazan öz oğlu ilə sərxoş olub yatır”.

On altı min qara donlu kafir ata mindi. Qazanın üzərinə irəlilədi. Baxıb gördülər, altı bölük toz endi. Kimi dedi: “Ceyran tozudur”, kimisi dedi: “Düşmən gəlir”. Qazan dedi: “Ceyran olsaydı, bir, ya iki bölük olardı. Bilin ki, bu gələn düşməndir”. Toz yarıldı, gün kimi parıldadı, dəniz kimi çalxalandı, meşə kimi qaraldı. On altı min ip üzəngili, keçə papaqlı, azğın dinli, quzğun dilli kafir gəlib çıxdı. Qazan Qonur atını çəkdirdi, mindi. Oğlu Uruz bədöy atının cilovunu çəkib oynatdı, onun qarşısına gəldi, dedi:

Bəri gəl, ağam Qazan!
Dəniz kimi qaralıb gələn nədir?
Od kimi işarıb, ulduz kimi parlayıb gələn nədir?
Öz dilinlə beş kəlmə xəbər ver mənə,
Qara başım qurban olsun, ağam, sənə!

Qazan dedi:

Bəri gəl, aslanım oğul!
Böyük dəniz kimi qaralıb gələn kafirin qoşunudur.
Gün kimi parlayıb gələn kafirin papağındakı işıqdır.
Ulduz kimi işarıb gələn kafirin nizəsidir.
Azğın dinli yağıdır, düşməndir, oğul!

Oğlan dedi:

– “Yağı” deyəndə nəyə deyirlər?

Qazan dedi:

– Oğul, ona görə yağı deyirlər ki, biz onlara yetsək, öldürərik, onlar bizə yetsə, öldürərlər.

Uruz burada söyləmişdir. Görək, xanım, nə söyləmişdir:

Bəri gəl, ağam Qazan!
Qalxıb yerimdən bədöy atımı saxlayırdım bu gün üçün.
Günü gəldi, böyük meydanda səyirdim mən sənin üçün!
Uzaq vuran sür nizəmi saxlayırdım bu gün üçün.
Günü gəldi, qarınlara-köksləre sancım mən sənin üçün!
Böyük, iti polad qılıncımı saxlayırdım bu gün üçün.
Günü gəldi, kafir başın kəsdirim sənin üçün!
... Qırx igidimi saxlayırdım bu gün üçün.
Günü gəldi, kafir başını kəsdirim sənin üçün!
Aslan adımı saxlayırdım sənin üçün.
Kafirlə əlbəyaxa tutaşım mən sənin üçün!
Ağız-dildən bir neçə söz söylə mənə!
Qara başım qurban olsun, ağam, sənə!

Qazan burada söyləmiş, görək, xanım, nə söyləmiş:

Oğul, oğul, ay oğul!
Səsimi eşit, sözümü dinlə!
O kafirin atdığı üç oxdan biri boşa çıxmaz oxçusu olur.
“Hay” demədən başlar kəsən cəlladı olur.
Adam ətindən qovurma edən aşpazı olur.
Bu sən deyən düşmən deyil.
Mən yerimdən qalxıb durum,
Qonur atın belinə qoy mən minim,
Böyük, iti polad qılıncı mən çalım,

Azğın dinli kafirdir, başlarını kəsim.
Dönə-dönə savaşım, dönə-dönə döyüşüm.
Qılınc çalıb baş kəsməyi gör, öyrən.
Başın bəlaya düşsə, gərəyin olar...

Uruz burada söyləmiş, görək, xanım, nə söyləmiş:

A bəy ata, eşidirəm,
Ərəfatda erkək quzu qurban kəsmək üçündür.
Ata oğul qazanar ad üçün,
Oğul da qılınc qurşanar ata qeyrəti üçün,
Mənim də başım qurban olsun sənin üçün.

Qazan burada söyləmiş, görək, xanım, nə söyləmiş:

Oğul, oğul, ay oğul!
Düşmən arasına girib baş kəsməyibsən.
Adam öldürüb qan tökməyibsən.
Ala gözlü qırx igidi götür özünlə,
Köksü gözəl dağ başına çıx,
Mənim necə savaşaraq döyüşdüyümə,
Həm bax, öyrən, həm bizə göz olub, pusquda dur!

- Oğuz igidlərinin üzərinə gələn kimlər idi?
- Qazan bəy düşməni oğluna necə tanıdır?
- Uruzun qərarı nə olur?
- Qazan bəy oğlunun döyüşməsinə nə üçün razı olmur?

3

Uruz atasının sözünü sındırmadı. Geri döndü, yoldaşlarını da götürüb uca dağların başına çıxdı. O zamanlar oğul ata sözünü iki eləməzdi. İki eləsəydi, o cür oğulu qəbul etməzdilər. Uruz süngüsünü gen yaxasından keçirib yerə sancdı, durdu.

Qazan bəy gördü ki, kafir yaxınlaşdı. Atından endi, təmiz suda yuyundu. Ağ alnını yerə qoydu, iki rükət namaz qıldı. Adı gözəl Məhəmmədi yada saldı. Qara dinli kafirin gözünə qaranlıq çökdürdü. Hayqırıb at sürdü, irəli gedib qılınc vurdu...

Uruz baxa-baxa cuşa gəldi. Dedi: “Bəri gəlin, qırx yoldaşım. Görürsünüz ki, ağam Qazan baş kəsdi, qan tökdü. Məni sevən igidlərim, nə durmusunuz, düşmən qoşununun bir ucuna hücum edək”. Qaracıq atını oynatdı. Uruz kafirin sağ cinahına at sürdü. Sağlı-sollu düşməni yaxşıca dağıtdı. Sanki dar yolda dolu düşdü, ya qaz sürüsünə şahin girdi. Kafirin bir cinahı basıldı. Azğın dinli kafir əldən düşüb ox atmağa başladı. Qaçanlardan biri Uruzun bədöy atını oxladı. At yıxıldı. Kafirlər qayıdıb Uruzun üstünə düşdülər. Uruzun qırx igidi atdan endi... Qılınc siyirdilər. Uruzun üstündə çox vuruşdular. Lakin çoxluq qorxudur, dərinlik batırır. Piyadanın ümidi olmaz. Uruza sağdan-soldan hücum etdilər, qırx yoldaşını şəhid etdilər. Oğlanın üstünə düşüb tutdular. Qollarını bağladılar. Üzü üstə salıb sürüdülər. Ağ ətindən qan çıxınca döydülər. “Ata” deyə ağlatdılar, “ana” deyə inlətdilər. Əli bağlı, boynu bağlı, üzüstə salıb sürüyərək apardılar. Uruz dustaq oldu.

Qazanın xəbəri yox. Elə sandı ki, düşmən basılıb. Atın yüyənini döndərib geri qayıtdı. Gəldi, oğlanı qoyduğu yerdə tapa bilmədi. “A bəylər, oğlan hara getmiş ola?” – dedi. Bəylər dedilər: “Oğlan quş ürəkli olur. Qaçıb anası yanına getmişdir”.

Qazan əsəbiləşdi, geri döndü. Dedi: "Bəylər, Tanrı mənə bir fərsiz oğul vermişdir. Gedək, onu anası yanından götürək, qılıncla parçalayaq, altı parça edək, altı yolun ayrıcına ataq. Bir daha kimsə çöllük yerdə yoldaş qoyub qaçmasın!" Sonra Qonur atını dizləri ilə vurub yola düşdü...

Xan qızı Boyu uzun Burla xatun Qazanın gəldiyini eşitdi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirdi. "Oğlancığımın ilk ovudur, ovu qanlı oğuz bəylərini qonaq edim!" – dedi. Xan qızı gördü ki, Qazan gəlir, özünü yığışdırıb yerindən cəld durdu... Qazanın qarşısına gəlib üzünə sarı baxdı. Sağına-soluna göz gəzdirdi. Oğlu Uruzu görmədi. Qara bağrı sarsıldı, ürəyi yerindən oynadı, qara qıyma gözləri qan-yaşla doldu. Qazana söyləmiş, görək, nə söyləmiş:

Bəri gəl, Salur bəyi, Salur yaraşığı,
Başımın bəxti, evimin taxtı!
Xan atamın kürəkəni,
Xanım anamın sevimlisi,
...İgid bəyim Qazan!
Qalxıb yerindən sən durdun,
Oğlunla gözəl qara yallı Qazlıq atını mindin.
Boynu uzun vəhşi ceyranı vurub yıxdın,
Sən atını yüklətdin, geri döndün.
İki getdin, bir gəlirsən, balam hanı?
...Asılan uçurum qayalardan,
Qazan, oğlumu uçurdunmu?
Qamışlıqların aslanına yedirtdinmi?
Ağ əllərini qollarından bağlatdınmı?
Dörd yanına baxdırdınmı?
Dil-damağını qurutdunmu?
Qara gözündən acı yaşını axıtdınmı?
"Xanım ana! Bəy ata!" – deyib ağlatdınmı?

- Qazan bəy döyüşə necə hazırlaşır?
- Döyüşə girən Uruz necə vuruşur? Onun əsir düşməsinə səbəb nə olur?
- Oğlunun döyüş meydanından qaçdığını güman edən Qazan bəy hansı qərara gəlir?
- Uruzun ovdan dönmədiyini görən ana narahatlığını necə ifadə edir, oğlu barədə nə soruşur?

**4**

Bir daha söyləmiş:

Qarşı yatan uca dağdan
Bir oğul uçurdunsa, de mənə,
Külünglə yıxdırım!
Coşğun axan yüyrək sudan
Bir oğul axıtdınsa, de mənə,
Mənbəyini-mənsəbini dağıdım!
Azğın dinli kafirlərə
Bir oğul tutdurdunsa, de mənə;
Xan atamın mən yanına gedim,
Böyük qoşun, bol xəzinə alım,
Yaralanıb Qazlıq atımdan enməyincə,

- Ana – Burla xatun haqqında sizdə hansı təsəvvür yarandı?

Ətəyimlə alca qanımı silməyincə,
Qol-bud olub yer üzünə düşməyincə,
Bircə oğlumun xəbərini almayınca
Kafir yollarından dönməyəlim!

Oğlanın anası belə dedikdə Qazanın ağlı başından getdi. Qara bağrı sarsıldı, ürəyi yerindən oynadı. Qaranlıq çökmüş gözləri qan-yaşla doldu. Dedi: "Əzizim, oğul gəlsəydi, səndən soruşardımmı? Qorxma, fikir eləmə, ovdadır. Ovda qalan oğul üçün qəmlənmə! Mən Qazana yeddi gün möhlət ver! Yerdə isə, oğlumu yerdən çıxarım, göydə isə, göydən endirim. Tapa bildim, tapdım, tapa bilməsəm, Tanrı verdi, Tanrı aldı, neynəyək? Gəlib səninlə birlikdə qara şivən qoparırıq".

- Qazan bəyin sözləri onun haqqındakı təsəvvürünüzə nə əlavə etdi?

Xan qızı dedi: "Qazan, oğlanın ovda olduğuna onda inanaram ki, yorğun atınla, kütləşmiş nizənlə ardına düşəsən".

Qazan geri döndü. Gəldiyi yol ilə də geri çapdı. Gecəni gündüzə qatdı. Oğlanın anası duymadan əlaltı buyurdu: "Doxsan dəstə gənc oğuz ardımca gəlsin! Bəylər, bilin ki, Uruz dustaqdır", – dedi.

... O yerə gəldi ki, düşmən basılmışdı. Gördü oğlanın ala gözlü qırx igidi qırılmışdır. Oğlanın bədöy atı oxlanmış yatır. Meyitlər arasında oğlunu tapmadı. Qızıl dəstəkli qamçısını tapdı. Yəqin bildi ki, oğlu kafirlərə dustaqdır, ağladı:

Uca dağımın zirvəsi oğul!
Coşqun sularımın daşqını oğul!
Qocalığımda itirdiyim təkcə oğul! – dedi, hönkürdü.

Kafirin izinə düşdü. Kafir Dərbənddə sakin olmuşdu. Oğlana qara yapıncı geydirmişdilər. Eşikdə, qapı ağzında üzü üstə qoymuşdular. Girən-çıxan ayaqlayırdı. Fikirləşirdilər: "Köhnə düşmən əlimizə düşmüşkən əzabla öldürək!"

- Düşmənlərin əsir düşmüş Uruza münasibəti sizdə hansı hisslər yaratdı?

Qazan bəy yetişdi. Qonur atını oynatdı. Kafirlər Qazanın gəldiyini görüb təşvişə düşdülər. Kimi at minir, kimisi zirehli paltar geyir. Oğlan başını qaldırıb soruşdu: "A kafir, nolub?". Kafir dedi: "Atan gəlib, tutmaq istəyirik". Oğlan dedi: "Aman, ay kafir, aman! Tanrının birliyinə şübhə yoxdur!"

Kafirlər oğlana aman verdilər. Əlini-gözünü açdılar. Oğlan atasına qarşı gəldi, söylədi, görək, nə söylədi:

Bəri gəl, a bəy ata!
Haradan bildin dustaqlığımı?
Ağ əllərimin arxamda bağlandığını?
Ağ boynuma qıl sicimin taxıldığını?
Qaragözlü igidlərimin qırıldığını?
Sən gəlincə, ata, kafirlər danışdılar:
"Qonur atlı Qazanı tutun,
Ağ əllərini, qollarını bağlayın.

Səs-səmirsiz gözəl başını kəsin,
Alca qanını yer üzünə tökün.
Oğlu ilə özünü bir yerdə öldürün,
Ocağını söndürün!” – deyə söylədilər.
Xan ata, qorxuram səyirdərkən
Qonur atını sürüşdürəsən,
Vuruşarkən özünü tutdurasan,
Xəbərsizcə gözəl başını kəsdirəsən.
Ağbirçəkli anamı “oğul” deyərkən
“Başım baxtı Qazan” deyə ağladasan.
Qayıdaraq, ata, geriyə dön!
Sür atını, qızıl tağlı evinə get!
Qarıcıq olmuş anamın ümidi ol!
Qaragözlü bacımı ağlatma!
Qarıcıq olmuş anamı sızlatma!
Ata ölsə oğul üçün, eyibdir.
Yaradana and verirəm səni, ata!
Qayıdaraq geriyə dön, evinə get!
Qoca anam qarşılayıb soruşsa, ata, doğru xəbər ver.
Sənin oğlunu gördüm, de!
... Ağır buxov topuğumu döyənək edib, de!
Yanmış arpa çörəyi, acı soğandır yeməyi, de!
Bir ay yola baxsın, gəlməsəm, iki ay baxsın!
İki ayda gəlməsəm, üç ay baxsın!
Üç ayda gəlməsəm, o vaxt bilsin ölmüşəm.
... Mənim anam göy geyinib qara sarınsın!
Qalın Oğuz elində yasımı tutsun!
Mənim başım sənin yolunda qurban olsun!
Geri dön, ata!

- Uruzun sözləri onun haqqındakı təsəvvürünüzə nə əlavə etdi?

5

Oğlan bir daha söyləmiş, görək, xanım, nə söyləmiş:

Qarşı yatan uca dağlar
Salamat olsa, el yaylar.
Aşqın-daşqın sellər, sular
Salamat olsa, axar-çağlar.
... Sən sağ ol, anam sağ olsun!
Allah sizə məndən yaxşı oğul verər.
Anam mənə halal etsin ağ südünü,
Vuruşma sən, qayıt, ata, qayıt geri!

- Bu sözləri deməkdə Uruzun məqsədi nədir?

Qazan burada söyləmiş, görək, xanım, nə söyləmiş, demişdir:

Oğul, oğul, ay oğul!
Qarşımdakı uca dağımın zirvəsi oğul!
Güclü belimin qüvvəti, canım oğul!

Qaranlıq gözlərimin işığı oğul!
Dan sökülәndә yerimdәn sәninçün durmuşam.
Qonur atı çaparaq sәninçün yormuşam.
... Oğul, burdan qayıdaraq evә getsәm,
Ağca üzlü anan gәlib "oğul" desә,
Deyimmi ki, ağ әllәri arxasında bağlıdır?
Deyimmi ki, qıl örkәn dә ağ boynuna taxılıdır?
Deyimmi ki, necә sәni yüyürdürlәr ayaqla?
Onda mәnim bәs namusum hara getsin, de, bala?...

- Qazan bәy "Onda mәnim bәs namusum hara getsin, de, bala?" sözlәri ilә Uruzu nәyә inandırmaq istәyir?

Qazan yenә dedi:

Qarşındakı uca dağlar
Qurusa, otu bitmәz, el yaylamaz!
Axıntılı gözәl sular
Qurusa, aşıb-daşmaz.
Atan qoca, anan qarı,
Sәndәn yaxşı Allah bizә oğul vermәz.
Versә belә, sәnin yerini tuta bilmәz.
Qara bulud olub göy asimanda,
Kafirin üstündә qoy gurlayım mәn.
Ağ ildırım olum qoy çaxım mәn.
Kafiri qamış kimi od olub yandırım,
Bir nәfәrin yerinә doqquzunu saydırım.
Vuruş, döyüş sәsiylә qoy alәmi doldurum.
Yaradan Allah kömәyim olsun!

Qonur atından yerә endi, axıb gedәn tәmiz suda yuyundu. Ağ alnını yerә qoydu. Namaz qıldı, ağladı. Qadir Tanrıdan hacәt istәdi. Mәhәmmәdә salavat çәkdi. Dәvә kimi kükrәdi. Aslan kimi nәrә çәkib hayqırdı. Kafirlәrә yalnız hücum etdi, at sürüb qılınc vurdu. Dönә-dönә yaxşıca vuruşdu. Kafiri mәğlub etmәk istәdi, bacarmadı. Bir saat әrzindә atla üç dәfә hücum etdi. Birdәn göz qapağına qılınc toxundu. Qara qanı şoruldayıb gözünә töküldü. Özünü xәlvәt yerlәrә saldı. Görәk indi Yaradan neynәyir.

- Qazan bәyin düşmәnlә tәkbaşına döyüşә girmәsinә sәbәb nә idi?

**6**

Boyu uzun Burla xatun oğlunu andıqca qәrarı qalmadı. Qırx incә belli qız-oğlanla Qara ayğırını mindi. Böyük qılıncına qurşandı. "Başımın tacı Qazan gәlmәdi", – deyә izinә düşüb getdi. Gәlib-gәlib Qazana yaxınlaşdı. Qazan öz arvadını tanıya bilmәdi. Dedi:

Qara ayğırın cilovunu mәnә ver, igid!
Ayaq saxla, üzümә bax bir, igid!
Altındakı qara ayğırı mәnә ver, igid!

Əlindəki sür nizəni,
Yanındakı göy polad silahı mənə ver, igid!
Bu günümdə kömək ol mənə!
Qala-ölkə verim sənə!

Burla xatun dedi:

... Qalxıb yerindən duran Qazan!
Qaragöz atın belinə yatan Qazan!
Uca dağımı yıxan Qazan!
İri kölgəli ağacımı kəsən Qazan!
... Xan qızını – halalını tanımayır gözün sənin!
Nə olmuşdur sənə belə, huşunumu itirmisən?
Çal qılıncını, çatdım, Qazan! – dedi.

- "Qazan bəylə Burla xatunun döyüş meydanında qarşılaşması boyun ən təsirli səhnəsidir" fikrinə necə münasibət bəsləyirsiniz?

Bu zaman Oğuz igidləri bir-bir yetişdi. Görək, xanım, kimlər yetişdi:

... Acığı tutanda qara daşı kül eləyən, qara bığını boynunun ardında düyünləyən, Qazanın qardaşı Qaragünə çapar yetdi: "Çal qılıncını, qardaş Qazan, çatdım!" – dedi.

Onun ardınca görək, xanım, kimlər yetişdi:

Dəmir qapı Dərbənddəki dəmir qapını alan, altmış tutamlıq böyük nizəsinin ucunda igidləri böyürdən, Qazan kimi pəhləvanı bir savaşda üç dəfə atından yıxan Qıyan Səlcik oğlu Dəli Dondaz çapar yetdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Onun ardınca, görək, xanım, kimlər yetdi:

Parasarın Bayburd hasarından sıçrayıb aşan, atı böyük gəlin otağının qarşısına gələn, Qalın Oğuzun sevimlisi, Qazan bəyin dostu, silahdaşı Boz ayğırlı Beyrək çaparaq yetdi: "Çal qılıncını, xanım Qazan, çatdım!" – dedi.

Onun ardınca görək kimlər yetişdi:

... Qalın Oğuz bəylərini bir-bir yıxan Qazılıq qoca oğlu Yeynək bəy çaparaq yetdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Onun ardınca görək kimlər yetişdi:

İyirmi dörd Oğuz elini tərif edən Dəli Tondaz yetdi.

Onun ardınca min nəfərin başçısı Düyər yetdi. Onun ardınca minbaşı Bügdüz Əmən yetdi. Onun ardınca doqquz tayfanın başçısı Aruz yetdi. Saydıqca Oğuz bəyləri tükənən deyil.

- Qazan bəyin köməyinə yetişən oğuz igidlərinin adlarının bir-bir çəkilməsinə səbəb, sizcə, nədir?

**7**

Qazanın bütün bəyləri yetdi, ətrafına yığıldılar. Təmiz suda dəstəmaz aldılar. İki rükət namaz qıldılar. Adı gözəl Məhəmmədə salavat gətirdilər. Cəsarətlə kafirin üstünə at saldılar, qılınc çaldılar.

O gün ciyərli, cəsur igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı. Bir qiyamət savaş oldu, meydan dolu baş oldu. Bir qiyamət günü oldu, bəy nökərdən, nökər bəydən ayrıldı.

Oğuz bəyləri ilə Dəli Dondaz sağdan birinci hücum etdi. Cəsur igidlərlə Qarabudaq soldan hücum etdi. Qazan özü düşmən qoşununun mərkəzinə hücum etdi. Təkur ilə Şöklü Məlikə çatdı. Böyürdüb atdan saldı. Al qanını yer üzünə tökdü.

Sağ tərəfdə Dondaz Qara Tükənə qarşı gəldi. Qılınclayıb yerə saldı. Sol tərəfdə Buğacıq Məlikə qarşı Qarabudaq gəldi. Nizəsi ilə sancıb yerə saldı, bir anda başın kəsdi.

Boyu uzun Burla xatun kafirin qara bayrağını qılıncladı, yerə saldı. Təkur basıldı, qalan düşmənlər qaçdı. Dərələrdə kafirlər qırıldılar. On beş min kafirdən kimi qırıldı, kimisi tutuldu.

- Boydakı təsvirlər döyüşün başlanması və gedişi barədə aydın təsəvvür yaradırmı?

Qazan oğlunun yanına gəldi. Atından düşüb əllərini açdı. Ata ilə oğul qucaqlaşıb görüşdülər. Oğuzlardan üç yüz igid şəhid oldu. Qazan öz oğlunu xilas edib geri döndü. Vuruş uğurlu oldu. Oğuz bəyləri sevindilər...

Qazan Ağca Qala Sürməliyə gəlib qırx otaq tikdirdi. Yeddi gün, yeddi gecə yemək-içmək oldu. Qırx evli qul ilə qırx cariyəni oğlunun başına çevirib azad elədi. Qəhrəman igidlərə qala, ölkə verdi, cübbə-çuxa verdi. Dədə Qorqud gəldi, qopuz çaldı. Bu oğuznaməni düzdü-qoşdu. Belə dedi:

- Qazan bəyin təşkil etdiyi qələbə şənliyində sizin üçün maraqlı olan nədir?

İndi hanı o dediyim bəy ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya!

Xeyir-dua verək, xanım:

Yerli uca dağın yıxılmasın!
Kölgəli iri ağacın kəsilməsin!
... Vuruşanda iti polad qılıncın gödəlməsin!
Allah verən ümidin üzülməsin!
Axır gündə arı imandan ayırmasın!
Ağ alnımızı yerə qoyub beş kəlmə dua etdik, qəbul olunsun!
Ulu Tanrı yığışdırsın, saxlasın günahımızı,
Adı gözəl Məhəmmədə bağışlasın, xanım, hey!!!

- Dədə Qorqudun alqışlarında sizin üçün maraqlı və yaddaqalan nə oldu?

**I dərs**

**• Məzmun üzrə iş**

1. Əsərin ilk üç parçasının hər birinin oxusundan (bunu fərqli formalarda həyata keçirə bilərsiniz) sonra onlara aid suallara cavab verin.
2. Oxuduğunuz parçalardan seçdiyiniz hissəyə ad verin, məzmununu tərtib etdiyiniz plan əsasında geniş nağıl etməyə hazırlaşın.

**• Evdə iş**

1. Dastanın ardını oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

**II dərs**

**• Məzmun üzrə iş**

1. Evdə oxuduğunuz parçaları bir daha nəzərdən keçirin, sonra mətnlə bağlı suallara parta yoldaşınızla birlikdə cavab hazırlayın.
2. Kiçik qruplarda birləşib cavabları dəqiqləşdirin, sonra təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**Bilik və bacarıqlarınızı tətbiq edin.**

1. Əsərdə dastan janrına məxsus hansı xüsusiyyətləri göstərə bilərsiniz?
2. Kiçik qruplara ayrılın, aşağıdakı tapşırığı yerinə yetirin: Hadisələrin başlanğıcını, münaqişənin (ziddiyyətin) yaranmasını, inkişafını, ən gərgin, yüksək mərhələyə çatmasını, həll olunmasını (açılmasını) və sonluğu bir-iki cümlə ilə yazın.



**• Evdə iş**

• Obrazların nitqi – danışığı üçün mühüm hesab etdiyiniz söz və ifadələri müəyyənləşdirib yazın. Nə üçün məhz onları seçdiyinizin səbəbini aydınlaşdırın.

**III dərs**

**• Təhlil üzrə iş**

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Aşağı siniflərdən tanış olduğunuz, yaşı min ildən xeyli çox olan "Dədə Qorqud" dastanı dünya ədəbiyyatının möhtəşəm əsərlərindəndir. Bu dastanda babalarımızın – oğuz türklərinin yurd, vətən sevgisi, dövlətçilik təfəkkürü, anaya, övlada, bütövlükdə ailəyə münasibəti geniş əksini tapıb.

Oğuzlar yurdlarına vaxtaşırı basqın edən, var-dövlətlərini yağmalayan, günahsız, silahsız insanları qətlə yetirən amansız düşmənlə – “qara donlu kafirlər”lə döyüşməyə məcbur olurlar. Qalib gəldikdə qaçanı qovmur, aman diləyəni öldürmür, mərdlik, insanlıq nümunəsi göstərirlər.

Dastanda Dirsə xan, Qazan xan, Beyrək kimi oğuz igidləri ilə yanaşı, Burla xatun, Banuçiçək kimi qəhrəman qadın surətləri də yaradılmışdır.

Boyları düzüb-qoşan, dastanı ilk dəfə söyləyən ozanlar ozanı Dədə Qorquddur. Dastan Dədə Qorquddan sonra da başqa ozanlar tərəfindən qədim musiqi aləti olan qopuzun müşayiəti ilə oxunmuşdur. O, bir neçə əsr şifahi olaraq söyləndikdən sonra yazıya alınmış, “Dədə Qorqud” kitabları yaranmışdır. Həmin kitablar “Kitabi-Dədə Qorqud” adlanır.

Vətənə layiq, düşmən qabağında dayana bilən gənclərin tərbiyə edilməsi oğuzları ciddi düşündürən qayğılardan idi. Bu, “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”da ön plana çəkilmişdir. Boyun üzərində müşahidələrinizi davam etdirin. Obrazların yaddaqalan, cəlbedici olmasının səbəbini, dastanın bədii təsir gücünü artıran vasitələri müəyyənləşdirməyə çalışın.

**• Araşdırın • Fikirləşin • Cavab verin**

2. Qazan bəyi Oğuz elinin sərkərdəsi kimi səciyyələndirən mühüm xüsusiyyətlər hansılardır? Boyun ilk epizoduna xüsusi diqqət yetirməklə suala cavab hazırlayın.
3. Qazan bəyi ailə başçısı və ata kimi necə səciyyələndirərsiniz? Onun nitqindən – danışığından nümunələr göstərməklə fikrinizi əsaslandırın.
4. Burla xatun obrazını davranış və əməllərinə görə səciyyələndirin. Fikrinizi nümunələrlə əsaslandırın.
5. Uruz obrazının xarakterindəki başlıca cəhətlər hansılardır? Onun nitqinə, davranış və əməllərinə aid nümunələr göstərməklə fikrinizi əsaslandırın.
6. Dastanın maraqla oxunmasına səbəb, sizcə, nədir? Əsərin bədii gözəlliyini artıran vasitələri, məcazların rolunu nümunələr əsasında aydınlaşdırmağı unutmayın.
7. Boydakı başlıca fikir – ideya, sizcə, nədir?

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

Müzakirə edin: “Dədə Qorqud” dastanı incəsənətin digər növlərində.

**• Evdə iş**

Aşağıdakı mətni oxuyun. Dərslikdəki “Qısa ədəbiyyatşünaslıq terminləri lüğəti”ndən, eləcə də digər mənbələrdən (kitabxana, internet və s.) istifadə etməklə ədəbi növ və janrlarla bağlı məlumatınızı zənginləşdirin.

**UNUTMAYIN!**

Aşağı siniflərdə “janr”, “nağıl janrı”, “hekayə janrı” kimi söz və ifadələrə rast gəlmisiniz. Dərslikdə “növ”, “ədəbi növ” söz və ifadəsi ilə tez-tez qarşılaşacaqsınız. Bilirsiniz ki, həyat hadisələri bədii əsərlərdə fərqli üsullarla əks olunur. Elə buna görə də bədii əsərlər üç qrupa – növə bölünür**: epik növ, lirik növ, dramatik növ**.

*Epik* növə daxil olan janrlarda həyat hadisələri daha çox *təhkiyə, nağılolunma* yolu ilə əks etdirilir. Buna görə də epik növün imkanları daha genişdir. Yəni bu növdə olan əsərlərdə bir-biri ilə əlaqədar olan çoxlu əhvalat və hadisə, insan obrazları, onların həyatı, fəaliyyəti, cəmiyyəti düşündürən problemlər və s. əhatəli təsvir olunur.

Epik əsərlərdə təhkiyə, nağılolunma ilə yanaşı, *təsvir* də mühüm yer tutur. İnsanın mənəvi aləminin, xarici görkəminin, məişətinin, eləcə də təbiətin və s. təsvirinə epik növdə geniş yer verilir. Bu növün janrları çoxdur; şifahi ədəbiyyatda əfsanə, nağıl və s. epik növün janrları sayılır. Yazılı ədəbiyyatda isə hekayə, novella, povest və s. həmin növün janrları hesab olunur. Epik növün elə janrları var ki, həm nəsrlə, həm də nəzmlə (məsələn, hekayə) yazılır.

*Lirik* növə məxsus əsərlərdə isə əhvalat və hadisə yox, onların şairdə yaratdığı təəssürat ifadə olunur. Müşahidə olunanın, təxəyyüldə canlandırılanın doğurduğu hiss-həyəcan və düşüncə lirik şeirlərin ideya-məzmununu təşkil edir.

Bu əsərlərdən danışılanda *lirik qəhrəman* anlayışı tez-tez işlədilir. Lirik qəhrəmanla şairin şəxsiyyəti arasında güclü əlaqə olsa da, onları həmişə eyniləşdirmək olmaz. Deməli, lirik qəhrəmanın hiss və düşüncələrinin şairin hiss və düşüncələri ilə həmişə tam üst-üstə düşdüyünü demək yanlışdır. Çünki şair heç də həmişə yalnız öz fikir və düşüncələrini ifadə etməklə məhdudlaşmır.

Belə əsərlərdə müəyyən ölçünün (vəznin) tələblərinin gözlənilməsi güclü ahəng yaradır. Bu isə əsərin təsir gücünün daha da artmasına və oxucuda yüksək hiss-həyəcanın baş qaldırmasına səbəb olur.

Şifahi ədəbiyyatda lirik növün janrlarına nümunə olaraq bayatı, gəraylı, qoşma və s. göstərmək olar.

Yazılı ədəbiyyatda isə qəzəl, qitə, rübai, müxəmməs və s. qədim dövrlərdən başlayaraq geniş yayılmış janrlardır.

Elə bədii nümunələr də var ki, onlarda həyatı əksetdirmə üsulları qovuşur. Məsələn, dastan və poemalarda təsvir və təhkiyə ilə yanaşı, hadisələrin doğurduğu hiss-həyəcan da əksini tapır. Hadisələrin təsvirinə, təhkiyəyə daha çox yer verilən əsər *epik-lirik,* qəhrəmanların hiss-həyəcanının ön plana çəkildiyi nümunələr isə *lirik-epik* hesab edilir.

*Dramatik* növdə həyat hadisələri, əsasən, obrazların danışığı, davranışı və hərəkətləri ilə ifadə edilir. Bu növdə olan əsərlərdə hadisələrin, insanların, təbiətin və s. təsvirinə imkan olmur. Bütün bunlar barədə *remarka* adlanan yığcam qeydlərdə – yazılarda məlumat verilir.

Dramatik növün yazılı ədəbiyyatda *dram, komediya, faciə* kimi janrları var. Xalq oyunları, tamaşaları, şəbihlər isə dramatik növün şifahi xalq ədəbiyyatındakı janrlarıdır.

# İNTİBAH DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

XI əsrin ortalarından başlayaraq Azərbaycanda farsca yazmaq ənənəsi başlayır. Bu yüzillikdə ərəbcə yazan şair və alimlərimiz olsa da, farsca yazanların sayı get-gedə çoxalır. Hökmdarların fars dilinə üstünlük verməsi, bu dildə yazanlara qayğı göstərməsi həmin ənənənin uzun illər davam etməsi ilə nəticələndi. XI–XII əsrlərdə yazılı ədəbiyyat nümunələri daha çox saraylarda yaşayan sənətkarlar tərəfindən yaradılırdı. Onların əsərləri, əsasən, hökmdarların mədhinə – tərifinə həsr olunsa da, fərqli məzmunda əsərlər də yazılırdı.

Həmin dövrdə qüdrətli sənətkarlarımızın yaradıcılığında xalqımızın milli-mənəvi varlığı, dünyabaxışı, mübarizəsi, idealları yüksək sənətkarlıqla əks etdirilirdi. Azərbaycan ədəbiyyatı xalqımızın taleyi, inkişafı və mübarizəsi ilə əlaqədar ən mühüm problemləri, ciddi ictimai-mənəvi mətləbləri ifadə edirdi. Təbiətin, saf məhəbbətin tərənnümü, əmək adamlarına, sadə peşə sahiblərinə rəğbət, zəmanə hökmdarlarından narazılıq və s. əks olunduğu əsərlər bu gün də maraqla oxunur.

Azərbaycan poeziyasında ədalət və humanizm ideallarının, insan mənəviyyatının, böyük sevginin tərənnümü, mühüm mətləbləri ifadə etməyə imkan verən aşiqanəlik və romantika aparıcı mövqe qazanmışdı. Milli və ümumbəşəri ideyaların qüvvətlənməsi, epik mənzum ədəbiyyatın yüksək inkişaf səviyyəsinə çatması da həmin dövrün mühüm xüsusiyyətlərindəndir.

Bütün bunlar XI-XII əsrlər bədii söz sənətimizi İntibah dövrü Azərbaycan ədəbiyyatı kimi səciyyələndirməyə əsas verir. Bu dövrdə Azərbaycanda ümumşərq intibah mədəniyyətini zənginləşdirən böyük ədəbiyyat yaranmışdır.

XI əsrdə Qətran Təbrizi, XII əsrdə Nizami Gəncəvi, Əfzələddin Xaqani, Məhsəti Gəncəvi və digər qüdrətli sənətkarlar yaşayıb-yaratmışlar. İntibah poeziyasının zirvəsi olan Nizami Gəncəvi yaradıcılığı bəşəri dəyərlərə əvəzsiz töhfə verən mənbə kimi bütün dünyada qiymətləndirilir.



**XAQANİ ŞİRVANİ**
(1126–1199)

"İraqa, İrana eyləsəm səfər,
Başıma yağıştək yağar simü zər...
Şahlar məclisimdə diz çökər mənim,
Başıma tabaqla zər tökər mənim...
Lakin üzüm gülməz, gözlərim ağlar...
Qəlbimdə dağ qədər ağır intizar.
Vətən həsrətilə töküb göz yaşı,
"Ah, vətən!" deyərəm mən hər sözbaşı".

**• Yada salın**

– Nəsihət məzmunlu hansı əsərlərlə tanışsınız?
– Bu əsərlərdə daha faydalı hesab etdiyiniz fikirləri xatırlada bilərsinizmi?

**• Düşünün**

– Uzaq keçmişin bədii nümunələrindəki hansı nəsihətlər bugünkü oxucu üçün faydalı ola bilər?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## GƏNCLƏRƏ NƏSİHƏT

*(ixtisarla)*

Fitnə törətmə, ey fitnəkar cavan!
Fitnədir elləri dərdlərə salan.

Cana məlhəmsə də vəfa, etibar,
Fitnəkarlıq edər onu tarımar.

Hiylə – oğurluqdur, xoşsa əvvəli,
Oğrunun axırda kəsilər əli.

Nifaq xəstəsisən nə qədər ki sən,
Əlac saymaqdan da ziyan görərsən.

Vəfa küçəsində ev tut, yəqin bil:
Vəfa mənzilidir ən yaxşı mənzil.

Bu gün yoxdursa da kimsədə vəfa,
Vəsiyyət edirəm, olma bivəfa.

Çalış, az dostluq et, etsən də əgər,
Dostluqda möhkəm ol, sözdə mötəbər.

Dostu qovanları alma yanına,
Yoxsa gözün ağlar bu əhvalına.

Dostun haqlı vursa birini zinhar,
Demək ki, layiqdir, çıxma havadar.

Dost müttəhim edib kimi etsə rədd,
Qardaşın olsa da, önünə çək sədd.

Qırsa bir budağı dost hirslənərək,
O, cənnət ağacı olsa da, əl çək.

Dostun əkdiyi gül olsa da tikən,
Çıxarıb yerindən onu atma sən.

Həqq yolunda çalış o qədər ki, həqq
Razı qaldığını biləsən mütləq.

Bir kiçik adama nəvaziş etsən,
Sənin böyüklüyün getməz əlindən.

Razılıq etsə də səndən bir nadan,
Onun tərifinə aldanmayasan.

Sən onu öydükcə, o lovğalanar,
Özünü yoldaş yox əmoğlun sanar.

Daha boyun qoymaz işə, xidmətə,
Lovğalar yabançı olur hörmətə.

Boyun böyüklüyü deyildir gərək,
Hümmət böyük olsun, bir də ki ürək.

Dünyada ağıltək bir ustad varmı?
O, bir qul yanında şagird olarmı?

Sənətdə tək olan bu Xaqanidən,
Gəl incə mənalı fikir eşit sən.

Qorun pis adamdan, anla ki, onlar
Əqrəbtək kor olar, ilantək lal, kar.

*(Tərcümə edən: Ə.Ziyatay)*

**I dərs**

**• Məzmun üzrə iş**

1. Müəllimin oxusunu və izahını diqqətlə izləyin. Tanış olmayan sözlərin mətnə müvafiq mənasının aydınlaşdırılmasında fəal iştirak edin.
2. Şeiri bütövlükdə bir daha nəzərdən keçirin, fikirlərinizi fərdi olaraq ikihissəli gündəlikdə yazın.
3. Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün, fikirlərinizi ümumiləşdirin.
4. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**• Evdə iş**

• Şeirdəki fikirlərlə səsləşən atalar sözü və məsəllər toplayın, mənalarını aydınlaşdırmağa çalışın.

**II dərs**

### • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Dövrünün qüdrətli sənətkarlarından olan Xaqani XII əsrdə yaşayıb-yaratmış, zəngin, mənalı yaradıcılığı ilə Şərq ədəbiyyatına güclü təsir göstərmişdir. Ənənəyə uyğun olaraq fars dilində yazan şair bir müddət sarayda yaşamış, hökmdarları tərif edən əsərlər yaratmışdır. Sonralar saraydan üz çevirmiş, zəmanənin eyiblərini tənqid edən kəskin ruhlu əsərlər yazmışdır. Onun yaradıcılığında gəncliyə rəğbət hissi aydınca duyulur. Bu, "Gənclərə nəsihət" əsərində də əksini tapıb. Əsərin üzərində müşahidələrinizi davam etdirin, ondakı fikirlərin hər birinin faydası, əhəmiyyəti barədə düşünün.

Şeirin maraqla oxunmasını təmin edən bədii vasitələr çoxdur. *Bunlardan biri **bədii təzaddır.** "Təzad" sözü **ziddinə, əksinə olmaq** anlamındadır. Məzmunca bir-birinə zidd olan anlayışların, hadisələrin və s. bədii əsərdə qarşılaşdırma şəklində təqdim edilməsi təzad adlanır. Bədii təzad da təkrir, bədii sual və başqa ifadə vasitələri kimi, əsərin təsir gücünün artmasında əhəmiyyətli rol oynayır.*

*Bu gün yoxdursa da kimsədə vəfa,*
*Vəsiyyət edirəm, olma bivəfa.*

*Bu nümunədəki təzad fikrin daha təsirli ifadəsinə səbəb olmuşdur. Bir tərəfdən heç kimdə vəfa olmadığı bildirilirsə, digər tərəfdən vəfalı olmağın vacibliyi vurğulanır. Təzadın, eləcə də digər vasitələrin şeirə gətirdiyi bədii gözəlliyin müəyyənləşdirilməsi onun ideya-məzmununu daha ətraflı aydınlaşdırmağınıza imkan yaradacaqdır.*

### • Araşdırın • Fikirləşin • Cavab verin

2. Bu əsəri yazmaqda şairin məqsədi, sizcə, nə olmuşdur?
3. Şeirdə əksini tapmış nəsihətlərdən hansılarını daha faydalı hesab edirsiniz? Səbəbini izah edin.
4. Hansı əməllər gənclər üçün daha təhlükəli hesab olunur? Fikrinizi əsaslandırın.
5. "Şeirdə dostluq haqqında deyilənlərin bir qismi mübahisəlidir" fikrinə münasibət bildirin. Mövqeyinizi nümunələrlə əsaslandırın.
6. Əsərin bədii təsir gücünü artıran vasitələrin rolunu nümunələr əsasında aydınlaşdırın.
7. Şeirdəki başlıca fikir – ideya nədir?

### • Evdə iş

- Kitabxanadan və ya internetdəki mənbələrdən nəsihət məzmunlu əsərlərə aid bir neçə nümunə seçin. Onlarda məzmunca yaxın olan fikirləri müəyyənləşdirib qeyd edin, şifahi təqdimata hazırlaşın.

**III dərs**

## • Tətbiq • Müzakirə • Yaradıcı iş

1. Aşağıdakı nümunələrlə tanış olun, sonra parta yoldaşınızla birlikdə hər birinin mənasını aydınlaşdırmağa çalışın.

a) Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa.
Başına əfsanə düşdüyü zaman,
Allah qorxusunu unutma bir an.
Öz adına layiq işlər gör ki sən,
Axırda utanma xəcalətindən.

(N.Gəncəvi)

b) İttifaq eylə dost ilə hər an,
İttifaq ilə əmr olur asan.
Dəhrdə etmə iftiraqə həvəs,
İttifaq ilə kəslər olmuş kəs.

(S.Ə.Şirvani)

c) İnsanın şərəfi, bəzəyi, məncə,
Deyildir nə ipək, nə tirmə, oğlum!
Yaxşıdan yaxşı ol ellər içində,
Dostuna bir ziyan yetirmə, oğlum!

(S.Rüstəm)

ç) Hər işin güntək aydın,
Ürəyin təmiz olsun.
Acı-şirin haqqı de,
Acı olsun, düz olsun.

(F.Qoca)

2. Qənaətləriniz yaxın olan yoldaşlarınızla birləşib kiçik qruplar yaradın və fikirlərinizi dəqiqləşdirin. Nümunələrdə ifadə olunmuş fikirlərlə “Gənclərə nəsihət” əsərindəki fikirlərin oxşar və fərqli cəhətlərini müəyyənləşdirib təqdimatlar əsasında müzakirə edin.
3. Mövzulardan birini seçib işləyin.
   a) “Dostumda hansı cəhətlərin olmasını vacib sayıram?” mövzusunda inşa yazın.
   b) “Yaxşı insan olmaq nə deməkdir?” mövzusunda esse yazın.
4. İnşa və esselərdən nümunələri təqdimatlar əsasında müzakirə edin.

## • Evdə iş

• “Şər və pislikdən uzaq olmaq fikrini necə başa düşürəm?” mövzusunda esse yazın.

**UNUTMAYIN!**

Əsərin məzmununun öyrənilməsi və təhlili ilə bağlı bacarıqlarınızı bu sinifdə də inkişaf etdirəcəksiniz. Məzmunun öyrənilməsi ilə əlaqədar tapşırıqlar əsərə daha tez-tez müraciət etməyə, obrazların nitqi üçün səciyyəvi olan nümunələrin, başlıca fikrin dərk edilməsində əhəmiyyətli olan epizodların üzərində işləməyə istiqamətləndirəcəkdir.

Təhlillə bağlı tapşırıqlar sizdə yeni bacarıqların yaranmasına səbəb olacaqdır. Ədəbi qəhrəmanlara, eləcə də əsərin bədii xüsusiyyətlərinə qiymət vermək, mövzu və ideyasını müəyyənləşdirmək və s. diqqət mərkəzində saxlanılacaqdır. Ədəbi qəhrəmanların təhlilinə xüsusi önəm veriləcəkdir. Çünki ədəbi qəhrəmanların – obrazların başa düşülməsi və onlara əsaslandırılmış münasibət bildirilməsi əsərin ideyasının müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Ədəbi qəhrəmanları səciyyələndirmək üçün aşağıdakılara diqqət yetirmək vacibdir:

– Əsərin məzmunu mükəmməl öyrənilməlidir.
– Ədəbi qəhrəmanların xarakterinin açılmasında mühüm rolu olan epizodlar müəyyənləşdirilməlidir.
– Mühüm epizodlara və əsərin bütövlükdə məzmununa əsasən ədəbi qəhrəmanın:
  a) xarakterindəki başlıca cəhətlər müəyyənləşdirilməlidir;
  b) davranış və əməllərindəki özəlliklər aydınlaşdırılmalıdır;
  c) digər obrazlarla oxşar və fərqli xüsusiyyətləri, yazıçının ona münasibəti aşkara çıxarılmalıdır;
  ç) nitqi, danışıq tərzi, bağlı olduğu məişət təsvirləri aydınlaşdırılmalıdır.



**NİZAMİ GƏNCƏVİ**
(1141–1209)

"Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərir həyat".

**• Yada salın**

– Nizaminin hansı əsərləri ilə tanışsınız?
– Onun yaratdığı insan obrazları hansı cəhətlərinə görə diqqəti çəkir?

**• Düşünün**

– Qədim və orta dövrlərin ədəbiyyatında hökmdarlara, hakimlərə nəsihət və etirazların geniş ifadə olunmasına səbəb nə idi?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii ifadə vasitələrini müəyyənləşdirin.

## SULTAN SƏNCƏR VƏ QARI

*("Sirlər xəzinəsi" poemasından ixtisarla)*

**1**

Zülm edib bir qarıya çox uddurmuşdular qan,
O da Sultan Səncərin tutaraq yaxasından
Dedi ki, "Səndə insaf az görmüşəm, qulaq as!
Səndən gördüyüm zülüm əsla hesaba sığmaz.
Bir kefli darğa gəlib evimdə məni söydü,
Salıb təpik altına doyunca döydü, döydü.
Mən günahsız qarının saçlarına atdı əl,
Üzü üstə sürüdü evdən çölə əlbəəl.
Camaat arasında söyüb məni qudurdu,
Evimin qapısına zülmün möhrünü vurdu".
Dedi: – "Ey qozbel qarı, söylə, filan gecədə
Filankəsi kim vurdu yaşadığın küçədə?"
Evimi çox axtardı: – "Qatil hardadır?" – deyə,

"Ey padşah, bu həqarət sığarmı yerə, göyə?
Darğanın sərxoşluğu olmuş bu işə maya,
Bəs niyə mən yazığı salır qısma-boğmaya?
Vilayəti soyarkən padşahın adamları,
Cinayətkar olarmı bunda məgər bir qarı?
Bu zülmə əl atarkən darğa xalq görə-görə
Mənim ismətim, sənin ədlin salınmış yerə.
Bu yaralı sinəmdən bir də axıtdılar qan,
Özümü itirmişəm, qalmamışdır məndə can.
Ey şah! Dada çatmasan, olurkən qəlbim kabab,
Qiyamətin günündə çəkilər səndən hesab.
Ah, səndə nə ədalət, nə mərhəmət görürəm,
Mən səndə sonsuz zülüm və əziyyət görürəm.
Rəiyyətə hər zaman kömək etməli padşah,
Səndən xarlıqdır gələn bizə, ol bundan agah.
Bir hünər deyil almaq yetimlərin malını,
Buna mərdlik deməzlər, düşün işin dalını.
Çapdırıb qarıları, qırdırma gəl acından,
Onların gəl utan bir qar kimi ağ saçından.
Sən bir qulkən edirsən padşahlıq iddiası;
Azğınsan, şah deyilsən, sənsən doğuran yası.
Padşah öz ölkəsini görmək istəsə abad,
Etsin rəiyyətini gərək məsud, gərək şad.

- Qarının məhz Sultan Səncərə şikayət etməsinə səbəb nə idi? Tarixi şəxsiyyət olan bu hökmdar haqqında nə bilirsiniz?
- Qarı kimdən şikayət edir? Darğa onu nədə günahlandırır?
- Qarı darğanın özbaşınalığının səbəbini nədə görür?
- Ölkədə yoxsul insanların, rəiyyətin vəziyyəti necə idi?
- Qarının hökmdarı günahkar sayması hansı sözlərində daha qabarıq ifadə olunub?

2

Ta ki hamı hökmünə etsin hörmət, əysin baş,
Könüllər onu bilsin özünə bir dost, sirdaş.
İşlərinlə aləmi alt-üst eyləmisən sən,
Söylə bir, özlüyündə nə hünər göstərmisən?
Bir zamanlar türklərin çox yüksəkdi dövləti,
Bəyənildi hər yanda ölkəsi, ədaləti.
Zalımlığın bəllidir, işin-peşən talandır,
Sən ki hindli quldursan, türk olmağın yalandır.
Dağıldı şəhərlinin evi sənin əlinlə,
Əkinçinin xırmanı dənsiz qaldı səninlə.
Ölümün dəhşətindən qorxub bir hesab apar,
Növbə sənə də çatar, əlini eylə hasar.
Ədalət çırağındır yolunda, olma naşı,
Bu günündür sabahın ən mehriban yoldaşı.
Qarıları sözünlə şad et, sevdir özünü,
Sən bu qoca qarının unutma gəl sözünü.
Çəkin, çarəsizlərin dağıtma var-yoxunu,
Bəlkə, o qəmlilərin yeməyəsən oxunu.
Sən ki hər bir bucağa ox atırsan bu qədər,
Acların qarğışından, söylə, qafilsən məgər?

Unutma ki, aləmi açmağa bir açarsan,
Dünyada zülm etməyə yaranmış məgər insan?
Sən hökmdar olmusan, yetişəsən haraya,
Daim məlhəm qoyasan vurulan hər yaraya.
… Hər zaman rəiyyətin diləyinə qulaq as,
Ürəkdən məzlumların ürəyinə qulaq as”.
Çox danışdın, qalx, yetər bu şairlik ilhamı
Qana dönmüş qəlbinə qan qoymuşdur, Nizami.

*(Tərcümə edən: S.Rüstəm, A.Sarovlu)*



Sultan Səncər və qarı (mozaika). Rəssam: M.Abdullayev.

I dərs

**• Məzmun üzrə iş**

1. Hekayənin birinci parçasını oxuyun (bunu fərqli formalarda həyata keçirə bilərsiniz), sonra suallara parta yoldaşınızla birlikdə cavab hazırlayın.
2. Gəldiyiniz nəticələri bütün siniflə müzakirə edin.
3. Mövzulardan birini seçib şifahi təqdimat hazırlayın.
   a) Əsərdən oxuduğum parça məndə hansı düşüncələr yaratdı?
   b) Qarı obrazı hansı cəhətlərinə görə diqqətimi cəlb etdi?

**• Evdə iş**

1. Şeirin ardını oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

II dərs

**• Məzmun üzrə iş**

1. Müstəqil oxuduğunuz ikinci parçanı bir daha nəzərdən keçirin.
2. Parta yoldaşınızla birlikdə həmin parçanın məzmununa aid üç sual tərtib edin və onlara cavab hazırlayın.
3. Kiçik qruplarda birləşib beytlərdə ifadə olunan fikri aydınlaşdırın.

| | |
|---|---|
| Ölümün dəhşətindən qorxub bir hesab apar,<br>Növbə sənə də çatar, əlini eylə hasar. | ______________________ |
| Ədalət çırağındır yolunda, olma naşı,<br>Bu günündür sabahın ən mehriban yoldaşı. | ______________________ |
| Çəkin, çarəsizlərin dağıtma var-yoxunu,<br>Bəlkə, o qəmlilərin yeməyəsən oxunu. | ______________________ |
| Sən ki hər bir bucağa ox atırsan bu qədər,<br>Acların qarğışından, söylə, qafilsən məgər? | ______________________ |
| Unutma ki, aləmi açmağa bir açarsan,<br>Dünyada zülm etməyə yaranmış məgər insan? | ______________________ |

4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.

5. Əsər haqqında hansı fikir səhvdir?
   a) Zəmanə hökmdarlarını ədalətli olmağa çağırış var.
   b) Dövlətin idarə olunması qaydaları xatırladılmışdır.
   c) Dövrün hökmdarlarının eyibləri göstərilmişdir.
   d) Ədalətsiz hökmdarların cəzasız qalmayacaqlarına işarə edilmişdir.
   e) Yoxsul insanlar, rəiyyət zalım hökmdarlara qarşı mübarizəyə ruhlandırılmışdır.

### • Evdə iş

• Kitabxanadan, internetdən topladığınız məlumat əsasında "Nizaminin yoxsullara, əməkçi insanlara münasibəti" mövzusunda şifahi təqdimata hazırlaşın.

## III dərs

### • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Əsərləri yüz illər boyu maraqla oxunan Nizami insanı yer üzünün ən qiymətli varlığı sayırdı. O, kiçikhəcmli əsərlərində, "Xəmsə" adlanan beş poemasında sadə insanlara böyük rəğbətini ardıcıl ifadə etmiş, onların haqqını tapdalayanlara nifrətini gizlətməmişdir. Şairin bu mövqeyi "Sultan Səncər və qarı" əsərində də özünü qabarıq göstərir. Bu əsər Nizaminin ilk poeması olan "Sirlər xəzinəsi"ndəndir. *Ümümiyyətlə, poemada həyat hadisələri, obrazların taleyi geniş təsvir edilir. Bəzi poemalarda hadisələrin şairdə doğurduğu hiss və duyğulara daha geniş yer verilir. Belə olanda həmin əsər* ***lirik-epik*** *poema adlandırılır. Bəzən isə, əksinə, əhvalat və hadisələrin təsviri üstünlük təşkil edir, müəllifin hiss və duyğularının ifadəsi arxa plana keçir. Belə əsərlər isə* ***epik-lirik*** *poema hesab edilir.*

Əsərin üzərində müşahidələrinizi davam etdirin, qarının sözlərinə xüsusi diqqət yetirin. Bu sizə obrazları başa düşməkdə, əsərin ideyasını aydınlaşdırmaqda kömək edəcək.

### • Araşdırın • Fikirləşin • Cavab verin

2. Hekayə sizdə hansı təəssürat yaratdı? Fikrinizi əsaslandırın.
3. Qarı obrazı hansı cəhətlərinə görə diqqətinizi cəlb etdi? Fikrinizi nümunələrlə əsaslandırın. Cədvəldən istifadə edin.

| Obraz | Qarı obrazında diqqətimi daha çox çəkən cəhətlər | Bunun səbəbi |
|---|---|---|
| Qarı obrazı | | |

4. Qarının hökmdara və onun məmurlarına münasibəti necədir? Bu obrazın nitqindən – danışığından nümunələr gətirməklə fikrinizi əsaslandırın.

| Qarının | |
|---|---|
| hökmdara münasibəti | məmurlara münasibəti |
| | |

5. Qarı ölkədəki vəziyyəti necə qiymətləndirir, onun fikrincə, ölkə necə idarə edilməlidir?
6. Qarının sözləri sizdə Sultan Səncər haqqında aydın təsəvvür yaratdımı? Onu hökmdar kimi səciyyələndirin.
7. Əsərin ideyası, sizcə, nədir?

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

8. Müzakirə edin: Nizaminin "Sirlər xəzinəsi" əsəri epik növə məxsus olan dastandan hansı cəhətlərinə görə fərqlənir?

**• Evdə iş**

• Dərslikdə (səh. 165-166) "Sirlər xəzinəsi"ndən verilmiş nümunə ilə tanış olun. "Yaratdığı hökmdar obrazlarına Nizaminin münasibəti necə olmuşdur?" mövzusunda şifahi təqdimata hazırlaşın.

**• Müstəqil iş üçün**

• Bölmədə tanış olduğunuz sənətkarların həyatı haqqında kitabxana və ya internetdəki mənbələrdən məlumat toplayıb öyrənin. Qənaətlərinizi sinif yoldaşlarınız, müəllimləriniz və valideynlərinizlə bölüşün.



*Gəncədə Nizami Gəncəvinin məqbərəsi*

## QİYMƏTLƏNDİRMƏ MATERİALI

### QAZILIQ QOCA OĞLU YEYNƏK BOYU
(“Kitabi-Dədə Qorqud” dastanından)
*(ixtisarla)*

Bayındır xan yerindən durmuşdu, qara yerin üzərində uca evini tikdirmişdi. Böyük alaçığı göy üzünə dirənmişdi. Min yerdə ipək xalça döşənmişdi. İç Oğuz və Daş Oğuz bəyləri məclisə toplaşmışdı. Yemək-içmək idi.

Qazılıq qoca deyilən bir kişi var idi. Bayındır xanın vəziri idi. Bayındır xandan yürüş üçün izin istədi. Xan icazə verdi: “Haraya istəyirsən, get!” – dedi.

Qazılıq qoca etibarlı qocaları yanına cəmlədi. Yataq-yarağı ilə yola düşdü. Çox dağlar, dərə-təpələr aşdı, keçdi. Günlərin bir günü Düzmürd qalasına gəldi. O qalanın bir təkuru vardı. Adına Arşın oğlu Dirək təkur deyərdilər. O kafirin altmış arşın qaməti vardı. Altmış batmanlıq gürz atardı. Ən möhkəm yayı da çəkərdi...

Qazılıq qoca oraya çatan kimi döyüşə başladı. O təkur qaladan bayıra çıxdı. Meydana girdi, özünə tay igid istədi. Qazılıq qoca onu görən kimi yel kimi yetişdi, yeləm kimi yapışdı. Kafirin ənsəsinə bir qılınc vurdu. Zərrə qədər kəsə bilmədi. Növbə kafirə çatdı. O, altmış batmanlıq gürzlə Qazılıq qocanı vurdu. Boş dünya başına dar oldu. Qanı düdük kimi şoruldadı. Qazılıq qocanı qarmalayıb qalaya saldılar. İgidlər durmayıb qaçdılar.

Qazılıq qoca düz on altı il qalada dustaq oldu. Sonralar Əmən deyilən bir kişi altı dəfə getdi, həmin qalanı ala bilmədi.

Sən demə, Qazılıq qoca dustaq düşən vaxt bir yaşında oğlu varmış. On beş yaşına girdi, igid oldu. Atasını ölmüş bilirdi. Atasının dustaq olduğunu oğlandan gizlədirdilər. Həmin oğlanın adına Yeynək deyərdilər. Günlərin bir günü Yeynək oturub bəylərlə söhbət edərkən Qaragünə oğlu Budaqla sözü düz gəlmədi. Bir-birinə söz atdılar. Budaq dedi: “Burada boş-boş danışıb neyləyirsən? Dalaşmağa adam axtarırsansa, gedib atanı qurtarsana! Bəs niyə on altı ildir, dustaqdır?”

Yeynək bu xəbəri eşidəndə ürəyi oynadı, qara bağrı sarsıldı. Bayındır xanın hüzuruna getdi. Üzünü yerə qoydu, dedi:

> Səhər çağı sərt yerdə tikilən hündür evli!
> Atlazdan yapılmış göy alaçıqlı!
> Tövlə-tövlə çəkilən şahanə atlı!
> Çağıranda hay verən, yolu çavuşlu!
> Süfrəsindən yağ tökülən, bol nemətli!
> Bütün igidlərin arxası,
> Yoxsulların ümidi!
> ... Dövlətli xan, mənə kömək!
> Qoşun ver, məni atamın dustaq olduğu qalaya göndər!

Sayılmaqla oğuz igidləri tükənməz. Bayındır xan iyirmi dörd vilayətin pəhləvan bəylərini Yeynəyə yoldaş etdi. Bəylər yığışıb hazırlıq gördülər...

Bütün bəylərlə yoldaş olub getdilər. Gedib Düzmürd qalasına çatdılar. Dairə şəklində dayandılar. Elə ki kafirlər bunları gördü, Arşın oğlu Dirək təkura xəbər verdilər. O lənətə gəlmiş də qaladan çıxıb bunlara qarşı gəldi və özünə tay döyüşçü istədi. Qıyan Səlcik oğlu Dəli Dondaz durub gəldi. Altmış tutamlıq sür nizəsini qoltuğuna qısıb: "O kafiri qabaq tərəfdən vurum", – deyə fikirləşdi, vura bilmədi. Kafir təkur onu qarmalayıb, zərbə vurdu. Süngüsünü çəkib əlindən aldı. O, altmış batmanlıq gürz ilə Dondazı bərk vurdu. Gen dünya Dondazın başına daraldı. Qazlıq atını döndərdi, qayıdıb gəldi.

Bundan sonra Dönəbilməz Tüləkvuran at üstündə altı pərli çomağı ilə hücum edib, kafiri yuxarıdan aşağı möhkəm vurdu, yıxa bilmədi. Təkur onun da çomağını qarmalayıb aldı. Onu da gürzlə vurdu. O da Qazlıq atını döndərib qayıtdı. Xanım, iyirmi dörd vilayətin bəyi təkurun əlində məğlub oldu.

Sonra cavan, təzəcə igid olan Qazılıq qoca oğlu Yeynək Allaha sığındı. Qüdrətli Allahı təriflədi:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən, əziz Tanrı!
Anadan doğulmadın, sən atadan olmadın.
Heç kimin malını yemədin,
Kimsəyə güc etmədin.
Hər yerdə əhədsən, Allahü səmədsən!

Həmin dəmdə atını irəli sürdü. Yel kimi yetişdi, yeləm kimi yapışdı. Kafirin çiyninə bir qılınc vurdu. Geyim-kecimini doğradı. Altı barmaq dərinliyində yara vurdu. Qara qanı şoruldayıb axdı. Qara inək gönündən tikilmiş çəkmələri qanla doldu. Qara başı dumanlandı, fırlandı. Dərhal döndü, qalaya qaçdı. Yeynək arxasından çatdı. Hasar qapısından girən yerdə böyük, iti polad qılıncını ənsəsinə elə vurdu ki, başı top kimi yerə düşdü.

Qazılıq qocanı dustaqlıqdan çıxartdılar. Yeynək atası ilə görüşdü. Ondan sonra qalan bəylər görüşdülər. Bəylər bir anda hasara hücum etdilər, düşmən malını çalıb-çapdılar.

Yeynək və atası bir-birinə həsrət qaldıqları üçün xeyli qucaqlaşıb öpüşdülər. Allaha çox şükür etdilər. Qalanın kilsəsini yıxıb yerində məscid tikdilər. Əziz Tanrı adına xütbə oxutdular. Şahinlərin ən yaxşısını, qumaşın gözəlini, doqquz cərgə zər naxışlı çuxanı Bayındır xana hədiyyə ayırdılar. Qalan şeyləri döyüşçü igidlərə bağışladılar. Dönüb evlərinə gəldilər.

Dədəm Qorqud gəlib boy boyladı, soy soyladı. "Bu oğuznamə Yeynəyin olsun!" – dedi. Xeyir-dua verək, xanım:

Yerli uca dağların yıxılmasın!
Kölgəlik iri ağacın kəsilməsin!
Ağ saqqallı atanın yeri cənnət olsun!
Ağ birçəkli ananın yeri cənnət olsun!
Axır gündə Allah sizi pak imandan ayırmasın!
Ağ alnın önündə beş kəlmə dua etdik, qəbul olunsun!
Günahınızı adı gözəl Məhəmməd Mustafa üzü suyuna bağışlasın, xanım, hey!!!

# ORTA ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI

Bu dövrün ən mühüm hadisələrindən biri ana dilində ədəbiyyatın güclənməsi və geniş yayılmasıdır. XIII əsrin birinci yarısında yaşayıb-yaradan İzzəddin Həsənoğlunun əsərləri ana dilimizdə bizə çatan ilk nümunələrdir. Lakin bu nümunələrin yüksək bədii keyfiyyəti onlardan çox-çox əvvəl ana dilimizdə əsərlərin yazıldığını deməyə əsas verir. Aydındır ki, ədəbi təcrübə, ənənə olmasa idi, bu cür kamil əsərlər meydana gələ bilməzdi. Yenə həmin əsrdə yaranmış "Dastani-Əhməd Hərami" poeması ana dilimizdə yazılmış ilk epik əsər kimi qiymətlidir.

Bu dövrdə Q.Bürhanəddin (XIV əsr), İ.Nəsimi (XIV əsr), N.Kişvəri (XV əsr), Həbibi (XV–XVI əsrlər), Ş.İ.Xətayi (XVI əsr), M.Füzuli (XVI əsr) kimi görkəmli sənətkarlar ana dilində – doğma türkcəmizdə ölməz sənət əsərləri yaratdılar.

Həmin dövrdə yaranmış ədəbiyyatda insan, onun mənəvi azadlığı, saf, səmimi hissləri, şərə, zülmə nifrəti geniş əksini tapmışdır. Ölkənin vaxtaşırı müharibə meydanına çevrilməsi, insanların məhv edilməsi, vətənlərindən didərgin salınması ədəbiyyatda humanist ideyaların güclənməsinə səbəb olmuşdur. Sufizm, hürufilik təriqətlərinin geniş yayılmasının bir səbəbi də məhz bununla bağlı idi.

Bu dövrdə yazılı ədəbiyyatla yanaşı, şifahi ədəbiyyatın inkişafında da irəliləyiş nəzərə çarpırdı. Aşıq Qurbaninin müxtəlif mövzularda olan qoşma və gəraylıları dərin məzmununa, yüksək bədii keyfiyyətinə görə bu gün də oxucuları valeh edir.



**İMADƏDDİN NƏSİMİ**
(1369–1417)

Onun yaradıcılığı ədəbiyyatımızın ən maraqlı səhifələrindəndir. Nəsiminin əsərlərində insan, insan ləyaqəti, insan qüdrətinə inam geniş əksini tapmışdır.

*Həmid Araslı*

**• Yada salın**

– Haqq-ədalət, yüksək amal uğrunda həyatını qurban verən hansı ədəbi qəhrəmanları xatırlayırsınız?
– Onların həyatı, fədakarlığı sizdə hansı hiss və düşüncənin yaranmasına səbəb olub?

**• Düşünün**

– Mübariz ruhlu əsərlərin yaranmasına səbəb, sizcə, nədir? Belə əsərlərin əhəmiyyətini necə izah edərsiniz?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii ifadə vasitələrini müəyyənləşdirin.

## AĞRIMAZ

Canə sən candan nə kim gəlsə, cigərlər ağrımaz,
Həq bilir, bir zərrə neştərdən damarlar ağrımaz.

Şəha, mehrindənmidir, ya aşinalıqdanmıdır,
Cismimi sər ta qədəm min gəz yararlar, ağrımaz.

Fitvasından zahidin nahəq məni gər soyalar,
Qəm degil səndən, şəha, görcək damarlar ağrımaz.

Zahidin əfsanəsindən soydular nahaq məni,
Həq bilir səndən, şəha, sahibnəzərlər ağrımaz.

Şişəmi çün daşə çaldım, həqqi izhar eylədim,
Çeşmi-əhvəl ağrıdan arif bəsərlər ağrımaz.

Zahidin bir barmağın kəssən, dönər, həqdən qaçar,
Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz.

Cəhli-namərdin qaçan meydan günündə yeri var,
Ər bilir meydan qədrin kim, qədərlər ağrımaz.

Soyun, ey murdar sallaxlar, Nəsiminin tənin,
Bunca namərdi görün, bir ər qıyarlar, ağrımaz.

**I dərs**

**• Məzmun üzrə iş**

1. Müəllimin oxusunu və izahını diqqətlə dinləyin.
2. Tanış olmayan sözlərin mətnə müvafiq mənasının aydınlaşdırılmasında fəal iştirak edin.
3. Qəzəli bir daha nəzərdən keçirin, fikirlərinizi ikihissəli gündəlikdə yazın.
4. Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün, fikirlərinizi ümumiləşdirin.
5. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**• Evdə iş**

"Əsər məndə müəllif haqqında hansı təəssürat yaratdı?" mövzusunda şifahi təqdimata hazırlaşın.

**II dərs**

**• Təhlil üzrə iş**

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

"Ağrımaz" qəzəli *əruz* vəznində yazılmışdır. Bu vəzn qədim ərəb poeziyasında meydana gəlmiş, bütün Şərqə yayılmışdır. Görkəmli Azərbaycan şairləri: N.Gəncəvi, M.Füzuli, İ.Nəsimi, S.Ə.Şirvani, M.Ə.Sabir və b. bu vəzndə ölməz sənət əsərləri yaratmışlar. Böyük sənətkarlarımız əruz vəznini dilimizin təbiətinə, şeir sənətimizin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışmış, bu sahədə uğur qazanmışlar. *Məlumdur ki, əruz vəzni bir və ya bir neçə tip fərqli* ***təfilədən*** *yaranan qəliblər üzərində qurulur. Bu nə deməkdir? Əruz vəznini elmi şəkildə əsaslandıran Xəlil ibn Əhməd ərəb dilində olan zəngin ədəbiyyatı – nəzm əsərlərini araşdırmış, onların vəznini (ölçüsünü) və ahəngini feil sözünün müxtəlif şəkilləri əsasında müəyyənləşdirmişdir. "Feil" sözünün fərqli şəkillərdə işlənilməsi müxtəlif təfilələrin (fəilün, məfAİlün, fAilatün və s.) yaranmasına səbəb olur. Təfilələr isə* ***qəlib*** *əmələ gətirir. Əruz vəznində yazılmış şeirdə misradaxili bölüm təfilənin tələbi ilə yaranır. Beləliklə, təfilə misrada bölümə, qəlib isə misraya bərabərdir. Təfilənin qəlibdə müxtəlif sayda (iki, üç, yaxud dörd olmaqla) müəyyən tərtibdə düzülüşü əruz vəzninin müxtəlif* ***bəhrlərini*** *(həzəc, rəməl, xəfif və s.) yaradır. Rəməl bəhrində yazılan "Ağrımaz" qəzəlinin qəlibi belədir: fAilAtün fAilAtün fAilAtün fAilün. Qəzəlin mətni bu qəlibə uyğun olaraq aşağıdakı şəkli (burada bir beyt göstərilir) alır:*

| fAilAtün | fAilAtün | fAilAtün | fAilün |
|---|---|---|---|
| Fitvasından<br>Qəm degil sən | zahidin na<br>dən, şəha, gör | həq məni gər<br>cək damarlar | soyalar,<br>ağrımaz |

*Heca vəznində olan əsərlərdən fərqli olaraq, əruz vəznli şeirlərin misralarındakı hecaların sayının bərabər olması (bu, ahəngin yaranması üçün çox vacibdir) zəruri deyildir. Əruz vəznli şeirlərdə bu bərabərliyi hecaların uzun və ya qısa tələffüz edilməsi yaradır. Bəs təfilədəki (deməli, həm də ona uyğun olan misra bölümündəki) hecaların qısa və ya*

*uzun olduğu necə müəyyənləşdirilir? Bu vəznin tələbinə görə, qapalı hecalar uzun, açıq hecalar isə, əksər hallarda, qısa olur. Əgər heca uzanan sait səslə bitərsə, uzun heca sayılır. Buradan aydınlaşır ki, qəlibdə açıq və qapalı hecalar necə növbələşirsə, şeirin bütün misralarında da o qayda özünü göstərir.*

*Bunu aşağıdakı nümunədə müşahidə etmək mümkündür:*

| fA (uzun) | İ (qısa) | lA (uzun) | tün (uzun) | fA (uzun) | İ (qısa) | lA (uzun) | tün (uzun) | fA (uzun) | İ (qısa) | lA (uzun) | tün (uzun) | fA (uzun) | İ (qısa) | lün (uzun) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Şə | ha, | meh | rin | dən | mi | dir, | ya | a | şi | na | lıq | dan | mı | dır, |
| Cis | mi | mi | sər | ta | qə | dəm | min | gəz | ya | rar | lar, | ağ | rı | maz. |

*Əruz vəznində yazılan qəzəl qədim və orta dövr ədəbiyyatımızda ən geniş yayılmış janrlardandır. Müxtəlif mövzularda olan qəzəl beş, yeddi və daha artıq beytdən (iki misra "**beyt**" adlanır) ibarət olur. İlk beyt "**mətlə**", son beyt "**məqtə**" adlanır. Son beytdə, çox vaxt müəllifin təxəllüsü (bəzən də adı) verilir. Beytlərin hər birində bitkin, müstəqil fikir və hiss ifadə edilsə də, aralarında həm məzmun, həm də forma bağlılığı olur.*

*Qəzəlin birinci beytinin misraları həmqafiyə, sonrakı beytlərin birinci misrası sərbəst, ikinci misrası isə birinci beytlə qafiyələnir.*

Gənc yaşlarından müxtəlif təriqətlərlə – eyni əqidə, məslək sahiblərini birləşdirən təşkilatlarla maraqlanan Nəsimi zülmə, ədalətsizliyə qarşı çıxan hürufilərə (onlar varlığın sirrini ərəb əlifbasının hərflərində görürdülər) qoşulmuşdur. Onun əsərlərinin böyük bir qismi hürufi ideyalarının şərhinə və təbliğinə həsr olunub. Hürufiliyi təbliğ etdiyinə görə təqib olunan şair 1417-ci ildə Hələb şəhərində edam edilmişdir. Ehtimal olunur ki, "Ağrımaz" qəzəli edam öncəsi yazılmışdır.

Şeiri oxuduqca tutduğu yolun doğru və ədalətli olduğuna ürəkdən inanan cəsarətli, yenilməz insan obrazı göz önündə canlanır. Bu obrazı hərtərəfli səciyyələndirmək və dəyərləndirmək üçün şeirdəki hər sözün, ifadənin üzərində ciddi düşünmək və əsərdə geniş istifadə olunmuş təzadların rolunu aydınlaşdırmaq faydalıdır.

## • Araşdırın • Fikirləşin • Cavab verin

2. Şeir sizdə hansı təəssürat yaratdı? Fikrinizi əsaslandırın.
3. "Əsərdə şairin yalnız şəxsi faciəsi əks olunmuşdur" fikrinə münasibət bildirin. Mövqeyinizi nümunələrlə əsaslandırın.
4. Şeirdən nümunələr göstərməklə şairin müasirlərinə fərqli münasibətini aydınlaşdırın.
5. Şeir təsəvvürünüzdə bir insan obrazı canlandırdı. Onu necə səciyyələndirərsiniz?
6. Şeirin bədii təsir gücünü artıran vasitələrin, xüsusən təzadların rolunu misallar əsasında aydınlaşdırın.
7. Əsərdəki başlıca fikir – ideya nədir?

## • Evdə iş

• "Şeirdəki hansı söz və ifadələr şairin ovqatı, əqidə düşmənlərinə münasibəti barədə məndə aydın təsəvvür yaratdı?" mövzusunda şifahi təqdimata hazırlaşın.

III dərs

## • Tətbiq • Müzakirə • Yaradıcı iş

1. Qəzəlin ilk iki beytindəki həmqafiyə sözləri müəyyənləşdirib sxemdə yazın. Qəzəl janrında olan şeirlərin necə qafiyələndiyini izah edin.



2. “Ağrımaz” qəzəlinin lirik, “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”un epik növə aid olduğunu müqayisə əsasında şərh edin. Gəldiyiniz nəticəni Venn diaqramında əks etdirin.

**İfadəli oxuya hazırlaşın**

3. Mətni oxuyun. Ondakı fikirlərə əsaslanmaqla tapşırığı yerinə yetirin.

Əruz vəznində yazılmış şeirlərin ifadəli oxusu heca vəznində olan şeirlərin oxusundan fərqlənir. *Təfiləyə* uyğun gələn *bölümü* (misranın parçasını) bütöv oxumaq lazım gəlir. Təfilənin tələbi ilə bir çox hallarda sözlərin parçalanması ifaçının işini çətinləşdirir. Yəni bölüm bütöv oxunmalı, onların arasında durğulara (fasilələrə) əməl edilməlidir. Bölümlərin oxusu ilə misranın bütövlükdə oxusu arasındakı tənasüb gözlənilməlidir. Yəni bütün diqqəti bölümlərin oxusuna yönəldib misranın oxusunu unutmaq olmaz. Bölümlərin ustalıqla oxunması, onların arasındakı sərhədin nəzərə çatdırılması bütövlükdə misranın uğurlu oxusunu, fikrin başa düşülməsini təmin edir.

4. “Ağrımaz” qəzəlinin oxusunda dinləyicilərə nəyi çatdıracağınızı – ifaçılıq vəzifəsini müəyyənləşdirin. Sonra ilk iki beytdəki məntiqi vurğulu sözləri, səsdəki dəyişmələri (tonun yüksəlməsi, alçalması və s.) şərti işarələrlə dəftərinizdə qeyd edin. Hər iki beytin məzmununa bir daha nəzər salın, səsinizin almalı olduğu çalarları aydınlaşdırıb yazın.
5. Qəzəlin ilk iki beytini qəlibə uyğun olaraq cədvəldə yazıb oxusuna hazırlaşın.
6. İfalara münasibət bildirin.

## • Evdə iş

• Şeirin ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən və qəlibə uyğun cədvəldən istifadə etməyi unutmayın.



**ŞAH İSMAYIL XƏTAYİ**
(1487–1524)

O, qısa həyat sürməsinə baxmayaraq, zəngin bir ədəbi irs qoyub getmişdir. Üç dildə şeir yazmaq qabiliyyətinə malik olan şair əsərlərinin böyük bir qismini doğma dilimizdə yazmış, ana dilinə bütün sahələrdə üstünlük vermişdir.

*Əzizağa Məmmədov*

**• Yada salın**

– Bahara həsr olunmuş hansı əsərləri xatırlayırsınız?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**• Düşünün**

– Şairləri, yazıçıları, ümumiyyətlə, sənət adamlarını ilin bu dönəminin daha çox cəlb etməsinin səbəbini necə izah edərsiniz?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyən edin.

## BAHARİYYƏ

*(“Dəhnamə” poemasından parça; ixtisarla)*

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.

Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü.

Yer geydi qəbayi-xizrpuşan,
Cümlə dilə gəldi ləbxamuşan.

Sərvin yenə tutdu damənin su,
Sərv üstə oxudu faxtə gu-gu.

Qönçə dəhəni çəməndə xəndan,
Gülmaxdan ənar açıldı dəndan.

Bülbül oxudu süfati-hicran,
Dəryadə dür oldu əbri-neysan.

Durna uçuban həvayə düşdü,
Laçın aluban ovayə düşdü.

Alma ağacı dibində sayə
Tən eylər idi bulutda ayə.

Yaşın yerə tökdü əbri-neysan,
Bülbüllər oxudu səd hezaran.

Mey bəslədi jalə hər vərəqdə,
Türrac kitab oxur təbəqdə.

Qum-qum der idi ağacda qumri,
Məst oldu bənövşə, içdi xəmri.

Şax üstə qabaqlar aslı hali,
Qu gərdənidən verür misali.

Quş beççələri ünü yuvadən
Məktəb ünü tək gəlür həvadən.

Boyandı zəmin hezar rəngə,
Övraqi-şəcər də təngə-təngə.

Nilufər açıldı, suyə girdi,
Pirahənini başına sardı.

Çinar əlini çü rəqsə açdı,
Gül xurda zərin şəbaşə saçdı.

Çaylar bulandı, yıxdı arxın,
Bağlar ağacı göyərtdi şaxın.

Yüz dürlü qəba geyib çəmənlər,
Ağ donunu geydi yasəmənlər.

Sirabi gülün yüzündə abi,
Nərgis oturur gözündə xabi.

Sərv etdi çəməndə sərfərazi,
Gül cilvələnir başında nazi.

Çıxmış budağ üstə əndəlibi,
Mənbərdə oxur çəmən xətibi.

Lalə oturur başında taci,
Heç sərvərə yoxdur ehtiyaci.

Sünbül daramış saçın beşanə,
Ənbər qoxusun qılur fəşanə.

Al ilə yaşıl geyindi bağlar,
Ağ ləçəgi sərpə saldı dağlar.

Durmuş çəmən üzrə sərv ayağə,
Qılmağa təmaşa solü sağə.

Ahu quzu doydurub uyutdu,
Oğurlanıb özü ota getdi.

Durna uçub ün çəkib həvadə,
Gedər ünü qırx ağac ziyadə.

Bağrı qaranın qarardı bağri,
Şahbaz ona varanda doğri.

Hər şey günəşə qurutdu yaşin,
Qövsi-qüzeh açdı tər qumaşin.

Döndü vətəninə cümlə quşlar,
Gəldi yuvasına qırlaquşlar.

**I dərs**

**• Məzmun üzrə iş**

1. Müəllimin oxusunu və izahını diqqətlə izləyin. Tanış olmayan sözlərin mətnə uyğun mənasının aydınlaşdırılmasında fəal iştirak edin.
2. Şeiri bir daha nəzərdən keçirin, fikirlərinizi fərdi olaraq ikihissəli gündəlikdə yazın.
3. Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün və fikirlərinizi dəqiqləşdirin.
4. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**• Evdə iş**

• "Bahar fəsillərin gözəlidir" mövzusunda şifahi təqdimata hazırlaşın.

**II dərs**

**• Təhlil üzrə iş**

**Əsərin təhlilinə hazırlaşın.**
1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Əsərdə baharın gəlişi ilə təbiətdə baş verən canlanma, onun min rəngə boyanması ən xırda incəliklərinə qədər əks etdirilmişdir. Hər beytdə bütöv bir mənzərə, parlaq bir lövhə yaradılmışdır. Bu beytlərin bədii gözəlliyinin aydınlaşdırılması həm onlarda ifadə olunmuş fikrin, müəllif niyyətinin daha dərindən başa düşülməsinə, həm də alınan zövqün tamlığına, bütövlüyünə səbəb olur. Əsərin lap əvvəlində oxuyuruq:

Yer geydi qəbayi-xizrpuşan,
Cümlə dilə gəldi ləbxamuşan.

Bu misralarda ifadə olunan fikir artıq sizə məlumdur. Bəs bu fikir hansı sənətkarlıqla, ustalıqla ifadə edilmişdir?

Burada güclü məcazilik var; yer, əlbəttə, paltar geyməz, onun başdan-başa yaşıllığa bürünməsini obrazlı, təsirli çatdırmaq üçün şair bu vasitəni seçmişdir.

İkinci misrada da cəlbedici, maraqlı bədii gözəlliyin şahidi oluruq; bahar öz gözəlliyi, təravəti ilə lal-dinməzləri belə dilə gətirir, fərəhləndirir, sevindirir.

Şeirin üzərində müşahidələrinizi davam etdirin. Sözlərin necə seçildiyinə, misralarda nə cür əlaqələndirildiyinə, məcazlardan hansı məqsədlə istifadə olunduğuna diqqət yetirin. Əsərin məzmunu barədə aydın təsəvvürünüz olduğu üçün bu işi yerinə yetirməkdə çətinlik çəkməyəcəksiniz.

Unutmayın ki, söz sənətkarlarımız baharın təsvirinə tez-tez müraciət etmişlər. Bu təsvir *bahariyyə* adlanır. Bahariyyə müxtəlif janrlarda yazılmış müstəqil şeir formasında, yaxud irihəcmli əsərlərdə – poemada və s. parça şəklində olur. Oxuduğunuz "Bahariyyə" Xətayinin "Dəhnamə" əsərindən parçadır.

**• Araşdırın • Fikirləşin • Cavab verin**

2. Şeirin hansı mövzuda yazıldığını nümunələrlə əsaslandırın.
3. Baharın gəlişi ilə təbiətdə baş verən dəyişiklik əsərdə təbii, inandırıcı əks olunubmu?
4. "Şeirdə təbiətlə insanın bağlılığı, bir-birini tamamlaması da ifadə olunmuşdur" fikrini doğru saymaq olarmı? Nə üçün?
5. Əsərin bədii gözəlliyini təmin edən vasitələri nümunələr əsasında aydınlaşdırın.
6. Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?

**• Evdə iş**

• Müxtəlif mənbələrdən topladığınız məlumat əsasında "Ədəbiyyatımızda bahariyyə" mövzusunda məruzə üçün mətn yazın.

**III dərs**

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

1. "Bahariyyə"ni təbiətin təsvirinə həsr olunmuş tanış bir əsərlə müqayisə edin. Onların oxşar və fərqli cəhətlərini cədvəldə yazın.

| Hansı cəhətlərinə görə müqayisə olunurlar? | Əsərlərin adı | |
|---|---|---|
| | "Bahariyyə" | |
| | | |

2. Əsərdən ilk beş beytin ifadəli oxusunu hazırlayın. Unutmayın ki, poema əruz vəzninin həzəc bəhrindədir. "Həzəc" sözü ərəb dilində *xoşagələn avaz, ürəyəyatan xoş səs* deməkdir. Bu bəhrdə olan əsərlər şirin səslə, aramla oxunur. Həmin bəhrin növü çoxdur ."Dəhnamə" üçtəfiləli növdə yazılıb. Oxu zamanı hər təfiləyə uyğun bölümün bütöv ifasına nail olmaq vacibdir. Bu, bütövlükdə misranın oxusuna və mənanın başa düşülməsinə mane olmamalı, ahəngin yaranmasını təmin edən vasitəyə çevrilməlidir.

| MəfUlü | MəfAilün | fəUlün |
|---|---|---|
| Qış getdi,<br>Gül bitdi | yenə baha<br>vü laləza | r gəldi,<br>r gəldi. |

3. Digər beytləri də bu qaydada yazın. İfaçılıq vəzifəsini, səsinizin alacağı çalarları, sürətini, ucalığını və s. müəyyənləşdirin. Şərti işarələrdən istifadə edin.
4. İfaları dinləyib müzakirə edin.

**• Evdə iş**

• Əsərdən beş beytdən az olmayaraq seçdiyiniz parçanın ifadəli oxusunu hazırlayın. Şərti işarələrdən istifadə edin.



**MƏHƏMMƏD FÜZULİ**
(1494–1556)

Füzuli ana dilimizdə yaranmış əsl lirik şeirin böyük banisi və ölməz dahisidir. O, qəzəllərində bütün keçmiş ədəbi irsin nailiyyət və zənginliklərini inkişaf etdirmiş, öz dühası ilə Azərbaycanda lirik şeirin ən yüksək nümunələrini yaratmışdır.

*Mir Cəlal*

**• Yada salın**

– Sözün qüdrəti, məna və gözəlliyi haqqında oxuduğunuz hansı əsərləri xatırlayırsınız?
– Həmin əsərlərdə hansı fikirlər diqqətinizi daha çox cəlb edib?

**• Düşünün**

– Sözə həsr olunmuş əsərlərin yazılmasına, böyük sənətkarların sözə yüksək dəyər verməsinə səbəb, sizcə, nədir?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## Söz

Xəlqə ağzın sirrini hər dəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.

Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.

Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz.

Bir nigari-ənbərinxətdir könüllər almağa,
Göstərər hərdəm niqabi-qeybdən rüxsar söz.

Xazini-gəncineyi-əsrardır, hər dəm çəkər,
Rişteyi-izharə min-min gövhəri-əsrar söz.

Olmayan ğəvvasi-bəhri-mərifət arif degil
Kim, sədəf tərkibi-təndir, lölöi-şəhvar söz.

Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz.

I dərs

**• Məzmun üzrə iş**

1. Müəllimin oxusunu və izahını diqqətlə izləyin.
2. Tanış olmayan sözlərin mətnə müvafiq mənasının aydınlaşdırılmasında fəal iştirak edin.
3. Aşağıdakı beytlərdə ifadə olunmuş fikirləri aydınlaşdırıb dəftərinizdə yazın.

| | |
|---|---|
| Artıran söz qədrini sidq ilə qədrin artırar,<br>Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz. | |
| Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,<br>Edə hər saət səni ol uyqudan bidar söz. | |
| Bir nigari-ənbərinxətdir könüllər almağa,<br>Göstərər hərdəm niqabi-qeybdən rüxsar söz. | |
| Xazini-gəncineyi əsrardır hər dəm çəkər,<br>Rişteyi-izharə min-min gövhəri-əsrar söz. | |
| Olmayan qəvvasi-bəhri-mərifət arif degil<br>Kim, sədəf tərkibi-təndir, lölöi-şəhvar söz. | |

4. Cədvəldəki üçüncü və sonuncu beytlərdə hansı bədii təsvir vasitəsinin işləndiyini müəyyənləşdirin.
5. Əsərin qəzəl janrında olduğunu təsdiq edən bir neçə cəhət yazın.
6. Şeirdəki hansı ifadələri aforizm (müdrik söz) kimi öz nitqinizdə fəal işlədə bilərsiniz?

**• Evdə iş**

Əsərin məzmunu ilə bağlı fikirlərinizi ikihissəli gündəlikdə yazın.

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

II dərs

**• Təhlil üzrə iş**

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Füzuli ədəbiyyatımızda qəzəlin ən görkəmli ustadı sayılır. O, qəzələ böyük qiymət verir, sənətkarın öz düşüncələrini oxucuya çatdırması üçün bu janrı daha münasib sayırdı:

Qəzəl de ki, məşhuri-dövran ola,
Oxumaq da, yazmaq da asan ola.

Qəzəl janrında olan “Söz” ədəbiyyatımızda söz haqqında yazılmış əsərlərin içərisində maraqlı məzmunu, məna, ideya dərinliyi ilə seçilir. Şair əsərdə sözlə bağlı düşüncələrini, insanın, sənətkarın həyatında sözün rolu barədə fikirlərini böyük ustalıqla ifadə etmiş, oxucunu sözün məna gözəlliyini duymağa səsləmişdir.

Şeirdə şairin ədəbi-ictimai fikirləri, hər bir insanın sözə dəyər verməsinin zəruriliyi də öz əksini tapmışdır. Beytlərdə ifadə olunmuş fikirlərin aydınlaşdırılması əsərin ideyasını başa düşməyinizi xeyli asanlaşdıracaqdır.

Şeir oxucuya güclü təsir göstərir, onu düşünməyə sövq edir. Bu, ilk növbədə, şairin dilimizin zəngin xəzinəsindən məharətlə faydalanmasından, əsərin bədii gözəlliyindən irəli gəlir. Əruz vəzninə dərindən bələd olan sənətkar şeirin ahəngdarlığına, qafiyələrin seçilməsinə, misradaxili bölgüyə, bədii təsvir vasitələrindən məqamında istifadəyə xüsusi diqqət yetirmişdir.

Qəzəl əruz vəzninin rəməl bəhrindədir.

| fAilAtün | fAilAtün | fAilAtün | fAilün |
|---|---|---|---|
| Xəlqə ağzın<br>Bu nə sirdir | sirrini hər<br>kim, olur hər | dəm qılır iz<br>ləhzə yoxdan | har(ı) söz,<br>var(ı) söz. |

**• Araşdırın • Fikirləşin • Cavab verin**

2. Qəzəlin hansı mövzuda yazıldığını nümunələrlə əsaslandırın.
3. Sizcə, şairin əsərdə qaldırdığı başlıca problem nədir? Cədvəldən istifadə edin.

| Əsərdə qaldırılan başlıca problem nədir? | Şair bu problemin həllini nədə görür? | Siz necə düşünürsünüz? |
|---|---|---|
| | | |

4. Şair sözün cəmiyyətdə, insan həyatında roluna necə qiymət vermişdir? Fikrinizi təsdiq edən nümunələr göstərin.
5. Qəzəldə söz sənətinin qarşısında hansı tələblər qoyulmuşdur?
6. Şeirin ahəngdarlığına, bədii təsir gücünün artmasına şair hansı vasitələrlə nail olmuşdur?
7. Əsərdəki bədii təsvir vasitəsinin fikrin təsir gücünü artırdığını necə izah edərsiniz? Cədvəldən istifadə etməyiniz faydalıdır.

| № | Əsərdə işlədilmiş bədii təsvir vasitəsi | Fikrin təsir gücünün artmasında onun rolu |
|---|---|---|
| | | |

8. Atalar sözləri və müdrik deyimlərə (aforizmlərə) şeirdən uyğun nümunələr seçin. Fikrinizi əsaslandırın.

| Atalar sözləri, aforizmlər | Əsərdən seçilmiş uyğun nümunələr | Nə üçün belə düşünürsünüz? |
|---|---|---|
| Çox danışmaq gümüşdürsə, az danışmaq qızıldır. | | |
| Sözünü bilməyən ağız başa toxmaq vurdurar. | | |

9. Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?

**• Evdə iş**

• Müxtəlif mənbələrdən, internetdən (google.az, YouTube) istifadə etməklə “M.Füzulinin hansı əsərləri əsasında musiqi əsərləri yaradılıb?” mövzusunda şifahi təqdimat hazırlayın.

III dərs

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

1. Füzulinin “Söz” qəzəlini Nizaminin “Sultan Səncər və qarı” mənzum hekayəsi ilə növ və janr baxımından müqayisə edin. Venn diaqramından istifadə edin.
2. Dastanda düşmənə qalib gələn qəhrəmanlara hər bir boyun sonunda Dədə Qorqud xeyir-dua verir, onlara dastan qoşur, “məndən sonra ozanlar oxusunlar”, deyir. Ulu babalarımızın sözə verdiyi bu dəyər “Söz” qəzəlindəki hansı beytlərdə öz əksini tapıb?
3. Son beytdəki fikir sizdə hansı düşüncələr oyatdı?
4. Əsərdən cədvəldəki atalar sözlərinin  məzmununa uyğun misraları seçin.

| Atalar sözləri | Əsərdən seçilmiş nümunə |
|---|---|
| Söz qılıncdan kəskindir. | |
| Sözü məqamında deyərlər. | |
| Söz pəhləvanı olma. | |
| Sözünü bilməyəni bayıra atarlar. | |
| İnsan ölər, sözü qalar. | |

5. Ədəbiyyatşünas alim Həmid Araslı yazır: “Füzulinin bu qəzəlinin əhəmiyyəti təkcə söz sənətinə münasibətini əks etdirməklə məhdudlaşmır. Bu şeir hər danışan adamdan öz nitqinə məsuliyyətlə yanaşmağı, mənalı sözlər seçib işlətməyi tələb edir. Çünki gözəl və mənalı söz insanın mənəvi aləminin zənginliyini, onun mərifətini göstərir”.
   Siz bu barədə nə düşünürsünüz?
6. “Füzulinin “Söz “ qəzəlində əksini tapmış fikirlərin dövrümüz üçün əhəmiyyətini nədə görürəm?” mövzusunu müzakirə edin.

**• Evdə iş**

• “Söz” qəzəli məndə hansı düşüncələr yaratdı?” mövzusunda mühakimə xarakterli esse yazın.

**QURBANİ**

**Bənövşəni**

Başına döndüyüm ay qəşəng Pəri,
Adətdi, dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə dər, dəstə bağla,
Tər buxaq altında düz bənövşəni.

Tanrı səni xoş camala yetirmiş,
Səni görən aşıq ağlın itirmiş,
Mələklərmi dərmiş, göydən gətirmiş?
Heyif ki, dəriblər az bənövşəni.

Başına döndüyüm, bağa gəl, bağa,
O gözəl hüsnündən bağa nur yağa,
Dəstə-dəstə dərib taxar buxağa,
Bənövşə qız iylər, qız bənövşəni.

Səhər olcaq şeyda bülbül oxuşdu,
Hökm olundu, Süleymanlar yerişdi,
Sərt qış gəldi, gülün vaxtı sovuşdu,
Daha iyləmirik biz bənövşəni.

Qurbani der, könlüm bundan sayrıdı,
Nə etmişəm, yarım məndən ayrıdı?!
Ayrılıqmı çəkib, boynu əyridi?
Heç yerdə görmədim düz bənövşəni.

# ERKƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Xalqımız XVII–XVIII əsrlərdə əmin-amanlıq içində yaşamamışdır. XVII əsrin əvvəllərində Səfəvi dövləti milli mahiyyətini itirir, daha sonra ölkədə hərc-mərclik güclənir, on səkkizinci yüzilliyin birinci yarısında isə Azərbaycan müharibə meydanına çevrilir. Əsrin ikinci yarısında xanlıqlara bölünmə ölkənin və insanların vəziyyətini daha da ağırlaşdırır. Rusiya imperiyasının işğalçılıq məqsədi ilə ölkəyə ayaq açması müstəqilliyə vurulan ağır zərbələrdən biri olur. Bütün bunlar mədəniyyətin, ədəbiyyatın inkişafına mənfi təsir göstərir. Ölkənin ictimai həyatında baş verən uğursuzluq bədii ədəbiyyatda da əksini tapır. Əmani, Fədai, Məsihi, Saib, Qövsi və b. həyatda baş verənlərə öz yaradıcılıqlarında biganə qalmırlar.

Yazılı ədəbiyyatda Füzuli ənənələrinə uyğun lirik şeirlərlə yanaşı, epik məzmunda olan poemalar, tarixi mənzumələr meydana gəlir. Bu nümunələrdə ictimai zülmə, mülki bərabərsizliyə, ədalətsizliyə, özbaşınalığa etiraz və nifrət hissi də ifadə edilmişdir. Bu dövrdə şifahi ədəbiyyatın yüksək inkişaf səviyyəsinə qalxması diqqəti cəlb edir. XVII yüzillik şifahi ədəbiyyatın *intibah* dövrü sayılır. Xalq yaradıcılığı ictimai həyatın ən müxtəlif sahələrinə nüfuz edir, onlara münasibət bildirir. Həmin dövrdə meydana gələn və bir-birindən maraqlı olan dastanlarda xalq öz sevimli obrazlarını yaradır. "Abbas və Gülgəz", "Aşıq Qərib", "Şah İsmayıl", "Tahir və Zöhrə" və digər dastanlarda saf, həqiqi duyğuların ifadəsinə geniş yer verilir, haqqı, ədaləti uca tutan parlaq insan obrazları yaradılır.



*Xalq qəhrəmanı Koroğlunun Bakı şəhərindəki abidəsi.*

Qəhrəmanlıq dastanı olan "Koroğlu"da xalqın azad, xoşbəxt yaşamaq arzusu, bunun uğrunda mübarizəyə qoşulması geniş əksini tapmışdır.

Bu dövrdə şifahi xalq ədəbiyyatının yazılı ədəbiyyata təsiri güclü olmuşdur. Bir çox sənətkarlar şifahi ədəbiyyatın janrlarından istifadə etmiş, əsərlərini canlı danışıq dilindən bəhrələnməklə yazmağa çalışmışlar. Bu həmin dövrün iki qüdrətli sənətkarının – Vidadi və Vaqifin yaradıcılığında daha parlaq ifadəsini tapmışdır.

**• Yada salın**

– "Koroğlu" dastanından öyrəndiyiniz hansı qolları xatırlayırsınız?
– Dastan və onun qəhrəmanları ilə bağlı unuda bilmədikləriniz nədir?

**• Düşünün**

– Ağlagəlməz hiylələrlə, güclü düşmənlə dəfələrlə qarşılaşan Koroğlunun məğlubedilməzliyinə səbəb, sizcə, nədir?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## KOROĞLU İLƏ BOLU BƏY

*"Koroğlu" dastanından*
*(ixtisarla)*

**1**

Koroğlunun Ələmqulu xanla dostluq binası qoymağı bütün aləmə yayıldı. Bu xəbər gəlib axırda Toqatda Hasan paşaya çatdı. Hasan paşa düşdü fikir-xəyala ki, nə təhər eləsin. Əgər xanlar, paşalar bir-bir başlayıb Koroğlu ilə dostluq binası qoysalar, day heç dünyada ona batmaq olmaz. Odu ki başladı qoşun böyüklərini tələsdirməyə. Əvvəl-əvvəl bir qasid Bolu bəyə, bir qasid də Ərəb Reyhana göndərib ikisini də çağırtdırdı yanına. Elə ki ikisi də gəldi, Hasan paşa onlarla aranı xəlvət elədi, başladılar tədbirə. Di yazdılar, pozdular, götürdülər, qoydular, axırda bu tədbirə gəldilər ki, Bolu bəy öz qoşunu ilə Ərzincandan, Ərəb Reyhan öz qoşunu ilə Qarsdan, Hasan paşa özü də Toqatdan yeriş eləsinlər. Elə ki məclis qurtardı, Hasan paşa Toqatda qaldı, Ərəb Reyhan qoşunu da götürüb Qarsa tərəf yollandı. Bolu bəy də Ərzincana, öz qoşununun yanına qayıtdı.

İndi gəl sənə deyim paşaların məkrindən.

Özü də bu paşalar çoxbilmiş, hiyləgər adamdılar. Bir-birinə bac-xərac verən deyildilər. O ki Hasan paşa idi, istəyirdi ki, Ərəb Reyhanla Bolu bəyi qızışdırıb göndərsin Koroğlunun üstünə, özü lap axırda getsin. Tədarükünü də elə başlamışdı. O ki Ərəb Reyhandı, istəyirdi, birtəhər olsun ki, bunlardan biri Koroğlunun başını qatsın, özü sonra işə başlasın. O ki Bolu bəy idi, o da istəyirdi ki, hamıdan qabaq özü gedib işi də təkbaşına görsün ki, o biri paşaların adı çıxmasın. Odu ki Hasan paşanın məclisindən mürəxxəs olub Ərzincana çatcaq dayanmayıb başladı yol tədarükü görməyə. Di bir gün, iki gün... Elə ki hər şey hazır oldu, qoşunu götürüb Çənlibelə tərəf yola düşdü. Heç yerdə dayanmayıb, dincəlməyib gecə-gündüz at sürdü, gecələrin birində özünü çatdırdı Çənlibelin ətəklərinə. Mehtər Murtuz bu yerləri görcək tanıdı. Bolu bəyin yanına gəlib dedi:

– Bolu bəy, mən bu yerləri tanıyıram. Bundan o yana Çənlibeldi. İndi biz gərək burda düşüb səhəri gözləyək. Koroğlunun fənd-felindən baş açmaq olmaz. Gecə vaxtı qoşunu aparıb tələyə salarıq.

Bolu bəy Mehtər Murtuzun fikrini bəyəndi. Hökm elədi, qoşun düşüb düşərgə saldı. Özü də Qəcər Alını, Mehtər Murtuzu, bir də say-seçmə sərkərdələrini götürdü ki, ətrafı gəzib bələdləsin.

Bunlar burada öz işlərində olsunlar, bu tərəfdən də səhər tezdən Koroğlu çölə çıxmışdı, dolana-dolana gəlib çıxdı Ağ qayaya. Bir də baxdı, Çənlibelin anrı ətəyində o qədər at var, adam var ki, elə bil qarğa-quzğundu. Day geri qayıdıb dəlilərə xəbər eləməyə ərindi, elə ordan birbaş yüyürdü. Koroğlu qəsdən təpələrin dalı ilə gəlirdi ki, gözə görünməsin. Sən demə, Bolu bəygil də bu dəmdə elə buraları gözdən keçirirmişlər. Birdən Koroğlu ilə Bolu bəy çıxdılar üz-üzə. İş elə oldu ki, nə Koroğlu çəkilib gizlənə bildi, nə də ki Bolu bəy. Bolu bəy ondan soruşdu:

– De görüm, kimsən?

Koroğlu özünü cəmləşdirib dedi:

– Qoruqçuyam.

Bolu bəy bir onun bazburutuna baxdı, bir boy-buxununa baxdı, dedi:

– Kimin qoruqçususan?

Koroğlu dedi:

– Çənlibel qoruqçusuyam.

Bolu bəy sevindi ki, yaxşı oldu. Bundan əhvalpürsan olub Çənlibeldən bir az xəbər tutaram. Dedi:

– Ayə, de görüm, Koroğlu bu saat haradadı?

Koroğlu dedi:

– Dünən axşam Çənlibeldə idi. Əgər gecə bir yerə getməyibsə, Çənlibeldədi.

Elə bu sözdə daldan Mehtər Murtuz gəlib yetişdi.

Mehtər Murtuz Koroğlunu görcək tanıdı. Özünü Koroğluya göstərməyib yavaşca keçdi onun dalı qatına. Ordan Bolu bəyə göz vurdu ki, evin yıxılsın, yalan deyir, qoruqçu-zad deyil, Koroğlu özüdü.

Bolu bəy birdən hay vurdu, adamlar tökülüb Koroğlunu tutdular, əllərini, qollarını möhkəm bağladılar. Koroğlu belə baxanda Mehtər Murtuzu tanıdı. Bildi ki, onu satan Mehtər Murtuzdu.

Koroğlu baxdı ki, əgər burada Koroğlu olduğunu boynuna alsa, dinməz-söyləməz onu öldürəcəklər. Çənlibel uzaq, dəlilər işdən xəbərsiz, düşmən çox, özü də nə yaraq-yasağı var, nə də atı. Bir də deyirlər, Koroğlunun belə bir xasiyyəti də vardı ki, düşmən əlinə keçəndə Koroğlu olduğunu heç boynuna almazdı. Deyərdi ki, düşmən məni tutulmuş bilsə, Çənlibelə ayaq alar. Odu ki Bolu bəy hər nə qədər elədisə, Koroğlu olduğunu boynuna almadı. Elə "qoruqçuyam" dedi ki, dedi. Bolu bəy hökm elədi, başladılar Koroğlunu döyməyə. Yenə də bir kar çıxmadı.

- Hasan paşanın narahatlığına səbəb nə idi?
- Paşalar hansı qərara gəldilər?
- Onların hər birinin gizli niyyəti nə idi?
- Paşalar haqqında sizdə hansı təsəvvür yarandı?
- Koroğlu ilə Bolu bəyin ilk qarşılaşması harada və nə cür baş verdi?
- Koroğlunun özünü qoruqçu kimi qələmə verməsinə səbəb nə idi?
- Koroğlunu Bolu bəyə kim tanıtdı?
- Həqiqəti öyrənmək istəyən Bolu bəy Koroğlu ilə necə rəftar etdi?

Koroğlu elə dediyini dedi. Yaxında bir göl var idi. Bolu bəy hökm elədi ki, onu əli-qolu bağlı saldılar suya. Az qaldı ki, boğulsun. Yenə də boynuna almadı. Başına nə iş gətirdilərsə, elə dedi, qoruqçuyam ki qoruqçuyam.

2

Axırda Bolu bəy də inandı ki, bu, Koroğlu deyil, qoruqçudu. İstədi ki, qollarını açdırıb buraxa. Mehtər Murtuz başladı özünü yeyib-tökməyə ki:

– Evin yıxılsın, hara buraxırsan onu?! Yalan deyir, Koroğludur.

Onda Bolu bəy üzünü ona tutub dedi:

– Sən gəl öz xoşluğunla Koroğlu olduğunu boynuna al! Yoxsa birdi, öldürtdürəcəyəm.

İş belə olanda Koroğlu aldı, onun cavabını dedi:

Nahaq yerə gəl eyləmə yamanlıq,
İnan, Bolu, mən Koroğlu deyiləm.
İnnən belə yaxşılığın günüdü,
İnan, Bolu, mən Koroğlu deyiləm.

Koroğlu bir igid, əsli-zatı var,
Həm namusu, arı, həm qeyrəti var,
Dəmir cilov altda Ərəb atı var,
İnan, Bolu, mən Koroğlu deyiləm.

Sonra Mehtər Murtuza dönüb, aldı sözün o biri xanəsini, dedi:

Koroğlu deyiləm, yırtma yaxanı,
Ciyərimi eşq oduna yaxanı,
İyidin olmazmı qılınc-qalxanı?!
İnan, Bolu, mən Koroğlu deyiləm.

Söz Bolu bəyə əsər elədi. Döndü Mehtər Murtuza ki:

– Sən bizi aldadırmışsan. Bu, Koroğlu deyilmiş.

Mehtər Murtuz dedi:

– Bolu bəy, mən illərlə buna mehtərlik eləmişəm. Mən bunun dabbaxda gönünü görsəm, tanıyaram. Necə yəni qoruqçudu. Koroğludu, lap bir də üstündən.

Bolu bəy qaldı məəttəl ki, nə eləsin. Məsləhət-məşvərətdən sonra qoşun böyükləri hamısı dedi:

– Biz heç birimiz Koroğlunu tanımırıq. Bircə tanıyan bu kişidi ki, bu da belə deyir. Day biz öz adamımızı qoyub onun sözünə niyə inanırıq? Götürüb gedək, vəssalam.

Bolu bəy hökm elədi, qoşun başladı hazırlaşmağa. Koroğlu gördü yox, bunu aparırlar, dedi:



– Yaxşı, sənin ağlın yoxdu, bu adamın sözünə baxıb məni aparırsan. Xotkarın da ağlı yoxdu? Ya mənim dilim yoxdu ki, onu başa salmayam? Niyə xotkar görmür ki, mən yaraqsız-yasaqsız bir adamam? Belə də Koroğlu olar? Əgər Koroğlunu tutmaq belə asan olsaydı, onda nə var idi ki? Bir də Koroğlunu sən tanımırsan. O biri paşalar, xanlar ki tanıyırlar. Xotkarın elə öz oğlu Bürcü Sultan da Koroğlunu tanıyır ki... Bəs onlara nə deyəcəksən?

Koroğlunun sözləri Bolu bəyi lap inandırdı. Fikirləşdi ki, bunu aparram, birdən Koroğlu olmaz, dünyayi-aləmdə biabır olub gedərəm. Ondan sonra ya gərək özümü öldürəm, ya da ki guşənişin olub camaat içinə çıxmayam.

Qərəz, əmr elədi, Koroğlunun əllərini açdılar. Koroğlu durub getmək istəyəndə Bolu bəy dedi:

– Deyirlər, qoç Koroğlu çox igiddi. Heç zaddan qorxmaz. Heç zadı da gizlətməz. İndi olan oldu, keçən keçdi. Görürsən ki, bax əllərin də açıqdı. İndi mərdi-mərdana özün de görək, sən Koroğlusan, ya yox?

Koroğlu gülüb dedi:

– İndi ki sən mərdi-mərdana soruşursan, mən də mərdi-mərdana sənə cavab verəcəyəm. Bəli, Koroğluyam.

Bolu bəy istədi qalxıb qoşuna hay vursun, Koroğlu dedi:

– Dayan! Nahaq yerə zəhmət çəkmə! Day sən məni tuta bilməzsən. Ancaq de görüm, sən kimsən? Buraya niyə gəlmisən?

Bolu bəy hiylə niqabın üzünə çəkib dedi:

– Koroğlu, bil və agah ol! Mən ərzincanlı Bolu bəyəm. Hasan paşa məni göndərib ki, səni tutub aparam, əvəzində onun qızı Dünya xanımı alam.

Koroğlu güldü, dedi:

– Balam, bu Hasan paşa mənim yolumda qızlarını nə yaman hərrac-bazara qoyub satır? İndi ki belədi, qoy olsun. Mənim ucbatımdan onun bir qızı Həmzəyə gedib, qoy bu biri də sənə getsin. Görək indi evdə qalan arvad-uşağını kimə vəd verib, mənim dalımca göndərəcək.

Onda Bolu bəyə dedi:

– Mən Koroğluyam. Bir sözü ki dedim, ölüm də olsa, ondan dönmərəm. İndi ki sən Hasan paşanın qızını almaq istəyirsən, o da qızın əvəzində səndən məni istəyir, eybi yoxdu. Mən razıyam. Qoy gedim, yaraq-yasağımı götürüm, gəlim. Apar məni Hasan paşaya təhvil ver, qızını al! Sonrası ilə işin yoxdu.

- Şeir parçalarında diqqətinizi çəkən fikirlər hansılardır?
- Qoruqçunu – Koroğlunu Ərzincana aparmaq niyyətindən Bolu bəyin əl çəkməsinə səbəb nə oldu?
- "Bolu bəy hiylə niqabını üzünə çəkib dedi" cümləsindəki fikri necə başa düşürsünüz?
- Bolu bəy Çənlibelə, doğrudanmı, yalnız Dünya xanıma görə gəlmişdi?
- Bolu bəyin Dünya xanımla əlaqədar uydurduğu yalana inanan Koroğlu hansı qərara gəldi?

**3**

Bunu deyib Koroğlu döndü, Çənlibelə yol başladı. Qoşun böyükləri hamısı ağız-ağıza verib Bolu bəyi məzəmmət elədilər ki:

– Nahaq yerə onu əldən buraxdın. Bu saat dəliləri töküb hamımızı qırıbçatacaq.

Mehtər Murtuz dedi:

– Yox. Düzdü, Koroğlu çox fənd-fel adamdı. Amma hər nədisə, mərddi. Onda namərdlik olmaz. Necə ki deyib, elə də eləyəcək.

Bolu bəy dedi:

– Mən bilirəm, o gələcək. Qoy gəlsin. Sonrası ilə sizin işiniz yoxdu. O, Koroğludursa, mən də Bolu bəyəm.

Bu tərəfdən də Koroğlu özünü yetirdi Çənlibelə. Koroğlu bilirdi ki, əhvalatı dəlilərə, xanımlara danışsa, onu qoymayacaqlar getsin. Odu ki heç kəsə bir söz deməyib gizlincə geyindi. Yaraqlarını götürdü. Ata minib geri qayıtdı.

Bolu bəygil bir də baxdılar ki, budu, Koroğlu gəlir. Gəlir, amma nə gəlir? Elə bil ki bir dənə əjdahadı minib bir filə. Bolu bəyin qoşununun yarısı elə onun bu heybətindən qorxub ürək ağrısına düşdü.

Koroğlu gəlib çatdı. Üzün Bolu bəyə tutub dedi:

– Bolu bəy, mən vədimə doğru çıxıb gəldim. Ancaq sən bayaq məni tutmuşdun. Birdən elə fikir eləyərsən ki, elə məni, doğrudan da, tutub apara bilərsən. Odu ki sənlə bir şərtim var. İndi gərək səninlə bir savaşam. Sən mənim gücümü görəsən, mən sənin.

Bunu deyib Koroğlu Qıratı gətirdi cövlana. Bir o başa, bir bu başa sürüb dik Bolu bəyin qabağında saxladı, dedi:

Əli beldə durub əmr eləyərdin,
Koroğlunu tutan dəmlər necoldu?
Hərdən-hərdən asın-kəsin deyərdin,
Koroğlunu tutan dəmlər necoldu?

...Koroğluyam, müxənnətə uymaram,
Qisasımı qiyamətə qoymaram,
Düşmanın qanından içsəm, doymaram,
Koroğlunu tutan dəmlər necoldu?

Bolu bəy hiylə niqabın üzünə çəkib dedi:

– Ay Koroğlu, o necə deyərlər, qul xətasız olmaz, ağa kərəmsiz. Mərd basdığını kəsməz. İndi bir iş idi, olmuşdu. Necə ki sən istəyirsən, de, elə də eləyək.

Koroğlu dedi:

– Yox. Qoşununa de, dava başlasın. Yoxsa hamınızı qıracağam.

Bunu deyib Koroğlu Misri qılıncı çəkdi. Qoşun böyükləri gördülər, yox, Koroğlu doğru-doğru dava başlayır. Qoşuna hay vurdular. Hər tərəfdən töküldülər Koroğlunun üstünə. Koroğlu bir dəli nərə çəkib özünü vurdu qoşuna. Bir sağa vurdu, bir sola vurdu. Qoşunu qatım-qatım qatladı. Qoşun şahin görmüş toyuq-cücə kimi pərən-pərən düşdü. “Vay, ana!” deyən kim, ağlayan kim, yalvaran kim. Bir qiyamət qopdu ki, nə təhər.

Bolu bəy gördü ki, qoşun əldən gedir. Qəcər Alıya hay vurdu ki:

– Evin yıxılsın, bəs mən səni bura niyə gətirmişəm? Qoşun əldən getdi axı...

Qəcər Alı çar-naçar qılıncını çəkib girdi meydana. Koroğlu heç aman vermədi ki, Qəcər Alı bir əl-qol açsın. Hələ lap uzaqdan şeşpəri qaldırdı. Elə tulladı ki, Qəcər Alı təpəsi üstə gəldi yerə. Bu il ölübsən, bildir, Qəcər Alı bayaq ha cəhənnəmə vasil oldu. Bolu bəy işi belə görəndə baxdı ki, day ayrı bir əlacı yoxdu, özünü atdı Koroğlunun ayaqlarına.

Koroğlu qızılquş kimi özünü atdan yerə atıb çökdü Bolu bəyin sinəsinə, dedi:

Qollarını bağladaram,
Bolu, mən sənin, mən sənin.
Anacığın ağladaram,
Bolu, mən sənin, mən sənin.

... Koroğluyam, iş bitirrəm,
Səni dünyadan itirrəm,
Başın bədəndən götürrəm,
Bolu, mən sənin, mən sənin!

Söz tamama yetdi. Koroğlu Bolu bəyin sinəsindən qalxdı, dedi:

– İndi mən sənin ixtiyarındayam. Hara istəyirsən, necə istəyirsən, apar!

Bolu bəy ufuldaya-ufuldaya yerindən durub dedi:

– Rəhmətliyin oğlu, sən bizdə bir islahat qoydun ki, bizim ağlımız başımızda olsun, səni də aparmaq fikrinə düşək?

Koroğlu gülüb dedi:

– Eybi yoxdu. İnşallah, elə ki məni aparıb Hasan paşaya verdin, Dünya xanımı aldın, toyda hamısı yadından çıxar. Di atlanın, gedək!

Bolu bəy bir o yanına baxdı, bir bu yanına baxdı, dedi:

– Yox, qardaş, mən səni heç yerə aparası deyiləm.

Koroğlu dedi:

– Niyə?

Bolu bəy dedi:

– Göz gördüyündən qorxar. Mən səndə gördüyümü gördüm. Keyfin istədi, bir belə zarafat da yolda elədin. Səninlə sövda eləmək çətin işdi.

Koroğlu gülüb dedi:

– Qorxma! Heç bir şey eləmərəm.

Bolu bəy dedi:

– Yox, başına dönüm! Allah atana rəhmət eləsin. Mən nə Hasan paşanın qızını istəyirəm, nə də səninlə belə-belə zarafatlar eləmək istəyirəm.

Koroğlu dedi:

– Ayə, mən Koroğluyam. Koroğlu söz verməz. Verdi, müxənnətlik eləməz. İndi ki ehtiyat eləyirsən, budu, gəl bağla qollarımı, elə apar.

Bolu bəyin də elə azarı bu idi. Tez adamlarına göz elədi ki, day fürsətdi, dayanmasınlar. Bir möhkəm zəncirlə o saat Koroğlunun qollarını bağladılar dalına. Sonra bir-iki kəndirlə də sarıdılar ata. Bolu bəy işi hazır görəndə hökm elədi, qoşun atlandı. Koroğlunu qabaqlarına salıb Ərzincana yol başladılar.

Az getdilər, çox getdilər, yolun bir yerində Koroğlu geri qanrılıb Bolu bəyi çağırdı ki:

– Bolu bəy, amma yadında qalsın, qızı almamış məni Hasan paşaya vermə ha!..

Bolu bəy soruşdu:

– Niyə?

Koroğlu dedi:

– O işi ki mən onun başına gətirəcəyəm, ondan sonra o sənə qız verməz. Sən qabaqca qızı gətizdir Ərzincana, sonra məni onun əlinə ver!

- Bolu bəyə verdiyi sözə əməl etməsi Koroğlu haqqındakı təsəvvürünüzə nə əlavə etdi?
- Koroğlunun Bolu bəyin qoşunu ilə döyüşü nə ilə nəticələndi?
- Bu döyüşə girməkdə Koroğlunun məqsədi nə idi?
- Bolu bəy Koroğlunun qollarını bağlatmaq üçün hansı hiyləyə əl atdı?

4

Bolu bəy baxdı ki, daha Çənlibel sərhədindən çıxhaçıxdadılar. Dedi:

– Baş üstə, sən necə ki deyirsən, eləcə edərəm. Ancaq mən bir şey də eləmək istəyirəm.

Koroğlu soruşdu:

– Nə şey?

Bolu bəy dedi:

– Mən səni belə aparsam, heç kəs inanmayacaq ki, səni mən tutmuşam. Genə Qəcər Alı sağ olsaydı, fikirləşərdilər ki, yəqin, o tutub. Onu da ki vurub öldürdün. İndi bilirsən, mən nə eləmək istəyirəm?

– Nə eləmək istəyirsən?

Bolu bəy qanrılıb bir dala baxdı, ondan atının başını döndərib Koroğluya dedi:

– Sən atını sür, mən qoşuna baxım, qayıdıb deyərəm.

Bunu deyib Bolu bəy ata bir məhmiz göstərdi, geri döndü. Bolu bəy elə bir az ondan aralancaq atı təzədən döndərdi. Koroğlunu marıtlayıb atı dördəmə buraxdı. İldırım kimi Koroğluya çatanda nə gücü var, təpəsindən bir qılınc vurdu. Dedi:

– Bax belə eləmək istəyirəm, Koroğlu!

Ola qılınc, ola açıq baş. Qılınc neçə barmaq işlədi Koroğlunun başına. Üz-gözü qana boyandı. Dedi:

– Ay namərd! Niyə belə elədin?

Bolu bəy dedi:

– Elə elədim ki, inansınlar. İndi inanarlar. Mən gəlmişdim sənin ya başını aparam, ya leşini. İndi başını da aparıram, leşini də. Sən Koroğlusansa, mənə də Bolu bəy deyərlər.

Koroğlu elə bircə bunu dedi ki:

– Günah səndə deyil, məndədi. Mənə bu da azdı.

Koroğlunun başını da bağlamadılar. Elə qanı axa-axa düzəldilər yola. Koroğlunun əli hər yerdən üzüldü.

Bir az getmişdilər, qabaqdan bir karvan çıxdı. Koroğlu baxdı ki, dostu Xoca Əziz də bəzirganların içindədi. Üzün ona tutub dedi:

Pünhanı, sövdayar qardaş,
Aparırlar pünhan məni.
Ərənlərə qurban bu baş,
Aparırlar pünhan məni.

... Koroğluyam, tək qalmışam,
Qollarımı bağlatmışam,
Bolu bəyə qul olmuşam,
Aparırlar pünhan məni.

Xoca Əziz əvvəl elə bildi ki, Koroğlu deyir aparırlar pirə məni. Fikirləşdi ki, yəqin, Koroğlu dəli olub, dəlilər onu pirə aparırlar. Ürəyində çox vaysındı. Çox hayıfsılandı. Sonra baxdı ki, Koroğlunun başı yarılıb. Qolları bağlanıb. Dalınca böyük bir qoşun gedir, qabaqlarında da Bolu bəy.

Xoca Əziz o saat barmağını dişlədi ki:

– Ey dili-qafil, yəqin, burda bir sirr var.

Day dayanmayıb, karvanı tapşırdı yoldaşlarına, birbaş daban aldı Çənlibelə.

Xoca Əziz gəlib Çənlibelə gördü ki, dəlilərin heç bir şeydən xəbərləri yoxdu. Heç Koroğlunun harada olmağını da bilmirlər. Açıb əhvalatı necə ki görmüşdü, danışdı. Dəlilər qaldılar mat-məəttəl ki, bu necə olan işdi. Biri inandı, biri inanmadı, biri belə dedi, biri elə dedi, bilmədilər ki, nə eləsinlər. Dəlilər elə götür-qoyda idilər, bir də baxdılar ki, budu, Aşıq Cünun gəlir. Aşıq Cünunun elə birinci sözü bu oldu ki:

– Hanı Koroğlu?

Əhvalatı necə ki Xoca Əziz danışmışdı, ona dedilər. Aşıq Cünun əhvalatdan hali olan kimi iki əllərini dizinə vurub dedi:

– Koroğlu getdi!

Soruşdular:

– Axır bir de görək nə var? Hardan gəlirsən? Nə öyrənmisən?

Aşıq Cünun dedi:

– Eşidin, agah olun! Mən bu ayaq Toqatdan gəlirəm. Paşalar Çənlibelə qoşun çəkirlər. Bolu bəy Ərzincan tərəfdən, Ərəb Reyhan Qars tərəfdən, Hasan paşa özü də Toqat tərəfdən. Xotkarın fərmanıdı. Mən dünən Toqatda eşitdim ki, Bolu bəyin qoşunu Çənlibelə yola düşüb.

Dəlilərin içinə bir vəlvələ düşdü ki, hamısı başladı cilov gəmirməyə. Dəli Həsən hay vurdu Dəli Mehtərə ki:

– Atı yəhərlə! Gərək Bolu bəyə bir toy tutam ki, qiyamətdə də yadından çıxmasın.

**5**

Dəlilər başladılar hazırlaşmağa. Nigar durdu ayağa, dedi:

– Yox, Dəli Həsən! Bu saat Çənlibeli başsız qoyub getmək olmaz. Bir də ki getdiz, hara gedəcəksiniz?! Nə bilirik ki, Bolu bəy Koroğlunu Ərzincana aparacaq, ya elə birbaş İstanbula aparacaq?! Gedərsiz, səfəriniz uzun çəkər, düşmən Çənlibelə ayaq alar.

Dəli Həsən dedi:

– Bəs nə eləyək?

Nigar xanım dedi:

– Koroğlunun dalıncan qabaqcan bir adam getməlidi. Uşaqlardan biri gedər, yerini, yurdunu öyrənər, gələr, sonra baxarıq, görək nə eləyirik.

Nigar xanımın tədbirinə hamı razı oldu. Soruşdular:

– Bəs kim getsin?

Dəmirçioğlu durdu ayağa ki:

– Mən, mən gedirəm.

Nigar xanım ona razı olmadı. Dedi:

– Yox, Dəmirçioğlu! Sən gedə bilməzsən. Eşitdin ki?.. Bizim üstümüzə iki tərəfdən düşmən gəlir. Bir Qars tərəfdən, bir Toqat tərəfdən. Qars budu, bizim bu tərəfimizdi. Amma Toqat hardadı? Bu biri tərəfimizdə. Gərək biz də dəliləri iki yerə bölək. Birinə sən baxasan, birinə də Dəli Həsən. Qoy ayrı adam getsin.

- Nigar xanımı haqlı saymaq olarmı?

- Nigar xanımın məsləhətinə hamının razı olmasına səbəb nə idi?

Onda İsabalı yerindən qalxdı ki:
– Nigar xanım, rüsxət ver, mən gedim!
İsabalının getməyinə hamı razı oldu. İsabalı o saat geyindi, kecindi, atını yəhərlədi, mindi, dəlilərlə, xanımlarla görüşdü. Getmək istəyəndə Nigar xanım dedi:
– Qabaqcadan Ərzincana gedərsən. Orda olmasa, Toqata sürərsən. Orda da olmasa, gərək İstanbula gedəsən. Amma vaxtlı-vaxtında xəbərin bizə çatsın.
İsabalı:
– Baş üstə! – deyib atı vurdu. Ərzincana tərəf yol başladı. İndi İsabalı getməyində olsun, dəlilər hazırlaşmağında, sənə kimdən xəbər verim, Bolu bəydən.
Bolu bəy Koroğlunu birbaş gətirdi Ərzincana. Zindana, zirzəmiyə etibar eləməyib, öz həyətində dərin bir quyu var idi, saldı o quyuya. Həyətin dörd ətrafına da çitəmə keşikçi düzdürdü. Elə ki bu işləri görüb qurtardı, götürüb Hasan paşaya belə bir namə göndərdi: "Hasan paşa, Koroğlunu tutub gətirmişəm. Bu saat Ərzincandadı. Qaydası bu idi ki, gərək mən onu sənin yanına gətirəydim. Ancaq yanında küstaxlıq eləyirəm, bağışla! Mən istəyirəm ki, Dünya xanımı bir günlüyə Ərzincana göndərəsən, ta ki gəlib onu burada bir görsün, sonra hara desən, necə desən, nə vaxt desən, gətirmək mənim gözüm üstə".

- Bolu bəyin bu məzmunda məktub yazmasına səbəb nə idi?

Hasan paşa naməni oxucaq məsələni başa düşdü. Bildi ki, Bolu bəy ona inanmır. İstəyir ki, bu yol ilə Dünya xanımı Ərzincana aparıb Koroğlunu sonra versin. Hirs vurdu təpəsinə. Bir istədi naməni cırsın, özü də belə bir fərman versin ki, "sabah gün çıxanda gərək Koroğlu Toqatda ola". Sonra fikirləşdi: "Yaxşı, mən elə elərəm, o da götürüb yazar xotkara. Ondan sonra mən bir qızdan ötrü olaraq xotkarın yanında üç quruşluq". Odu ki çar-naçar bir kəcavə bəzətdirdi. Dünya xanımı öz başının adamları ilə guya ki gəzmək adı ilə Ərzincana göndərdi. Özü də atını minib xotkarın yanına gözaydınlığına getdi ki, oradan da xotkarın fikrini bilib Ərzincana qayıtsın.

- Hasan paşa nə üçün ehtiyatlı davranırdı?

İndi Hasan paşa getməkdə olsun, bu tərəfdən Bolu bəyə xəbər çatdı ki, bəs Dünya xanım gəlir. Bolu bəy dəm-dəsgahla çıxdı Dünya xanımı pişvaz elədi, cahi-cəlal ilə gətirib öz imarətinə qoydu.
Dünya xanımın Bolu bəyi görəsi gözü yox idi. Elə ki eşitdi Bolu bəy onu almaq üçün Koroğlunun üstünə gedir, yaman sevindi. Fikirləşdi ki, çox yaxşı oldu. Qoy getsin. Bəlkə, Koroğlu bunu mənim başımdan rədd eləyə. Di sən gəl ki, iş vurdu, çıxdı tərsinə. Paşalara, xotkarlara qan udduran Koroğlu düşdü Bolu bəyə əsir. Dünya xanım qaldı mat-məəttəl ki, nə eləsin. Çox götür-qoydan, fikir-xəyaldan sonra ağlına gəldi ki, atasına yalvarıb-yaxarsın, bəlkə, rəhm eləyə. Bu tərəfdən də Hasan paşa hökm elədi ki, bəs hazırlaşsın, gedir Ərzincana. İndi özün fikirləş, gör, Dünya xanımın halı necə olar? Yazıq elə olmuşdu, elə olmuşdu ki, elə bil payız yarpağıdı, elə bir küləyə bənddi ki, qırılıb düşsün. Amma ki yazıq nə eləsin? İxtiyarı nəyə çatırdı ki, nə də eləyəydi...

- Dünya xanımın vəziyyəti sizdə hansı hiss yaratdı?

6

Qərəz, qaranlıq yavaş-yavaş başladı düşməyə. Elə ki hər yerdən səs-səmir kəsildi, Dünya xanım durdu ayağa. Pəncərəni açıb əyləşdi qabağında. Elə təzəcə oturmuşdu, bir də qulaqlarına bir səs gəldi. Huş-guş ilə fikir verib gördü ki, səs həyətdən gəlir. Kim isə elə yanıqlı-yanıqlı oxuyur ki... Özü də səs elə dərindən gəlir ki, elə bil lap quyunun dibindən çıxır. Çağırdı qaravaşı ki:

– Bu nə səsdi? Gecənin bu vaxtı bu oxuyan kimdi?

Qaravaş dedi:

– Koroğludu, xanım! Bolu bəy tutub gətirib salıb quyuya. Dünən də belə oxuyurdu.

Dünya xanım fikir verdi, gördü Koroğlu deyir:

Uca dağların başından
Yolum, ay mədəd, ay mədəd!..
Yaman yerdə tutdu məni
Ölüm, ay mədəd, ay mədəd!..

Belimdə yoxdu qılıncım,
Müxənnətə çatmır gücüm,
Nə yorğan var, nə də cecim,
Zülüm, ay mədəd, ay mədəd!..

Dünya xanım qaravaşdan yavaşca soruşdu:

– Məni gizlincə o quyunun başına apara bilərsənmi?

Qaravaşın sevincindən gözləri doldu, içini çəkə-çəkə dedi:

– Qurban olum sənə, ay xanım, elə apararam...

Dünya xanım qalxdı ayağa, qaravaşı da yanına alıb gəldi quyunun başına. Qaravaş tez Koroğlunu səsləyib dedi:

– Hasan paşanın qızı Dünya xanım gəlib. Səninlə danışmaq istəyir.

- Hökmdar qızı olan Dünya xanımın Koroğlu ilə maraqlanmasının səbəbini necə izah edərsiniz?

Koroğlu dedi:

– Xoş gəlib, səfa gətirib.

Dünya xanım dedi:

– Koroğlu, bu necə olub ki, sən qoç Koroğlu ola-ola, Bolu bəy kimi bir adama tutulubsan?

Bir ah Koroğlu quyuda çəkdi, bir ah da qaravaş quyunun başında.

Koroğlu dedi:

– Olacağa çarə yoxdu, xanım, bir işdi, oldu.

Bu sözdə qaravaş bir də içini çəkdi. Dünya xanım qaravaşa baxdı, qaravaşın qorxudan gözündəki yaş qurudu. Dünya xanım qaravaşın qorxduğunu görüb güldü. Qaravaş ürəkləndi. Dedi:

– Qurban olun sənə, ay xanım, gəlsənə bunu quyudan çıxardaq?

- Qaravaşın Koroğluya rəğbət bəsləməsinə səbəb, sizcə, nədir?

Koroğlu soruşdu:

– Neçə nəfərsiz?
Dünya xanım dedi:
– İki nəfər.
Koroğlu güldü, dedi:
– Xanım, iki yox, iyirmi nəfər də olsanız, sizin gücünüz mənə çatmaz. Məni burdan çıxara bilməzsiniz.
Dünya xanım dedi:
– Bəs nə təhər olsun? Mən istəmirəm ki, sənin kimi adam Bolu bəyin əlində puça çıxsın. Koroğlu dedi:
– Xanım, indi ki siz mənə kömək eləmək istəyirsiniz, onda gözdə-qulaqda olun, elə ki dəlilərdən mənim dalımca gəldi, yerimi nişan verin.
Dünya xanım dedi:
– Yaxşı, sənin yeməyin, içməyin nədi? Nə yollayım?
Koroğlu dedi:
– Xanım, yeddi qoyunun yarı şaqqası, yeddi batman unun çörəyi, yeddi batman düyünün aşı, yeddi tuluq şərab bir öyləmin xörəyidi. Gör düzəldə bilsən, göndər.

- Bu sadalananlar bir nəfərin yeməyi deyil. Nağıllarda, dastanlarda belə təsvirlərə yer verilməsi, sizcə, nə ilə bağlıdır?

Dünya xanım dedi:
– Düzəldərəm. Lap gecəylə hazırlayıb səhərə yaxın göndərərəm. Sabah axşam da ki, genə özüm gələrəm.
Dünya xanım oradan evə gəlib qaravaşa pul verdi. Koroğlu üçün nə ki demişdi, qaravaş hazırlayıb Koroğluya apardı.

- Dünya xanımın səmimiyyətinə inanmaq olarmı? Nə üçün?

İndi eşit kimdən? İsabalıdan.
İsabalı Ərzincana çatanda səhər təzəcə açılırdı. Elə şəhəri gəzirdi, bir də gəlib çıxdı Bolu bəyin imarətinin qabağına. Dünya xanım da oturmuşdu pəncərədə, gözlərini dikmişdi yollara. Bir də baxdı ki, budu bir atlı gəlir, təhər-töhründən heç bu tərəfin adamlarına oxşamır. Rəng-rufundan görünür ki, dağ havasında böyümüş adamdır. Çağırıb soruşdu ki:
– Ay oğlan, kimsən? Haradan gəlib, haraya gedirsən?
Dünya xanımın cavabında aldı İsabalı, dedi:

Nə xan gördüm burda, nə də bir paşa,
Verin Koroğludan mənə bir xəbər!
Yağı düşmanları bağlaram daşa,
Verin Koroğludan mənə bir xəbər!

... Olan yoxdu mənim dərdimdən halı,
Heç başımdan getməz onun xəyalı,
Koroğluya qurban qoç İsabalı,
Verin Koroğludan mənə bir xəbər!

Söz tamam oldu. Dünya xanım dedi:

– Adə, səsini başına atma, düşməni duyuq salarsan. Koroğlu burdadı. Düş atdan, gəl içəriyə.

İsabalı atı sürdü qapıya. Bu tərəfdən də qaravaş yüyürdü onun qabağına. Qaravaş onda yetirdi ki, hasar dibindəki qoşunun böyüyü onunla çənə-boğazdadı. İçəriyə qoymaq istəmir ki istəmir. Qaravaş özün yetirib hirsləndi qoşun böyüyünün üstünə ki:

– Sənin nə həddin var, Dünya xanımın qonağını içəriyə qoymursan. Qoy gəlsin içəriyə. Hasan paşanın yanından gəlib. Dünya xanıma namə gətirib!

Qoşun böyüyü bir söz deyə bilmədi. Qaravaş İsabalını götürüb gətirdi birbaş Dünya xanımın yanına.

**7**

Di xoş-beş, on beş. Dünya xanım İsabalını tanıdı, İsabalı Dünya xanımı. Dünya xanım dedi:

– Koroğlu burda quyudadı. Ancaq indi onu çıxartmaq olmaz. Gərək gözləyək qaranlıq düşə.

- Dünya xanım bu qərarında haqlı idimi?

İsabalı gördü ki, Dünya xanım ağıllı söz danışır, razı oldu. Dünya xanım İsabalıya yer göstərdi. İsabalı əyləşdi. Yedilər, içdilər, İsabalı bir az uzandı ki, yol yorğunluğunu çıxartsın.

Sən demə, qaravaş İsabalını içəriyə gətirəndə qoşun böyüyü birbaş qaçıb əhvalatı Bolu bəyə danışıb.

Dünya xanım bir də baxdı ki, qoşun ətrafı aldı. Tez gəldi İsabalının yanına. Saçından üç yasəmən tel ayırıb basdı mərmər sinəsinin üstünə.

Dedi:

Yağı düşmən dörd bir yanı alıbdı,
Oyan, əcəm oğlu, dur get bu yerdən!
Sənin dərdin bu canımda qalıbdı,
Oyan, əcəm oğlu, dur get bu yerdən!

İsabalı cəld qalxdı ayağa. Baxdı ki, qoşun həyətin ətrafın tutub. Amma qorxudandı, nədəndisə, heç birisi cürət eləyib içəriyə girə bilmir. Bəri dönəndə baxdı ki, Dünya xanım ağlayır. Aldı görək, nə dedi:

Ağlama, ağlama, ay Dünya xanım!
Ölər əcəm oğlu, getməz bu yerdən!
Sənə qurban olsun bu şirin canım,
Ölər əcəm oğlu, getməz bu yerdən!

Söz tamam oldu. İsabalı dedi:

– Day iş o yerdən keçdi. Gecəni gözləmək olmayacaq. Sən Koroğlunun yerini mənə nişan ver!

Durub bir yerdə gəldilər quyunun başına. İsabalı istədi haylasın. Dünya xanım qoymadı. Dedi:

– Dayan!

Ondan üzünü quyuya tutub dedi:

– Koroğlu, dəlilərdən gələn olmadı. Bəs nə təhər eləyək? Bolu bu gün səni asdırmaq istəyir.

Koroğlu dedi:

– Elə demə, xanım! Dəli mənimdisə, mən bilirəm ki, gəlməmiş olmazlar, harda olsa, gəlib çıxarlar.

Dünya xanım dedi:

– Gəlsə, kim gələcək? Heç olmasa, bir adınsa da de, bilək.

Dünya xanımın cavabında aldı Koroğlu, dedi:

- Koroğlunun öz silahdaşlarına münasibəti barədə yeni nə öyrəndiniz?

Genə yada düşdü mərd oğullarım,
Bu gün Dəmirçioğlu burda gərəkdir.
Həzəran oyunlu, diliballarım,
Bu gün xan Eyvazım burda gərəkdi.

İgid məclisində boylu-büsatlı,
Meydana girəndə o ərəbatlı,
O Misri qılınclı, aslan süfatlı,
Bu gün Dəli Həsən burda gərəkdi.

Koroğlu önündə mərdanə duran,
Bənövşə bığların dalından buran,
Bir əlində yeddi ifçin nal qıran,
Bu gün İsabalı burda gərəkdi.

İsabalı dedı:

– Can Koroğlu, burdayam. Ancaq çalıb-oxumaq vaxtı deyil. Düşmən dörd tərəfimizi alıb. Tez ol çıx, görək nə eliyirik.

Sözü deyib İsabalı ipi atdı quyuya. Bir suiçim saatda Koroğlunu quyudan çıxartdı. Durub özlərini verdilər tövləyə. Atları çəkib mindilər. Koroğlu bir Dünya xanıma baxdı, bir İsabalıya baxdı, dedi:

– Dünya xanım, hazırlaş, səni də aparacağam. Sənin toyunu gərək özüm eləyəm.

Ondan Koroğlu qılınc çəkib dedi:

Misri qılınc, ləzgi qəmə,
Mən səni tər saxlamışam.
Dolaşma cübbə-cövşənə,
Düşmənə var saxlamışam!

... Koroğlu eylədi xəta,
İndi sən bax bu busata,
Canım qurban Ərəbata,
Oynar, kişnər saxlamışam!

Bunu deyib Koroğlu özünü vurdu qoşuna. Qoşun elə bircə dəfə Koroğlunun boyunu gördü. Bayaq ha üz qoydu qaçmağa. Atalar deyiblər ki, göz gördüyündən qorxar. Qoşun da ki Koroğludan gördüyünü görmüşdü. Bir anda meydan boşaldı. Koroğlu baxdı ki, Bolu bəy işi pis görüb əkilmək istəyir.

Bolu bəyin təpəsinə elə bir qılınc vurdu ki, iki parça olub yerə düşdü. Belə dönəndə gördü Mehtər Murtuz özün atdı Qıratın ayaqlarının altına ki:

– Koroğlu, bir qələtdi eləmişəm. Qul xətasız olmaz, ağa kərəmsiz. Məni dolandır Eyvazın başına.

Koroğlu dedi:

– Dur düş qabağıma!

Mehtər Murtuz sevincək durub düşdü Koroğlunun qabağına. Gəlib çatdılar İsabalıgilə. İsabalı soruşdu:

– Koroğlu, bu kimdir?

Koroğlu dedi:

– Bir yaxşı-yaxşı bax!

İsabalı diqqətlə baxıb dedi:

– Bu ki Mehtər Murtuzdu.

Koroğlu dedi:

– Özüdü ki, var. Yaxşı tanıyıbsan. Bələdçilik eləyib Çənlibelə yağı gətirən, məni Bolu bəyə nişan verən bu haramzada idi.

İsabalı əlini qılınca atmaq istəyəndə Koroğlu qoymadı.

Elə bu sözdə bir də baxdılar ki, budu, Dünya xanım bir atın üstündə, qaravaş da bir atın üstündə gəldilər. Koroğlu soruşdu:

– Dünya xanım, bəs bu kimdi?

Dünya xanım dedi:

– Bu mənim qaravaşımdı. Əgər bu olmasaydı, biz səni qurtara bilməyəcəkdik.

Koroğlu, İsabalı, Dünya xanım, qaravaş Mehtər Murtuzu qabaqlarına qatıb Çənlibelə tərəf yola düşdülər. O qədər at sürdülər ki, gəlib çatdılar Çənlibelin dağlarına. Dağları görcək Koroğlunun ürəyi oynadı, gözləri doldu. Koroğlu çox qürbətlərdə olmuşdu. Amma heç belə qəribsəməmişdi. Budəfəki qürbət ona çox əsər eləmişdi. Üzünü dağlara tutub dedi:

- “Qul xətasız olmaz, ağa kərəmsiz” cümləsində ifadə olunmuş fikri necə başa düşdünüz?

- Koroğlunun Mehtər Murtuzu bağışlaması sizdə hansı hiss və düşüncə yaratdı?

- Çənlibelə, onun dağlarına Koroğlunun sonsuz məhəbbətinin səbəbini necə izah edərsiniz?

Bir zamanlar səfa sürüb gəzərdim,
Onda səndin mənim qardaşım, dağlar!
Nə zaman ki yağı düşman gələndə
Səndə çox olurdu savaşım, dağlar.

... Koroğluyam, gəzdiyimi tapardım,
Qayalar başında qala yapardım,
Ağ sürüdən əmlik quzu qapardım,
Yeyib qurdlarınla ulaşım, dağlar!

**I dərs**

### • Məzmun üzrə is

1. Əsərin ilk üç parçasını oxuyun (bunu fərqli formalarda həyata keçirə bilərsiniz, fasilələrlə oxunun tətbiqi daha məqsədəuyğundur). Hər parçanın oxusundan sonrakı fasilədə onun məzmunu ilə bağlı suallara cavab verin.
2. Parta yoldaşınızla birlikdə dördüncü parçanın məzmununa aid suallar tərtib edin. Kiçik qruplarda birləşib suallara cavab hazırlayın.
3. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.

### • Evdə iş

1. Dastanın ardını oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

**II dərs**

### • Məzmun üzrə iş

1. Evdə oxuduğunuz parçaları bir daha nəzərdən keçirin, mətnin kənarındakı suallara parta yoldaşınızla birlikdə cavab hazırlayın.
2. Kiçik qruplarda fikir mübadiləsi aparın və cavabları təqdimat əsasında müzakirə edin.

**Bilik və bacarıqlarınızı tətbiq edin.**

3. Əsərin dastan janrında olduğunu nümunələrlə əsaslandırın.

“Koroğlu” dastandır, çünki...

4. Əsərdən seçdiyiniz hissəyə ad verin. Məzmununu tərtib etdiyiniz plan əsasında yaradıcı nağıletməyə hazırlaşın.

### • Evdə iş

• Tarix dərsliyi də daxil olmaqla, müxtəlif mənbələrdən öyrəndiyiniz məlumat əsasında “Cəlalilər hərəkatı və “Koroğlu” dastanı” mövzusunda məruzə mətni hazırlayın.

**III dərs**

### • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

XVI əsrin sonu, XVII əsrin əvvəllərində baş verən Cəlalilər hərəkatı xalq arasında geniş əks-səda tapmışdı. “Koroğlu” dastanının tarixi mənbəyi məhz bu hərəkat hesab olunur. Lakin unutmaq olmaz ki, bu dastan xalqın bədii təfəkkürünün, düşüncəsinin məhsuludur. Elə buna görə də istər Koroğlunun, istərsə də onun silahdaşlarının – dəlilərinin bədii obrazı xalqın arzu

və istəyinə, zövqünə uyğun olaraq yaradılmışdır. Dastanda anaya, qadına hörmət, əmək adamına rəğbət, zülmə, ədalətsizliyə etiraz və nifrət hissi geniş əksini tapmışdır.

"Koroğlu ilə Bolu bəy" qolunda bir-birinə zidd olan iki əxlaq qarşı-qarşıya gəlir. Bir tərəfdə mərdlik, igidlik, xeyirxahlıq, digər tərəfdə namərdlik, qorxaqlıq, pislik... Dastanın üzərində müşahidələrinizi davam etdirin. Hakim təbəqənin nümayəndələrinin və el qəhrəmanlarının xarakter və əməllərindəki fərqi müəyyənləşdirməyə çalışın. Nigar xanım qolda az görünsə də, diqqəti dərhal çəkir. Onun böyük hörmət və nüfuz sahibi olmasının səbəbini aydınlaşdırmağa səy göstərin.

Dastan bədii gözəlliyi ilə də oxucunu valeh edir. Bu gözəlliyi yaradan vasitələrin üzərində düşünün. Əhvalat və hadisələrin bir-biri ilə necə ustalıqla bağlandığına, dilin sadəliyinə və təravətinə xüsusi fikir verin. Obrazların hiss və düşüncələrinin təbii, inandırıcı ifadə edilməsində, döyüş səhnələrinin canlı təsvirində bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırın.

## • Araşdırın • Fikirləşin • Cavab

2. Qolda Koroğlu obrazının hansı yeni xüsusiyyətlərini öyrəndiniz? Onun davranış və əməllərinə, müxtəlif vəziyyətlərdə nitqinə – danışığına diqqət yetirməklə fikrinizi əsaslandırın.
3. Bolu bəyin xarakterindəki başlıca cəhətlər hansılardır? Onun nitqindən, davranış və əməllərindən nümunələr gətirməklə fikrinizi əsaslandırın.
4. Nigar xanımın Çənlibeldə böyük hörmət, nüfuz sahibi olmasına səbəb, sizcə, nədir?
5. Dünya xanımı ağıllı, tədbirli adam saymaq olarmı? Fikrinizi dastandan seçdiyiniz misallarla əsaslandırın.
6. Epik növün nümunəsi olmaqla, dastanı lirik növdən fərqləndirən cəhətlər hansılardır? Müqayisələr aparmaqla fikrinizi əsaslandırın. Müqayisə cədvəlindən, yaxud Venn diaqramından istifadə edin.
7. Qolda bədiiliyi təmin edən cəhətləri aydınlaşdırın. Bədii təsvir və ifadə vasitələrinin, atalar sözü və deyimlərin rolunun müəyyənləşdirilməsinə xüsusi diqqət yetirin.
8. Əsərin ideyasını, süjetindəki başlıca xüsusiyyətləri müəyyənləşdirin.

## • Tətbiq • Müzakirə • Yaradıcı iş

**Müzakirə edin:** Qoldakı şeirlər əhvalat və hadisələrlə, qəhrəmanların ovqatı, vəziyyəti ilə necə səsləşir?

## • Evdə iş

• Mövzulardan birini seçib işləyin.
1. "Koroğlunun döyüşlərdə uğur qazanmasının səbəbini nədə görürəm?" mövzusunda esse yazın.
2. "Koroğlu ilə Bolu bəyin müqayisəli təhlili" mövzusunda inşa yazın.



**MOLLA PƏNAH VAQİF**
(1717–1797)

Ana dilimizdə onun kimi sadə, aydın şeir yazan az olub. Müasirləri ona nəzirə yazmağa səy ediblərsə də, onun kimi gözəl və açıq kəlam söyləməkdə aciz qalıblar.

*Firidun bəy Köçərli*

**• Yada salın**

– Azərbaycan kəndinin keçmişini əks etdirən hansı əsərlərlə tanışsınız?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**• Düşünün**

– Uzaq keçmişdə yaşayan sənətkarlarımız zamanələrindəki ictimai mətləbləri, nöqsanları, sizcə, hansı məqsədlə əsərlərinə gətirmişlər?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyən edin.

## HAYIF Kİ, YOXDUR...
*(ixtisarla)*

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Ucu tər cığalı siyah tellərin
Hərdən tamaşası, hayıf ki, yoxdur!

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası, hayıf ki, yoxdur!

Elə gözəl var bunların içində,
Ələ düşməz hərgiz Çinü Maçində.
Söyləgən, oynağan, dürüst biçimdə
Bəzəyi, libası, hayıf ki, yoxdur.

Ucu əşrəfili, bulut kimi saç,
Dal gərdəndə hər hörüyü bir qulac,
Kəlağayı əlvan, qəsabə qıyğac,
Altından cunası, hayıf ki, yoxdur!

Zər haşiyə al nimtənə üstündə,
Xallar üz yanında, çənə üstündə,
Buxağın altında, sinə üstündə,
Zülfün burulması, hayıf ki, yoxdur!

Ayna tutub hərdəm camal görməsi,
Zülfə, zənəxdana sığal verməsi,
Səhər ala gözün siyah sürməsi,
Əlinin hənası, hayıf ki, yoxdur!

Vaqif haqdan dilər lütfü kərəmlər,
Belə yerdə qalan, vallah, vərəmlər.
Yenə yada düşdü bizim sənəmlər,
Getməyin binası, hayıf ki, yoxdur!

**I dərs**

## • Məzmun üzrə iş

1. Əsəri fərdi olaraq oxuyun, düşüncələrinizi ikihissəli gündəlikdə qeyd edin.
2. Eyni, yaxud yaxın fikirdə olduğunuz yoldaşlarınızla kiçik qruplarda birləşib fikir mübadiləsi aparın.
3. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.
4. Mövzulardan birini seçib şifahi təqdimat hazırlayın:

a. "Şeir məndə hansı hiss və düşüncələr yaratdı?" Öyrəndiyiniz yeni sözlərdən istifadə edin.

b. Qoşmanın ilk üç bəndini nəsrə çevirib məzmununu yaradıcı danışın. Əlavələrinizin səbəbini izah edin.

## • Evdə iş

- "Şeirdə təsvir olunan məkanın təbiəti və yaşayış məntəqələri bu gün" mövzusu üzrə məlumat toplayıb şifahi təqdimata hazırlaşın.

**II dərs**

## • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Bu şeirin yaranması ilə bağlı rəvayətə görə, Qarabağ xanı İbrahimxəlil xan vəziri Vaqif də daxil olmaqla, böyük bir atlı dəstəsi ilə Kür qırağındakı obalardan birində düşərgə salır. Xanın getməsi uzanır. Yerli əhali onlara qulluq etmək əziyyətindən xilas olmaq üçün xanın saraya qayıtmasını tezləşdirməyi Vaqifdən xahiş edir. Beləliklə, xanın

məclisində oxunan bu gözəl əsər meydana gəlir. Xalq yaradıcılığından uğurla bəhrələnən şair dilinin aydınlığı, şirinliyi ilə diqqəti dərhal cəlb edən, bütün dövrlərdə maraqla oxunan və asan əzbərlənən bu şeirdə yalnız doğma təbiəti, kənd gözəllərinin geyimini, bəzəyini təsvir etməklə kifayətlənməmişdir. Əsərdə əksini tapmış ictimai mətləbləri, şairin kədər və təəssüf hissinin səbəblərini aydınlaşdırmağa çalışın. Şeirin bədii təsir gücünü artıran vasitələri müəyyənləşdirməyə səy edin. Bədii təzadın, təsvir və ifadə vasitələrinin əsərə gətirdiyi gözəlliyi aşkara çıxarmağa xüsusi diqqət yetirin. Şeirin forma xüsusiyyətlərinə nəzər salmağı da unutmayın. *O, heca vəznində olub* ***qoşma*** *janrında yazılmışdır. Daha çox 3, 5, 7 bənddən ibarət olan qoşmanın misraları 11 hecalıdır. Misradaxili bölgüsü 6–5, yaxud 4–4–3 şəklindədir. Birinci bəndin birinci-üçüncü misraları sərbəst, ikinci-dördüncü misraları həmqafiyə olur. Qalan bəndlərin ilk üç misrası öz aralarında qafiyələnir, dördüncü misra isə birinci bəndin sonuncu misrası ilə qafiyələnir. Son bənddə, adətən, müəllifin adı və ya təxəllüsü verilir.* Bütün bunlar əsərin ideya-məzmununu, forma xüsusiyyətlərini daha dərindən başa düşməyinizə və ətraflı izah etməyinizə imkan yaradacaqdır.

**• Araşdırın • Fikirləşin • Cavab verin**

2. Şeir yazıldığı dövr haqqında oxucuda hansı təsəvvür yaradır? Fikrinizi nümunələrlə əsaslandırın.
3. Şair Azərbaycan təbiətini – Kür qırağının gözəlliyini, bu yerin insanlarını təbii və inandırıcı əks etdirə bilmişdirmi?
4. "Əsərdə vətənini, xalqını dərin məhəbbətlə sevən həssas sənətkarın narahatlıq duyulan səsi də eşidilir" fikrini doğru saymaq olarmı? Nə üçün?
5. Qoşmanın bədii təsir gücünü artırmaq üçün şair hansı vasitələrdən və necə istifadə etmişdir?
6. Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?

**• Evdə iş**

• Əsərin lirik növdə olduğunu və qoşma janrında yazıldığını əsaslandırın. Şifahi təqdimata hazırlaşın.

**III dərs**

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

1. Aşağıdakı mətni fərdi olaraq oxuyun, tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

## QASIM BƏY ZAKİR

### Gəlsin

Badi-səba, söylə mənim yarıma,
Gözəllər çıxıbdı seyranə, gəlsin!
Təğafül etməsin, işrət çağıdır,
İçilir hər yerdə peymanə, gəlsin!

Bənövşələr salsın başın aşağa,
Nərgiz olsun gözlərinə sadağa,
Gül camalın görüb düşsün torpağa,
Bülbülü gətirsin əfğanə, gəlsin!

Siyah zülfü tər buxaqda dənlənib,
Sonalar yerişi ondan öyrənib,
Ovçu görmüş maral kimi səksənib,
Oğrun baxa-baxa hər yanə gəlsin!

Barmağında xatəm, belində kəmər,
Telində güşvarə, düymə tamam zər,
Qərq olsun yaşıla, ala sərasər,
Naz ilə sallana-sallana gəlsin!

Sürmə çəksin gözlərinə, qaşına,
Gündə yüz yol mən dolanım başına,
Zakirtək yanmağa eşq ataşına
Cürəti var isə, pərvanə gəlsin!

2. Kiçik qruplarda birləşib şeirin məzmununa aid suallar tərtib edin. Həmin suallara hazırladığınız cavabları müzakirə edin.
3. Əsərin məzmununu mənimsədiyinizə əmin olduqdan sonra onu “Hayıf ki, yoxdur...” qoşması ilə müqayisə edin. Bu əsərlərin mövzusu, ideyası, bədii xüsusiyyətləri arasındakı oxşar və fərqli cəhətləri nümunələr əsasında aydınlaşdırmağa çalışın.
4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.
5. **“Hayıf ki, yoxdur...”** qoşmasının ilk iki bəndinin ifadəli oxusuna hazırlaşın:
   – Əvvəlcə ifaçılıq vəzifəsini – dinləyicilərə nə çatdıracağınızı aydınlaşdırın.
   – Sonra bəndin oxusunda səsinizin aldığı çalarları qeyd edin. Unutmayın ki, məzmundan asılı olaraq, misraların hər birinin oxusunda da fərqli səs çalarları yarana bilər.
   – Fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin sürətini, ucalığını və s. müəyyənləşdirib şərti işarələrlə göstərin.
6. İfaları dinləyib müzakirə edin.

### • Evdə iş

• Qoşmanın bütövlükdə ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin.

## SAİB TƏBRİZİ

### Söz

*(ixtisarla)*

Hansı qəlbdə yandısa, bil ki, çıraqban etdi söz,
Söz qanan insanları gülşəndə mehman etdi söz.

Hansı söz ki dinlədikdə qəlbə təsir etmədi,
Bil, təbiltək hay salıb boş yerdə cövlan etdi söz.

Öz qələmin dişləyərsə söz yazan sözdən sarı,
O qələm əhlin axırda çox pərişan etdi söz.

Özgələrdən bircə fərqim vardı bu babətdə kim,
Hamıdan artıq məni mənada heyran etdi söz.

Mehribanlıq eyləyib mən sözlərə verdim sığal,
Quş kimi açdı qanad, göylərdə cövlan etdi söz.

Çün qələmtək öz başından keçdi Saib söz üçün,
Bu səbəbdəndir, onu məşhuri-dövran etdi söz.

*(Tərcümə edən: B.Azəroğlu)*

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA MAARİFÇİ REALİZM DÖVRÜ

Bu yüzil xalqımızın tarixində mürəkkəb, ziddiyyətli bir dövrdür. Bir çox böyük dövlətlərin göz dikdiyi Azərbaycan Rusiya və İranın maraq dairəsində olub didişmə, çəkişmə, savaş meydanına çevrilmişdi. Nəhayət, 1828-ci ildə Türkmənçay müqaviləsi ilə xalqımızın tarixi faciəsinin bünövrəsi qoyuldu – vətənimiz iki parçaya bölündü. Rusiyanın müstəmləkəsinə çevrilən Şimali Azərbaycan İranın tabeliyinə keçən Cənubundan fərqli iqtisadi, siyasi yola düşdü. Bu, ədəbiyyata, eləcə də mədəni inkişafın digər sahələrinə öz təsirini göstərdi. Ədəbiyyatda bir tərəfdən əvvəlki dövrlərə məxsus məzmun və forma xüsusiyyətləri qorunub saxlanılır, digər tərəfdən yeni ideya, növ və janr zənginliyi meydana çıxır.

Feodal adət-ənənələrinin güclü olması, Rusiyanın mənfur müstəmləkə siyasəti ölkədə inkişafı ləngidirdi. Qabaqcıl ziyalılar, yazıçılar ölkənin inkişafı, xalqın mədəni səviyyəsinin yüksəlməsi ilə bağlı ciddi düşünməyə, əməli fəaliyyətə başladılar. Bu, ilk növbədə, maarifçilik hərəkatında özünü göstərdi. Maarifçilər məktəbə, teatra, mətbuata və ədəbiyyata böyük önəm verir, bu vasitələrdən istifadə etməklə milli ruhlu vətəndaş yetişdirməyin mümkün olduğuna inanırdılar.

1873-cü il martın 10-da M.F.Axundzadənin “Sərgüzəşti-vəziri-xani-Lənkəran”, aprelin 17-də “Hacı Qara” əsərlərinin tamaşası təşkil edildi. Bununla da milli teatrın əsası qoyuldu. Bu, ölkədə canlanmaya səbəb oldu. Müxtəlif bölgələrdə bir-birinin ardınca tamaşalar təşkil olunmağa başlandı.

Həsən bəy Zərdabinin “xalqı qəflət yuxusundan oyatmaq üçün” böyük çətinliklə 1875-ci ildə çap etdirdiyi “Əkinçi” qəzeti ilə milli mətbuatımız yarandı. Bu qəzet daha sonra bir sıra qəzet və jurnalların meydana gəlməsinə zəmin oldu. İşğalçı Rusiya imperiyası ölkəni idarə etmək üçün rus dilini bilən insanlara ehtiyac duyurdu. Bu məqsədlə çox məhdud həcmdə məktəblər açdı. Sonralar vətənpərvər ziyalılar, ciddi çətinliklərə baxmayaraq, azsaylı milli məktəblər açmağa nail oldular.

Bu dövrdə yaranan ədəbiyyatın mövzu dairəsi genişləndi, daha ciddi ictimai problemlərə müraciət olundu. Q.Zakirin, B.Şakirin, əsrin II yarısında S.Ə.Şirvaninin satirik şeirləri, A.Bakıxanovun, İ.Qutqaşınlının nəsr əsərləri ədəbiyyatın yeni istiqamətdə inkişafından xəbər verirdi. M.F.Axundzadənin bünövrəsini qoyduğu dramaturgiya (o həm də yeni tipli povest yazmışdır) N.Vəzirov tərəfindən davam və inkişaf etdirildi. Əsrin sonunda roman və faciə janrının ilk nümunələri yarandı.

Bu əsrdə, həmçinin ədəbiyyatşünaslıq, tarix, coğrafiya, fəlsəfə və s. elmlər üzrə tədqiqat əsərləri də yazılmışdır. Şifahi xalq ədəbiyyatının mühüm sahəsi olan aşıq yaradıcılığı bu yüzildə janr və sənətkarlıq baxımından yüksək səviyyəyə qalxdı. Bu sənətin ən qüdrətli nümayəndəsi Aşıq Ələsgər idi.



**QASIM BƏY ZAKİR**
**(1784–1857)**

Zəngin yaradıcılığı ilə ədəbiyyatımızda şərəfli yer tutan Zakir yalnız lirik şeirləri ilə deyil, kəskin satiraları ilə də məşhurdur.

*Feyzulla Qasımzadə*

**• Yada salın**

– Vətən həsrətinin, qəribliyin ifadə olunduğu hansı əsərləri xatırlayırsınız?
– Bu əsərlərdə, başlıca olaraq, hansı hislər əksini tapır?

**• Düşünün**

– Uzaq keçmişin – yazıldığı dövrün ictimai eyiblərini əks etdirən əsərlərin bu gün öyrənilməsinin əhəmiyyəti nədir?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## DURNALAR

Bir saat havada qanad saxlayın,
Nizam ilə gedən qoşa durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz,
Qaqqıldaşa-qaqqıldaşa, durnalar?

Mən sevmişəm onun ala gözünü,
Nəsib ola, bir də görəm üzünü,
Yoxsa danışırsız dilbər sözünü,
Veribsiniz nə baş-başa, durnalar?

Diyari-qürbətdə müddətdi varam,
Gecə-gündüz canan deyib ağlaram,
Mən də sizin kimi qəribü zaram,
Eyləməyin məndən haşa, durnalar!

Laçın yatağıdır bizim məkanlar,
Yavaş-yavaş gedin, səsiniz anlar,
Qorxuram, toxuna ötən zamanlar,
Sürbəniz dağılıb çaşa, durnalar!

Zakirəm, od tutub alışdı cigər,
Var isə canandan sizdə bir xəbər,
Təğafül etməyin, Allahı sevər,
Dönməsin bağrınız daşa, durnalar!

## I dərs

### • Məzmun üzrə iş

1. Şeiri fərdi olaraq səssiz oxuyun, ikihissəli gündəlikdə qeydlər edin.

| № | Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|---|
| | | |

2. Eyni, yaxud oxşar fikirdə olduğunuz yoldaşlarınızla kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün.
3. Çıxardığınız nəticələr barədə təqdimatlar etməklə fikir mübadiləsi və müzakirə aparın.

### • Evdə iş

• "Durnalar" şeiri məndə hansı təəssürat yaratdı?" mövzusunda şifahi təqdimata hazırlaşın.

## II dərs

### • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Şair qoşma janrında olan "Durnalar"ı ömrünün ən ağır günlərində – sürgündə olarkən yazmışdır. Onun sürgün edilməsinin səbəbi isə vəzifə, ixtiyar sahiblərinin ədalətsizliyini, rüşvətxorluğunu açıq tənqid etməsi idi. Elə buna görə də şairə böhtan atılmış və o, Bakıya sürgün edilmişdir.

Şeirin belə adlanması təsadüfi deyildir; ədəbiyyatımızda durna obrazı daha çox qəriblik, vətən həsrəti anlamındadır. Lakin şeirdə təkcə vətən həsrəti yox, ciddi ictimai mətləblər də, şairin gizli niyyəti də əksini tapıb. Bunu aydınlaşdırmağınız əsərin ideyasını başa düşməyinizi xeyli asanlaşdıracaqdır.

Şeirdəki ahəngdarlığı, ürəyəyatımlılığı dərhal hiss etdiniz. Bu, əsərin bədii gözəlliyindən irəli gəlir. Şeirin bədii gözəlliyini təmin edən vasitələri aydınlaşdırmağa çalışın. Sözlərin necə seçildiyinə, qafiyələrin uğurlu olub-olmadığına, məcazların roluna xüsusi diqqət yetirin.

### • Araşdırın • Fikirləşin • Cavab verin

2. Şeir hansı mövzuda yazılıb?
3. Şair kədər, həsrət hisslərini inandırıcı, təsirli ifadə edə bilmişdirmi? Fikrinizi əsərdən gətirdiyiniz nümunələrlə əsaslandırın.
4. "Şeirdə yalnız vətən həsrəti deyil, ciddi ictimai məsələlər də əksini tapıb" fikrini doğru sayırsınızsa, mövqeyinizi nümunələrlə əsaslandırın.
5. Qoşmanın bədii təsir gücünü artıran vasitələr hansılardır? Onların rolunu nümunələrlə əsaslandırın.
6. Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?

### • Evdə iş

• Öyrəndiyiniz qəzəllərdən biri ilə müqayisə etməklə "Durnalar" şeirinin heca vəznində olduğunu əsaslandırın.

**III dərs**

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

1. Molla Vəli Vidadinin "Durnalar" qoşmasını oxuyun (bunu fərqli formalarda yerinə yetirə bilərsiniz).

**Durnalar**
*(ixtisarla)*

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimana, durnalar!
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana, durnalar?

Təsbih kimi qatarınız düzərsiz,
Havalanıb ərş üzündə süzərsiz,
Gah olur ki, danə-xuriş gəzərsiz,
Gah düşərsiz pərişana, durnalar!

Ərz eyləyim, bu, sözümün sağıdır,
Yollarınız haramıdır, yağıdır,
Şahin-şonqar sürbənizi dağıdır,
Boyanarsız qızıl qana, durnalar!

Bir baş çəkin dərdməndin halına,
Ərzə yazsın, qələm alsın əlinə.
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişana, durnalar!

2. Kiçik qruplarda birləşərək şeirin məzmununa aid suallar tərtib edin.
3. Sualları və onlara hazırladığınız cavabları təqdimatlar əsasında müzakirə edin.
4. Qoşmanın məzmununu mükəmməl mənimsədiyinizə əmin olduqdan sonra ondakı başlıca fikri – ideyanı müəyyənləşdirin.
5. Şeiri Q.Zakirin "Durnalar" əsəri ilə müqayisə edin. Onların mövzu, məzmun və ideyaları arasındakı oxşarlığı və fərqi nümunələr əsasında aydınlaşdırmağa çalışın.

**• Evdə iş**

• Q.Zakirin "Durnalar" şeirinin ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə etməyi unutmayın.



**AŞIQ ƏLƏSGƏR**
(1821–1926)

O, aşıq şeirinin, demək olar ki, bütün formalarına müraciət etmiş, yüzlərlə qoşma, gəraylı, təcnis, qıfılbənd, dodaqdəyməz yaratmışdır. Əsərləri bütün dövrlərdə bəyənilmiş, məclislərdə ifa olunmuş və maraqla oxunmuşdur.

*İslam Ələsgər*

**• Yada salın**

– Təbiətə həsr olunmuş hansı şifahi ədəbiyyat nümunələri ilə tanışsınız?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**• Düşünün**

– Şifahi və yazılı ədəbiyyatda dağlara çoxlu əsərin həsr edilməsinə səbəb, sizcə, nədir?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## DAĞLAR

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar,
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur,
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın...
Zənbur çiçəyindən bal alı, dağlar.

Yayın əvvəlində dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana,

Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən cəlalı, dağlar.

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib keyfinə dəyməz,
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnuntək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar.

**I dərs**

## • Məzmun üzrə iş

1. Əsərin oxusundan (bunu fərqli formalarda yerinə yetirə bilərsiniz) sonra fikirlərinizi fərdi olaraq ikihissəli gündəlikdə yazın.
2. Qənaətləriniz oxşar olan yoldaşlarınızla birləşib kiçik qruplar yaradın. Fikir mübadiləsi etdikdən sonra təqdimatlar əsasında müzakirə aparın.
3. Şeirin iki bəndindəki həmqafiyə sözləri müəyyənləşdirib cədvəldə yazın. Onları müqayisə edin, uğurlu olub-olmadıqlarına münasibət bildirin.



## • Evdə iş

• Mövzulardan birini seçib işləyin:
1. “Yurdumuzun təbiəti “Dağlar”da necə əks olunub?” mövzusunda inşa yazın.
2. “Füsunkar dağlar ölkəmizin bəzəyidir” mövzusunda esse yazın.



II dərs

## • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən oradakı fikirlərdən faydalanın.

Doğma yurdun misilsiz gözəlliyini əks etdirən "Dağlar" şeiri elə ilk misralardan oxucunu valeh edir, onda xoş ovqatın, fərəh hissinin yaranmasına səbəb olur. Bunun bir mühüm səbəbi də əsərin bədii gözəlliyidir. Bu bədii gözəlliyi yaradan vasitələri aydınlaşdırmaq üçün müşahidələrinizi davam etdirin. Sözlərin hansı ustalıqla seçildiyinə, bir-biri ilə əlaqələndirildiyinə, misrada yerləşdirildiyinə diqqət edin.

Bədii təsvir və ifadə vasitələrinin rolunu müəyyənləşdirməyə çalışın. *Şeirdə sizin üçün yeni olan məcaz növü –* ***metafor*** *(yunanca* ***köçürmə*** *deməkdir) işlənmişdir. Metafor bir əşya, varlıq və hadisəyə məxsus əlamətin başqa bir əşya, varlıq və ya hadisə üzərinə köçürülməsi yolu ilə yaranır. Bənzətmədən (təşbehdən) fərqli olaraq, metaforda qarşılaşdırılan tərəflərdən biri iştirak etmir. Məsələn, "Üzü günəş kimi işıq saçan qızım susmasın" cümləsində üzün (sifətin) günəşə bənzədilməsi ilə* ***təşbeh*** *yaradılmışdır. Həmin cümləni "Günəşim susmasın" şəklinə salsaq, metafor yaranacaq. İnsana, canlıya aid olan əlamətin, xüsusiyyətin təbiətin, cansızların üzərinə köçürülməsi yolu ilə yaranan metaforlara bədii ədəbiyyatda daha çox rast gəlinir.*

*"Meşə gülür, bulaqların həzin nəğməsi eşidilirdi" cümləsinə diqqət edin. Aydındır ki, meşə gülməz, bulaq nəğmə oxumaz. Deməli, insana aid olan xüsusiyyətlər meşənin, bulağın üzərinə köçürülmüş, beləliklə, metafor əmələ gəlmişdir. Metafor da bənzətmə, epitet və s. təsvir vasitələri kimi əsərin bədii təsir gücünü artırır, oxucuda zərif hiss və duyğuların yaranmasına səbəb olur.*

## • Araşdırın • Fikirləşin • Cavab verin

2. Şeir sizdə hansı hiss və düşüncə yaratdı? Fikrinizi əsaslandırın.
3. "Əsərdə müəllifin doğma yurdumuza sonsuz məhəbbəti ifadə olunmuşdur" fikri ilə razılaşmaq olarmı? Nə üçün?
4. İlin müxtəlif fəsillərində dağların – təbiətin aldığı mənzərə qoşmada uğurla ifadə edilmişdirmi? Fikrinizi əsaslandırın.
5. Şeirin bədii gözəlliyini təmin edən vasitələri müəyyənləşdirin. Onların rolunu nümunələrlə əsaslandırın.
6. Əsərin başlıca ideyası, sizcə, nədir?

## • Evdə iş

• Aşıq Ələsgərin "Yaylaq" şeirini (səh. 177) oxuyun. "Dağlar" qoşması ilə oxşar və fərqli cəhətlərini aydınlaşdırmağa çalışın. Çıxardığınız nəticələri Venn diaqramında, yaxud müqayisə cədvəlində qeyd edin.

III dərs

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

1. "Dağlar" qoşmasının ilk dörd bəndinin ifadəli oxusuna hazırlaşın.
   – Əvvəlcə ifaçılıq vəzifəsini – dinləyicilərə nə çatdıracağınızı aydınlaşdırın.
   – Sonra məntiqi vurğulu sözləri, fasilələrin yerini, səsin ucalığını, sürətini və s. müəyyənləşdirib şərti işarələrlə göstərin.
   – Hər bəndin oxusunda səsinizin aldığı çalarları qeyd edin. İfaları dinləyib müzakirə edin.
2. Şeiri bədii oxu ustasının ifasında dinləyib müzakirə edin.
3. Aşıq Ələsgərin "Dağlar" qoşmasının lirik, S.S.Axundovun "Nurəddin" əsərinin epik növə aid olduğunu müqayisə əsasında izah edin.
4. Aşağıdakı nümunələrdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin növünü müəyyənləşdirin. Fikrin təsir gücünün artmasındakı rollarını izah edin.

| Nümunələr | Bədii təsvir və ifadə vasitələrinin növü |
|---|---|
| Bir sözün varmıdır əsən yellərə,<br>Sifariş etməyə uzaq ellərə?<br>Yayılmış şöhrətin bütün dillərə,<br>Olursa, olsun qoy haralı, Göygöl. | |
| Küləklər, küləklər, bəstəkar küləklər,<br>Dünyanı dolaşan bəxtiyar küləklər. | |
| Dəmir sətirlərim ayağa qalxsın. | |
| Bir yanda tərlanlar, dumanlı dağlar,<br>Bir yanda kəkliklər, ayna bulaqlar. | |
| Car çəkir, qışqırır nəhəng motorlar | |
| Bahar gəldi gülərək,<br>Güldü hər gül, hər çiçək. | |
| Əsdi qara yel çəltiyə, bostanə, nə borcum. | |
| Ağca xanım zərif əlini Qaraca qıza uzatdı, o da kobud barmaqları ilə onun əlini sıxdı. | |

**• Evdə iş**

• Şeirin bütövlükdə ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə etməyi unutmayın.



**• Yada salın**

– Məktəblə, təhsillə bağlı hansı əsərləri oxumusunuz?
– Həmin əsərlərdə hansı fikirlər diqqətinizi daha çox cəlb edib?

**• Düşünün**

– Bir millət tərəqqiyə, inkişafa, xoşbəxt həyata necə nail ola bilər?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.

**SEYİD ƏZİM ŞİRVANİ**
(1835–1888)

XIX əsrin II yarısından sonra Azərbaycanda qüvvətlənən maarifçilik hərəkatının görkəmli nümayəndələrindən biri kimi tanınan Seyid Əzim Şirvani xalqın xoşbəxt gələcəyi haqqında gözəl arzular bəsləyir və onu dünyanın maariflənmiş, tərəqqi etmiş millətlərindən biri kimi görmək istəyirdi.

*Xeyrulla Məmmədov*

## QAFQAZ MÜSƏLMANLARINA XİTAB
*(ixtisarla)*

Əssəlam, ey əhaliyi Qafqaz,
Ey rəisani-sahibül-ezaz!

Əssəlam, ey güruhi-xeyr-əsər,
Millətin qeyrətin çəkən kəslər!

...Dadü fəryad, ey güruhi-izam,
Oldu zaye bu milləti-islam.

Günü-gündən zəlilü xar oluruq,
Möhnətü qüssəyə düçar oluruq.

Bu qədər dərd kim olur hadis,
Ona bielmlik olur bais.

Bir bəladır bu dərdi-nadani,
Ki, onun elm olubdu dərmani.

Bu təəccübdür, ey güruhi-bəşər,
Bir kişi yatsa, naxoş olsa, əgər,

Axtarır bir təbibi-danadil,
Ta ki səhhət ola  ona hasil.

İndi naxoşdu milləti-islam,
Ona lazımdır eyləmək əncam.

Dərdimizdir bu dərdi-nadanlıq
Ki, tutubdur bizi pərişanlıq.

Qeyrilər etdilər tərəqqiyi-tam,
Qaldı zillətdə firqeyi-islam.

Hər vilayətdə var beş-on kəsəbə,
Əlli min seyyidü axund, tələbə.

Əlli dərviş, əlli mərsiyəxan,
Hamının sözləri tamam yalan.

Əlli min suxtə, əlli min sail,
Əlli min hoqqabazi-naqabil.

Hamının fikri xalqı soymaqdır,
Quru yerdə bu xalqı qoymaqdır.

Xalqa bunlar hamı qurublar dam,
Bir bunu anlamır bu qövmi-avam.

Bizə qeyrilər eyləyir töhmət,
Çün tərəqqi edibdir hər millət.

Gərçi var iş qanan kişi tək-tək,
Əksəri-xalq avamdır bişək.

...Bilmirik  biz hədis mənasın,
Qanmırıq əhli-şər fitvasın.

Bixəbər olmuşuq şəriətdən,
Başımız çıxmır elmi-hikmətdən.

Kəsb üçün həzrəti-rəsulüllah,
Dedi: “Əlkasibü həbibüllah”.

...Ziynəti-şəxs elmi-ürfandır,
Elmsiz şəxs misli-heyvandır.

...Çünki var idi bizdə nadanlıq,
Bizə üz verdi çox pərişanlıq.

## I dərs

### • Məzmun üzrə iş

1. Müəllimin oxusunu və izahını diqqətlə izləyin. Tanış olmayan sözlərin mətnə müvafiq mənasının aydınlaşdırılmasında fəal iştirak edin.
2. Şeiri bütövlükdə bir daha nəzərdən keçirin, aşağıdakı suallara parta yoldaşınızla birlikdə cavab hazırlayın:
   a) Şair Qafqaz müsəlmanlarına hansı sözlərlə müraciət edir? Onun sözləri kimə ünvanlanıb?
   b) Müraciətdə şairi narahat edən hansı dərdlərdən söz açılır?
   c) Şair bəlaların, geriliyin səbəbini nədə görür?
   ç) Xalqa "tor, tələ quranlar" dedikdə şair kimləri nəzərdə tutur? Nə üçün?
3. Əsərin məzmunu ilə bağlı fikirlərinizi fərdi olaraq ikihissəli gündəlikdə yazın.

| № | Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|---|
| | | |

4. Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün, fikirlərinizi ümumiləşdirin.
5. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

### • Evdə iş

• Əsərin məzmununu nəsrə çevirib yığcam nağıletməyə hazırlaşın.

## II dərs

### • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

S.Ə.Şirvani maarifçi şeirlərinin çoxunu XIX əsrin 70-ci illərində – "Əkinçi" qəzetinin nəşrə başlamasından sonra yazmış və bu qəzetdə çap etdirmişdir. O, maarifçi şeirlərində insanları düşündürən, narahat edən ictimai bəlalardan, eyiblərdən söz açmış, qəzetdən bir mübarizə silahı kimi istifadə etmişdir.

"Qafqaz müsəlmanlarına xitab" şeirində də şairin maarifçilik ideyaları əksini tapıb. "Əkinçi" qəzetinin redaktoru Həsən bəy Zərdabiyə müraciətində şair bu şeiri özünün Qafqaz müsəlmanlarına məktubu adlandırmış, onun çap olunmasını, xalq arasında yayılmasını xahiş etmişdir. Maarifçi şair Qafqaz əhlinin digər xalqlardan geridə qalmasının səbəblərindən, günahkarlarından cəsarətlə söz açır, doğma xalqının düşmənlərini qəzəb və nifrətlə ifşa etməklə yanaşı, mütərəqqi ideyaları təbliğ edir, nöqsanların aradan qaldırılması yollarını göstərirdi.

Əsər əruz vəzninin ahəngcə oynaq, yüngül *xəfif* bəhrində yazılmışdır. "Xəfif" sözü *yüngül, zərif, mülayim* mənalarını bildirir. Bu bəhrdə yazılan şeirlər öz oynaqlığı ilə seçilir.

| fAilAtün | məfAilün | fəlAn |
|---|---|---|
| Əssəlam, ey<br>Ey rəisa | əhaliyi<br>ni-sahibül- | Qafqaz,<br>ezaz! |

**• Araşdırın • Fikirləşin • Cavab verin**

2. Əsərin mövzusunu və onda qaldırılmış başlıca problemi müəyyənləşdirin.
3. Sizcə, əsər nə üçün məktub – müraciət şəklində yazılmışdır?
4. Mədəni geriliyin, tərəqqi, inkişaf yolunda ləngimənin səbəbləri barədə əsərdə deyilənlərə necə münasibət bəsləyirsiniz? Fikrinizi əsaslandırın.
5. Dini təhsil alan və dindar mühitdə yaşayan şairin bu məzmunda əsər yazmasının səbəbini necə izah edərsiniz?
6. Nöqsanların aradan qaldırılması üçün şairin vacib saydıqlarına münasibət bildirin. Fikrinizi əsaslandırın.
7. Əsərdəki başlıca fikri – ideyanı aydınlaşdırın. Fikrinizi əsərdən nümunələr gətirməklə əsaslandırın.

**• Evdə iş**

• Müxtəlif mənbələrdən, internetdən topladığınız məlumat əsasında "S.Ə.Şirvani böyük maarifçi şairdir" mövzusunda şifahi təqdimata hazırlaşın.

**III dərs**

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

1. Doğru hesab etdiyiniz fikirləri dəftərinizdə qeyd edib onlara münasibət bildirin.
   - ☐ Əsər şeir şəklində yazılsa da, onda məktuba xas olan cəhətlər var.
   - ☐ Əsərdə şairin maarifçilik ideyaları öz əksini tapıb.
   - ☐ Şeirdə elmin, təhsilin səmərəsi haqqında fikirlər diqqəti cəlb edir.
   - ☐ Şair gerilikdən xilas olmağın yollarını göstərmir.
   - ☐ Həyatda müşahidə edilən nöqsanların, eyiblərin səbəbləri əsərdə göstərilmir.

2. Əsərin ideyası ilə daha çox səsləşən atalar sözlərini müəyyənləşdirin. Fikrinizi əsaslandırın.
   – Bilik insanın bəzəyidir.
   – Bilik ağlın aynasıdır.
   – Elm insana böyük mirasdır.
   – Elminə əməl etməyən alim əlində çıraq gəzdirən kora bənzər.
   – Elmsiz adam meyvəsiz ağac kimidir.
   – Elmli adam cürətli olar.
   – Nadanın düşməni özüdür.
   – Savad adamı dilli eylər.

3. Ədəbiyyatşünas alim Feyzulla Qasımzadə yazır: "Əkinçi"də nəşr etdirdiyi "Qafqaz müsəlmanlarına xitab" şeirində şair xalqın elmsizliyindən, onun müasir mədəniyyətdən geri qalmasından acı-acı şikayətlənir və bunun səbəbini... tüfeylilərdə görürdü".

   Sizcə, "tüfeylilər" dedikdə, tədqiqatçı kimləri nəzərdə tutur? Fikrinizi əsərdən gətirdiyiniz nümunələrlə əsaslandırın.

4. **Müzakirə edin:** “Qafqaz müsəlmanlarına xitab” şeirini mövzu, problem, ideya baxımından bu gün üçün əhəmiyyətli hesab etmək olarmı?”.
Müzakirəyə hazırlaşarkən aşağıdakı məsələlərə diqqət yetirin:

- XIX əsrdə yazılmış bir əsər mövzu, problem, ideya baxımından XXI əsrdə müasir ola bilərmi?
- “Qafqaz müsəlmanları” dedikdə, şair kimləri nəzərdə tutur? Bu gün Qafqaz müsəlmanlarına kimlər aid edilir? Nə üçün?
- Şairin əsərdə qaldırdığı problemlər bu gün həllini tapmışdırmı?
- Şairin məktəbə, elmə verdiyi dəyər bu günün tələbləri ilə nə dərəcədə səsləşir?
- Əsərdə yazılanlar sizdə S.Ə.Şirvaninin vətəndaş mövqeyi, sənətkar cəsarəti haqqında hansı fikirlər yaratdı?
- Bu əsərdən hansı nəticəni çıxarmaq olar?

5. Açar sözlərdən istifadə edərək islam dinində alimə, elmə, biliyə verilən yüksək qiyməti əks etdirən fikirləri müəyyənləşdirin və şərh edin.

| | |
|---|---|
| Alim, mürəkkəb, şəhid, qan | ... |
| İnsan, beşik, qəbir | ... |
| Elm, Çin, getmək | ... |

**• Evdə iş**

• Topladığınız məlumat əsasında aşağıdakı mövzulardan biri üzrə şifahi təqdimata hazırlaşın.
1. S.Ə.Şirvaninin müəllimlik fəaliyyəti.
2. S.Ə.Şirvani vətənpərvər şair kimi.

**• Müstəqil iş üçün**

• Bölmədə tanış olduğunuz sənətkarların həyatı haqqında kitabxana və ya internetdəki mənbələrdən məlumat toplayıb öyrənin. Qənaətlərinizi sinif yoldaşlarınız, müəllimləriniz və valideynlərinizlə bölüşün.

## AŞIQ ALI

### Bənzərsən

Süsənli, sünbüllü, tər bənövşəli,
Yaylaq, bizim yaylaqlara bənzərsən.
İçən ölməz sənin kövsər suyundan,
Bulaq, bizim bulaqlara bənzərsən.

Əyricə, Verst dağı, Xankirt baxarı,
Ağ sürülər Sarıyaldan yuxarı.
Gözəllər seyr elər o oylaqları,
Oylaq, bizim oylaqlara bənzərsən.

Cənnət olur bizim yerin bu çağı,
Ağ lavaşı, kərə yağı, qaymağı,
Qızlar dəstələnib gəzər oylağı,
Oylaq, bizim oylaqlara bənzərsən.

Aşıq Alı deyər, üç gözəl dərə:
Çiçəkli, Şaqaylı, Xoş gözəl dərə,
Əyricə, Verst dağı, Baş Gözəldərə,
Üç dağ, bizim üç dağlara bənzərsən.

# TƏNQİDİ REALİZM VƏ ROMANTİZM DÖVRÜ

İyirminci yüzilliyin əvvəllərində müstəmləkə ölkəsi olan Azərbaycanda feodal münasibətləri çox güclü idi. Bakıda neft sənayesi sürətlə inkişaf etsə də, digər şəhərlər ticarətdən, əl əməyinə əsaslanan xırda sənətkarlıqdan irəli gedə bilmirdi.

Əhalinin yaşayışı çətinləşmiş, yoxsulluq dəhşətli bəlaya çevrilmişdi. 1905-ci il inqilabı Rusiyanın müstəmləkələrində – milli ucqarlarda oyanmaya səbəb oldu. İndi sadə insanlar da ictimai hadisələrlə maraqlanır, baş verənlərin mahiyyətini anlamağa çalışırdılar. Ölkədəki siyasi yumşalma mətbuat orqanlarının yaranmasına və fəaliyyətinə imkan yaratdı.

Bakıda nəşrə başlayan onlarca qəzet və jurnal müxtəlif ədəbi və siyasi istiqamətləri təmsil edirdi. Milli oyanışa, xalqın həqiqi azadlığına, ölkənin müstəqilliyinə yönəlmiş ictimai fikri ifadə edən mətbuat orqanları az deyildi. Bunların içərisində "Molla Nəsrəddin" jurnalının xüsusi yeri var idi. C.Məmmədquluzadənin redaktorluğu ilə nəşr edilən bu jurnalın ilk nömrəsi 7 aprel 1906-cı ildə Tiflisdə işıq üzü gördü. Qısa fasilələrlə 1931-ci ilə qədər Tiflisdə, Təbrizdə, Bakıda nəşr edilən bu jurnal ətrafına görkəmli yazıçıları, ziyalıları toplayaraq vətənin, xalqın mənafeyi uğrunda ardıcıl mübarizə apardı. Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əliqulu Qəmküsar, Ömər Faiq Nemanzadə və digər mollanəsrəddinçilər mütərəqqi ideyaları təbliğ edir, dini fanatizmi, mədəni geriliyi, siyasi naşılığı kəskin tənqid edirdilər.

XX əsrin əvvəllərində (1901–1920) yaranan ədəbiyyatda həyat hadisələrinə yanaşmada, onun təsvirində və təqdimində böyük fərq var idi. "Molla Nəsrəddin"də birləşən C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Nəzmi və b. öz yaradıcılıqlarında həyat həqiqətlərinə sadiq qalmaqla yanaşı, köhnəliyi, fanatizmi tənqid və rədd edir, yeni, azad, xoşbəxt cəmiyyətin yaranmasını vacib sayırdılar. Elə buna görə də belə yazıçılar *tənqidi realizmin* nümayəndələri sayılırdılar.

H.Cavid, M.Hadi, A.Səhhət və başqaları isə həyat hadisələrini olduğu kimi yox, özlərinin arzuladıqları, görmək istədikləri kimi təsvir edirdilər. Belə sənətkarlar *romantizmin* nümayəndələri hesab edilirlər.

Bu dövrdə *maarifçi realist* yazıçılar da fəaliyyət göstərirdi. S.S.Axundov, A.Şaiq, S.M.Qənizadə kimi maarifçi realistlər cəmiyyəti maarifləndirməyi vacib hesab edir, məktəbi, təhsili yeganə qurtuluş yolu sayırdılar.

Bu qısa zaman kəsiyində yaranan ədəbiyyat dərin ictimai məzmunu, milli mənafeyə əvəzsiz xidməti ilə qiymətlidir.



**CƏLİL MƏMMƏDQULUZADƏ**
**(1869–1932)**

XX əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri böyük yazıçı Cəlil Məmmədquluzadədir. Onun yaradıcılığı ədəbiyyatımızın ən parlaq səhifələrindəndir. Ədibin hekayələrində gülüşlə bərabər, göz yaşı da vardır.

*Əziz Mirəhmədov*

**• Yada salın**

– C.Məmmədquluzadənin hansı əsərləri ilə tanışsınız?
– Bu əsərlərdə diqqətinizi ən çox çəkən nə olub?

**• Düşünün**

– İnsanın rəzil olmasına, gülüş obyektinə çevrilməsinə səbəb nə ola bilər?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## QURBANƏLİ BƏY
*(ixtisarla)*

**1**

Xəbər çıxdı ki, bu gün naçalnik gəlir kəndə və sonra məlum oldu ki, pristavın arvadının ad qoyulan günüdür.

Kəndə şuriş düşdü. Kənd əhlindən bu gün çöl işinə gedən olmadı. Camaatın yarısı çıxmışdı kəndin kənarına və təpələrə dırmaşıb boylanırdılar ki, görsünlər, gəlirmi naçalnik. Camaatın yarısı pristavın mənzilini əhatə edib durmuşdu. Qıraq kəndlərdən də camaat xəbər tutub yavaş-yavaş gəlirdi.

Pristavın həyətinə adam əlindən girmək mümkün deyildi, katda, yasavul və qlava mirzələrindən savayı, həyətə girməyə heç kəsə izin verilmirdi. Həyətdə it yiyəsini tanımırdı. Səsdən və qilü-qaldan qulaq tutulurdu; bir yanda quzular mələyirdi, bir yanda qıçları bağlı cücə və toyuqlar bağırırdılar, bir yanda qlavaların atları kişnəyirdilər. Bir tərəfdən pristavın qulaqları uzun tulaları gah qlavanın üstünə atılıb “haff” eləyirdilər, gah katdanın üstünə tullanıb “haff” eləyirdilər. Hərdənbir pristavın

arvadı balkona çıxıb nazik səslə çığırırdı: “tişe”, yəni “yavaş”. Və sonra genə girirdi içəri.

Pristavın aşpazları bellərində ağ önlük hərdənbir həyətə çıxıb qlavanın birinə deyirdi:

– Tez yarım girvənkə zəfəran tap!

Qlava “baş üstə” deyib, əvvəl bir başını salırdı aşağı, sonra mirzəsinə üzünü tutub buyururdu:

– Ədə, Mirzə Həsən, durma, tez şəhərə adam göndər, yarım girvənkə zəfəran gətirsin!

Bir az keçirdi, bir ayrı aşpaz əlində kotlet bıçağı qlavanın birinə üzünü tutub buyururdu:

– Qlava, dörd-beş yüz yumurta lazımdır.

Qlava sevincək əlini uzadırdı həyətdəki səbətlərə və cavab verirdi:

– Nə danışırsan? Burada mindən artıq yumurta var.

Birdən qaçhaqaç düşdü; dedilər, “naçalnik gəlir”. Qlavalar çıxdılar qapıya, xanım çıxdı balkona, tulalar hücum çəkdilər adamların üstünə və bir qədər keçdi, guya qurbağanın gölünə daş atdılar; çünki bu gələn naçalnik deyilmiş, özgə mahalın pristavı imiş. Pristav atdan yenib girdi həyətə və balkona çıxıb xanıma rusca bir neçə söz deyib özü də güldü və xanımı da güldürdü. Və sonra hər ikisi girdi içəri.

Genə kotlet bıçaqlarının taqqıltısı, adamların tappıltısı, atların kişnəməsi, cücə-toyuqların və qlavaların və tulaların hafıltısı qarışdı bir-birinə. Bir ucdan təzə gələn qlava və katdalar atdan yenib, dolu xurcunları doldururdular həyətə. Bir ucdan kəndlilər dallarında qab-qazan, xalı və palaz daşıyırdılar. Bir ucdan kəndlilər həyətin dibində quzuları və toyuq-cücələri yan-yana yığıb öldürüb təmizləyirdilər.

Birdən qaçhaqaç düşdü; dedilər, “naçalnik gəlir”. Qlavalar qaçdılar qapıya, xanım və qonaqlar çıxdılar balkona, tulalar tullandılar həyətə və bir qədər keçdi, genə qurbağanın gölünə daş atdılar; çünki bu gələn naçalnik deyilmiş, kazak böyüyü bir əfsər imiş. Bu da atdan endi, qaça-qaça çıxdı balkona və xanımın əlini öpüb, kefini soruşdu və sonra getdilər otağa.

Bir qədər keçdi, genə qaçhaqaç düşdü; genə dedilər, “naçalnik gəlir”. Amma bu da yalan oldu. Adamları araladılar, bu qonaq da girdi həyətə. Bu da “Qapazlı” kəndinin bəyi və mülkədarı məşhur Qurbanəli bəy idi.

Bəy həyətə girən kimi baxdı bir sağa, bir sola. Tulaların biri qaçıb gəldi Qurbanəli bəyin qabağına və başladı bəyin ayaqlarını yalamağa. Bəy əyilib itin başını tumarladı və dedi:

– Malades, sobak − və sonra qalxıb xanımı balkonda görüb çığırdı:

– İzdrasti! – Və börkünü götürüb sağ əlilə qalxızdı yuxarı və qışqırdı:

– Urra! − Sonra qalxdı balkona və xanıma baş əydi. Xanım əlini uzatdı Qurbanəli bəyə. Bəy xanımın əlini alıb rusca dedi:

– Nə qədər mənim canım sağdı, sənə mən nökərəm, ay xanım.

Xanım bir az güldü və dedi:

– Spasibo.

Bəy bir ah çəkəndən sonra hər ikisi girdi içəri.

Bir az keçdi, mahal həkimi gəldi, sud pristavı gəldi, iki uçitel gəldi, genə bir əfsər arvadı ilə gəldi, genə bir özgə həkim arvadı ilə gəldi.



Bir az keçdi, genə qaçhaqaç düşdü; dedilər, "naçalnik gəlir". Qlavaların biri at üstə çaparaq gəlib özünü saldı yerə və həyətə soxulub qaçdı xanımın qabağına və çığırdı:

– Naçalnik idyot.

Xanım bir girdi içəri, bir çıxdı balkona. Qonaqlar da çıxdılar həyətə və qaçdılar qapıya. Tappıltı, guppultu, şaqqıltı və çığır-bağır, qoyma, dinmə, çəkil, gəl, get... axırda bir yoğun çinovnik girdi həyətə, yeridi xanıma tərəf, sol əli ilə börkünü çıxardıb sağ əlini uzatdı xanıma və xanımın əlini öpüb, qonaqlarla bir-bir əl verib qalxdı balkona və girdi otağa.

**2**

Naçalnikdən sonra genə bir neçə qonaq gəldi. Bunların da bir neçəsi arvadları ilə gəlmişdi.

Qonaqlar yığışmışdılar zal otağına. Ortaya düzülmüşdü stollar və stolların üstünə düzülmüşdü növ-növ şirin çörəklər, suxarılar, paxlavalar, halvalar, konfetlər, lumu-portağallar, quru yemişlər. Stolun üstünə qoyulmuşdu yekə samovar və qulluqçular çay töküb qoyurdular qonaqların qabağına.

Naçalnik oturmuşdu yumşaq divanın üstündə, pristavın arvadı oturmuşdu onun yanında, qonaqlardan da bir neçəsi düzülmüşdü bunların yanına və naçalnik qabağındakı stəkanın qəndini qarışdıra-qarışdıra pristavın arvadı ilə söhbət edirdi.

Bu heyndə küçədə açıq akoşkalardan bir at kişnəməsi qalxdı. Bundan sonra bir ayrı at daha da ucadan başladı kişnəməyə. Qonaqların bir neçəsi akoşkadan baxdılar küçəyə. Atlar daha da ucadan başladılar kişnəməyə. Qurbanəli bəy akoşkadan başını çıxartdı küçəyə və çığırdı:

– Ədə, Kəblə Qasım. Heyvan oğlu heyvan, atı kənarda dolandır. Yoxsa əlindən qurtarıb qaçar.

Bir az keçdi, atlar daha da şiddətlə başladılar çığırmağa. Qurbanəli bəy atlardan bərk başladı nökərinə çığırmağa, qonaqların hamısı qaçdılar akoşkaların qabağına.

Küçədə tövlənin qabağında bir strajnik bir ağ atın cilovundan yapışıb dolandırırdı. Bu at naçalnikin atı idi. Qurbanəli bəyin nökəri bir kəhər atın cilovundan yapışıb bir az kənarda dolandırırdı. Bir-iki kəndli də bir az kənarda ayrı-ayrı atların cilovlarından yapışıb dolandırırdılar. Akoşkanın qabağında kəndlilər düzülüb pristavın akoşkalarına baxırdılar.

Hərdənbir naçalnikin atı kişnəyə-kişnəyə qabaq ayaqlarını döyürdü yerə və Qurbanəli bəyin atına baxıb hirsindən cilovu gəmirtləyirdi. Qurbanəli bəyin atı hərdənbir nərə təpib qabaq ayaqlarını qaldırırdı havaya və az qalırdı ki, Kərbəlayı Qasımı da göyə qaldırsın. Kərbəlayı Qasım da bərk-bərk cilovdan yapışıb çığırırdı:

– Buna bax ha!

Naçalnik gördü ki, kəhər at Qurbanəli bəyin atıdır və üzünü Qurbanəli bəyə tutub soruşdu ki, atı neçə yaşındadır?

Qurbanəli bəy papirosunu yandırıb naçalnikə dedi ki, atı bu il təzə dörd yaşa ayaq qoyur.

Genə naçalnik akoşkaya tərəf yeriyib başladı Qurbanəli bəyin atına tamaşa eləməyə, sonra Qurbanəli bəyə çönüb dedi:

– Nə gözəl atdı!

Doğrudan, Qurbanəli bəyin atı gözəl at idi. Qurbanəli bəy hər iki əlini sinəsinə qoyub naçalnikə cavab verdi:

– Peşkəşdi.

Naçalnik Qurbanəli bəyə dedi:

− Sağ ol.

Və yenə başladı ata tamaşa eləməyə, genə Qurbanəli bəyə üzünü tutub soruşdu:

– Qaçmağı necədi? İti yüyürürmü?

Qurbanəli bəy naçalnikə dedi:

– Ay naçalnik, əgər sənin mahalında bir belə yüyürən at tapılsa, mən bığlarımı qırxdırmasam, qurumsağam.

Yarım saatdan sonra qonaqları çağırdılar xörək otağına. Otağın ortasında uzun xörək stolu, üstünə düzülmüşdü hər cür xörəklər və içkilər.

Pristavın arvadı oturdu stolun baş tərəfində. Xanımın sağ tərəfində naçalnik əyləşdi və qeyri qonaqlar da hərə bir yer tutub oturdular.

Naçalnik araq şüşəsini əlinə götürüb əvvəl öz fincanını, sonra pristavın arvadının, sonra xanımların və sonra qeyri qonaqların fincanlarını doldurub durdu ayağa və rumkasını xanımın rumkasına vurub dedi:

– Mübarək olsun xanımın ad bayramı!

Naçalnikdən sonra xanımlar və ağalar yerlərindən qalxıb həmin sözləri dedilər və sonra naçalnik və qeyriləri şüşələri başlarına çəkib boşaltdılar.

Pristavın arvadı fincanı götürdü əlinə, qonaqlardan razılıq elədi, amma Qurbanəli bəyə baxıb gördü ki, bəy arağını hələ içməyib. Xanım bəydən soruşdu ki:

– Niyə içmirsiniz?

Bəy gülə-gülə başını saldı aşağa və dinmədi. Naçalnik Qurbanəli bəyə baxıb qəhqəhə çəkib dedi ki:

– Yoxsa sən də fanatik müsəlmanlardansan, onun üçün içmirsən?

Qonaqlardan bir neçəsi güldü və bir neçəsi dedi ki:

– Götür iç!..

Axırda Qurbanəli bəy rumkasını götürdü əlinə və dedi:

– A kişi, siz Allah, bu nədir? Buna bizdə üskük deyərlər ki, arvadlar barmaqlarına geyib tikiş tikirlər, yoxsa bizlərdə bunnan araq içməzlər.

Qonaqlar bu sözləri eşidib genə qəhqəhə çəkib güldülər və piristavın xanımı dedi:

– Da, da, doğrudur. Günah məndədir. Qurbanəli bəy rumkaynan araq içməz.

Bu sözləri deyəndən sonra xanım bir çay stəkanı aparıb qoydu bəyin qabağına və araqla doldurub verdi bəyə. Qurbanəli bəy stəkanı götürüb dedi:

– Bax buna nə demişəm?!. Yoxsa üsküyü qoyublar mənim qabağıma ki, nə var, nə yox...

Qonaqlar yenə gülüşdülər və Qurbanəli bəy arağı çəkdi başına, stəkanı qoydu yerə və çörəkdən bir tikə götürüb tutdu burnunun qabağına.

**3**

Ağalar və xanımlar məşğul oldular yeməyə, içməyə və eşikdə də toy və zurnanın səsi ucaldı. İki saatdan sonra qonaqlar qalxdılar ayağa, düzüldülər akoşkanın qabağına və başladılar tamaşa eləməyə.

Baharın ikinci ayı idi. Çiçəklərin və otların ətri qarışmışdı bir-birinə, çeşmələrin səsi qarışmışdı quşların səsinə. Hərdənbir zurnanın səsi ucalıb özgə səslərin hamısını batil eləyirdi. Zurna sakit olan kimi adamların səsi ucalırdı. Evin qabağında, çayın kənarında çəmənin üstündə bir neçə fərş döşənmişdi. Bir tərəfə üç yekə samovar qoyulmuşdu və yanlarında otuz-qırx stəkan-nəlbəki, nimçələr, qəndlər, mürəbbələr. Şirin çörəklər, limon-portağallar, konfetlər, qurabiyələr və qeyri çay ilə və çaysız yeməli şeylər, yağlar, xamalar, qaymaqlar, quru yemişlər düzülmüşdü. Ətrafdan qoyulmuşdu yastıq və balışlar. Bir tərəfdə qlavalar tatarı əllərində kəndliləri döyə-döyə bir yerə yığırdılar ki, əl-ələ verib yallı getsinlər.

Ağalar və xanımlar akoşkalarda görünən kimi kəndlilər "urra" deyib papaqlarını atdılar göyə və yapışdılar yallı getməyə. Pristavın xanımı qonaqlara təklif elədi ki, buyursunlar, çayın kənarında çəməndə əyləşib çay içsinlər.

Ağalar və xanımlar endilər. Kəndlilər genə "urra" çəkib qarışdılar bir-birinə və sonra genə başladılar yallı getməyə.

Qurbanəli bəyin nökəri Kərbəlayı Qasım kənarda durub əllərini qoymuşdu ciblərinə, baxırdı və Qurbanəli bəyi görcək ikiqat əyildi. Bəy papirosunu ağzına alıb Kərbəlayı Qasıma işarə elədi. Kərbəlayı Qasım qaçıb gəldi ağasının yanına və odu cibindən çıxarıb yandırdı və tutdu ağasının qabağına. Bəy papirosunu yandırıb dedi:

– Axmaq oğlu axmaq, bə sən niyə yallı getmirsən?

Kərbəlayı Qasım başını əydi aşağı və dedi:

– Ay ağa, mən qocalmışam. Daha mənə yallı getmək yaraşmaz.

Bəy papirosunu göyə püfləyib yapışdı Kərbəlayı Qasımın çiynindən və çəkə-çəkə apardı yallı gedənlərin yanına və dedi:

– Yapış, heyvan balası, heyvan! Yoxsa, vallah, döyə-döyə səni öldürərəm!

Kərbəlayı Qasım yapışdı kəndlilərin əlindən və istər-istəməz başladı onlarla bir yerdə dolanmağa. Qurbanəli bəy özü də dəstənin başından yapışıb başladı atılıb-düşməyə. Pristavın arvadı Qurbanəli bəyə çəpik çaldı. Naçalnik də qəhqəhə çəkib güldü və başladı çəpik çalmağa. Özgə qonaqlar da çəpiyi tutub başladılar gülməyə. Qurbanəli bəy özü ağzını göyə açıb qəhqəhə elədi və çığırdı:

– Ay xanım, mən istəyirəm, sənin sağlığına içim. Buyur, mənə çaxır gətirsinlər. Urra, urra!..

Nökərlər butulkaları başladılar daşımağa. Qurbanəli bəy bir stəkan içib genə başladı fırlanmağa, genə başladı dolanmağa. Bir qədər keçdi, genə bir stəkan içib çığırdı:

– Xanımın sağlığına!

Və genə başladı dolanmağa. Bir qədər keçəndən sonra yorulub çəkildi kənara və bir stəkan çaxır doldurub nökəri Kərbəlayı Qasımı çağırıb dedi:

– İç!

Kərbəlayı Qasım başladı yalvarmağa:

– Ay ağa, sən bilirsən ki, mən içmənəm. Aman günüdü, məni çövür balovun başına, mən içə bilmənəm.

Bəy bir qədər də nökərini yaxalayıb gördü ki, içmir və çaxırın bir azını tökdü Kərbəlayı Qasımın üstünə və bir azını da özü içdi.

Ağalar və xanımlar məşğul oldular çay içməyə. Qurbanəli bəy də gedib bir tərəfdə oturdu və üzünü naçalnikə tutub dedi:

– Mənim nökərim Kərbəlayı Qasım lap biqeyrətdi. Mən indiyə kimi nə qədər eləmişəm, ona bir qətrə çaxır içirdə bilməmişəm. Deyirəm ki, axı, ay axmaq, sən ki üzümü yeyirsən. Axı bu nədi ki? Üzüm suyu deyil məgər? Nə qədər eləyirəm, içmir.

Naçalnik Qurbanəli bəyə cavab verdi ki, Kərbəlayı Qasım qanmır, avamdı. Qurbanəli bəy qəhqəhə çəkdi və dedi:

– Necə qanmır? Yaxşı qanır. O məgər qanmır ki, çaxır üzümdən qayrılır? Çox əcəb qanır. Ancaq biqeyrətdi, onun üçün içmir.

4

Yarım saata kimi ağalar və xanımlar çay içməyə və söhbətə məşğul oldular. Kəndlilər də yallı gedirdilər. Xanımların biri hərdənbir əllərini basırdı qulaqlarına və ərinə şikayət edirdi ki, "zurnanın səsindən az qalır qulaqlarım tutulsun". Pristav xanımın gileyini başa düşəndən sonra toyçulara çığırdı ki, daha çalmasınlar. Toyun səsi kəsilcək Qurbanəli bəy üzünü toyçulara çöndərib çığırdı:

– Ədə, çalın, namərdlər!

Pristav bəyə dedi ki, toyun səsi xanımlara xoş gəlmir, qoy çalmasınlar. Qurbanəli bəy durdu ayağa və pristava dedi:

– Mən ölüm qoy çalsınlar, mən istəyirəm oynuyam.

Pristavın cavabını gözləməyib Qurbanəli bəy toyçulara çığırdı:

– Ədə, çalın! "Uzundərə" çalın.

Toyçular hazırlaşırdılar çalmağa. Naçalnik durdu ayağa və börkünü başına qoyub dedi:

– Bəy, hələ sonra oynarsan. Göndər, nökərini, sizin atınızı çəkib gətirsin, mən istəyirəm, ata baxam.

Qurbanəli bəy sağ əlini qoydu gözünün üstünə və dedi:

– Naçalnik, qurbandır sənə mənim atım!

Bu sözlərdən sonra bəy nökərini çağırdı:

– Kərbəlayı Qasım, tez get, atı çək gətir, naçalnik baxsın.

Kərbəlayı Qasım qaçdı və tövlədən atı çıxartdı eşiyə. Naçalnik, pristav, Qurbanəli bəy və xanımlardan biri getdilər atın yanına.

Qurbanəli bəy yapışdı atın dodağından və ağzının bir tərəfini açdı və naçalnikə dedi:

– Naçalnik, buyur bax. Həyə inanmırsan, buyur bax, bu il dördünə ayaq qoyur.

Naçalnik Kərbəlayı Qasıma dedi ki, bir az atı dolandırsın. Kərbəlayı Qasım atı yavaş-yavaş çəkdi bir tərəfə. Kərbəlayı Qasımın dalınca gedə-gedə heyvan hərdən alnını sürtürdü Kərbəlayı Qasımın kürəyinə və hərdənbir o tərəfə-bu tərəfə baxıb kişnəyirdi. Naçalnik Qurbanəli bəydən yenə atın qaçmağını soruşdu. Qurbanəli bəy baxdı naçalnikin üzünə və bir söz deməyib Kərbəlayı Qasımı çağırdı. Kərbəlayı Qasım atı çəkdi yavığa və Qurbanəli bəy tez qalxdı atın üstünə və heyvanı təpiklədi. At durduğu yerdə bir neçə arşın məsafəni sıçrayıb, üz qoydu yola tərəf qaçmağa və yarım dəqiqənin içində gözdən itdi. Yarım dəqiqədən sonra Qurbanəli bəy çaparaq qayıdıb gəldi və atı sürüb az qaldı soxulsun qonaqlar oturduğu məclisə. Xanımlar çığırışıb qaçışdılar bir tərəfə və Qurbanəli bəy tez atı saxlayıb özünü tulladı yerə və durdu naçalnikin qabağında. Naçalnik bəyə dedi:

– Malades.

Və bəy cavab verdi:

– Naçalnik, bu nədi ki!.. Hələ sən mənim o biri atımı görməmisən. Bəlkə, onu görəsən! Bu nədi ki onun yanında?

Kərbəlayı Qasım atı çəkib apardı.

5

Hava qaraldıqdan sonra pristavın otaqlarında çıraqları yandırdılar və qonaqlar məşğul oldular kart oynamağa. Saat on birdə qonaqları genə dəvət elədilər xörək otağına və genə ağalar və xanımlar xörək stolunun ətrafına düzülüb başladılar şam eləməyə. Naçalnik cücənin ətindən bir-iki tikə yeyəndən sonra götürdü butulkanı və başladı əvvəl öz stəkanını, sonra qonşularının stəkanını doldurmağa və sonra ayağa durub, stəkanı uzatdı pristavın arvadına tərəf və dedi:

– Bu gün bizim buraya yığışıb belə ləzzətlə vaxt keçirməyimizə siz səbəb olubsunuz. Buna cəhət mən bu stəkanı içirəm sizin sağlığınıza.

Bu sözləri deyib naçalnik stəkanı vurdu xanımın stəkanına və çaxırı içib oturdu. Yavuqda oturan qonaqlar da stəkanlarını uzadıb xanımın stəkanı ilə çıqqıldatdılar və içdilər. Qurbanəli bəy də yerindən qalxıb, dolu stəkanını götürüb vurdu xanımın stəkanına və xanımın başının üstündə durub dedi:

– Mən özümü bu gün xoşbəxt hesab eləyirəm ki, bu məclisdə varam. Allah sənin ərin Mixail Pavloviçi bizim mahaldan uzaq eyləməsin. Ondan ötrü ki, çünki nə qədər ki Mixail Pavloviç bizim mahalda deyildi, bizim kəndlilər də bədbəxt idilər, mən də bədbəxt idim. Ondan ötrü ki bilmirəm, nədəndirsə, keçən pristavları mən o qədər istəməzdim ki, Mixail Pavloviçi istəyirəm. Amma beş-on il bundan irəli burada bir pristav vardı, çox lotu oğlan idi. Mənə bir tula bağışlamışdı. Allah onu da sağ eləsin, səni də sağ eləsin, hamımızı sağ eləsin. İçirəm mən sənin sağlığına, a xanım, urra!

Bu sözləri deyəndən sonra Qurbanəli bəy çaxırı çəkdi başına və içəndən sonra stəkanı çöndərib ağzı yerə tərəf tutdu ki, görsünlər, stəkanda bir qətrə də çaxır qalmayıb və gedib oturdu yerində. Bir qədər keçəndən sonra pristavın arvadı götürdü çaxırı və naçalnikin stəkanını, öz fincanını və qonşularının stəkanlarını doldurub üzünü naçalnikə tutdu və dedi:

– Mən özümü borclu hesab edirəm sizdən razılıq eləməyə ki, bu uzun yolu zəhmətlə buraya gəlib məni sərəfraz buyurubsunuz.

Sözlərini deyəndən sonra xanım fincanı tutdu dodaqlarının qabağına. Qonaqlar da stəkanlarını uzadıb vurdular naçalnikin stəkanına. Qurbanəli bəy yerindən qalxıb, əlində dolu stəkan gəlib durdu naçalnikin yanında və dedi:

– Naçalnik ağa, içirəm mən bu stəkanı sizin sağlığınıza. Allah da buna şahiddir ki, nə qədər bizim vilayətə naçalniklər gəlib-gedib, mən onların heç birini o qədər istəməmişəm. Naçalnik ağa, sən bizim başımızın sahibisən. Nə qədər ki bizim mahalda camaat var, onlar hamısı sənin yolunda başlarından keçərlər. Mən özüm də sənin yolunda oda girərəm. Qurban sənə mənim canım! Nə qədər ki sağam, nökərəm sənə. İçirəm mən bu stəkanı naçalnik ağanın sağlığına. Urra!

Bu sözləri deyən kimi Qurbanəli bəy stəkanı çəkdi başına, stəkanın ağzını çöndərdi yerə, guya bir qətrə də qalmadı, sonra gedib oturdu yerində.

Qonaqlar genə məşğul oldular yeməyə. Bir qədər keçəndən sonra xanımın əri pristav götürdü çaxır şüşəsini, əvvəl öz stəkanını doldurdu, sonra qonşularının stəkanını doldurdu və sonra ayağa durub dedi:

– Ağalar və xanımlar! Məlumdur ki, bir düşmən istəyə bizim üstümüzə hücum çəkə, bizi saxlayan qoşunlarımız olacaq. Buna cəhət mən içirəm bu stəkanı bizim qoşunlarımızın əfsəri Nikolay Vasilyeviçin və onun xanımı Anna İvanovnanın sağlığına.

Pristav bu sözləri deyib stəkanı uzatdı bir əfsərə və onun yanında oturan arvada tərəf. Qonaqlar da, habelə stəkanlarını çıqqıldadıb içdilər. Qurbanəli bəy də ayağa durub dolu stəkanını uzatdı əfsərə və arvadına tərəf dedi:

- Qurbanəli bəyin "hərənin barəsində bir nitq" söyləməsi qonaqlarda hansı təəssürat yaradır? Bəs sizdə?

– Ay əfsər ağa, ay xanım, mən içirəm sizin sağlığınıza. Allah sizin kölgənizi bizim başımızın üstündən əskik eləməsin. Allah düşmən qabağında sizin qılıncınızı kəskin eləsin. Yəni mən bu sözləri ondan ötrü demirəm ki, düşməndən qorxuram. Hansı düşmən cürət eləyib mənim qabağıma çıxa bilər?! Bu xəncəri mən soxaram onun qarnına! Mən heç düşməndən qorxmuram. Sizin dövlətinizdən, mən heç kəsdən qorxmuram. Nə qədər canım sağdır, mən nökərəm sənin xanımına. Sağ olsun Anna xanım, urra!

Bəy çaxırı çəkdi başına.

**6**

Bu qayda ilə ağaların və xanımların bir-bir sağlığına içdilər. Hər dəfə Qurbanəli bəy dururdu ayağa, hərənin barəsində bir nitq söyləyir, bir dolu stəkan içirdi və otururdu.

Yavaş-yavaş çaxırın buxarı qalxdı bəyin başına və lap axırda bəy bərk kefləndi.

Qonaqların hamısının sağlığına içəndən sonra qonaqlar başladılar Qurbanəli bəyin sağlığına içməyə.

- "Qurbanəli bəy şadlığından az qaldı özündən getsin". Bəyin sevinməsinin belə bir cümlə ilə ifadə edilməsinin səbəbini necə izah edərsiniz?

Xanımlar bir-bir stəkanlarını uzadıb vurdular bəyin stəkanına. Qurbanəli bəy şadlığından az qaldı özündən getsin.

Qonaqların hamısı bəyin sağlığına içəndən sonra bəy stəkanı yuxarı qalxızıb dedi:

– Ağalar və xanımlar! Siz ki mənim sağlığıma içdiniz, qurban olsun sizə mənim canım. Mən öləno kimi bu günü yadımdan çıxarmanam. Amma, ağalar, mənim sizdən bir xahişim var. Mən ölüm, mənim sözümü yerə salmayın. Mən sizin hamınızı sabah öz evimə qonaq təklif eləyirəm. Vallah, billah, atamın goru haqqı, mən bilmirəm necə sizin xəcalətinizdən çıxım! Mən lap əriyib yerə girirəm ki, bu qədər xanım mənim sağlığıma içsin. Mən nəyəm ki, bu qədər xanım mənim sağlığıma içsin? Mən bu xanımların ayağının torpağı da ola bilmənəm. Vallah, atamın goru haqqı, sabah bizə qonaq gəlməsəniz, mən özümü öldürərəm...

Mən istəyirəm ki, sizə qulluq eləyim. Mən istəyirəm, sizə nökərçilik eləyim. Sabah bizə gəlməsəniz, mən bu xəncəri soxaram qarnıma. Cənab naçalnik, səndən də çox təvəqqə eləyirəm, ay xanım, səndən də təvəqqə eləyirəm. Əfsər ağadan da təvəqqə eləyirəm. Anna İvanovna, qurban olsun sənə mənim canım, səndən də təvəqqə eləyirəm. Ağalar, xanımlar! Hamınızdan təvəqqə eləyirəm. Hər kəs gəlməsə, namərddir. Aman günüdü, özümü öldürərəm. Qurban olsun sizə mənim canım. Sağ olsun xanımlar. Urra!.. Urra!..

- Məclisdəkilərə tez-tez "mən istəyirəm sizə nökərçilik eləyim", "nə qədər ki mən sağam, nökərəm sənə" kimi sözlər deməsi sizdə Qurbanəli bəy haqqında necə təəssürat yaratdı?

Bəy stəkanı çəkdi başına. Naçalnik siqarı damağına salıb üzünü tutdu pristavın xanımına və dedi:

– Gəlsənə sabah qonaqlığa gedək, Qurbanəli bəyə qonaq olaq?

Xanım baxdı ərinin üzünə və dedi:

– Mən çox xoşhallıqla gedərəm. Yaxşı olar. Bəyin arvadını da görərəm. Görərəm necə paltar geyir.

Əfsər də arvadından soruşdu:

– Gedərsənmi?

Arvadı dedi:

– Gedərəm.

Qonaqların biri də dedi ki:

– Əgər bəy bizə bir yaxşı müsəlman plovu versə, gedərəm.

Qurbanəli bəy "plov" sözünü eşitcək tez qalxdı ayağa və çığırdı:

– Necə plov? Necə plov? Atamın goru haqqı, sizə elə bir plov verərəm ki, ömrünüzdə yeməmiş olarsınız. Mənim aşpazım bişirən plovu kim bişirə bilər? İnanmırsınız, Kəblə Qasımdan soruşun. Hanı Kəblə Qasım? Kəblə Qasım, Kəblə Qasım!

Qurbanəli bəy başladı ucadan Kərbəlayı Qasımı çağırmağa: guya ki Kərbəlayı Qasım buradadır. Pristavın nökərlərindən biri içəri girib dedi ki, burada Kərbəlayı Qasım yoxdur. Bəy hirslənib nökərə dedi ki:

– Çağırın o axmaq oğlunu, gəlsin!

Nökər çıxdı getdi və bəy özü də qapıya tərəf yeridi. Pristavın arvadı bəyə dedi ki:

– Sən zəhmət çəkmə, nökərlər çağırarlar, gələr.

Bəy yenə başladı plovu tərifləməyə.

– Mən siznən mərc gələrəm. Həyə bir yanda elə plov yemiş olsanız, tüpürün mənim üzümə.

Qonaqlar güldülər. Naçalnik də gülə-gülə dedi:

– Ay bəy, söz yox ki, evdəki tərifli atını da bizə görsədərsən.

Qurbanəli bəy naçalnikə yavıqlaşıb hər iki əlini qoydu gözünün üstə və dedi:

– Bu gözlərim üstə, hansını bəyənsən, peşkəşdi. Lotu-lotuyana deyirəm, mən yalan-zad bilmənəm. Hansını xoşlasan, atamın goru haqqı, peşkəşdi sənə.

Nökər girdi içəri və dedi ki, Kərbəlayı Qasım yatıb. Bəy nökərin üzünə baxıb əvvəl dinmədi və sonra xəncərinin dəstəsindən yapışıb dedi:

– Get, o haramzadə oğlu haramzadəyə de ki, bu saat durub bura gəlməsə, bu xəncəri gedib soxaram onun qarnına!

Nökər çıxdı eşiyə. Pristavın arvadı bəyə üzünü tutub dedi:

– Niyə biçarə kişini oyadırsan? Nəyə lazımdır?

Bəy cavab verdi:

– Ay xanım, başına dolanım, necə nəyə lazımdır? Ağzı nədi bu tezlikdə yatsın!.. Qoy gəlsin görək kimin hünəri var mənim aşpazım bişirən plovu bişirsin?!

Qonaqlar yenə gülüşdülər. Kərbəlayı Qasım şişmiş gözlərini bərəldib girdi içəri. Ağası yenə əlini xəncərinin dəstəsinə aparıb dedi:

– Kəblə Qasım, mən səni öldürərəm!

Qonaqlar yenə gülüşdülər.

Kərbəlayı Qasım əllərini döşünə qoyub alçaq səslə dedi:

– Niyə, başına dönüm, ağa?

Bəy hirsli və uca səslə:

– Hələ soruşursan da niyə? Gəl gör bu ağalar nə deyirlər. Mən ha deyirəm ki, bizim Əli bişirən plovu heç kəs bişirə bilməz, bunlar inanmırlar.

- Bəyin aşpaz Əli haqqında qonaqlarda yaxşı rəy yaratmaq cəhdi necə qarşılandı?

Kərbəlayı Qasım alçaq səslə cavab verdi:

– Bəli, ağa, Əli yaxşı plov bişirir.

Qurbanəli bəy üzünü qonaqlara tutub sevincək və ucadan dedi:

– Di gördünüz? Di gördünüz? İndi sözünüz nədi?

Qonaqların çoxusu cavab verdi:

– Doğrudu, doğrudu, inanırıq.

Kərbəlayı Qasım çıxdı eşiyə. Yarım saatdan sonra qonaqlar başladılar dağılmağa. Qurbanəli bəy atını və Kərbəlayı Qasım yabısını minib düşdülər yola. Bəy başını saldı aşağı və başladı mürgüləməyə. Hərdənbir yuxudan ayılıb atı saxlayırdı, üzünü çöndərirdi Kərbəlayı Qasıma və deyirdi:

– Bu xəncəri soxaram sənin qarnına.

Çox vaxt Kərbəlayı Qasım cavab vermirdi və gah vaxt deyirdi:

– Niyə, başına dönüm, ağa?

Bəy gah vaxt Kərbəlayı Qasıma cavab vermirdi, amma gah vaxt deyirdi:

– Kimin hünəri var, Əli bişirən plovu bişirsin?!

İki saatdan sonra ağa və nökər yetişdilər kəndə.

Yekə imarətin darvazasının qabağında atlar dayandılar. Kərbəlayı Qasım yerdən bir daş götürüb başladı qapını döyməyə. Yekəpapaq bir kişi qapını açdı və Qurbanəli bəyin yanına qaçıb yapışdı atın cilovundan. Qurbanəli bəy hələ atdan yenməyib xəncərin tiyəsini qalxızdı kişinin üstünə və dedi:

– Əli, bu xəncəri soxaram qarnına!

Nökəri cavab verdi:

– İxtiyar sənindi, ağa!

Sonra bəy atdan yenib girdi həyətə və pilləkəni qalxıb girdi otağa. Bəyin qaravaşı bir qoca arvad çıxdı ağasının qabağına və dedi:

- Bəyin öz nökərləri və qaravaşla rəftarı sizdə hansı hiss və düşüncələr yaratdı?

– Ay ağa, nə gec gəldin? Xanım səndən ötrü çox niyaran oldu.

Bəy xəncərin tiyəsini arvada göstərib dedi:

– Gülpəri, bu xəncəri soxaram sənin qarnına!

Arvad dinmədi və çəkildi kənara. Bəy o biri otağa girib gördü ki, arvadı paltarlarını soyunmamış dayanıb yastığa və yuxulayıb. Əvvəl gedib durdu arvadının yanında. O, xəncərin tiyəsini arvadının üstünə qalxızıb dedi:

– Bu xəncəri soxaram sənin qarnına!

Arvad ayılmadı. Qurbanəli bəy dəxi dinmədi və xəncəri atdı yerə. Sonra börkünü çıxarıb atdı bir səmtə və başladı soyunmağa. Paltarlarını və çəkmələrini çıxarıb hirslə hərəsini atdı bir yana, bir az su içdi və uzandı yerinə.

Bəyi yuxu tutdu.

**7**

Qurbanəli bəyin arvadı sübh vaxtı ayılıb gördü ki, əri gəlib yatıb, yavaşca paltarını geyib çıxdı eşiyə. Qaravaş süpürgə ilə həyəti süpürürdü. Kərbəlayı Qasım əlində xəlbir tövlənin qabağında durub arpa təmizləyirdi ki, aparıb versin atlara.

Xanım Kərbəlayı Qasımdan soruşdu ki:

– Niyə belə gec gəldiniz?

Kərbəlayı Qasım cavab verdi:

– Qonaqlıq çox uzun çəkdi, onun üçün gec gəldik.

Xanım yenə soruşdu:

– Pristavın qonağı çox idimi?

Kərbəlayı cavab verdi:

– Bəli, xanım, çox idi.

Xanım soruşdu:

– Kim idilər qonaqlar?

Kərbəlayı Qasım cavab verdi:

– Ay xanım, nə bilim, bir çoxu böyük adamlar idi. Çoxlu xanım idi. Nəçəlnik özü də orada idi. Çox adam vardı.

Xanım yenə soruşdu:

– Kəblə Qasım, xanımlar da elə kişilərnən bir yerdə oturmuşdular, ya ayrı oturmuşdular?

Kərbəlayı Qasım cavab verdi:

– Yox, elə hamısı qarışmışdı bir-birinə.

Qaravaş bu sözləri eşitcək öz-özünə dedi:

– Bıy, aman Allah!

Xanım oturdu pilləkənin pilləsinin üstündə, Kərbəlayı Qasımı bir az yavığa çağırdı və dedi:

– Sən Allah, Kəblə Qasım, nağıl elə görək, qonaqlıq necə keçdi, qonaqlara nə verdilər, ağan kimnən danışdı, nə danışdı? Sən Allah, Kəblə Qasım, hamısını nağıl elə.

Kərbəlayı çuxasının ətəyini qalxızıb ağzının və burnunun suyunu sildi. Tövlədən atlar başladılar bir-birinin üstünə çığırışmağa və Kərbəlayı Qasım üzünü tövləyə tərəf tutub çığırdı:

– Buna bax ha!

Xanım genə Kərbəlayı Qasıma dedi:

– Sən Allah, Kəblə Qasım, nağıl elə görək.

Kərbəlayı Qasım cavab verdi:

– Ay xanım, dəxi nə deyim? Çox qonaq vardı. Nəçəlnik də orda idi.

Xanım genə Kərbəlayı Qasımdan soruşdu:

– Kəblə Qasım, urus arvadları bə kişilərnən nə danışırdılar?

Kərbəlayı Qasım cavab verdi:

– Xanım, mən nə bilim ki, nə danışırdılar? Mən onların axı dilini bilmirəm ki?

Xanım genə soruşdu:

– Kəblə Qasım, doğrusunu de görək, ağan da urus arvadlarıynan danışdımı?

Kərbəlayı Qasım genə üzünü tövləyə tutub çığırdı atların üstünə və xanıma cavab verdi:

- Xanımın sualları onun haqqında sizdə hansı təsəvvür yaratdı?

– Ağam urus arvadlarıynan az danışdı, amma nəçəlniknən çox danışdı.

Aşpaz Əli samovarı gətirdi və çıxarıb qoydu pilləkənin üstə. Qaravaş süpürgəni dayadı divara, qalxdı pilləkənin üstünə və samovarı qalxızıb apardı evə. Aşpaz Əli yenib durdu xanımın qabağında və soruşdu:

– Xanım, bu gün nə pişirim?

Xanım qaravaşı çağırıb dedi:

– Bə Qurbanəli bəy gecə demədi ki, nə pişirək?

Qaravaş əlində çay qabı xanımın yanına gəlib cavab verdi:

– Gecə ağa elə hirsli idi ki, hələ məni istəyirdi öldürsün.

Xanım təəccüb elədi və dedi:

– Yaxşı, yaxşı, elə danışma! Dəli olmamısan ki!

– Vallah, a xanım, ağam evə girən kimi xəncərini çıxartdı və mənə dedi: “Xəncərnən səni öldürərəm!”

Xanım bir qədər dinmədi və üzünü tutdu Kərbəlayı Qasıma:

– Kərbəlayı Qasım, yəqin, ağan yenə keflənmişdi.

Kərbəlayı Qasım cavab verdi:

– Xeyr, keflənməmişdi.

**8**

Xanım girdi içəri və yavaşca Qurbanəli bəyin yanına yavıqlaşıb gördü ki, bərk yuxudadır. Sonra çıxdı eşiyə və aşpaz Əliyə on altı qəpik verib dedi:

– Əli, get iki girvənkə ət al gətir, bozbaş pişir.

Əli pulları aldı və dedi:

– Baş üstə!

Kərbəlayı Qasım və Əli üz qoydular aşpazxanaya tərəf getməyə.

Gün qalxdı, günorta oldu. Kərbəlayı Qasım həyətdə oturmuşdu tut ağacının dibində və hərdənbir daş götürüb atırdı ağacın başına və tut quşlarını qovurdu və hərdənbir yerə tökülən yetişmiş tutlardan götürüb yeyirdi. Qaravaş da gəldi Kərbəlayı Qasımın yanına və başladı tutları seçib yeməyə. Bir az keçdi, xanım da gəldi bunların yanına və başını qalxızıb bir qədər yetişmiş tutlara baxdı və Kərbəlayı Qasıma dedi ki, çıxsın ağaca, bir az tut silkələyib töksün. Qaravaş evdən bir çarşov gətirdi. Aşpaz Əli də bunların yanına gəldi və dedi:

- Bəyin evini, məişətini necə təsəvvür edirsiniz?
- Hekayədəki təsvir təəssüratınıza uyğundurmu?

– Siz çarşovu tutun, mən çıxım silkələyim.

Əli çıxdı ağaca. Xanım, qaravaş və Kərbəlayı Qasım çarşovu tutdular və Əli ağacın budağının birini tərpətdi və yekə-yekə yetişmiş ağ tutlar töküldü çarşova. Budağa bir-iki təpik vurandan sonra Əli qalxdı bir az da yuxarı. Ağacın başından kəndin ətrafı əl içi kimi görünürdü. Əlinin gözünə bir belə şey də sataşdı: Hacı Heydər dəyirmanının yanından kəndə sarı bir dəstə atlı gəlirdi. Əli əvvəl buna fikir vermədi və başladı budağın birini silkələməyə. Amma sonra genə diqqət saldı və gördü ki, atlılar kənd əhlinə oxşamırlar. Bunu görüb Əli üzünü tutdu aşağı və dedi:

– Kərbəlayı Qasım, kəndə çoxlu atlı gəlir, amma kəndliyə oxşamırlar.

Kərbəlayı Qasım, xanım və qaravaş bir qədər baxdılar bir-birinin üzünə. Xanım dilləndi:

– Kəblə Qasım, çıx aşpazxana damına, gör necə atlıdılar?

Kərbəlayı Qasım gedib qalxdı alçaq divara, oradan qalxdı aşpazxana damının üstünə və sağ əlini gözünün üstünə qoyub başladı diqqətlə yola baxmağa.

Kəndin yaxınlığında Kərbəlayı Qasımın gözünə əvvəl iki atlı göründü. Bunlar atlarını bərk çapırdılar. Dəxi bunlardan savayı, yolda bir şey görünmürdü. Amma bir qədər keçdi, "Mərəzə"nin yanında söyüd ağaclarının dalından bir dəstə atlı çıxdı. Bunların içində naçalnik və pristavların düymələri və xanımların şlyapaları aşkar bilinirdi. Kərbəlayı Qasım tez yendi aşağı, qaçıb gəldi xanımın yanına və tövşüyə-tövşüyə dedi:

– Xanım, bu gələnlər, deyəsən, elə dünənki qonaqlardı.

Xanım çarşovun ucunu saldı yerə, gəldi Kərbəlayı Qasıma yavıq və dedi:

– Dünənki qonaqların burda nə işləri var?

Kərbəlayı Qasım əllərini qoydu bir-birinin üstünə və cavab verdi:

– Mən nə bilim, ay xanım?

Bu heyndə küçədə mərəkə qopdu. İtlərin hürüşməsi, adamların qaçışması, at tappıltısı. Və bir az keçdi, küçə qapısı döyüldü. Xanım qaçdı içəri və pəncərədən küçəyə baxıb gördü ki, küçə doludur adamlarla; hamısı rus qulluqçuları və rus xanımları.

- Qonaqların gəlişinin Qurbanəli bəyin evində yaratdığı çaxnaşma necə təsvir edilmişdir? Evdəki çaşqınlıq barədə sizdə hansı təsəvvür yarandı?

Kərbəlayı Qasım qapıya çıxıb gördü ki, dünən pristavın evindəki qonaqların hamısı gəlib dayanıb qapıya. Xanım tez qaçdı eşiyə və Əlini çağırıb dedi:

– Get de ki, ağa evdə deyil.

Əli qaçdı küçə qapısına və xanım qaçdı evə, Qurbanəli bəyi oyatdı. Bəy "a... a..." eləyib çöndü o biri səmtə, arvadı dedi:

– A kişi, dur, dünənki qonaqlar gəliblər bizə.

Qurbanəli bəy yenə "a... a..." eləyib gözlərini açdı və arvadına dedi:

– Cəhənnəm ol! – və yenə gözlərini yumdu.

Arvad genə dedi. Qurbanəli bəy gözlərini açıb, qalxdı oturdu və soruşdu:

– Nə deyirsən?

Arvadı sözünü bir də dedi. Bəy dik qalxdı ayağa, bir şey fikir elədi, qaçdı otağın o tərəfinə, bu tərəfinə, arvadına dedi:

– Qoy desinlər, ağa evdə deyil.

Arvadı genə çıxdı eşiyə və bəy mələfəni götürüb çarşov kimi saldı başına, çıxdı həyətə, qaçıb soxuldu tövləyə və girdi atın axuruna. Nökərlər qonaqlara dedilər:

– Ağa evdə deyil.

Naçalnik bu cavabı eşidib təəccüb elədi; habelə qeyri qonaqlar mat qaldılar. Kəndlilər başladılar qonaqların atlarını dolandırmağa. Naçalnik çıxardıb papirosunu yandırdı və nökərlərdən soruşdu:

– Bəy hara gedib ki, evdə deyil?

Nökərlər cavab verdilər:

– Bilmirik.

Naçalnik bir qədər dinməyib yenə soruşdu:

– Bəs o ki özgə yerə gedəcəkdi, bizi niyə qonaq çağırdı?

Nökərlər cavab verdilər ki:

– Bilmirik.

Xanımların biri bir stəkan su istədi. Kərbəlayı Qasım qaçdı evdən kasada su gətirdi. Qonaqlar bir qədər bir-birinin üzünə baxıb dedilər ki:

– Dəxi niyə dururuq, qayıdaq gedək.

Naçalnik də buna razı oldu, amma Kərbəlayı Qasıma üzünü tutub soruşdu:

– Bəyin atları tövlədədir?

Kərbəlayı Qasım dedi:

– Bəli.

Bu heyndə tövlədə atların biri başladı kişnəməyə. Naçalnik yoldaşlarına belə təklif elədi:

– Çox əcəb, biz bu qədər yolu zəhmətlə gəlmişik, barı, heç olmasa, bəyin atlarına baxaq, sonra qayıdaq.

Yoldaşları razı oldular. Naçalnik genə Kərbəlayı Qasımdan tövləyə getməyə izin istədi. Kərbəlayı Qasım dedi:

– Buyurun!

Naçalnik, iki pristav, mal həkimi, xanımlar və kazak əfsəri girdilər həyətə və üz qoydular tövləyə tərəf. Qurbanəli bəyin arvadı həyətdə qonaqları görüb qaçdı soxuldu otağa və qonaqlar girdilər tövləyə. Naçalnik qabaqdakı atı görüb dedi:

– Bu elə bəyin dünənki atıdır.

Sonra qonaqlar yeridilər içəri və bir kəhər atın yanında dayandılar. Naçalnik atın qabağına keçib Kərbəlayı Qasımdan soruşdu:

– Budurmu bəyin tərifli atı?

Kərbəlayı Qasım dedi:

– Bəli.

Qonaqlar başladılar atın o tərəfinə, bu tərəfinə dolanmağa. Naçalnik axura tərəf hərəkət eləyib istədi atın ağzına baxsın. Axura yavuqlaşan kimi naçalnik dik atıldı və çığırdı:

– Ax, çort vozmi!

Axurun içində guya kəfənə bürünmüş bir şey naçalnikin gözünə sataşdı. Naçalnik yanındakı pristavın əlindən yapışıb yavaşca yeridi axurun yanına və diqqət eləyib gördü ki, axurdakı Qurbanəli bəy özüdü.

Bunu görcək naçalnik çəpik çalıb qəhqəhə çəkib güldü və dedi:

– A... a... a... rəfiq, sən burda imişsən!..

Qonaqlar da bir-bir gəlib bəyə diqqət ilə baxdılar və çəkilib durdular kənarda.

Qurbanəli bəy yerindən heç tərpəşmədi.

Qonaqlar çıxdılar küçəyə, atları mindilər və üz qoydular getməyə.

- Axurda gizlənmiş bəyi naçalnikin görməsi səhnəsi sizdə hansı hiss yaratdı?
- Təsəvvür edin ki, bu hadisədən bir müddət sonra Qurbanəli bəy naçalnik və digər qonaqlarla qarşılaşır. Sizcə, bəy özünü necə aparar?

**I dərs**

## • Məzmun üzrə iş

1. İlk beş parçanın oxusunu fərqli formalarda həyata keçirə bilərsiniz. Proqnozlaşdırılmış oxunu seçsəniz, hər parçanın oxusundan sonra parta yoldaşınızla birlikdə aşağıdakı cədvəldə qeydlər aparın.

| Əsərin hissələri | Sizcə, nə baş verəcək? | Nə üçün belə düşünürsünüz? | Nə baş verdi? Hadisələr necə davam etdi? |
|---|---|---|---|
| I hissə | | | |
| .......... | | | |
| .......... | | | |
| .......... | | | |

2. Beşinci parça üzrə işi başa çatdırdıqdan sonra cütlüklərdən bir nəfərin təqdimatı əsasında fikir mübadiləsi və müzakirə aparın.

### • Evdə iş

1. Hekayənin ardını evdə oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

## II dərs

### • Məzmun üzrə iş

1. Evdə oxuduğunuz parçaları bir daha nəzərdən keçirin. Mətnlə bağlı suallara parta yoldaşınızla birlikdə cavab hazırlayın.
2. Kiçik qruplarda fikir mübadiləsi apardıqdan sonra təqdimatlar əsasında müzakirə edin.

**Bilik və bacarıqlarınızı tətbiq edin.**

3. Əsərin hekayə janrında olduğunu əsaslandırın.

"Qurbanəli bəy" hekayədir, çünki ...

4. Hekayədən seçdiyiniz hissənin məzmununu tərtib etdiyiniz plan əsasında geniş nağıl edin.

### • Evdə iş

• "Hekayə bugünkü oxucu üçün əhəmiyyətlidirmi?" mövzusunda şifahi təqdimata hazırlaşın.

## III dərs

### • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Ədəbiyyatımızda ən gözəl hekayələrdən olan bu əsərin yaranmasından yüz il ötsə də, o bu gün də maraqla oxunur, haqqında yeni-yeni elmi əsərlər yazılır. Hekayə təkcə maraqlı məzmunu ilə deyil, həm də dərin ictimai mətləbləri əks etdirməsi ilə diqqəti cəlb edir. Bu mətləbləri aydınlaşdırmaq, onlara münasibət bildirmək üçün əsərin üzərində düşünmək, araşdırma aparmaq vacibdir. "Qurbanəli bəyin rəzil vəziyyətə düşməsinin səbəbini yalnız xarakterindəki nöqsanla izah etmək doğrudurmu?" sualı bütün araşdırma boyu sizi düşündürməlidir. Bu obraz barədə mükəmməl təsəvvür qazansanız, əsərin ideya-məzmununu anlamaq və izah etmək sizin üçün çətin olmayacaqdır. Bu, Qurbanəli bəyin nitqinə – danışığına, onunla bağlı təsvirlərin, əhvalat və hadisələrin əsərdə necə təqdim olunmasına xüsusi diqqət yetirməyinizi tələb edir. *Artıq hiss etdiniz ki, əsərdəki əhvalatlar, hadisələr bir-biri ilə sıx bağlanıb, obrazlar qarşılıqlı əlaqədə təsvir olunub. Müəyyən ardıcıllıqla düzülən bu əhvalatlar, hadisələr bir-birini tamamlayır, bir xətt ətrafında birləşir. Yazıçı öz əsərində əhvalat və hadisələri nə cür əlaqələndirmək, necə yerbəyer etmək, nəyi əvvəl, nəyi sonra təsvir etmək üzərində düşünür. Başqa sözlə, hər bir sənətkar əsərini necə quracağı*

*barədə çox ciddi şəkildə götür-qoy edir, axtarışlar aparır. Beləliklə, əsərin bütün hissələrinin, epizodlarının yerləşdirilməsi, qarşılıqlı əlaqələndirilməsi, əhvalatların, hadisələrin əks etdirilməsi qaydaları* ***kompozisiya*** *adlanır. Latın mənşəli "kompozisiya" sözü dilimizdə* ***qurmaq, tərtib etmək, düzəltmək*** *anlamında başa düşülür. Kompozisiya baxımından mükəmməl olan əsər bədii cəhətdən kamil olur və maraqla oxunur. Bunu "Qurbanəli bəy"in timsalında müşahidə etdiniz.*

*Hekayəni maraqlı edən cəhətlərdən biri də onda bədii ifadə vasitələrinin işlənməsidir. Əsərdə belə bir yer var: "Adamları araladılar, bu qonaq da girdi həyətə. Bu da "Qapazlı" kəndinin bəyi və mülkədarı məşhur Qurbanəli bəy idi". Əsərin sonrakı səhifələrindən məlum olur ki, "məşhur" sözü yazıçının bu obraz haqqındakı əsl fikri deyilmiş. Danışığı, davranışı ilə özünü rüsvay edən, hamı tərəfindən yüngültəbiətli adam kimi tanınan Qurbanəli bəyi bu sözlə təqdim edən yazıçının niyyəti onun həqiqi simasını açmaq imiş. Bu, ədəbiyyatşünaslıqda* ***kinayə*** *adlanır. Deməli, yazıçının şəxs, əhvalat və hadisə haqqındakı qənaətinin əksinə olan fikri ifadə etməsi kinayədir. Bədii ifadə vasitələrindən olan kinayə fikrin təsirli, emosional çatdırılmasında əhəmiyyətli rol oynayır.*

**• Araşdırın • Fikirləşin • Cavab verin**

2. Hekayədə diqqətinizi daha çox cəlb edən nə oldu? Səbəbini izah edin.
3. Qurbanəli bəyin xarakterindəki başlıca cəhətlər hansılardır? Onun nitqinə, davranış və əməllərinə əsaslanmaqla fikrinizi əsaslandırın.
4. Qonaqlıqda iştirak edənlər – çar məmurları və onların xanımları Qurbanəli bəyə necə münasibət bəsləyir? Sizcə, yazıçı ona necə münasibət bəsləyir? Fikrinizi nümunələrlə əsaslandırın. Müvafiq cədvəldən istifadə edin.
5. Ayrı-ayrı epizodları, səhnələri (qonaqlığa hazırlıq, yemək stolu, kəndlilərin yallı getmələri və s.) əhatəli təsvir etməkdə yazıçının məqsədi, sizcə, nədir?
6. Hekayə hansı bədii xüsusiyyətlərinə görə diqqəti cəlb edir? Fikrinizi əsaslandırarkən süjet və kompozisiya özəlliyinə diqqət yetirməyi unutmayın.
7. Lirik növə aid bir nümunə ilə müqayisə etməklə əsərin epik növdə olduğunu əsaslandırın.
8. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

**• Evdə iş**

• Mövzulardan birini seçib işləyin.

1. "Hekayənin yazıldığı dövrlə bağlı məndə hansı təsəvvür yarandı?" mövzusunda inşa yazın.
2. "Qurbanəli bəyin gülüş obyektinə çevrilməsinin səbəbini nədə görürəm?" mövzusunda esse yazın.



**MİRZƏ ƏLƏKBƏR SABİR**
**(1862–1911)**

O, Azərbaycan ədəbiyyatında böyük bir ədəbi məktəbin əsasını qoymuşdur. Azərbaycan satirası bu gün də həmin misilsiz sənət xəzinəsindən bəhrələnir, onun ənənələrini davam və inkişaf etdirir.

*Kamal Talıbzadə*

**• Yada salın**

– Mirzə Ələkbər Sabirin hansı əsərləri ilə tanışsınız?
– Bu əsərlərdə diqqətinizi daha çox cəlb edən nə olub?

**• Düşünün**

– Sənətkar, yazıçı həyatdakı ictimai bəlaları, nöqsanları hansı məqsədlə tənqid edir?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## ƏKİNÇİ

Məzlumluq edib başlama fəryadə, əkinçi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!

Bir üzrlə hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəc burma qapımda,
Gahi başına, gah döşünə vurma qapımda,
Ləğv olma, ədəb gözlə bu məvadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?
Yağmadı yağış, bitmədi bir danə, nə borcum?
Əsdi qara yel çəltiyə, bostanə, nə borcum?
Getdi mənə nə fələliyin badə, əkinçi?!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Aldı dolu əldən sərü samanını, neylim?
Yainki çəyirtkə yedi bostanını, neylim?
Verdin keçən il borcuna yorğanını, neylim?
Ol indi palaz satmağa amadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Söz açma mənə çox çalışıb, az yeməyindən,
Canın bəcəhənnəm ki, ölürsən, deməyindən!
Mən gözləmənəm, buğda çıxar, ver bəbəyindən!
Çəltik də gətir, arpa da, buğda da, əkinçi!
Yoxsa soyaram lap dərini, adə, əkinçi!

Sən hey de yoxumdur, çıxarıb canını, allam!
Vallahi ovub dideyi-giryanını, allam!
Şallağə tutub peykəri-üryanını, allam!
Öz halını sal indi özün yadə, əkinçi!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Cütçü babasan, buğdanı ver, darı yeyərsən,
Su olmasa, qışda əridib qarı yeyərsən,
Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,
Öyrəşməmisən ət-yağa dünyadə, əkinçi!
Heyvan kimi ömr eyləmisən sadə, əkinçi!

Lakin mənim insanlıq olub vəzi-mədarim,
Bəyzadəyəm, asayişədir cümlə qərarim,
Meysiz, məzəsiz bitməz olur şamü nəharim;
İştə belədir haləti-bəyzadə, əkinçi!
Bəyzadələrin rəsmi budur, adə, əkinçi!..

**I dərs**

## • Məzmun üzrə iş

1. Əsəri fərdi olaraq səssiz oxuyun. Sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın:
   1) Şeirin yazıldığı dövrdə kəndlinin həyatı, vəziyyəti necə idi?
   2) Əsərdə əkinçiyə kimin dilindən müraciət edilir?
   3) Mülkədarı hiddətləndirən nədir?
   4) Kəndlinin ağır vəziyyəti, amansızcasına istismar olunması hansı misralarda daha qabarıq ifadə olunmuşdur?
   5) Kəndlinin yalvarışları, məzlum vəziyyəti mülkədara necə təsir edir?
   6) Mülkədar kəndli haqqında hansı söz və ifadələri işlədir?
   7) Mülkədarın kəndlidən fərqli məişəti, həyat tərzi satiranın hansı bəndində öz əksini tapıb?

2. a) Tapşırıqları fərdi olaraq yerinə yetirin. Cavabları dəftərinizdə çəkdiyiniz cədvəldə qeyd edin.

| | |
|---|---|
| **Şeirin ilk bəndindəki həmqafiyə sözlər hansılardır?** | |
| **Bəndlərdən birində işlədilmiş rədifləri müəyyənləşdirin.** | |
| ***Məzlum, fəryad, ədəb, insanlıq, çəltik, lal ol*** **sözlərinə sinonimlər seçin.** | |

b) Şeirdə işlədilmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

| Bədii təsvir və ifadə vasitələri | Nümunələr |
|---|---|
| Epitet | |
| Bədii sual | |
| Bədii təzad | |

c) Əsər barədə düşündüklərinizi ikihissəli gündəlikdə qeyd edin.

| № | Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|---|
| | | |

3. Kiçik qruplarda birləşərək cavablarınızı dəqiqləşdirin, təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

## • Evdə iş

• "Şeir məndə hansı təəssürat yaratdı?" mövzusunda şifahi təqdimata hazırlaşın.

**II dərs**

## • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

*Bilirsiniz ki, həyat hadisələri, insan obrazları bədii əsərdə fərqli təqdim olunur. Yəni davranış və əməlləri rəğbət, hörmət yaradan obrazlarla yanaşı, gülüş obyektinə çevrilənlər də olur. Cəmiyyətdə, mühüm ictimai hadisələrdə özünü göstərən mənfiliklər, nöqsanlar yazıçı tərəfindən kəskin tənqid atəşinə tutulur, ifşa edilir. Bu daha çox satirik əsərlərdə özünü göstərir. Satiradan bədii ədəbiyyatın əksər növlərində istifadə olunur; satirik şeir, satirik hekayə və s. ədəbi irsimizdə az deyildir. Belə əsərlərdə gülüş acı, hiddətli, məhvedici olur. Lakin ədəbiyyatda gülüş həmişə eyni vəzifəni ifa etmir; bəzən gülüşdə nifrət, qəzəb yox, mərhəmət, təəssüf, kədər olur. Ədəbiyyatdakı iki gülüşün –* ***satira*** *və* ***yumorun*** *başlıca fərqi də bundadır.*

Ədəbiyyatımızda satirik şeirin böyük ustadı sayılan Sabir XX əsrin əvvəllərində cəmiyyətdəki nöqsanlara qarşı çevrilmiş əsərləri ilə şöhrət qazanmışdır. Onun kəskin əsərlərindən olan "Əkinçi" 1907-ci ildə "Molla Nəsrəddin" jurnalında çap edilmişdir. Satirada mülkədar obrazının daxili aləmi, zəhmət adamına – əkinçiyə münasibəti onun öz dili ilə hərtərəfli açılır. Bu, Sabirin satiralarının mühüm cəhətlərindəndir. Şairin bədii

təsvir və ifadə vasitələrindən istifadə məharətinə diqqət yetirin, bir əsr bundan əvvəl yazılmış satirik şeirə oxucu marağının səbəbini aydınlaşdırmağa çalışın.

"Əkinçi" satirası əruz vəzninin həzəc bəhrində yazılıb. Bu bəhrdə yazılan şeirlər axıcı, rəvan, gözəl səslə, xoş avazla oxunur. Şeir həzəc bəhrinin dördtəfiləli növündədir.

| məf Ulü | məfAilü | məfAilü | fəUlün |
|---|---|---|---|
| Məzlumluq<br>Qoyma ö | edib başla<br>zünü tülkü | ma fəryadə,<br>lüyə, adə, | əkinçi!<br>əkinçi! |

## • Araşdırın • Fikirləşin • Cavab verin

2. Nitqinə, bağlı olduğu məişətə əsaslanmaqla mülkədar obrazını səciyyələndirin.
3. Əkinçi obrazının xarakteri, davranışı, məişəti barədə sizdə hansı təsəvvür yarandı? Fikrinizi əsərdən nümunələr göstərməklə əsaslandırın.
4. Sizcə, bu obrazlardan hansı haqlıdır: mülkədar, yoxsa əkinçi? Nə üçün?
5. Doğru saydığınız fikirləri müəyyənləşdirib onlara münasibət bildirin.
   a) Satirik əsərdir, mülkədar obrazı nitqi, danışığı ilə özünü ifşa edir.
   b) Əsərdə mübariz kəndli obrazı yaradılmışdır.
   c) Şair müasiri olduğu kəndlilərin həyatını, məişətini, yaşayışını olduğu kimi əks etdirmişdir.
   ç) Kəndlilərin ağır, çıxılmaz vəziyyəti şairdə dərin təəssüf hissi doğurur.
6. Sizcə, əsərdə qaldırılan problem nədir?
7. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir? Bədii ədəbiyyatda bu satiranın ideyası ilə səsləşən fikirlərə rast gəlmisinizmi?

## • Evdə iş

• Digər fənlərdən, müxtəlif mənbələrdən topladığınız məlumat əsasında "XX əsrin əvvəllərində Azərbaycan kəndi və kəndlisi" mövzusunda şifahi təqdimata hazırlaşın.

## III dərs

## • Tətbiq • Müzakirə • Yaradıcı iş

1. Kiçik qruplarda birləşib aşağıdakı tapşırıqları yerinə yetirin.
   a) M.Ə.Sabirin əkinçi və mülkədar obrazlarına münasibətini aydınlaşdırın. Cədvəldən istifadə edin.

| Obrazlar | Müəllifin onlara münasibəti |
|---|---|
| Mülkədar | |
| Əkinçi | |

   b) "Əkinçi" şeirinin satirik əsər olduğunu əsaslandırın. Sxemdən istifadə edin.

"Əkinçi" satirik əsərdir, çünki...

c) Bədii təsvir və ifadə vasitələrinin əsərin təsir gücünün artmasında rolunu aydınlaşdırın.

| № | Əsərdə işlədilmiş bədii təsvir və ifadə vasitələri | Əsərin təsir gücünün artmasında onların rolu |
|---|---|---|
| | | |
| | | |
| | | |

ç) “Əkinçi” şeirini N.Gəncəvinin “Kərpickəsən kişinin dastanı” əsəri ilə növ və janr baxımından müqayisə edin.

| Hansı cəhətlərinə görə müqayisə olunurlar? | Əsərlərin adı | |
|---|---|---|
| Növ və janr baxımından | “Əkinçi” | “Kərpickəsən kişinin dastanı” |
| | | |

2. Çıxardığınız nəticələri təqdimat əsasında müzakirə edin.
3. Müzakirə edin: Yazıldığı dövrdə Azərbaycan kəndində hökm sürən vəziyyəti “Əkinçi” doğru əks etdirirmi?

   Müzakirədə “XX əsrin əvvəllərində Azərbaycan kəndi və kəndlisi” mövzusu üzrə topladığınız məlumatdan istifadə edin.

## • Evdə iş

- Topladığınız məlumat əsasında “Sabir böyük sənətkar və vətənpərvər kimi” mövzusunda informasiya xarakterli məruzə hazırlayın.



**ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV**
**(1870–1933)**

O, dolğun məzmunlu dram əsərləri, maraqlı hekayələri ilə şöhrətlənmiş, ədəbiyyatımızın və sənətimizin inkişafında mühüm rol oynamışdır.

*Kamran Məmmədov*

**• Yada salın**

– Ədəbi qəhrəmanları gülünc vəziyyətə düşən hansı əsərləri xatırlayırsınız?
– Bu qəhrəmanlarla bağlı sizdə hansı hiss və düşüncə yaranıb?

**• Düşünün**

– İnsanlar hansı səbəblərə görə gülünc vəziyyətə düşə bilərlər?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii ifadə vasitələrini müəyyənləşdirin.

## BOMBA

**1**

Qorodovoy Kərbəlayı Zal iyirmi beş ildən artıq idi, polis idarəsində xidmət edirdi. Onun arvadı hərdənbir deyərdi:

– A kişi, sənin saqqalına nə şaşka yaraşır, nə də şapka. Gəl sən bu qorodovoyluqdan əl çək! Bir balaca alış-verişə yapış. Bir baqqal dükanı aç!

Kərbəlayı Zal cavab verərdi:

– Arvad, sən hökumətin ləzzətini anlamırsan. Əgər səni qorodovoy eyləyələr, min il qulluqdan çıxmazsan; bir də mən iyirmi beş ildən artıqdır ki, polis qulluğundayam. Bir-iki ildən sonra pensiyəm çıxacaq. Ondan sonra rahat əyləşib pensiyəni yeyərik.

Belə danışıqdan sonra arvad həmişə sakit olardı.

– Nə deyirəm, kişi, özün bil!



... Kərbəlayı Zal "Qanlı küçə" ilə "Zavallı" küçəsinin küncündə durub pristavın sözlərini fikir edirdi...

2

Bu dəfə Kərbəlayı Zalın ovqatı təlx idi. Dəftərxanada pristav çağırıb demişdi:

– Kərbəlayı Zal, səndən narazıyam. Sən köhnə, dünyagörmüş qorodovoysan. Bununla belə, dünən Rusiyadan gəlmiş qorodovoy, görürsən, bomba tapır, tüfəng tapır, patron tapır... həm ağasının üzünü ağ eləyir, həm özünün. Amma sən indiyədək bir sınıq balta da tapmayıbsan. Görünür, sən ya rüşvət alırsan, yainki qocalıb zay olubsan. Əgər belə getsə, bizim bir yerdə qulluq eləməyimiz tutmayacaq.

Bu sözlər bir ox olub Kərbəlayı Zalın bu tərəfindən dəyib, o biri tərəfindən çıxdı. Axşam bikef gəldi evə. Arvad soruşdu:

– Nə var?

Dedi:

– Heç, bir az başım ağrıyır.

Arvad abgüşt bişirmişdi. Gətirib qoydu kişinin qabağına. Bir-iki tikə alıb, "iştahım yoxdu" deyib yatmaq istədi. Nə qədər etdisə, gözünə yuxu gəlmədi. Axır durub, bir stəkan çay içib getdi qarovula.

Kərbəlayı Zal "Qanlı küçə" ilə "Zavallı" küçəsinin küncündə durub pristavın sözlərini fikir edirdi.

Gecəyarısından bir xeyli keçmiş Kərbəlayı Zal gördü ki, usta Feyzulla nalbəndin qapısında bir kişi dayandı. Yedəyində də bir at, atın üstündə bir cüt çuval və çuvalın içində bir növ girdə şeylər. At sahibi ilə ev sahibi çuvalları atın üstündən ehmallıca alıb apardılar və sonra atı içəri çəkib qapını bağladılar.

Kərbəlayı Zal bu keyfiyyəti görüb öz-özünə dedi: "Daha baxtımın ulduzu parıldadı. Gecənin bu vaxtında gələn girdə şey xatalı şey olar".

3

O saat fit çaldı, yaxındakı qorodovoy Patap gəldi.

– Vot, Patap, bomba rabatay!

– Qde?

– Dom Feyzulla bomba pirnesom.

Patap İvana xəbər elədi, İvan oqolodoçniyə, oqolodoçni pristava, pristav qala bəyinə, qala bəyi jandarmlar rəisinə. Yarım saatdan sonra usta Feyzullanın evini qazaq, saldat, qorodovoy bürüdü. Qapını döydülər.

Usta Feyzulla çıxdı, xəbər aldı:

– Kimsən?

Dedilər:

– Aç qapını.

Qapını açan tək binəvanın dili tutuldu. Birtəhər soruşdu ki, "bəs niyə buyurubsunuz?" Dedilər:

– Danışma, gərək sənin evin axtarılsın!

4

Gecəyarısı Feyzullanın arvadını, uşaqlarını ürəkqopma azarına salıb evin altını üstünə çevirdilər. Heç zad tapa bilmədilər. Axırda otaqların birinə girib gördülər küncə iki çuval qoyulub.

Kərbəlayı Zal çuvalları görən tək qışqırdı:

– Barin, vot, vot bomba!



... Kərbəlayı Zal çuvalları görən tək qışqırdı:
– Barin, vot, vot bomba!..

Camaat çuvalları əhatə etdi, amma yaxın getməyə heç kəs cürət etmirdi. Deyirdilər: "İndi açılar, hamını qırar".

Yazıq Feyzullanı da qolları bağlı bir kənarda saxlamışdılar. Feyzulla evində bir şey tapılmadığını görüb cürətləndi və birdən səsləndi:

– Ay ağalar, o çuvalların nəyindən qorxursunuz? İzin verin qollarımı açsınlar, o çuvalların içindəkini bir-bir çıxarıb sizə göstərim.

Feyzullanın qolunu açdılar. Gəlib çuvalın ağzını açıb içindən beş dənə qarpız çıxartdı.

O biri çuvalda da qarpızdan başqa bir şey yox idi.

Səhər Kərbəlayı Zalı qulluqdan xaric etdilər.

**I dərs**

## • Məzmun üzrə iş

1. Əsərin oxusunu fərqli formalarda həyata keçirə bilərsiniz. Əsərin məzmunu və həcmi proqnozlaşdırılmış oxudan istifadə üçün daha əlverişlidir. Bu oxu növünü seçsəniz, ilk növbədə, əsərin adına diqqət yetirin. Parta yoldaşınızla birlikdə əsərdə nədən danışıla biləcəyini müzakirə edin.
2. Əsərin hər parçasını (mətn dörd parçaya bölünmüşdür) fərdi olaraq səssiz oxuduqdan sonra cədvəldəki suallarla bağlı qeydlər edin.

| Əsərin parçaları | Sizcə, nə baş verəcək? Hadisələr necə davam edəcək? | Nə üçün belə düşünürsünüz? Nəyə əsaslanırsınız? | Nə baş verdi? Hadisələr necə davam etdi? |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | | |

3. Qənaətləriniz yaxın və ya oxşar olan yoldaşlarınızla birləşib kiçik qruplar yaradın, fikirlərinizi ümumiləşdirib təqdimata hazırlaşın.
4. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
5. Əsərdəki hadisələrlə səsləşən bir epizod fikirləşin. Onu hansı hadisədən sonra mətnə əlavə etməyin mümkün olduğunu əsaslandırın.

## • Evdə iş

• Mövzulardan birini seçib şifahi təqdimat hazırlayın.

1. "Kərbəlayı Zalın sonrakı taleyini necə təsəvvür edirəm?"
2. "Əsərdəki hadisələrin baş verdiyi dövrdə – XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət".

**II dərs**

## • Məzmun üzrə iş

**Bilik və bacarıqlarınızı tətbiq edin.**

1. Əsərin məzmununa aid üç sual yazın. Suallarınızı parta yoldaşınızla dəyişib onlara cavab hazırlayın və müzakirə edin.
2. Əsəri hissələrə ayırıb, birinə ad verin. Məzmununu hazırladığınız plan əsasında yaradıcı nağıl edin.
3. Doğru hesab etdiyiniz fikirləri müəyyənləşdirin və onlara münasibət bildirin:
   a) Kərbəlayı Zal şöhrətpərəstdir.
   b) O, polis qulluğunda qalmaq üçün hər cür ədalətsiz iş tutmağa hazırdır.
   c) Xırda hisslərlə yaşayan Kərbəlayı Zalın həyata baxışı da məhduddur.
   ç) Kərbəlayı Zalın usta Feyzulla ilə ədavəti var idi.
   d) Kərbəlayı Zal vətəninə, xalqına fayda vermək üçün dövlət qulluğunda işləməyə üstünlük verir.
4. Əsərdəki hansı epizodda hadisələr ən yüksək inkişaf nöqtəsinə çatır? Fikrinizi əsaslandırın.
5. Dərslikdə əsərlə bağlı verilmiş illüstrasiyalar təsəvvürünüzə uyğundurmu? Əsərdəki daha hansı epizoda illüstrasiya çəkilməsini məsləhət görərdiniz? Nə üçün?

## • Evdə iş

• Əsas hadisələrin təsviri və tamamlanması baxımından "Bomba" əsərini məzmununu yaxşı bildiyiniz bir hekayə ilə müqayisə edin. Venn diaqramından, yaxud müqayisə cədvəlindən istifadə edin.

**III dərs**

## • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Əsər XX yüzilliyin əvvəllərində – Azərbaycan Rusiya imperiyasının müstəmləkəsi olarkən yazılmışdır. Rus hakim dairələri milli ucqarlarda baş verən ən kiçik hadisələri belə diqqətlə izləyir, azadlıq və müstəqilliklə bağlı fikirlərin qarşısını amansızlıqla alırdı. Mövcud hakimiyyət insanları idarə etmək, itaətdə saxlamaq üçün hər cür vasitəyə əl atır, onların daim qorxu, vahimə altında yaşamalarına çalışırdı. Qulluğa götürülən adamlar isə çuğulçu, xəbərçi olmağa təhrik edilirdilər. Bu hakimiyyətə xidmət edən yerlilərin içərisində yadelli ağalarına sədaqətli olduqlarını sübut etmək üçün dəridən-qabıqdan çıxan nökər təbiətli adamlar da vardı. Belələri ədəbiyyatımızda onlarca obrazın yaranmasına səbəb olmuşdur. Kərbəlayı Zal da məhz bu obrazlardan biridir.

Əsər həcmcə kiçik olsa da, yazıçı maraqlı, oxucunu düşündürən obraz yarada bilmişdir. Onun nitqinə – danışığına, əsərdəki əhvalat və hadisələrin bir-biri ilə necə bağlanmasına diqqət yetirin. Bu, yazıçının əsas niyyətinin və obrazın xarakterinin başa düşülməsi üçün əhəmiyyətlidir.

*Əsəri maraqlı edən cəhətlərdən biri də onun gözlənilməz sonluqla bitməsidir. Belə əsərlər **novella** adlanır.*

*Bu, hekayənin xüsusi bir növü, şəkli hesab olunur. Deməli, novella onda əks olunmuş əhvalat və hadisələrin qəribə, gözlənilməz şəkildə tamamlanması, başa çatması baxımından hekayənin digər formalarından fərqlənir.*

## • Araşdırın • Fikirləşin • Cavab verin

2. Əsər sizdə hansı təəssürat yaratdı? Fikrinizi təsdiq edən misallar göstərin.
3. Kərbəlayı Zal obrazını səciyyələndirin. Onun nitqinə əsaslanmağı unutmayın. Cədvəldən istifadə edin.

| Obrazın adı | Nitqindən nümunələr | Xarakterindəki başlıca cəhətlər |
|---|---|---|
| | | |

4. Yazıçını bu əsərdə düşündürən başlıca problemi müəyyənləşdirin. Onu mühüm hesab etmək olarmı?
5. "Əsər bitkin süjeti, mükəmməl kompozisiyası ilə seçilir" fikrinə nümunələrə əsaslanmaqla münasibət bildirin.
6. Əsərdəki başlıca fikri – ideyanı aydınlaşdırın. Cədvəldən istifadə edin.

| № | Əsərin ideyası aşağıdakılardan hansıdır? | Nə üçün belə düşünürsünüz? | Öz variantınız hansıdır? |
|---|---|---|---|
| 1 | Şöhrətpərəstlik insan üçün böyük nöqsandır. | | |
| 2 | Cılız hisslərlə yaşayan insan böyük uğur qazana bilməz. | | |
| 3 | Yadelli ağalara qulluq göstərənlər sonda zavallıya çevrilirlər. | | |
| 4 | Mütilik, qul psixologiyası asılı olmaqdan yaranır. | | |

## • Tətbiq • Müzakirə • Yaradıcı iş

**Müzakirə edin:** Kərbəlayı Zalın gülünc, zavallı vəziyyətə düşməsinin səbəbini xarakterindəki nöqsanlarla izah etmək olarmı?

## • Evdə iş

• Mövzulardan birini seçib işləyin.

a) "Yazıçının bu əsəri yazmasının səbəbini necə başa düşürəm?" mövzusunda inşa yazın.

b) "Kərbəlayi Zala acımaq lazımdırmı?" mövzusunda esse yazın.

## ABDULLA ŞAİQ

### Məktub yetişmədi
*(ixtisarla)*

Qışın dondurucu bir günü idi. Soyuq qılınc kimi kəsirdi. Göylər yaslı adamlar kimi qara çarşaba bürünmüş, dağlar, çöllər ağ kəfənlə örtülmüşdü.

Qurban Şeytanbazar ağzında, məktub yazan həmşərisi Molla Fərzəlinin yanında oturmuşdu. Soyuqdan əlləri və üzü bozarmışdı. Bir əli ilə yırtıq paltarının açıq yaxasını tutaraq:

– Molla, mənə bir məktub yaz! Bilirsən ki, hər il sənə nə qədər xeyir verirəm. Vətəndən gəldiyim bir il olmaz, artıq sənə beş məktub yazdırıram, – dedi.

Molla Fərzəli soyuqdan donmuş əllərini ovuşdurdu. Əsnəyə-əsnəyə bir kağız parçasını dizi üstünə alaraq:

– Həmşəri, nə yazılacaq? – dedi.

Qurban Molla Fərzəliyə bir az da yaxınlaşdı. Gizli bir söz söyləyirmiş kimi pıçıldayaraq dedi:

– Molla, əvvəlcə məndən uşaqların anasına salam yaz. Yaz ki, Anaxanımın, Məmişin gözlərindən mənim əvəzimdən öpsün, onlardan göz-qulaq olsun. Sonra yaz ki, mən də, şükür Allaha, sağ və salamatam. Qulamrza ilə sizə on beş manat göndərdim. Bayramqabağı yenə göndərəcəyəm, uşaqlar korluq çəkməsinlər, özüm də yazın axır ayında gələcəyəm.

Molla Fərzəli qələmi mürəkkəbə batırıb yazmağa başladı. Qurban dedi:

– Molla əmi, yaman adamın quyusunda işləyirəm, quyu indi otuz sajından aşağı enib, nə qədər yalvarırıq ki, “Ay ağa! Haqqımızı bir az artır, çünki aşağıya getmək çox çətindir, neftin, qazın iyindən nəfəsimiz tutulur”, zalım oğlu razı olmur. “Əvvəlki şərtimizlə qazacaqsınız, yoxsa haqqınızı verməyəcəyəm”, – deyir. Molla, burada pul qazanmaq çox çətindir.

Molla Fərzəli məktubu yazıb bitirdikdən sonra büküb zərfə qoydu və üzünü Qurbana tutub: – Həmşəri, zərfin üzü kimin adına olacaq? – deyə soruşdu.

Qurban əli ilə boynunu ovuşdura-ovuşdura:

– Hə, molla, yaz ki, Qurbanın uşaqlarının anasına yetişəcək.

Qurban əli ilə qoynundakı məktubu bərk tutaraq yeriyirdi. O indi həmşərisi Qulamrzanın mənzilinə gedib, həm məktubu ona vermək, həm də dilcavabı bir-iki söz sifariş etmək istəyirdi. O, ayaqları altında xışıldayan qarın üzərinə birdən-birə üzüqoylu düşdü, ölgün və üzgün halda başını qaldırdı. Qabağında izdihamı yarıb keçən faytonları, isti paltarlı, şən sifətli insanları qəzəbli nəzərlərlə süzdü. İxtiyarsız olaraq, solğun dodaqlarından bütün əzab və qəmlərinə tərcüman olan bir “of” uçdu. Özünü doğruldaraq düşdüyü yerdən qalxdı. Tez əlini qoynuna soxdu və məktubu yanıq ürəyi üzərinə sıxaraq yeridi. Bir az sonra Qulamrzanın mənzilinə yetişdi. Qapı bağlı idi… Qəmgin və fikirli halda geri döndü və yolda həmşərisi Səftəri gördü. Ona yaxınlaşaraq əhval soruşdu. Məlum oldu ki, Qulamrza şəhərə getmişdir. Qurban Səftərə söylədi:

– Qulamrza qayıdanda mənim gəldiyimi ona de, tapşır ki, məni görməmiş getməsin. Amanatım da, dilcavabı sifarişim də var.

Bunu deyib Qurban mənzilinə qayıtdı.

… – Namərdlər, alçaqlar, nə qədər ki quyu dərinləşməmişdi, mən baş idim, onlar quyruq. Hər tərəfə dönsəm, onlar da o səmtə sürünürdülər. İndi ki quyu dərinləşib, mənə baş olmaq istəyirlər. “Quyu dərinləşib, ölüm ayağı var”, – deyə hər gün təzə şərt qoyurlar.

Tanrıverdi və Səfər çəkdikləri torpağı boşaldıb yenidən dolu quyuya buraxdıqdan sonra Tanrıverdi:

– Ay ağa, – dedi, – bilirsən ki, quyunun indi çətin vaxtıdır, əjdaha kimi ağzını açıb qurban istəyir.

Səfər Tanrıverdinin sözünü kəsdi:

– Bax bu yerlərin hər guşəsinə ayaq bassan, hər ovuc torpağına qazma vursan, işçi sümüyü görərsən, işçi fəryadı eşidərsən.

Hacı Qulu ayaqlarını yerə çırparaq bağıra-bağıra:

– Canınız çıxsın, – dedi, – pul qazanmaq asandır? Siz canınızdan keçirsiniz, biz də ətək-ətək pulumuzdan.

Tanrıverdi həyəcanla qışqırdı:

– Səfər! Səfər! Qurban ipi tərpədir.

Səfər və Tanrıverdi tez quyunun ağzına qaçıb başlarını aşağı dikərək baxarkən quyunun içində partlayan qazın gurultusundan diksinib çəkildilər. Hər ikisi həyəcanlı bir səslə:

– Allah özü bağışlasın. Qurban da belə getdi, – dedilər.

Hacı Qulu bir şey eşitmirmiş kimi, qorxa-qorxa quyunun ağzına gəldi və diqqətlə baxdı. Birdən-birə dodaqlarında bir təbəssüm olduğu halda uca səslə:

– Çeşmənin başı açılmışdır. Yavaş-yavaş neft qaynayır, – dedi.

Səfərlə Tanrıverdi Qurbanın paltarını yığışdırıb götürərkən arasından yerə bir məktub düşdü. Məktubun üzərində: “Bu məktub Qurbanın uşaqlarının anasına yetişəcək” cümləsi yazılmışdı. Səfərlə Tanrıverdi bir müddət məktubu acı nəzərlərlə süzərək: “Yazıq Qurban, məktub yetişmədi”, – deyə sızıldadılar.



**MƏHƏMMƏD HADİ**
**(1879–1920)**

O, türk, Şərq və Avropa ədəbiyyatlarını, fəlsəfəsini dərindən mənimsəmiş və bütün bu təsirləri şeirlərində yaradıcı şəkildə əks etdirərək orijinal şair kimi ədəbiyyat tariximizdə özünə layiq yer tutmuşdur.

*Yaşar Qarayev*

**• Yada salın**

– Milli-azadlıq mövzusunda oxuduğunuz hansı əsərləri xatırlayırsınız?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**• Düşünün**

– Azadlıq, müstəqillik mövzusunda əsərlərin yazılmasına nə vaxt ehtiyac yaranır?
– Belə əsərlərin əhəmiyyəti nədir?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii ifadə vasitələrini müəyyənləşdirin.

## TÜRKÜN NƏĞMƏSİ

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

Dörd ildə verilmiş bu qədər can hədər olmaz,
Məfkurə yolunda tökülən qan hədər olmaz.
Qiymətli olan xuni-şəhidan hədər olmaz,
Dul qalmış olan növheyi-nisvan hədər olmaz,
Bax sən sonuna, himməti-türkan hədər olmaz,
Bədbəxt olan əfğani-yetiman hədər olmaz.

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

Qan ilə qazandıq zəfəri, verməriz əldən,
Xof eyləmədik ataşi-dəhhaşe-düvəldən.
Bir zərrə belə qorxmayırız dəsti-əcəldən,
İstərsə cahan çevrili varsın da təməldən.
Türkün üzü çevrilməyəcək səmti-əməldən
Türklər geriyə dönməyəcək müslih əməldən.
Yüksək yaşamaq istər ikən cümlə miləldən.

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

**I dərs**

### • Məzmun üzrə iş

1. Müəllimin oxusunu və izahını diqqətlə izləyin. Tanış olmayan sözlərin mətnə uyğun mənasının aydınlaşdırılmasında fəal iştirak edin.
2. Şeiri bir daha nəzərdən keçirin, fikirlərinizi fərdi olaraq ikihissəli gündəlikdə yazın.
3. Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün və fikirlərinizi dəqiqləşdirin.
4. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

### • Evdə iş

- Türk xalqları haqqında topladığınız məlumat (sayları, yaşadıqları ərazilər, qarşılıqlı əlaqələri və s.) əsasında yazılı məruzə hazırlayın.

**II dərs**

### • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Şeir digər xalqlar kimi, türk xalqlarını da fəlakətə sürükləyən Birinci Dünya müharibəsi zamanı – 1918-ci ildə yazılmışdır. Həmin illərdə türk xalqları böyük itkilər vermiş, böyük əzab-əziyyətlərə qatlaşmalı olmuşlar. Yenicə müstəqilliyini qazanmış Azərbaycan dövlətinin vəziyyəti daha ağır idi, o, torpaqlarına göz dikmiş erməni daşnakları ilə qanlı müharibə aparmağa məcbur olmuşdu. Bütün bunlara şairin münasibətini aydınlaşdırmağa çalışın. Şeirdə tanış olmayan sözlər çox olsa da, o, maraqla oxunur və oxucunu düşündürür. Müşahidələrinizi davam etdirməklə bunun səbəbini müəyyənləşdirməyə çalışın.

Şeir əruz vəznində, **həzəc** bəhrinin dördtəfiləli növündə yazılıb. Misralardakı bölümlər təfilənin tələbinə görə aşağıdakı şəkildə olur.

| məfUlü | məfAİLü | məfAİLü | fəUlün |
|---|---|---|---|
| Türkün tö | külən qanla | rı bihudə | gedərmi? |
| Diqqətlə | düşün, yoxsa | bu qan həpsi | hədərmi? |

Oxu üçün seçilmiş parçanın bu qaydada yazılması ifaçının işini xeyli asanlaşdırır. Bu, bildiyiniz kimi, əruz vəznində yazılmış şeirlərin düzgün oxusuna istiqamət verir.

**• Araşdırın • Fikirləşin • Cavab verin**

2. Şeir hansı mövzuda yazılıb? Fikrinizi əsaslandırın.
3. Müharibənin türk xalqlarına gətirdiyi fəlakət şeirdə inandırıcı şəkildə ifadə edilmişdirmi? Fikrinizi nümunələrlə əsaslandırın.
4. "Şeirdə ağır itkilərdən doğan kədər hissindən çox, azadlıq uğrunda mübarizə əzmi əks olunmuşdur" fikrini doğru saymaq olarmı? Mövqeyinizi təsdiq edən misallar göstərin.
5. Şeirin ahəngdarlığına, bədii təsir gücünün artmasına şair hansı vasitələrlə nail olmuşdur?
6. Şeirin müəllifi haqqında sizdə hansı təsəvvür yarandı?
7. Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?

**• Evdə iş**

• Xalqımızın 1905, 1918, 1947 və 1980–90-cı illərdə qarşılaşdığı faciələrlə bağlı məlumat toplayın. Məruzə üçün yazılı mətn hazırlayın.



**HÜSEYN CAVİD**
**(1882–1941)**

Hüseyn Cavid bizim üçün qiymətlidir, əzizdir. Çünki o, insan və həyat haqqında ürək ağrısı, can yanğısı ilə danışmışdır.
Onun əsərləri təzadların qarşılaşması, ziddiyyətlərin toqquşması və qovuşması yolu ilə yaranmışdır. Belə üslub tərzinin ilk və ən saf bəhrələrindən biri "Ana" dramıdır.

*Mehdi Məmmədov*

**• Yada salın**

- Ana mövzusunda hansı əsərləri oxumusunuz?
- Həmin əsərlərdə hansı fikirlər diqqətinizi daha çox cəlb edib?

**• Düşünün**

- Ana qan tökülməsinə razı ola bilərmi?

**• Oxuda aydınlaşdırın**

- Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
- Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## ANA
*(ixtisarla)*

Dram
*(bir pərdəli)*

ƏŞXAS

Səlma – *ana.*
Qanpolad – *onun oğlu.*
İsmət – *Qanpoladın nişanlısı (çərkəz qızı).*
Səlim – *İsmətin qardaşı.*
Gənc bir ləzgi – *Səlimin arqadaşı.*
Orxan – *İsmətə vurulmuş bir dəliqanlı.*
İzzət.
Murad.

## I

*Səhnə Dağıstanda otlu, ağaclı küçük bir bağça ərz edər. Bağçanın ucunda sadə və fəqiranə bir evciyəz görünür. Uzaqda lətif, rəngarəng bulutlar, yüksək və mavi dağlar nəzərə çarpar.*

**Səlma** *(Qapı önündə oturub pək düşüncəli görünür, iki dəqiqə sonra qalxıb yüzünü göy səmtinə tutar. Sinirli və həyəcanlı bir səslə)*

Ey mərhəmət kanı, ey ulu Tanrı!
Ey yerlərin, göylərin hökmdarı!
İnayət qıl, yoq başqa bir havadar,
Yalnız varım-yoqum tək bir oğlum var.
Ah, Qanpolad!.. Nuri-didəm, evladım!
Üç ay var ki, məktubunu almadım.
Üç ay var ki, taqət qalmamış bəndə,
Gözüm yollarda, intizar içində.
Hər gecə gördüyüm qanlı röyalar
Göstərir ki, qorqulu bir xəbər var.
Bir yıldan fəzlədir hər ay, hər on beş
Məktub yollardı, eylərdi sipariş.
Niçin o, şimdi olsun böylə qafil?
Xayır, xayır, oğlum vəfasız deyil.
Lakin bəni məhv edər bu intizar,
Gündən-günə qəlbimdə şübhə artar.
*(İsmətin gəldiyinə diqqət edərək)*
Ah, gəliyor İsmət, nasıl da məhcub!
Qız deyil, bir mələkdir...

- Oğlunun yolunu həsrətlə gözləyən ana hansı hislər keçirir?
- Bu misralarda hansı bədii ifadə vasitələri işlənib?
- Onun narahatlığına səbəb nədir?
- Səlma ana haqqında sizdə hansı təəssürat yarandı?

**İsmət** *(gülər yüzlə)*
İştə məktub!

**Səlma** Kimdən, quzum?

**İsmət** Qanpoladdan.

**Səlma** Kim verdi?

**İsmət** Qomşumuz, Qorqmaz oğlu Müslim verdi.

**Səlma** Nasıl Qanpoladım?

**İsmət** Şükür, sapsağlam...

**Səlma** Gəlmiyormu?

**İsmət** Məktubda yazmış tamam.

**Səlma** Ah, gözəl İsmətim, otur evdə sən,
Bir az təkbaşına çalğı çal, əylən.
Bən də şimdi məktubda hər nə varsa,
Oqutdurub tez gəlirim...

- Səlma ana İsmətə necə münasibət bəsləyir?

**İsmət** Pək əla. *(Səlma gedər).*

**İsmət** *(kəndi-kəndinə)*

Of! Qanpolad kim bilir şimdi nerdə?
Bən burda yalnız, o, qürbət ellərdə.
Bir yıl əvvəl nişanlandım bən ona,
Tale o gündən düşman olmuş bana.
Artıq onsuz hər şey gözümdə məhzun,
Bir an həyatımdan olmadım məmnun…
*(Qapıyı açıb içəri girər. Bir az sonra Orxan ilə İzzət bir tərəfdən çıqar)*

**Orxan** İzzət, İzzət! Sən bir tərəfdə bəklə,
Saqın! İsmət səni görməsin hələ.

**İzzət** Kim bilir! Bəlkə hiç o yoqdur evdə.
*(Bu sırada qarmon səsi eşidilir)*

**Orxan** İştə qarmon səsi! Odur, əlbəttə.
Odur, o!.. Baq, nasıl ruhlu bir çalğı?

**İzzət** Əvət, məhzun gönül, məhzun musiqi.

- Orxan İsmət haqqında nə düşünür?
- Orxanla bağlı sizdə hansı təəssürat yarandı?

**Orxan** Ah, qız nə qız! Sultanlara layiqdir,
Fəqət zalım Qanpolada aşiqdir.
Hər gün xəbər tutar gedib-gələndən,
Onun adı bir an düşməz dilindən.
Zavallı! Kəndi hüsnündən xəbərsiz,
Bilmiyor ki, eşqində divanəyiz!
Bilməm ona nasıl dərd anlatmalı,
Yalnız yalvarmalı, ya qorqutmalı.
Kəndisi arqasız, yoqsuldur gərçi,
Lakin o qızda bir böyüklük var ki,
Hər zaman rast gəlsəm, ruhum sarsılır,
Dilim söz söyləməkdən aciz qalır.

**İzzət** Orxan, sən bir yigidsən! Düşün bir az,
Billah, bu hal sana əsla yaraşmaz.

**Orxan** Pəki nə yapmaq gərək?

**İzzət** Bıraq varsın,
Qız kəndisi gəlsin sana yalvarsın.

**Orxan** Xayır, bu iş mümkün deyildir, haşa!
Bən dərdimi açıb da başdan-başa
Eşqimi söylərim, riza göstərsə,
Xoşbaxt olur...

**İzzət** Büsbütün rədd edərsə?

**Orxan** Qəm yemə, Orxan pək də aciz deyil.
*(Qarmonun səsi kəsilir).*
Haydı, İzzət, susdu qarmon, sən çəkil!
(*İzzət dörd-beş addım çəkilir*)

**Orxan** *(qayət hiddətli)*
İnan ki, alt-üst eylərim aləmi,
İsmət Orxanı rədd edər, öyləmi?!
Allah şahid, bana olmazsa dəmsaz,
Bu topraqda ondan bir iz də qalmaz.
Yaşar dağlar başında qartal kibi,
Qoşar səhralarda bir maral kibi.
Bəndən başqa bulunmaz bir ənisi...
*(Bu sırada İsmət dışarı çıqar)*

**Orxan** Aman, nə yosma qız!

**İzzət** Ah!..

**Orxan** Çəkil, çəkil! *(İzzət çəkilir, Orxan kəndi-kəndinə)*
Yazıq! Əsla qızın könlü şad deyil,
Allah, Allah! Həm dalğın, həm də məhzun.
Bir baqışda eylər insanı məcnun. *(İsmətə doğru)*
Aman, ya Rəbb, İsmət, İsmət!

**İsmət** *(Orxanı görüncə heyrətlə)*
Ah, Orxan!

**Orxan** Nə var, nə yoq?

**İsmət** Çoq şükür, Qanpoladdan
Bu gün bir məktub gəldi...

**Orxan** Nerdə Səlma?

**İsmət** Qomşudadır, şimdi gəlir...

**Orxan** Pək əla. Fəqət niçin?

**İsmət** Getmiş mollayı bulsun,
Məktubu oqutsun, xatircəm olsun.

**Orxan** Pəki, evdə kim var?

**İsmət** Kimsə yoq...

**Orxan** İsmət! Allah əsirgəsin, nədir bu halət?
Bət-bənizin solmuş, çöhrən dəyişmiş,
Qolay sanma, deyil bu, sadə bir iş.

- İzzətin əsl məqsədi nədir?

- Bu misralarda hansı bədii təsvir vasitəsi işlənilmişdir?
- Orxanın bu sözləri onun haqqındakı təsəvvürünüzə nə əlavə etdi?

**İsmət** Əvət, doğru, fəqət məraq, intizar
Bir az sıqmış bəni...

**Orxan** Qərib halın var!
Qanpolad getsin qürbətdə sürünsün,
Sən burda ancaq sol, qaygı çək, düşün!

**İsmət** Lakin təhəmmüldən başqa çarə nə?

**Orxan** Yazıq İsmət, yazıq!.. Sənin hüsnünə
Bənim kibi binlərcə aşiq varkən...

**İsmət** Ah, sus, Orxan, sus!

**Orxan** Allahın sevərsən,
Söylədiyim sözlər yalanmı? Söylə!
Söylə, İsmət, yalanmı? Bir fikr eylə,
Bütün Dağıstanda var bir şöhrətim,
Yüksək dağlardan böyükdür həşmətim,
Hürmətim, izzətim, varım, sərvətim,
Nəslim, nəcabətim, gücüm, qüdrətim.
Günəş kibi parlayorkən, fəqat bən
Yalnız məftunum sana, ah, yalnız sən!..

- İsmətin düşüncələrinə hakim kəsilən fikir nədir?

- Niyyətini İsmətə açan Orxan ən çox nədən danışır?

**İsmət** Orxan! Yetər, yetər...

**Orxan** İsmət, bir düşün!
Səndən başqa bir düşüncəm yoq bu gün.
Bütün qızlar əsir ikən eşqimə,
Bən sənin eşqində batmışım qəmə.
Səbrim tükənmiş, taqətim kəsilmiş,
Huşum, əqlim uçmuş, uyqum çəkilmiş.
Səndə əsla mərhəmət yoqmu?

**İsmət** *(barmağındakı yüzüyü göstərərək, hiddətlə)*
Orxan!
İştə barmağımda gördüyün nişan
Qanpoladdan bir yadigardır bana,
Ömrüm olduqca bağlıyım bən ona.

**Orxan** Bir yüzükdənmi eylərsən ihtiraz?

**İsmət** Əvət, bu bir zəncir ki, hiç qırılmaz.

**Orxan** İsmət, onun hiç bir mənası yoqdur,
O bir boş xəyaldır, səni qorqudur.
Yüzük, nişan yalnız gönüldür, gönül!
Olma çocuq... Sən gəl bana ver gönül!
Yarın atlanıb bu köydən çıqalım,
Yigit kimsə, qarşı çıqsın baqalım. *(kəndi-kəndinə heyrətlə)*

Allah, Allah, yenə çatıldı qaşlar!
Dəhşət verir qartalvarı baqışlar! *(İsmətə)*
Söylə, fikrin nədir? Cavab ver, İsmət!

**İsmət** *(usanmış və sinirli bir halda)*
Artıq yetər, Allah için, çəkil get,
Hürmətin, izzətin, varın, şöhrətin,
Nəslin, nəcabətin, gücün, qüdrətin
Həp sənin olsun, get, çəkil get, Orxan!
Bən ayrılmam o yoqsul Qanpoladdan.
Bütün dünya alt-üst olub dağılsa,
Ondan başqa, sevdiyim yoqdur əsla!

**Orxan** İsmət, artıq bənim təhəmmülüm yoq...
Sən gəl bu işdə pək inad etmə çoq.
İnan, gözəl, səmər verməz bu inad,
Nə sən sağ qalarsın, nə də Qanpolad.

**İsmət** Get, nə yaparsın yap, çəkil get, durma!

**Orxan** Ah, öyləmi?

**İzzət** *(görünərək)*
Orxan, kəndini yorma!
Bir gücsüzə yalvarmaqdan nə hasil?

**İsmət** Ah, vicdansız, alçaq!..

**Orxan** İzzət, sən çəkil!

**İzzət** *(çəkilərək)*
Pəki, bən çəkildim, sən yalvar, yaqar,
Sanki yalvardıqca məhəbbət artar!

**Orxan** Artıq anladıq, çəkil, dəf ol, İzzət!

**İsmət** Ah, xain oğlu xain!..

**İzzət** Pəki. *(çəkilir)*

**Orxan** İsmət!
O, məcnundur, ondan bir şey umulmaz,
Saçmadır hər sözü, əsla tutulmaz.

**İsmət** *(istehza ilə)*
Əvət, doğru... yoqsa səni bulmazdı,
Səninlə sirdaş, arqadaş olmazdı.

**Orxan** Hər nə söylərsən söylə, xoşdur bəncə,
Bəllidir ki, olmaz dikənsiz qönçə.
Hər nazına bən eylərim təhəmmül,
Ancaq ayrılığa tab etmə müşkül...
Bəndə artıq can qalmamış... mərhəmət,

- Bu misralarda hansı bədii təsvir vasitəsi işlənilib?

- İsmətin Orxana cavabı onun haqqındakı təsəvvürünüzə nə əlavə etdi?

Mərhəmət qıl, insafsız olma, İsmət!
Ya gəl canımı al, ya ver tazə can,
İştə sən, iştə xəncər, iştə Orxan!
*(Xəncərini çəkib İsmətə uzatır)*

**İsmət** *(alaraq istehza ilə)*
Afərin, afərin bu zərbi-dəstə!
Hiç rast gəlmədim böylə zərbi-şəstə!
Çocuqluqdan bəri bu məmləkətdə
Vardım bu sinnə, amma sən fitrətdə,
Sən xislətdə bir qəhrəman görmədim,
Sən təbiətdə bir insan görmədim.
Bu haqsızlıq, bu acizlik, miskinlik
Bir mərd için çəkilməz dərdi-mühlik!..
Yazıq Orxan! Billah, yazıqlar olsun,
Sən bir yigitsin, sana çoq ar olsun!
*(Əlindəki xəncəri bir tərəfə atıb gedərək)*
Əvət, çoq ar olsun!..

**Orxan** Getmə, dur, İsmət!

**İsmət** Hədyan eşitməyə yoq bəndə qüdrət.

**Orxan** Dur, dedim, dur!

**İsmət** Artıq çəkil get, yetər!

**Orxan** Billah, məhv olursun...

**İsmət** *(xəncəri göstərərək)*
Al, iştə xəncər!
*(Uzaqlaşır)*

**İzzət** *(çıqıb yola baqaraq)*
Orxan! Gələn var, aman, çəkil, durma!

**Orxan** Ah, zalım!..

**İzzət** Gəl, canım, kəndini yorma.

**Orxan** *(azacıq çəkilərək)*
İsmət, İsmət! Getdim, unutma lakin...

**İsmət** Get hər nə istərsən, yap, alçaq, miskin!
*(Etinasızca evə girər)*

- İsmətin bu qədər kəskin danışmasına səbəb nədir?

**Orxan** Ah, bənmi?

**İzzət** Sus, canım, sus!

**Orxan** İsmət!

**İzzət** Orxan!
Gəl, haydı...

**Orxan** Uff... Sevimli, parlaq yılan!
*(Hər ikisi şaşırmış bir halda tez ağaclığa çəkilib saqlanırlar)*

**İsmət** *(bir az sonra təkrar dışarı çıqar, ətrafına baxaraq)*
Getmiş, artıq əsər yoq qəhrəmandan,
Mütləq bəni eyliyormuş imtihan!
Fəqət bilməz ki, İsmət Qanpoladsız
Məhv olur da, dönüklük etməz hərgiz.
Ah, şu xəncər nə? Vay, zavallı Orxan!
Şübhə yoq, unutmuş şaşırdığından.
*(xəncəri yerdən alaraq)*
Gerçəkdən pək gözəl, pək süslü xəncər,
Bir parçacıq polad, lakin bir əjdər...
Bir vuruşda məhv oluyor bir insan.
*(birdən-birə Səlimi görüb xəncəri gizliyərək)*
Ah, Səlim!

**Səlim** İsmət! Söylə, Qanpoladdan
Nə xoş xəbər var? Nə yazmış, nə etmiş?

**İsmət** Bilməm...

**Səlim** Səlma nerdə?

**İsmət** Qomşuya getmiş.

**Səlim** Niyə?

**İsmət** Məktubdan bir xəbər bilməyə.

**Səlim** Fəqət bir təlaş var sənin yüzündə.

**İsmət** Nasıl, təlaş?

**Səlim** İştə sən! İştə çöhrən!
Səndə bir iş var, gizliyorsun bəndən.

**İsmət** İnan ki, yoq burda hiç bir gizli iş.

**Səlim** Pəki, səbəb nə, öylə rəngin qaçmış?

**İsmət** Keçən gecə bir xeyli fikrə daldım,
Düşündüm, düşündüm, uyqusuz qaldım.
Odur ki bəndə qalmamış bət-bəniz...

- İsmətin Orxanın təklifini Səlimdən gizlətməsinə səbəb nə ola bilər?

**Səlim** Xayır, bu, uydurma bir sözdür yalnız.

**İsmət** Ah, neyləyim, qardaşım! Qanpoladsız
Günüm bir yıl keçər... bir nişanlı qız
Nerdə görülmüş böylə qayğı çəksin,
Bir yıl başdan-başa göz yola diksin.
Allah için, söylə, haqsızmıyım?

**Səlim** *(İsmətin qolundan tutub çəkərək)*
Gəl!
Çocuq olma...

**İsmət** Sən get! *(xəncər düşər)*
Ah!
**Səlim** İştə əngəl?! *(xəncəri yerdən alaraq)*
İsmət, İsmət. Bu xəncər nə, yanında?
Bu əjdər nə, saqlamışsın qoynunda?
**İsmət** Şimdi burdan keçərkən yerdə buldum,
Məraq etdim, kimindir deyə aldım.
**Səlim** Bən səni bir doğru qız zənn edərdim,
Səndə ki aldatmaq da varmış?!
**İsmət** Səlim!
İnan, hiç bir sözümdə yoqdur xilaf,
Bən yalan bilməm.
**Səlim** *(qızğın)*
İstəməz başqa laf!
Söylə, açıq söylə, hər nə var, söylə!
Doğru söylə, İsmət! Şaşırma böylə.
**İsmət** *(kəndisi)*
Allah, Allah! Bir bəlaya tuş oldum…
**Səlim** İsmət, inan, qaldım şübhə içində,
Cavab ver, sonra get, bir iş var səndə.
**İsmət** Səlim! Vaz keç, bıraq...
**Səlim** *(inadlı)*
İsmət, hiç olmaz.
**İsmət** *(sinirli)*
Allah İsməti öldürsün!..
*(Səlimin əlindən qurtulub düşüncəli bir halda evə doğru gedər)*
**Səlim** *(kəndisi)*
Ah, qurnaz!
Baq, nə qadar mahir, nasıl şivəbaz!..
Bir iş var, ancaq saqınır qızcığaz;
Sirr vermək istəməz, açmaz ağzını,
Xayır, bu halda bən görmədim onu…
*(İsməti çağıraraq)*
İsmət, İsmət!
**İsmət** Nə var?
**Səlim** Sözüm var sana.
**İsmət** Allahın sevərsən, çıq get bir yana!
**Səlim** Gəl bəri, İsmət! Bəri gəl...
**İsmət** Səlim, get!

**Səlim** *(İsmətə yaqınlaşaraq)*

Getmək qolay, ancaq sən etiraf et!
Anlat başından keçəni büsbütün;
Yoxsa bən sana rahət verməm bu gün.
Qıymaqmı istiyordun sən kəndinə?
Bu xəncərlə oynamaqdan məqsəd nə?

**İsmət** Səlim, çıldırdınmı?
**Səlim** Əvət, çarə bul!
**İsmət** Bəndə bir şey yoq, qardaşım, əmin ol!
**Səlim** Kimin bu xəncər, xəbərin yoqmu?
**İsmət** Yoq...
**Səlim** Ah, bu, yalan bir söz, zəhərli bir oq,
Ağzından uçub qəlbimə saplanır.
Vücudumda qan coşar, alavlanır.
Söylə, İsmət!
**İsmət** Yoq xəbərim, dedim ya!
**Səlim** Öylə isə, and iç, bitsin bu qavğa.
**İsmət** Nasıl! And içməkmi?

- Səlimin inadkarlığına haqq qazandırmaq olarmı?

**Səlim** *(İsmətin yaqasından tutub silkərək)*
Şübhəsiz...

**İsmət** *(kəndisi)* Eyvah!

**Səlim** Söylə, İsmət, söylə ki: vallah, billah,
Bu xəncərdən hiç xəbərim yoq bənim,
Həm də kimindir, bilməm əsla...

**İsmət** Səlim!
Bütün dünya dağılsa, bən and içməm.

**Səlim** *(hiddətli)*
Bən də, inan, israrımdan vaz keçməm,
Səlim çocuq deyil, hərgiz aldanmaz;
“Billah” de, qurtul...

**İsmət** *(kəndisi)*
Ah, inadlı qanmaz!
And içməsəm, susdurmaq olmaz onu,
And içsəm, olurum Allah düşmanı;
Fəqət, xayır, mümkün deyil and içmək,
Hər nə varsa, açıb söyləyim gərək.

**Səlim** İsmət, söylə, niçin susdun?
**İsmət** Ah, Səlim!..
**Səlim** Bəndən qorqma, hiç qorqma!

**İsmət** Ah, söyləyim,
Söyləyim, qardaşım, ancaq bu sirri
Bir sən bilməlisin, bir bən...

**Səlim** *(İsməti bir tərəfə çəkərək)*
Gəl bəri!..
Hiç qəm eyləmə...

**İsmət** Faş edilsə bu sirr,
İnan ki, pək böyük fəlakət verir.

**Səlim** Pəki, anladıq, söylə artıq...

**İsmət** Şimdi,
Bağçaya çıqmışdım, Orxan göründü...

**Səlim** Nasıl Orxan? Bu kim, bu hanki Orxan?

**İsmət** Qomşumuz xanzadə, zəngin bir cavan.

**Səlim** Çox gözəl, bildim, o bizim əhbabdır.
Sonra?

**İsmət** Gördüm yavaş-yavaş yaqlaşır.

**Səlim** Əvət, sonra?

**İsmət** Məktubdan, Qanpoladdan
Əhval sordu; cavab verdim... bir zaman
Qüvvətindən, varından çoq söylədi.
Sonra birdən elani-eşq eylədi,
Gəl qaçalım, – dedi, – başqa bir yana...

**Səlim** Pəki, cəvab vermədinmi sən ona?

**İsmət** Əmin ol, pək gözəl cəvablar verdim;
Dəf ol! – dedim, gözlərinə tükürdüm.

**Səlim** Nihayət?

**İsmət** Pək çoq yalvarıb-yaqardı,
Xəncərini tez qınından çıqardı.
Verdi bana: – Öldür! – dedi, – Orxanı,
Öldür! İşgəncədən qurtulsun canı.

**Səlim** Öyləmi? Öyləmi? Ah, rəzil, xain!
Pəki, nə yapdın sən?

**İsmət** Dedim: get, miskin!
Çəkil get! – dedim, – ədəbsiz, həyasız!
Sonra çəkildim evə etinasız.

**Səlim** Afərin, dostumuz, afərin, Orxan!
Sonra?!

**İsmət** Evdə gecikdim az bir zaman;
Çıqdım, bir də baqdım, ondan yoq xəbər.
Ancaq qalan yadigar bir bu xəncər!..

**Səlim** Hiç zərər yoq, fəqirlər aciz deyil,
Sən bəklə Səlmayı, ondan xəbər bil,
Sonra evimizə get, burda gecikmə!
Həm də söz açma bu işdən hiç kimə!

**İsmət** İnsan kəndini hiç eylərmi rüsva?

**Səlim** Haydı, get evdə bəklə, burda durma!

**İsmət** Pəki, itaət borcumdur, qardaşım!
*(evə doğru gedərək kəndi-kəndinə)*
Ah, nələr çəkəcək ağrımaz başım.
*(içəri girər)*

**Səlim** *(kəndi-kəndinə hiddətlə)*
Orxan istər xan olsun, istər sultan;
Haqsızlıq əfv olunmaz hiç bir zaman.
Şimdi yalnız bulub gizli bir yerdə,
Anlatırım həddini bir xəncərdə.
*(Orxanın xəncərinə diqqətlə baqaraq)*
Gərçəkdən pək kəskin silahdır, yinə,
Ən nihayət, qismət olsun kəndinə.
Bir də, dosta əyri baqan azğınlar,
Eşitsinlər də, qoy ibrət alsınlar.
*(Xəncəri qoltuğunda gizlər. Ətrafına baqaraq uzaqlaşır. Sonra Orxan və İzzət ağaclıqdan çıqarlar)*

- Səlim Orxanla bağlı hansı qərara gəlir? Onu haqlı saymaq olarmı?

**Orxan** *(qəhqəhə və istehza ilə)*
Od-alev saçıyor qəhrəman Səlim,
Eyvah, deмək, son nəfəsimdir bənim!
*(Səlimin getdiyi tərəfə baqaraq)*
Get, baqalım, get ara, bul Orxanı!
Get bul sana dost görünən düşmanı!
Məhv et, parçala! Anlasın həddini,
Bundan sonra küçük saymasın səni.

**İzzət** Düşman hər nə qadar aciz olsa da,
Məğrur olub küçük sanma, xanzada!

**Orxan** Sözün doğru, pək doğru... lakin, İzzət!
Kim yigitsə, söz onundur, nihayət.
Hiç tələsmə, burda dur, şimdi bir də
İtmami-höccət eylərim İsmətə;
Təklifimi xoş görürsə nə əla!
Rədd edərsə, inan, yaşatmam əsla!

**İzzət** *(şaşqın bir halda göstərərək)*
Ah, bu gələn kim?

**Orxan** *(usanmış bir halda)*
Allahın bəlası!..

**İzzət** Səhih kimdir?

**Orxan** Qanpoladın anası... *(Hər ikisi təkrar ağaclığa çəkilir. Bu sırada İsmət dışarı çıqıb baqınır)*

**Səlma** *(gələrək, sevinc ilə)*
İsmət! Qızım, müjdəmi ver, müjdəmi!
Bundan sonra gül, sevin, tərk et qəmi!
Şükür, çoq şükür, sapsağlam, könlü şad!
Bu gün, yarın gəlmək üzrə Qanpolad.

**İsmət** *(kəndisi)*
Allaha şükür!.. *(aşkar)*
Gəlmək üzrəmi?

**Səlma** Hay, hay!
Yazdığından bəsbəllidir ki, bir ay,
Tamam bir ay tədarük etməkdədir;
Çoq ehtimal var ki, bu aqşam gəlir.

**İsmət** *(heyrətlə)*
Nasıl?

**Səlma** Əvət, ya bu aqşam, ya sabah,
Qavuşturur sizi o qadir Allah. *(İsməti süzərək)*
Həm də yazmış ki, söylərsən İsmətə;
Toy başlanmalıdır gəldiyim həftə!
*(İsmət utanıb başını aşağı dikər)*
Gəl, utanma, hifz etsin sizi Tanrım;
Gəl, öpəyim səni, gəl, quzum, yavrum!
*(İsməti qucaqlayıb öpərək)*
Gül rəngin afət görməsin, solmasın!
İsmət! Hiç bir günüm sənsiz olmasın!
Gəl evə, elmasım!

**İsmət** Rüsxət versəniz,
Şimdi gedib evimizə söylərim tez,
Yenə tez gəlirim; çünki anamgil
Həp müntəzirdir, kimsə rahət degil.

**Səlma** Pəki, quzum! Get söylə, anlat bütün;
Qoy sevinsinlər, fəqət sən çabuq dön!
Çünki evdə bir az hazırlıq görək.

**İsmət** *(gedərək)*
Çoq gecikməm...

**Səlma** Haydı get, parlaq çiçək!

**İsmət** *(uzaqlaşaraq kəndi-kəndinə)*
Ah, fəqət intiqam dilərsə Orxan,
İsmət xoşbaxt ikən olur bağrı qan. *(göyə doğru)*
Ey bizi yoqdan yaradan bir Allah!
Rəhm eylə, səndən başqa yoq bir pənah.
*(Orxan ilə İzzət yenə görünürlər)*

**Orxan** Ah, demək ki, Qanpoladdan xəbər var!

**İzzət** Əvət, yarın, şübhəsiz, gəlir çıqar.

**Orxan** Zərər yoq, onu bən sağ qoysam əgər,
Dünyada yoq bəndən alçaq bir nəfər.

**İzzət** *(yana)* Mərd atalar bir məsəl söyləmişlər:
"Daldan atılan daş topuğa dəyər".

**Orxan** Bir ay pusmaq lazım gəlsə ac-susuz,
Bəklərim onu rahatsız, uyğusuz;
Aman verməm ki, sağ qavuşsun evə,
Nazlı yarını öpsün sevə-sevə!

**İzzət** Ah, sən niçin qandırmadın İsməti?
Niçin əlindən çıqardın fürsəti?
Bir həftə əvvəl qızı birdən-birə
Alıb qaçırsaydın başqa bir yerə,
Şimdi gözəl-gözəl sürüb keyfini,
Qanpoladdan çıqarmışdın heyfini.

**Orxan** Of! Ağrıdan sanki çatlıyor başım...

**İzzət** Yigit hər zaman yigitdir, qardaşım,
Yenə az-çoq əldə fürsət var hələ;
Yalnız açıqgöz ol, sən vaqtı bəklə!

**Orxan** Xayır, bəklədikcə hevsələm bitər.

**İzzət** Haydı, gəl gedəlim, artıq gəl, yetər.

**Orxan** Ah, qəlbimə sanki od-alev dolmuş!

**İzzət** Gəl, canım, gəl!

**Orxan** Pəki...

**İzzət** Baq, aqşam olmuş!

**Orxan** İnan,
Burdan getməm İsməti görməyincə...

**İzzət** Şaşırdınmı?

**Orxan** Nasıl?

**İzzət** İsmət şimdicə
Müjdə için getmədimi?

**Orxan** Xayır, bən
Görmədim, hiç görmədim...

**İzzət** Ah, bu gün sən
Pək başqa bir hal keçirməkdəsən...

**Orxan** Gəl!

**İzzət** Nə yapmaq istiyorsun? Söylə əvvəl!

**Orxan** İzzət! Gəl! Çoq söyləmə, çoq uzatma!
Şimdi bulmalıyım bən onu!..

**İzzət** Amma
Böylə tələsməkdən bir şey umulmaz,
Təhəmmül gərək, qardaşım...

**Orxan** Hiç olmaz!
Ər kişidə olur bir söz, bir məram.
Əzm eylədim, məhv olsa aləm tamam,
Dönməm geri, hər yan bana açıq yol...
*(İzzətin qolundan tutub çəkərək)*
Haydı, gəl gedəlim, fəqət əmin ol;
Ya gərək İsmət eşqimə inansın,
Ya Qanpolad al qanlara boyansın.
*(Gedirlər)*

## II

**Səlma** *(bir az sonra dışarı çıqaraq sevinc ilə)*
Ya Rəbb, şükür dərgahına, çoq şükür!
Səlma da, aqibət, xoş bir gün görür.
*(Əlindəki məktuba baqaraq)*
Gerçək, kim zənn edərdi birdən-birə
Bir kağız böylə ruhu şənləndirə.
Oğlum Yusif kibi həbsə düşmüşdü;
Şükür, qurtulmaq xəbəri yetişdi.
Ah, onu yalnız bir də sağ görsəydim;
Dünyada olmazdı həsrətim, dərdim.

- Bu misralarda hansı bədii təsvir vasitəsi işlənib?

**Səlim** *(bir tərəfdən çıqaraq)*
Səlma bacı! Müjdəmi ver, müjdəmi!

**Səlma** Nasıl müjdə?

**Səlim** Gəldi oğlun...

**Səlma** *(təlaş ilə)*
Köydəmi?

**Səlim** Əvət, köydə, şimdi gəlir...

**Səlma** *(sevinc ilə)*
Ah, yavrum!
Hər bəladan saqlasın sizi Tanrım!
Söylə, nə müjdə istərsin, arslanım?

**Səlim** Artıq sən bilirsin...

**Səlma** Pəki, sultanım! *(Əcələ içəri girər)*

**Səlim** *(kəndi-kəndinə)*
Gəzdim, dolaşdım, uğradım hər elə,
Bən böylə bir qadın görmədim hələ.
Böyüklükdə, mərhəmətdə seçilmiş,
Alicənablıq boyuna biçilmiş.
Söz yoq, böylə qəlbi geniş qadından
Doğar Qanpolad kibi bir qəhrəman.

- Səlimin sözləri Səlma ana haqqındakı təsəvvürünüzə yeni nə əlavə etdi?

**Səlma** *(əlində bir kəmər çıqaraq)*
İştə gümüş kəmər! Həm də yepyeni,
Sonra yenə məmnun eylərim səni.

**Səlim** Çoq sağ ol...

**Səlma** Toyda da bir xələtin var.

**Səlim** Bu, bəncə, ən dəyərli bir yadigar,
Bir yadigar ki, hiç unutmam bunu. *(Əcələ qoşub gedərək)*
Şimdi gedib qarşılayım oğlunu.

**Səlma** Get, arslanım, get, sevindirdin bəni,
Oğlum, şadikam etsin Allah səni!
Ah, yürəyim sanki dönmüş məşələ,
Ya Rəbb, təhəmmül ver, səbr əta eylə!
Hər anayı et bənim kibi dilşad! *(sevinc ilə)*
Of, yenə sağ gəlib çıqdı Qanpolad!
Qorqarım ki, xəbər duyarsa İsmət,
Sevincindən məcnun olur, nihayət.
*(Bu sırada yaqında dörd-beş əl şiddətli tapança atılır. Səlma təlaş ilə beş-on addım səs gələn tərəfə yürüyərək)*
Ah, bu qurşun nə? Ruha dəhşət verir;
Aman, ya Rəbb! Həp tüklərim ürpərir;
Köydə mütləq qanlı bir atışma var,
Yoqsa yenə çarpışırmı qaçaqlar?

**Murad** *(əlində bir boş tapança olduğu halda təlaş ilə qoşaraq)*
Eyvah, can qurtaran yoqmudur?

**Səlma** Nə var?

**Murad** İmdad! Həmşirə, imdad, bəni qurtar!

**Səlma** Gəl, oğlum, gəl, hiç qorqma!

**Murad** Ah, mərhəmət!..
Yoqsa məhv edərlər bəni bu saət.

**Səlma** *(evi göstərərək)*
Haydı, gir çabuq bir tərəfdə saqlan;
Allah böyükdür, bir şey olmaz, inan!

**Murad** Ah, xanım, bir sənsin bənim pənahım;
Bən qərib kimsəyim, yoq bir günahım.

**Səlma** Haydı, gir içəri, gizlən bir yanda;
Təlaş etmə, kəndini bil amanda!

- Murad bu sözləri nə məqsədlə deyir? O, doğrudanmı, özünü günahsız sayır?
- Səlma ananın Murada kömək etmək istəməsinə səbəb nədir?

**Murad** *(kəndi-kəndinə)*
Orxan! Orxan! İştə sənin yüzündən
Qatil oldum...

**Səlma** Artıq çəkil, durma sən!

**Murad** Allah razı olsun...

**Səlma** Tez çəkil, durma!

**Murad** Ah! *(deyə içəri girər)*

**Səlma** Zavallı! Pək çoq qorquyor amma;
Kim bilir! Hanki vicdansız, qudurmuş.
Biçarəyi məhv etmək istiyormuş.
Həm qərib, həm kimsəsiz, həm köməksiz...
Bütün dünya toplanıb gəlsə hərgiz,
Allah şahid, bən onu verməm ələ.
İnsaf yoqmu? Səlma ölməmiş hələ!

**Səlim** *(əlində xəncər, təlaş ilə qoşaraq)*
Ah, o xain nerdə? O qatil nerdə?

**Səlma** Kim? Oğlum!..

**Səlim** Ah, o miskin, rəzil nerdə?

**Səlma** Yavrum! Qanpoladdan xəbər ver bana!

**Səlim** Burdan biri qaçmadımı bir yana?
*(Əcələ başqa bir tərəfə qoşmaq istər)*

**Səlma** *(qollarından tutub təlaş ilə)*
O kim? Nasıl qatil bu?

**Səlim** Çərkəs Murad...
Orxanın yoldaşı, alçaq bir cəllad!

**Səlma** Səlim, vaz keç, oğlum! Qaçan qovulmaz.

**Səlim** Xayır, bir vəhşiyə mərhəmət olmaz.

**Səlma** Kim kimi öldürmüş? Bir söylə, anlat!

**Səlim** Sorma, ah, bilməm...

**Səlma** Nə var, söylə?

**Səlim** Heyhat!..
Bu bir cinayətdir ki, ağzım, dilim
Söyləməkdən aciz...

**Səlma** Ah, Səlim, Səlim!
Hər nə var, aç söylə, anlat həpsini...

**Səlim** İştə səfil Orxan, vicdansız dəni
Vurulmuş İsmətə; qarşılıq yalnız
Təhqir eyləmiş onu biçarə qız,
Alçaq hərif bundan çoq öfkələnmiş,
Qanpoladın gəldiyini öyrənmiş;
Fürsətdir deyə kəsmiş yolu cəllad,
Pusub durmuş yanında İzzət, Murad.
Birdən-birə hər üçü...

**Səlma** Söylə, söylə!

**Səlim** Hücum eyləmiş qurşunla, xəncərlə
Bən qoşaraq qaçırmayıb fürsəti
Varıb gördüm ki, Orxanı, İzzəti
İlk ataşdə Qanpolad yerə sərmiş;
Hər ikisi parçalanmış, gəbərmiş.

**Səlma** Südüm halal olsun, oğul, Qanpolad!
Pəki, sonra?

**Səlim** Ah, fəqət xain Murad
Nişanlamış Qanpoladın qəlbini.

**Səlma** Ah!..

**Səlim** Sağalmaz bir yara açmış dəni...

**Səlma** Of! Quzum, toy qismət olmadı sana!
*(şiddətlə ağlar, bir az sonra təbdili-tevr ilə)*
Xayır, xayır, göz yaşı dökməm ona!

- Qanpoladın düşmən qarşısından qaçmadığını eşidən ana bunu necə dəyərləndirir?

Gərçi dünyadan almamış kamını,
Qanlısından almış intiqamını.

**Səlim** Fəqət Murad!? Qaçsa da, sağ qurtulmaz.
*(bir tərəfə qoşmaq istər)*

**Səlma** *(hiddətli)*
Səlim, bıraq getsin, qaçan qovulmaz.
Yüzlərcə öylə miskin parçalansa,
Bir tükünə dəyməz oğlumun əsla!

- Ananın qatil haqqında dedikləri sizdə hansı təəssürat yaratdı?

**Səlim** *(gəldiyi tərəfə baqar, birdən-birə həyəcan ilə)*
Gəl, ana, oğlun gəldi iştə!

**Səlma** *(yola baqaraq)*
Eyvah!
Kaş ki öləydim, görmiyəydim, Allah!
*(Hər ikisi yola doğru qoşar, sonra Qanpolad yaralanmış olduğu halda bir ləzginin yardımı ilə görünür. Səlim, Səlma da ətrafını almış olurlar.)*

**Səlma** *(oğlunu bağrına basıb ağlayaraq)*
Oğul, oğul!
**Qanpolad** Of, ana!
**Səlma** Can, Qanpolad!
Ah, sana kim qıydı, kim? Hanki cəllad?
**Qanpolad** ... Ağlama, hiç kimsə qıymamış bana,
Düşmanım qanlı taleyimdir, ana!
*(Bu sırada anasının qucağına yıqılıb uzanaraq)*
Ana! Hiç təlaş etmə, hiç sıqılma!

- Qanpolad öz faciəsinin səbəbini nədə görür? Nə üçün?
- Qatillə bağlı dediyi sözlər Qanpolad haqqında sizdə hansı təsəvvür yaratdı?

**Səlma** Ah, yavrum! Kaş ki məhv olaydı Səlma,
Görmiyəydi səni al qan içində...

**Ləzgi** *(hiddət və təəssüflə)*
Ah, Murad, alçaq Murad.

**Səlim** Durma sən də,
Haydı, fürsətdir, intiqam almalı!

**Qanpolad** Səlim! İstəməz...

**Ləzgi** Xayır, tez bulmalı!
Əvət, xain gərək həddini bilsin,
Namərd izi yer yüzündən kəsilsin.
*(hər biri bir tərəfə qoşub gedər)*

**Qanpolad** Səlim! Bıraq, haqsız yerə dökmə qan!
Bən kəndim intiqam aldım onlardan.

- Oğlunun ölümcül yaralanması anaya necə təsir edir?

**Səlma** Ah, yavrum, quzum! Sən rahatsız olma!
Nasıl? Yaran nasıl?

**Qanpolad** Of, yandım, ana!
Alevləndi qəlbim, tükəndi səbrim;
Ah, bir az su... Ataş almış hər yerim.

**Səlma** Aman, evladım, su zərərdir sana...

**Qanpolad** Ah, nerdə İsmət? Çağır gəlsin bana!

**Səlma** Oğlum! Şimdi gəlir, burdaydı əvvəl...

**Qanpolad** İsmət, son nəfəsimdir, ah, çabuq gəl!
Gəl, gediyor Qanpolad...

**Səlma** Ah, arslanım!
Qurban olsun sana dəyərsiz canım.

**Qanpolad** Əlvida!.. Əlvida!.. Gözəl İsmətim!

**Səlma** *(ayağa qalqaraq)*
Aman, ya Rəbb! Uf, kəsildi taqətim...

**Qanpolad** İsmət! Ah, sənmisin?

**Səlma** Ya Rəbb, mərhəmət!
Mərhəmət, ya Rəbb!
(bu sırada İsmət gəlir.)
İştə gəldi İsmət... *(İsmət ilk baqışda şaşıraraq donub qalır)*

**Qanpolad** İsmət!

**İsmət** Ah, Qanpolad!

**Qanpolad** Əlvida!..

**İsmət** Eyvah!.. *(Hönkür-hönkür ağlayaraq Qanpoladı qucaqlar)*

**Qanpolad** Əşhəd... ən...la ilahə... illəllah...

**Səlma** *(həyəcanlı)*
Ah, getdin? Səni çoq gördümü Tanrım?
Qızıl güllər açmış köksündə, yavrum!

- Bu misralarda hansı bədii ifadə vasitəsi işlənilib?

**İsmət** *(sinirli)*
Xayır, yalnız bıraqmam əsla səni.
*(Qanpoladın xəncərini çəkib özünü vurmaq istər)*

**Səlma** *(xəncəri onun əlindən alaraq hiddətlə)*
Bən səndən daha müstəhəqqim, İsmət!
Qanpolad! Sən nə tez unutdun bəni?

Lakin Allah nəhy etmiş bunu... lənət,
Lənət bu iqbala, bu ömrə lənət!..

**İsmət** *(cənazəyi qucaqlayaraq)*
Ah, Qanpolad! Könlümdə qaldı həsrət...
*(Şiddətli hıçqırıqlar içində boğularaq bihiss qalır)*

**Səlma** *(qapıya yaqınlaşaraq şaşqın və sinirli bir halda)*
Allah, Allah! Təhəmmül ver, səbir ver!
Açıl, yarıl, parçalan, ey alçaq yer!
Yarıl! Bu talesizi çək qərinə!
Bəndə artıq təhəmmül yoq qəhrinə!
Yalnız bir pənahım, bir oğlum varkən,
Qanlı topraq! Ayırdın onu bəndən.
Ya Rəbb, ədalət! Bəni öldür, qurtar!
Hər yer bana zindan kibi oldu tar.
*(qapıya doğru baqaraq)*
Ah, bu xain qonaq aman istərkən
Niçin bən ona yer verdim bilmədən?!
Oğlumun köksünü yarsın da gəlsin,
Bir cəllad kəndini amanda bilsin?!
Xayır, xayır, bu mümkün deyil əsla!
Sağ buraqmam... Bənim pəncəmdə hala!
Onun həddini bildirir bu əllər!
Qəlbinə yerləşsin gərək bu xəncər!
Gərək bulsun cəzasını... *(təbdili-tevr ilə)*
Ah, fəqət;
Oğlumun ruhu, bəlkə, eylər nifrət,
Bəlkə, bəndən incinir, çünki şimdi
Qan dökməyə əsla riza vermədi.
Həm mültəci, həm qərib, həm misafir;
Xayır, vicdanım olmaz buna qadir.
Bir də hər nə yapsam, bu dərdi silməz,
Məhv olsa aləm, Qanpolad dirilməz.
Xayır, əfv etməli!.. Getsin də miskin
Xəcalətdən ölsün, yerlərə keçsin!

*(dönüb İsmətlə oğluna baqaraq)*

Ya Rəbb! Ah, bu nasıl mənzərə? Dəhşət!..
Sonsuz bir iftiraq içində vüslət!
Şəfəq zənn olunan şey yanğın oldu;
Qönçələr açmadan sarardı, soldu!
Ah, nasıl iki heykəl kibi bihuş,
Bir-birini eyləmişlər dərağuş!?

- Oğlunun ölümü anada hansı hiss və düşüncə yaradır?

- Bu misralarda hansı bədii ifadə vasitələri işlənib?

*(Ətrafa baqaraq)*
Xayır, gecikdirməsi pək səmərsiz;
Burdan şu qanlı dəf olsun gərək tez,
Yoqsa xain parçalanır əllərdə...

- Bu misralarda hansı bədii təsvir və ifadə vasitələri işlənib?

*(yollara baqmaq için çəkilərək)*
Bir baqayım kim var? Səlimgil nerdə?
*(Büsbütün uzaqlaşıb gedər, sonra Murad əlində tapança evdən dışarı çıqar. Həmən gözü Qanpoladın cənazəsinə ilişərək titrər)*

- Muradın səmimiliyinə inanmaq olarmı?

**Murad** *(şaşqın və qorqulu bir halda)*
Ah, bən nə yapdım? Nə günah işlədim!
Durduğum yerdə bən nə xəlt eylədim?
Qanpolad!.. İştə, qıydığım nevcəvan
Tükənməz bir uyğuya dalmış... aman!
Aman, ya Rəbb, nədir bu qorqunc əhval?
*(İsmətin halına diqqət edərək)*
Ah, bu qız niçin böylə pəjmürdəhal?
Bu, İsmətmi? Solğun bir gülə dönmüş,
Orxanı yandıran atəşmi sönmüş?
Odur, o... qızcığaz nasıl da bayğın!
Ah, bənim bais... əllərim qırılsın!
Xayır, bundan sonra durulmaz burda,
Tez savuşmaq gərək başqa bir yurda.
Yoqsa buğum-buğum doğrarlar bəni;
Qurtaracaq yoq bir havadar bəni.
*(Əlindəki tapançaya baqaraq)*
Boş bir silah!.. Pək tuhaf, şimdi bundan
Həm daşıyan qorquda, həm də düşman.
*(qaçmağa hazırlanırkən Səlma qarşısına çıqar)*

**Murad** *(təlaşlı və şaşqın)*
Ah!

**Səlma** Qonaq qardaş, dur! Təlaş etmə sən,
Qorqma, bir zərər gəlməz sana bəndən.
Amandasın; hiç qorqma, hiç sıqılma!
Çünki bən əvvəldən söz verdim sana.
Sən bir qonaqsın, qatil olsan belə,
Səlma həlak olur da, verməz ələ.

**Murad** *(tapançayı yerinə qoyaraq)*
Aman! Ah, nə böyük qadınsın!

**Səlma** Amma
Bir ricam var, sənin adın nə?

**Murad** Sorma!

**Səlma** Bilmək istərim, söylə!

**Murad** *(mütərəddid bir tövrlə)*
Çərkəs Murad...

**Səlma** *(sinirli və çılğın bir halda)*
Ya Rəbb, mərhəmət! Ah, oğul! Qanpolad!

**Murad** *(başını aşağı dikərək kəndi-kəndinə hiddətlə)*
Öldürdüyün Qanpolad, Səlma pənah...
Murad! Sən nə vicdansız oldun, eyvah!

**Səlma** Aman, nə müşkül mevqedə qaldım, ah,
Ah, nə talesiz ana oldum, Allah!
*(İsmət bu sırada saçlarını aralayaraq, başını qaldırıb baqınır.)*

**Səlma** *(yumşaq səslə)*
Murad! Sən həm qəribsin, həm mültəci...
Burdan sağ qurtulub gedərsin şimdi.
Fəqət bilməlisin, şu qanlı arslan,
Şu qıydığın cavan oğlumdur...

**İsmət** *(çığıraraq)*
Aman!
Ah, nerdəsin Səlim! Gəl, iştə fürsət!
Qanlımız burda...

**Murad** Ah!

**Səlma** *(İsmətə)*
Sus, qızım, İsmət!
Sus! Qərib bir qonaq verilməz ələ...

**İsmət** *(Səlmadakı xəncəri almağa çalışaraq)*
Xayır, böylə vicdansız gərək ölə!

**Səlma** *(İsməti əli ilə rədd edərək)*
Amandadır, yavrum, bildinmi?

**İsmət** *(həyəcanlı bir halda Murada)*
Cəllad!.. *(cənazəyi qucaqlayaraq)*
Ah, qanın yerdə qaldımı, Qanpolad!?

**Murad** *(Səlmanın əlindən xəncəri qaparaq İsmətə)*
Xayır, bu qan yerdə qalmaz, baq iştə!
*(yürəyinə saplamaq istədiyi halda Səlma şiddətlə qoluna vurur, xəncər yerə düşər, dərhal kəndisi alır.)*

- İsmətin qatilə – Murada münasibətinə haqq qazandırmaq olarmı?

**Səlma** *(hiddətli)*
Murad!..

**Murad** Doğrayın bəni riştə-riştə!
Əvət, doğrayın, məhv olmalı zalım!
Ah, bir alçağa mərhəmət nə lazım?
Qanlı bir canavar sağ bıraqılmaz;
Bən bir xainim, öldürün!

**Səlma** Hiç olmaz!

**Murad** Yaşatma, öldür, ana! Bəncə, hala,
Billah, gəbərmək yaşamaqdan evla.

**Səlma** Xayır, sən bana eylərkən iltica,
Söz vermişim, dönməm sözümdən əsla!
*(bu sırada bir-iki ıslıq və tapança səsi eşidilir.)*

**Murad** *(diksinərək)*
Aman, ya Rəbb!

**Səlma** *(qolundan tutub çəkərək)*
Gəl! Hiç təlaş etmə, gəl!
Qaçmaq gərək... Qorqarım arta əngəl...

**Murad** *(kəndisi)*
Hər tərəf qorquluq, qaçmaq səmərsiz. *(aşkar)*
Ah, bən nə bir yol bilirim, nə bir iz.

**Səlma** Gəl, hiç qəm etmə, gəl! Baq, iştə bir yol...
Düz, qorqusuz bir dərədir, əmin ol!
Burdan çıqar bir köyə, həm çoq sürməz,
Sağ qurtulub gedərsin, kimsə görməz.

- Ana nə üçün Muradı xilas etmək qərarını dəyişmir?

**İsmət** *(başını qaldırıb həzin və atəşli bir ahənglə)*
Ya Rəbb, nə bəxtiyar imiş ölənlər!..

**Murad** *(Səlmaya)*
Ah, nə qadar alicənabsın...

**Səlma** *(Murada)* Yetər!
Yetər get, durma get! Haydı, çəkil get!
Artıq savuş! Durmaq vaqtı deyil, get!

*Murad Səlmadakı böyüklüyə qarşı sıqılaraq şaşqın bir halda yürür. Bir-iki addım getdikdən sonra dönüb baqır və dərin bir ah çəkərək büsbütün uzaqlaşır.*

**Səlma** *(Muradın getdiyi tərəfə doğru hiddətli və həyəcanlı bir səslə)*
Get, namərd qonaq, get! Alçaq mültəci!
Get, miskin hərif, get! Cəllad, yırtıcı!
Get, vicdansız! Kəndini qurtar, yaşa!

Ancaq vicdansızları bəslər dünya!

*(daha sinirli və qızğın)*

Get, gözüm görməsin! Uzaqlaş, dəf ol!
Nə haqsızlıq etdinsə, Allahdan bul!
Get, çəkil get! Dinsiz, Allahsız, xain!
Murdar izin bu topraqdan silinsin!
Oğlumu söndürdün, yandırdın bəni,
Get, kamə irdirməsin Allah səni!

- Səlma ana oğlunun qatilini xilas etdikdən sonra öz hisslərini, düşüncələrini necə ifadə edir?

*(göyə doğru titrəyərək)*

Mərhəmət! Ya Rəbb, mərhəmət, inayət!
Təhəmmül ver! Qalmamış bəndə taqət;
Ah, qəlbim az qalır patlasın, Allah!
*(cənazəyə doğru qoşaraq çılğınca)*
Allah, nə bədbəxt ana oldum... Eyvah!
Həsrəti könlündə can verən evlad!
Ah, qəhrəman oğul, nakam Qanpolad!

*(Haman oğlunu qucaqlayaraq şiddətli və yaqıcı hıçqırıqlar içində boğulub düşər. Bu sırada Səlim ilə arqadaşı dəxi birər tərəfdən çıqaraq hiddətli və məbhut bir halda baqa qalırlar)*

*– Pərdə –*

**I dərs**

**• Məzmun üzrə iş**

1. Əsərin birinci hissəsini rollar üzrə oxuyun, tanış olmayan sözlərin mətnə müvafiq mənasının aydınlaşdırılmasında fəal iştirak edin.
2. Oxuduğunuz hissəni bir daha nəzərdən keçirin, parta yoldaşınızla birlikdə mətnin kənarındakı suallara cavab hazırlayın.
3. Kiçik qruplarda birləşib cavabları dəqiqləşdirin və ümumiləşdirin.
4. Çıxardığınız nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**• Evdə iş**

1. Əsərin ardını oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

**II** dərs

### • Məzmun üzrə iş

1. Evdə oxuduğunuz hissəni bir daha nəzərdən keçirin, sonra mətnlə bağlı suallara parta yoldaşınızla birlikdə cavab hazırlayın.
2. Kiçik qruplarda fikir mübadiləsi aparın və cavabları təqdimatlar əsasında müzakirə edin.

**Bilik və bacarıqlarınızı tətbiq edin.**

3. Dairələri dəftərinizə çəkin. Hadisələrin başlanğıcını, münaqişənin (ziddiyyətin) yaranmasını, inkişafını, ən gərgin, yüksək mərhələyə çatmasını, həll olunmasını (açılmasını) və sonluğu bir-iki cümlə ilə yazın.



4. Əsərin ikinci hissəsində işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin, dəftərinizdə, yaxud iş vərəqində çəkdiyiniz cədvəldə yazın.

| Bədii təsvir və ifadə vasitəsi | İşləndiyi cümlə |
|---|---|
| | |

### • Evdə iş

• Əsərlə bağlı təəssüratınızı ikihissəli gündəlikdə yazın.

**III** dərs

### • Təhlil üzrə iş

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

*Bilirsiniz ki, həyatı əksetdirmə üsuluna görə bədii əsərlər üç növə ayrılır. Onlardan biri dramatik növdür. Bu növə məxsus əsərlərdə həyat hadisələri obrazların danışığı – nitqi, hərəkətləri ilə əks olunur. Bu növün janrlarından olan dramda əks mövqedə duran qüvvələrin münaqişəsinə, mübarizəsinə geniş yer verilir. Belə əsərlərdə həm komik, həm də faciəvi məqamlar əksini tapa bilir.*

*Dram həm nəsr, həm də nəzm (şeir) şəklində olur. "Ana" nəzmlə yazıldığı üçün* ***mənzum dram*** *adlanır.*

"Ana" dramında ağır faciə ilə üzləşən ananın yüksək insani hissləri, mərhəməti, pislik və şərdən ucada dayanması təsirli bədii boyalarla əks etdirilmişdir.

Əsərin təhlili zamanı aşağıdakı sitatlardan istifadə edin, onlara münasibətinizi bildirin.

a) "Birpərdəli "Ana" pyesi H.Cavidin ilk mənzum dramıdır... Pyesin qəhrəmanı Səlma qonaqpərvər, mərd və məğrur qadındır... Müəllif, hər şeydən əvvəl, mürəkkəb, dolğun, yaddaqalan xarakter, tipik müsbət ana surəti yaratmışdır... Sözündə sadiq, fikrində, əqidəsində qaim olan ana, oğlunu öldürənə mərhəmət edir, intiqam hissindən daşınıb onun günahından keçir. Ana – Səlma bu daxili mənəvi böhrandan milli adət və ənənəyə əsaslanan böyük insani hislə çıxır".

(Mir Cəlal, F.Hüseynov)

b) “Əsərin mərkəzində nəcib, alicənab, vüqarlı ana obrazı dayanır. Səlma, onun oğlu Qanpolad, gəlini İsmət kiçik bir qismətlə də olsa, qane olub yaşamağa, xoşbəxt ömür-gün sürməyə layiqdirlər. Lakin bu, mümkün deyil. Onlar kimsəsiz, köməksizdirlər. Mühit onlara düşmən olduğundan onlar daima təşviş və qorxu içindədirlər. Köməksizlərə, təhlükəyə düşənlərə kömək etməyə hazır olan Səlmanın özü kömək axtarır, yeganə pənahını, ümidini, havadarını Tanrıda görür”.

(Mehdi Məmmədov)

**• Araşdırın • Fikirləşin • Cavab verin**

2. Səlma ana obrazını səciyyələndirin. Cədvəldəki tələbləri nəzərə alın.

| Səlma ana obrazı | |
|---|---|
| Nitqi – danışığı üçün səciyyəvi olan cəhətlər | |
| Xarakterindəki başlıca xüsusiyyətlər | |
| Müəllifin ona münasibəti | |
| Sizin ona münasibətiniz | |

3. Qanpoladı səciyyələndirən başlıca cəhətlər hansılardır? Onun qan tökməmək, qatildən qisas almamaq fikrinə necə münasibət bəsləyirsiniz?
4. İsmətin xarakterindəki başlıca cəhətləri müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın. Cədvəldən istifadə edin.
5. Orxanın xarakterindəki hansı cəhətlər diqqətinizi daha çox cəlb etdi? Onun nitqinə, davranış və əməllərinə əsaslanmaqla fikrinizi aydınlaşdırın.
6. Murad obrazı haqqında nə düşünürsünüz? Ona münasibətinizi əsaslandırın.
7. Müəllif əsəri nə üçün dram adlandırmışdır? Əsərdə dram janrına xas olan hansı xüsusiyyətləri müşahidə etdiniz?
8. Dramın mövzusunu və onda qaldırılmış başlıca problemi müəyyənləşdirin. Çıxardığınız nəticəyə əsasən cədvəldə qeydlər edin.

| Dramın mövzusu | Əsərdə qaldırılan başlıca problem | Problemin həllini yazıçı nədə görür? | Siz necə fikirləşirsiniz? |
|---|---|---|---|
| | | | |
| | | | |

9. Əsərdəki başlıca fikir – ideya nədir? Fikrinizi əsaslandırın.

**• Evdə iş**

• Dramın məzmunu ilə səsləşən atalar sözlərini seçin.

1. Ana haqqı, Tanrı haqqı!
2. Ananın canı övladdadır.
3. Qanı qanla yumazlar
4. Ana evin dirəyidir.
5. Ana səbri böyükdür.
6. Qanlıyam, qapından girmişəm.

| Seçdiyim atalar sözləri | Bunun səbəbi |
|---|---|
| | |

**IV** dərs

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

1. H.Cavid yaradıcılığının tədqiqatçısı Məmməd Cəfər yazır: "Ana" dramında müəllif nə qədər gözəl insani sifətlər varsa, yoxsullarda, sadə adamlarda tapır; nə qədər mənfi əxlaqi keyfiyyətlər varsa, bunların çoxunu hakimlik, ağalıq, bəylik, xanlıq ehtiraslarında görürdü".

   Siz bu barədə nə düşünürsünüz? Fikrinizi nümunələrlə əsaslandırın.

2. Əsərdə ictimai həyatda, insan münasibətlərindəki hansı mənfiliklər tənqid olunur? Yazıçının bu barədə düşünməsinə səbəb, sizcə, nədir?
3. Əsərin bədii gözəlliyinin, fikrin təsir gücünün artmasında məcazların rolunu bir neçə nümunə əsasında aydınlaşdırın.

| № | Dramda işlənmiş bədii təsvir və ifadə vasitələri | Əsərin təsir gücünün artmasında onların rolu |
|---|---|---|
| | | |

4. Dramda süjet xəttinin mərhələlərini müəyyənləşdirib, cədvəldə qeyd edin.

| Dramda süjet xəttinin mərhələləri | | | | |
|---|---|---|---|---|
| Ekspozisiya (bədii müqəddimə) | Zavyazka (düyün) | Kulminasiya (zirvə) | Razvyazka (düyünün açılması) | Final (son) |
| | | | | |

5. Aşağıdakı suallar üzrə debat təşkil edin:
   – Qatili ölümdən xilas etməkdə ana haqlıdırmı?
   – Səlma ana qatili ələ versə idi, ona haqq qazandırmaq olardımı?

Əsərdən və həyatdan gətirdiyiniz nümunələrə əsaslanmaqla üçüncü qrupu – münsifləri mövqeyinizin doğru olduğuna inandırmağa çalışın.

**• Evdə iş**

- Dramatik növün epik növlə oxşar və fərqli cəhətlərini müəyyənləşdirib Venn diaqramında qeyd edin.



**MƏHMƏT AKİF ƏRSOY**
**(1873–1936)**

Məhmət Akif XX əsrin ən böyük türk şairidir. Mən bir zamanlar Azərbaycan milli marşını yazmaq fikrinə düşdüm. Bunun üçün dünyanın nə qədər milli marşı varsa, hamısını diqqətlə oxudum, təhlil etdim. Nəhayət, qərara gəldim ki, Məhmət Akifin yazdığı milli marşa bərabər milli marş yoxdur. Hələ onun "Çanaqqala şəhidləri" şeirini demirəm. Dünyaya şəhidi ondan gözəl təsvir edən ikinci bir şair gəlməmişdir.

*Bəxtiyar Vahabzadə*

**• Yada salın**

– Dövlət himni haqqında nə bilirsiniz?
– Dinlədiyiniz dövlət himnlərində diqqətinizi daha çox çəkən nə olub?

**• Düşünün**

– Sizcə, hansı əsərlər dövlət himni ola bilər?

**• Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

## İSTİQLAL MARŞI

Qorxma, sönməz bu şəfəqlərdə süzən al bayraq;
Sönmədən yurdumun üstündə yanan ən son ocaq.
O mənim millətimin ulduzudur, parlayacaq;
O mənimdir, o mənim millətimindir ancaq.

Çatma, qurbanın olum, çöhrəni, ey nazlı hilal!
Qəhrəman xalqıma bir gül! Nə bu şiddət, nə cəlal?
Sənə olmaz tökülən qanlarımız sonra halal...
Haqqıdır, Haqqa tapan millətimin istiqlal!

Mən əzəldən bəridir hür yaşadım, hür yaşaram,
Hansı çılğın mənə zəncir vuracaqmış? Şaşaram!
Kükrəmiş sel kimiyəm, bəndimi çeynər, aşaram,
Yırtaram dağları, ənginlərə sığmam, daşaram.

Qərbin afaqını sarmışsa polad zirehli divar,
Mənim iman dolu köksüm kimi sərhədim var.
Ulusum, qorxma! Necə böylə bir imanı boğar,
"Mədəniyyət" dediyin tək dişi qalmış canavar?

Arkadaş! Yurduma alçaqları uğratma, saqın,
Sipər et sinəni, dursun bu həyasızca axın.
Doğacaqdır sənə vəd etdiyi günlər Haqqın...
Kim bilir, bəlkə, sabah, bəlkə, sabahdan da yaxın.

Basdığın yerləri "torpaq" deyərək keçmə, tanı:
Düşün altındakı minlərcə kəfənsiz yatanı.
Sən şəhid oğlusan, incitmə, yazıqdır, atanı;
Vermə, dünyaları alsan da, bu cənnət vatanı.

Kim bu cənnət vətənin uğrunda olmaz ki fəda?
Şühəda fışqıracaq torpağı sıxsan, şühəda!
Canı, cananı, bütün varımı alsın da xuda,
Etməsin tək vətənimdən məni dünyada cüda.

Ruhumun səndən, İlahi, budur ancaq diləyi:
Dəyməsin məbədimin köksünə naməhrəm əli.
Bu azanlar ki şəhadətləri dinin təməli,
Əbədi yurdumun üstündə mənim inləməli.

O zaman vəcd ilə min səcdə edər varsa daşım,
Hər cərihamdan, İlahi, quruyub qanlı yaşım,
Fışqırır ruhi mücərrəd kimi yerdən nəşim;
O zaman yüksələrək ərşə dəyər, bəlkə, başım!

Dalğalan sən də şəfəqlər kimi, ey nazlı hilal!
Olsun artıq tökülən qanlarımın hamsı halal.
Əbədiyyən sənə yox, xalqıma yox, bil ki, zaval:
Haqqıdır, hür yaşamış bayrağımın hürriyyət;
Haqqıdır, Haqqa tapan millətimin istiqlal!

**I dərs**

## • Məzmun üzrə iş

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara diqqət yetirməklə məzmun üzərində düşünün.
   1) Əsər kimə müraciətlə yazılıb?
   2) Şair bayrağı nə münasibətlə xatırlayır?
   3) Şeirdə Qərb necə xatırladılır?
   4) Həmvətəninə "arkadaş" deyə müraciət edən şair ona nəyi tövsiyə edir?
   5) Şairin İlahidən istəyi nədir?
   6) Şair vətəni, xalqı haqqında hansı fikirdədir?
   7) Şeirdə şəhidlər haqqında hansı fikirlər söylənilir?
   8) Şeiri oxuyarkən gözünüzün önündə hansı hadisələr və kimlərin obrazı canlandı?

2. Kiçik qruplarda birləşib aşağıdakı tapşırıqları yerinə yetirin.
   a) Misralarda ifadə olunmuş fikri aydınlaşdırıb qısaca yazın.

| | |
|---|---|
| Mən əzəldən bəridir hür yaşadım, hür yaşaram,<br>Hansı çılğın mənə zəncir vuracaqmış? Şaşaram! | |
| Arkadaş! Yurduma alçaqları uğratma, saqın,<br>Sipər et sinəni, dursun bu həyasızca axın. | |
| Sən şəhid oğlusan, incitmə, yazıqdır, atanı;<br>Vermə, dünyaları alsan da, bu cənnət vatanı. | |
| Haqqıdır, hür yaşamış bayrağımın hürriyyət;<br>Haqqıdır, Haqqa tapan millətimin istiqlal! | |

   b) Bədii təsvir və ifadə vasitələrinin növünü müəyyənləşdirib yazın. Fikrinizi əsaslandırın.

| **Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr** | **Bədii təsvir və ya ifadə vasitəsinin növü** |
|---|---|
| Mən əzəldən bəridir hür yaşadım, hür yaşaram,<br>Hansı çılğın mənə zəncir vuracaqmış? Şaşaram! | |
| Kükrəmiş sel kimiyəm, bəndimi çeynər, aşaram,<br>Yırtaram dağları, ənginlərə sığmam, daşaram. | |
| O mənim millətimin ulduzudur, parlayacaq;<br>O mənimdir, o mənim millətimindir ancaq. | |

3. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.

## • Evdə iş

• Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misraları seçib yazın. Fikrin təsir gücünün artmasına diqqət edin.

II dərs

## • Təhlil üzrə is

**Əsərin təhlilinə hazırlaşın.**

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanın.

Şeirin yazılmasının maraqlı tarixçəsi var. Milli mücadilə marşı yazmaq üçün Türkiyədə elan olunmuş müsabiqəyə 724 şeir mətni təqdim olunmuşdu. Qalibə mükafat veriləcəyini eşidən Məhmət Akif mükafat naminə milli marş yazmaq istəməmiş, yalnız təkidli xahişlərdən sonra şeiri müsabiqəyə təqdim etmişdir. 12 mart 1921-ci ildə millət vəkilləri qarşısında oxunan şeir böyük coşqu ilə qarşılanmış, dinləyicilər bu möhtəşəm əsəri ayaq üstə alqışlamışlar. Türkiyənin milli marşı olaraq qəbul edilən bu şeirə görə aldığı mükafatı Məhmət Akif cəbhədəki əsgərlər üçün hərbi geyim tikən xeyriyyə cəmiyyətinə bağışlamışdır.

Şair bu şeirin özünə yox, türk millətinə məxsus olduğunu söyləmiş, milli ruhu ifadə etdiyinə inanaraq əsəri türk millətinə və onun qəhrəman ordusuna hədiyyə etmişdir.

Şairin fikrincə, əzəldən azad yaşayan, əsarətin nə olduğunu bilməyən millətin azadlığını əlindən almaq mümkün deyildir. O, əminliklə elan edir ki, türk milləti ölkəsinə yönələn təhdidlərə həmişə layiqli cavab verəcək, müstəqilliyini və azadlığını, nəyin bahasına olursa-olsun, əbədi qoruyacaqdır.

## • Araşdırın • Fikirləşin • Cavab verin

2. Qazanılmış zəfərin əbədi olacağına şairin inamı, sizcə, nədən irəli gəlir?
3. Vətəninin azadlığına düşmən kəsilənlərə sənətkar necə münasibət bəsləyir? Suala əsərdən seçdiyiniz nümunələr əsasında cavab verin.
4. Şairin məhz şəhid oğluna müraciət etməsinə səbəb, sizcə, nədir? Fikrinizi əsaslandırın.
5. Şeir müstəqilliyə, azadlığa, milli birliyə həsr olunmuş digər əsərlərdən hansı cəhətlərinə görə fərqlənir? Onu tanış olduğunuz bir əsərlə (məsələn, "Türkün nəğməsi" ilə) müqayisə etməklə suala cavab hazırlayın. Cədvəldən istifadə etməyiniz faydalıdır.

| № | Hansı cəhətlərinə görə müqayisə olunurlar? | Əsərlərin adı | |
|---|---|---|---|
| | | "İstiqlal marşı" | |
| | | | |

6. Əsərin müəllifi haqqında sizdə hansı təəssürat yaratdı? Onun şəxsiyyəti, xarakteri barədə nə deyə bilərsiniz?
7. Vətənin azadlığı, müstəqilliyi problemi şeirdə bədii həllini necə tapıb? Münasibətinizi əsaslandırın. Cədvəldən istifadə edin.

| Şair Vətənin azadlığı, müstəqilliyi probleminin həllini nədə görür? | Problemin bədii həllinə sizin münasibətiniz |
|---|---|
| | |

8. Əsərdəki başlıca fikri – ideyanı necə izah edərsiniz? Fikrinizi əsaslandırmaq üçün cədvəldən istifadə edin.

| № | Əsərin ideyasını daha qabarıq əks etdirən misralar | Nə üçün belə düşünürsünüz? |
|---|---|---|
| | | |

## • Evdə iş

• Kitabxanadan və ya internetdəki mənbələrdən Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin Dövlət himnləri haqqında məlumat toplayın.

III dərs

**• Tətbiq • Müzakirə • Yaradıcı iş**

1. "İstiqlal marşı"nı öyrəndiyiniz digər əsərlə – B.Vahabzadənin "Vətəndaş" şeiri ilə müqayisə edin. Çıxardığınız nəticəni müqayisə cədvəlində, yaxud Venn diaqramında qeyd edin.



2. Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin Dövlət himnlərinin mövzu, məzmun, ideya və musiqi baxımından oxşar cəhətlərini aydınlaşdırın. Cədvəldən istifadə edin.

| № | Hansı cəhətlərinə görə müqayisə olunurlar? | Azərbaycan Respublikasının Dövlət himni | Türkiyə Cümhuriyyətinin Dövlət himni – "İstiqlal marşı" |
|---|---|---|---|
| 1 | Mövzu | | |
| 2 | Məzmun | | |
| 3 | İdeya | | |
| 4 | Musiqi | | |

3. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Mən bu gün bildirmək istəyirəm ki, 1918–1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz, qanunla istifadə etdiyimiz Dövlət himnidir və bir də Azərbaycanın Dövlət bayrağıdır".
   Ulu Öndərin Dövlət himni və bayrağımıza verdiyi yüksək qiymət, sizcə, nə ilə əlaqədardır?
4. Ulu Öndər Heydər Əliyev "Bir millət, iki dövlət" sözlərini hansı münasibətlə demişdir? Bu fikri necə başa düşürsünüz?
5. Himn haqqında doğru fikirləri müəyyənləşdirin. Onlara münasibət bildirin.
   a) Hər bir vətəndaş Dövlət himnini bilməli, ona hörmətlə yanaşmalıdır.
   b) Ölkəmizin Dövlət himni milli vətənpərvərlik hislərinin dolğunluğu, mübariz ruhu ilə seçilir.
   c) Himnin sözləri də, musiqisi də gözəl olmalıdır.
   ç) Himnimiz bizi Azərbaycanın birliyi, bütövlüyü, bölünməzliyi uğrunda mübarizəyə səsləyir.
   d) Himn səslənərkən onun oxusuna qoşulmamaq, dinləmək daha məqsədəuyğundur.

**• Evdə iş**

• Aşağıdakı mövzulardan birini seçib inşa yazın.
1. Qarabağ Azərbaycandır!
2. Tarixi zəfərimiz qürur mənbəyimizdir.

**• Müstəqil iş üçün**

• Bölmədə tanış olduğunuz sənətkarların həyatı haqqında kitabxana və ya internetdəki mənbələrdən məlumat toplayıb, öyrənin. Qənaətlərinizi sinif yoldaşlarınız, müəllimləriniz və valideynlərinizlə bölüşün.

## YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

### Zeynal bəy
*(ixtisarla)*

Pristavın müavini Zeynal bəy sabah ertə dəftərxanaya gələndə orada ayrı halət gördü; qorodovoylar süpürhasüpür salmışlar, pristav da dəli kimi otaqda o yan-bu yana qaçır, qorodovoyların üstünə çığırırdı:

– Müftəcə məvacib alıb il uzunu bircə qəpikliksə də iş görmək istəmirsiniz. Elə onu bilirsiniz ki, dəftərxanaya girəndən rüşvət alırsınız. Budur, qubernator üç günə kimi gəlir, hamınızı it kimi qulluqdan qovacaq.

Zeynal bəy qubernatorun gəlməyini eşidəndə qorxusundan qıçları nağara ağacı kimi tərpənməyə başladı. "Pristav qorodovoylarımı qorxudur, yoxsa elə gerçəkdən qubernator gəlir?" sözlərini başından keçirdisə də, həllinə aciz qaldı.

– Nikolay Semyonoviç, doğrudan, qubernator gəlir?

Zeynal bəy yüngül bir təbəssüm və cəsarətsiz bir səslə sual etdikdə pristav acıqlı:

– Necə yəni "doğrudan"? Bəs siz ilə mənim zarafatım var?.. Özü də cəmi məmurları qulluqdan qovacaq!..

Pristav sözünü kəsdi və qorodovoyların birinin böyrünə bir dürtmə salıb çığırdı:

– Eşşək, hələ qulaq asır, tez olun, barı dəftərxananı süpürüb təmizləyin, görək işimiz nə təhər olur!

Qorodovoylar süpürgələri götürüb cəld süpürməyə girişdilər. Bəzisi köhnə dəftərləri töküb çırpırdı, kimi mürəkkəb qablarındakı milçək ölülərini atıb yerinə mürəkkəb tökürdü. Tozdan göz gözü görmürdü.

– Zeynal bəy, durmaqdan fayda yoxdur! Barı get bazarı və küçələri süpürt.

Bu sözlər elə bil Zeynal bəyi dərin bir yuxudan ayıltdı, rəngi qaçmış üzünü fövrən pristava çevirib təəccüblü:

– Bə deyirsiniz qubernator üç günə kimi gəlir, bu az vaxtda bazar-küçəni təmizlətmək olarmı? Orada yüz araba zibil var.

"Qubernator" sözü yenə Zeynal bəyi qorxuya saldı və şiddətli bir titrəmə vücuduna yayıldı. Pristav bir də:

– De nə edək? Barı dəftərxanaya gələn küçəni süpürt ki, qubernator görüb acığı tutmasın.

Zeynal bəy pristavın sözünü yarımçıq qoyub ağır fikir və xəyal içində dəftərxanadan çıxdı. Ən əvvəl dəftərxanaya gələn küçənin uçub-dağılmış sərbəndi onun gözünə sataşdı. Bunun sağ tərəfini tutan şəhər bağı idi, bundan da o tərəfə bir neçə hisli ev nəzəri cəlb edirdi. Zeynal bəy dərin bir sükutda bağın sökük cağlarının dibi ilə başını aşağı salıb yavaş-yavaş getməyə başladı və bir az getməmişdi ki, bir qorodovoyu yatmış gördü. Qorodovoy qış günəşinin isticə şüası altında laqeydanə xoruldayırdı. Və hər xoruldadıqca belindəki sınıq qından çıxmış xəncərin paslı ucu rəngi soluq çuxanın altından enib-qalxırdı.

Zeynal bəy acığından bığını gəmirə-gəmirə yetirib qorodovoyu təpiklədi. Qorodovoy yuxudan dik atılıb gözlərini Zeynal bəyə dikdi və əlini gicgahındakı gödək və hənalı birçəyi üstə qoyub təzim etdi:

– Başına dönüm, bəy, nə qulluğun var?

– Nə olacaq, canınıza dərd var! Bu bağın cağını niyə söküb yandırmısınız?

– Vallah, bəy, gecələr çox soyuq olur.

– “Soyuq olur”, soyuq gözünüzə girsin!.. Tez ol, yeri, ürədnik Qulunu tap, deyinən qubernator gəlir, küçələri süpürtsün.

Qorodovoy börkünü başına basıb yüyürüb getdi. Zeynal bəy də bazarnikin çığırmasını eşidib rastabazara döndü. Bazarnik Alı bəy hambalları yoğun əsası ilə şapbarlayırdı.

Zeynal bəy yetirdi:

– Yenə nədir, ay Alı dadaş?

– Adə, bu köpək uşağı hambalları görmürsən, bazarı süpürməyə də pul istəyirlər. Köpək uşağının, sən öl, hamısını İrana qaytarıb atasına od vurulmalıdır!..

Zeynal bəy ehmal səslə dedi:

– Alı dadaş, hələ de görüm bu qubernatorun gəlməyinə nə deyirsən?

– Nə deyəcəyəm, Zeynal, evimiz yıxılıb! Kaş bu səfər gəlməyi yalan ola, adam işləri düzəldə...

– Alı dadaş, bəs biz qovulsaq, nə edəcəyik? Bizdən savayı, hamı özünü tutub.

– Hə, balam, odur, ürədnik Qulu qulluğa girəndən bəri böyük imarət tikdirib, bankda da, deyirlər, on min manat pulu var. Köpək oğlunun əvvəl heç zadı yox idi.

– Pristavın da kefi kökdür, o da özünü qaçaqçılardan yaxşı düzəldib.

– Ədə, ağıllı adam elə olar da!.. Deyir rüşvət alma, elə ki aldın, beş manat, on manat, ya bir kəllə qəndə yıxılma... Alırsan, yüz al, min al! Odur ki, Hacı Qasım hər bazardan şəhər yerini qəsb eləyib xəlvət dükan tikdirəndə pristava paketdə iki yüzlük gedir. Ay Zeynal, Hacı Qasım azından ildə xəlvət beş dükan tikdirirmi?

Zeynal bəy burada dərin bir “ah” çəkib dedi:

– A kişi, elə aralıqda qalan biz fəqir olduq!

– Zeynal, yenə sənin də işin yaxşıdır, pristavın səbəbinə axır sənə də az çatmırdı.

– A kişi, haradan, yüzlüklər pristava gedəndə mənə də bir kəllə qənd gəlirdi. Müsəlmanı tanımırsan, öz müsəlmanına xeyir verməz!

Alı bəy əsasını sol əlinə alıb, sağ əlini Zeynal bəyin çiyninə qoyub təkidlə:

– Sən yenə qənd alırdın, mən heç onu da ala bilmirəm. Hərdənbir qəssab dükanının dalında azarlı qoyun kəsiləndə “başını tuturam”. Onda evə ət göndərirlər; tutmayanda heç o da gəlmir. Köpək uşağı azarlı qoyunu da elə kəsirlər ki, heç ayda bir də başını tuta bilmirsən!..

– Xülasə, Alı dadaş, bunlar qurtarandan sonra bircə əlacımız var: gərək qubernatorun gözünə görükməyək. Belə olsa, birtəhər ötüşərik... Mən belə eləyəcəyəm; nə görsün, nə də qulluqdan qovsun!

Zeynal bəy bir neçə saat bazarı dolandıqdan sonra ürədnik Quluya rast gəldi. Ürədnik Qulu ucaboy, nazik, qarabəniz bir adam idi. Zeynal bəy Qulunu görcək, qəzəbli:

– Ay Qulu, balam, belə olmaz, haradasan? Bəs bu qırılmış qorodovoylar necə olub ki, biri tapılmır işə göndərim?

Ürədnik Qulu süst üzünü bir az yaxşıladıb, qızarmış kəsalətli gözlərini Zeynal bəyə döndərdi:

– Qorodovoyların beşi pristavın evində qulluq edir, su daşıyan, bişmiş bişirən, bazara gedən... üç-dördü də dünən ürədnik Həsəngildə idi. Olsun ki, indi yatıblar.

Zeynal bəy hirsindən köpüklənmiş ağzını silib, Quludan ayrılıb getdi. Və neçə addımlıq məsafədə bir də dayanıb çığırdı:

– Kasıb-kusublar gündə şikayətə gəlirlər ki, qorodovoylar qablarımızı, paltar və palazımızı çəkib aparırlar; bişmiş bişirməyə, üstündə oturub-durmağa da bir şey tapmırıq... Belə şeyin başı bir gün açılar, adamın anasını ağladarlar...

...Qubernator gəlmişdi. Polis məmurları şəhərin zahir görünüşünü qaydaya salmağa var qüvvələrini sərf etmişdilər. Qubernatorun köhnə məmurları qovmaq qəsdilə şəhərə gəlməsi hər kəsə gün kimi aşkar olmuşdu. Bircə Zeynal bəy toxtaq durub əvvəlki fikrində sabit idi:

– Mən qubernatın gözünə görükmürəm, harada görürəm, qaçıb gizlənirəm, daha məni görməyə-görməyə necə qulluqdan qova bilər?! Yəqin, heç yadına düşməyəcəyəm!

Hərdən qubernator dönüb qələbəyindən və ya qeyri polis məmurlarından bir şey sual etdikdə Zeynal bəy onun zəhmli nəzərinə qarşı gəlməmək fikrilə başını yavaşca əyib pristavın arxasında gizləyirdi. Belə də olurdu ki, dilənçi və ya hamballara bir əmr vermək bəhanəsilə məmurlardan aralanıb ayaq saxlayırdı və sonra yüz addımlıq bir məsafədən qubernatoru təqib etməyə başlayırdı. Kim bilir, qubernatorun hər səsi çıxdıqda Zeynal bəyin ürəyinə nə qorxular çökürdü, bədəninə necə titrəmə düşürdü.

... Bir gün sabah ertə Zeynal bəy dəftərxanaya daxil olduqda qonşu otaqdan qubernatorun qəzəbli səsini eşitdi. Səs əvvəl onun qulaqlarında qəribə bir halla cingildəyib cəmi bədəninə sirayət etdi, pis bir təsir vücuda gəldi. Zeynal bəy bihiss durub ağzıaçıq qaldı: qabağa getməyə cürət etmirdi, geri qayıtmağa da titrəyən qıçlarında taqət yox idi. Qubernatorun səsi getdikcə yavıqlaşırdı. Onun qaranlıq dəhlizdən qapıya tərəf gəldiyi aşkar olurdu. Zeynal bəy bunu hiss etdikdə çar-naçar sıçrayıb qapının dalında gizləndi və bunu elə düşüncəsiz halda etdi ki, küncə söykəli iri süpürgə döşəmənin üstə düşüb qapıya tərəf gələn qubernatoru qorxutdu. Qubernator əvvəl bir az duruxub, sonra əlindəki qamçı ilə qapının dalını qurdaladıqda Zeynal bəy ortalığa sıçradı və arıq əlini gicgahına qoyub təzim etdi.

Qubernator təəccüblə baxıb acıqlandı və zəhmli səsi ilə çığırdı:

– Von!!!

Neçə dəqiqə idi ki, qubernator arxasındakı polis məmurları ilə dəftərxanadan uzaqlaşmışdı. Lakin Zeynal bəy əli gicgahında əvvəlki yerində donmuş kimi qalıb dili tutulmuş söyləyirdi:

– Ba-ba-ba... Balll... bal... balalarım... var... ac, ac qalarlar!..

## İNFORMASİYA XARAKTERLİ MƏTNİ – MƏRUZƏNİ NECƏ YAZMALI?

İnşa və essenin yazılması ilə bağlı artıq müəyyən təcrübəniz var. Bu dərs ilində icra edəcəyiniz işlər əvvəllər qazandıqlarınızın inkişafına, eləcə də *informasiya xarakterli məruzə* üzrə yeni yazı bacarıqlarını mənimsəməyinizə əhəmiyyətli təsir edəcəkdir.

*İnformasiya xarakterli məruzənin* hazırlanması üzrə iş sizin tədqiqatçılıq bacarığınızın inkişafına səbəb olacaqdır. Müxtəlif mənbələrdən məlumat və faktların toplanması, təhlil edilməsi, daha vacib olanlarının seçilməsi, əlaqələndirilməsi və s. müstəqil və yaradıcı fəaliyyətinizə səmərəli istiqamət verəcəkdir.

### Məruzəni hazırlamaq üçün hansı addımlar atılmalıdır?

1. İlk növbədə, məruzənin **mövzusu** dəqiq müəyyənləşdirilməlidir. Mövzu seçilərkən nəzərə almaq lazımdır ki, məruzə də inşa və esse kimi sizdən **müstəqil yanaşma** tələb edir.
2. Sonra məruzənin **planı** tərtib edilir. Plan giriş, əsas hissə, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələrdən ibarət olur. Məruzənin mətnində planın hər maddəsi yeni səhifədən başlanır, başlıq yazılır, sonra isə həmin bölmənin məzmunu verilir.
3. **Girişdə** qarşıya qoyduğunuz məqsəd, vəzifələr, tədqiqatın nəyə həsr olunması, əhəmiyyəti öz əksini tapmalıdır.
4. İşin məzmunu məruzənin **əsas hissəsini** təşkil edir.
5. Aparılmış tədqiqat **nəticə** ilə yekunlaşdırılır.
6. İstifadə olunmuş **ədəbiyyatın siyahısı** verilir.
7. **Əlavələrdə** məruzənin məzmunu ilə bağlı illüstrasiyalar, sxemlər, cədvəllər verilir. Lakin əlavələr məruzənin həcminə daxil edilmir.

Məruzənin mətnində (əsas hissədə) **başlıca fikrin – ideyanın müəyyənləşdirilməsi** və **şərhi** çox əhəmiyyətlidir. Bunun üçün materialın düzgün seçilməsi və yerləşdirilməsi zəruridir.

Siz seçdiyiniz mövzuya uyğun hazır mətnləri köçürməməli, istifadə etdiyiniz ədəbiyyata istinad etməklə öz fikirlərinizi əks etdirməli və əsaslandırmalısınız. Mənbələrdən sitatların seçilməsinə diqqətlə yanaşmalısınız. **Sitat** öz fikrini əsaslandırmaq, aydınlaşdırmaq, sübuta yetirmək üçün başqasının söylədiklərindən, yazdıqlarından gətirilən dəqiq çıxarışlara deyilir. Öz fikrinizi sübut etmək, aydınlaşdırmaq üçün sitatlardan istifadə edərkən onun mənbəyini göstərməlisiniz.

Məruzədəki hər sözün, terminin mənası, ilk növbədə, özünüzə aydın olmalıdır. "Ulu Öndər Heydər Əliyev klassik sənətkarlarımız haqqında", "Nizami Gəncəvinin poema yaradıcılığı", "Cəlil Məmmədquluzadənin hekayələri" və s. mövzularda şagird məruzələrindən dərs prosesi ilə yanaşı, məktəb tədbirlərində, yubileylərdə, müsabiqələrdə istifadə olunması məqsədəuyğundur.

## Məruzə ilə çıxış necə olmalıdır?

Məruzənin yazılı mətninin hazırlanması işin bir tərəfidir. Məruzənin uğurlu olub-olmaması həm də sizin şifahi nitqinizdən – yazdığınız mətndən necə istifadə etməyinizdən, dinləyicilər qarşısında çıxışınızdan çox asılıdır. Şifahi nitq üçün dinləyicilərin asan qavrayacağı yığcam, sadə cümlələrdən istifadə daha faydalıdır.

Bu tələblərə cavab vermək üçün sizin şifahi nitqiniz *düzgünlük, yığcamlıq, məntiqilik, ardıcıllıq, sadəlik, aydınlıq, dəqiqlik, ifadəlilik, emosionallıq, inandırıcılıq* kimi keyfiyyətlərə malik olmalıdır. Nitqin düzgünlüyü dilin normaları ilə tənzimlənir. Nitqdəki hər hansı bir səhv, qeyri-dəqiqlik qavramanı çətinləşdirir, mənimsəməni ləngidir. Vurğu, intonasiya ilə bağlı səhvlər bu qəbildəndir. Xüsusən, sözlərin düzgün tələffüz edilməməsi ciddi nitq qüsurlarından sayılır. Sözün düzgün tələffüz edilməməsi dinləyicinin diqqətini yayındırır, məruzəçinin fikrinin, cümlənin mənasının başa düşülməsini çətinləşdirir.

Nitqiniz zənginliyi və orijinallığı ilə dinləyicilərin diqqətini cəlb etməlidir. Bunun üçün ana dilini dərindən bilməli, onun zəngin, özünəməxsus ifadə vasitələrindən istifadə etməyi bacarmalısınız. Nitqin keyfiyyəti lüğət ehtiyatınızın zənginliyindən və ondan istifadə etmək bacarığınızdan çox asılıdır. Nitqdə sinonimlərdən məqamında istifadə, yersiz təkrarlara yol verilməməsi çox vacibdir. Düzgün seçilmiş sinonim sözün müxtəlif məna çalarlarını çatdırır, fikrin daha dəqiq ifadəsinə xidmət edir.

Şifahi çıxış zamanı emosional ifadəliliyi artırmaq üçün bədii təsvir və ifadə vasitələrindən, atalar sözü və məsəllərdən, aforizmlərdən, frazeoloji birləşmələrdən istifadə məqamında olmalıdır. Nitqin kəsərini, dinləyiciyə təsirini gücləndirmək, qavramanı fəallaşdırmaq üçün *inversiyadan* – cümlədə sözlərin sırasının qəsdən pozulmasından, *bədii suallardan*, diqqəti mühüm fikrə cəlb edən *bədii nidalardan* istifadə müsbət nəticə verir.

**Çıxış** 5 dəqiqədən çox olmamalı, əlavə sualların cavablandırılması üçün vaxta qənaət edilməlidir. Çıxışın qiymətləndirilməsi zamanı aşağıdakı meyarlar nəzərə alınır:

– Məruzənin tədqiqat xarakterli olması.
– Müxtəlif mənbələrdən istifadə.
– Müstəqillik səviyyəsi.
– Məruzənin mövzuya uyğunluğu, yeniliyi.
– Materialın məntiqi ardıcıllıqla, sistemli şərhi.
– Məruzəçinin nitq mədəniyyəti.
– Əlavə suallara dolğun cavabların verilməsi.

# • • • LAYİHƏLƏR ÜZRƏ İŞ • • •

## I YARIMİL

### LAYİHƏ

• • • MÖVZU • • •

**"Qədim, intibah və orta əsrlər dövrü ədəbiyyatında insan və təbiət"**
(ən yaxşı məruzənin müəyyənləşdirilməsi üzrə müsabiqə)

TAPŞIRIQLAR:

1. "Qədim, intibah və orta dövr ədəbiyyatında insana verilən dəyər" mövzusunda məruzənin hazırlanması.
2. "Qədim, intibah və orta dövr ədəbiyyatında təbiətə münasibət" mövzusunda məruzənin hazırlanması.
3. Kiçik qrupların yaradılması, qrup üzvləri arasında iş bölgüsünün aparılması.
4. Münsiflərin seçilməsi və təlimatlandırılması.
5. Aparıcıların seçilməsi və müsabiqənin proqramının hazırlanması.

## II YARIMİL

### LAYİHƏ

• • • MÖVZU • • •

**"Tənqidi realizm və romantizm dövrü ədəbiyyatında ictimai ziddiyyətlərin və nöqsanların təsviri"**
(ədəbi-bədii gecə)

TAPŞIRIQLAR:

1. "Dövrün ictimai ziddiyyətləri və nöqsanları bədii ədəbiyyatda" mövzusunda elektron təqdimatların hazırlanması.
2. Dövrün tənqidi ruhlu bədii əsərləri üzrə çəkilmiş filmlərin əsasında hazırlanmış video-süjetə baxış və rəy mübadiləsi.
3. Kiçik qrupların yaradılması, qrup üzvləri arasında iş bölgüsünün aparılması.
4. Aparıcıların seçilməsi, proqramın hazırlanması.

**İNTİBAH DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI**
bölməsi üzrə

## NİZAMİ GƏNCƏVİ

### Zalım şahla düzdanışan qocanın hekayəti
(“Sirlər xəzinəsi” poemasından)

Xalqa yağı şah vardı, zülmkarın biriydi,
Həccacdan da betərdi, lap qəddarın biriydi.
Hər gecə – min qəzanın fərmanıydı ölkədə,
Hər səhər – min cəzanın fərmanıydı ölkədə.
Şah yanına bir çuğul səhər tezdən qaçardı,
Ay, gün açmayan sirri o, əlüstü açardı.
Gecə yatmayıb, Aydan dolanmağı öyrənər,
Səhərdən hər ürəyə boylanmağı öyrənər.
Şaha xəbər verərdi: biri sənə yağıdır,
Deyir: “Zalım şahımız nahaq qanlar axıdır”.
Çuğulçunun sözündən qəzəblənib şah dindi:
“Düşmənimin cəzası yalnız ölümdür indi”.
Qum tökdürdü gön üstə, cəllad hazır dayandı,
Divanənin cəzası divlərə də əyandı.
Yeltək cumdu bir cavan mərd qocanın yanına,
Dedi: “Şahın hökmüylə batmalısan qanına,
Çağırmamış divsifət, dur, özün get saraya,
Tez başına çarə qıl, çatan olmaz haraya”.
Yuyunaraq boynuna kəfən saldı o qoca,
Getdi şahın yanına, əhli-haldı o qoca.
Şah görəndə kəfəni, bildi, nadir bu halət,
Qəzəbindən utanıb özü çəkdi xəcalət.
Dedi: “Qoca, qaramca sən o ki var demisən,
Mənə zalım demisən, mənə qəddar demisən.
Süleymanın cəlalı, görürsən ki, mənimdir,
Söylə, niyə deyibsən, şah ölkəyə qənimdir?”
Qoca dedi: “Adına mən yoxsa şər demişəm?
Dediklərin nədir ki?! Ondan betər demişəm.
Qoca, cavan əlinlə içib ölüm zəhəri,
Biyarın cana yığıb saysız kəndi, şəhəri.
Mən deyirəm eybini, şər işini özünə,
Göstərirəm güzgütək hər işini özünə.
Hər eybini göstərər alsan ələ güzgünü,
Utan, qızar eybindən, qırma elə güzgünü.
Düzlüyümlə sadiq bil hökmdara sən məni,
Əgər doğru demirəm, çəkdir dara sən məni”.
Şaha sübut elədi düzlüyünü o qoca.
Açdı şahın qəlbindən hər düyünü o qoca.

Şah gördü ki, düz deyir, bildi, nədir haqsızlıq,
Qoca tamam haqlıdır, özündədir haqsızlıq.
Dedi: "Alın kəfəni, bu kafuru qocadan,
Xələt verin, müşk səpin, razıyam bu qocadan".
Zülm etmədi, el bundan agah oldu o gündən,
Xalqı sevən, insaflı bir şah oldu o gündən.
Öz düzlüyü kimsəni verməz bada dünyada,
Düz sözüylə kimsəyə yetməz qada dünyada.
Doğruluqla köməkdir hər bir ərə Yaradan,
Doğru ol ki, yetirsin hər zəfərə Yaradan.
Əzəl gündən qiymətli bir incidir doğru söz,
Acısıyla könüllər sevincidir doğru söz.
Doğru sözə bağlıdır öz qüdrətin həmişə,
Qoy qüdrətdən güc alsın söz qüdrətin həmişə.
El gözündə Nizami ucalıbdır düzlükdən,
İlhamına, qəlbinə güc alıbdır düzlükdən.

*Tərcümə edən: S.Rüstəm*

## MƏHSƏTİ GƏNCƏVİ

### Rübailər

Bazara getmişdim bir cümə günü,
Gördüm, kəklik alıb sarın üstünü.
Tez-tez deyir ona: "Cəfa verənin
Bir gün belə qalxar göylərə ünü".

Xalqın başında gər olsan da bir tac,
Ağladar səni də bir gün ehtiyac.
Xalqın dərdinə qal, ona yaxın ol,
Qorx o gündən, özün olasan möhtac.

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki zəhər.
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

Yolda darğa mənə rast gəldi dünən,
Əlində tutduğu çubuqla bərkdən
Döyürdü qəzəblə o, bir qadını,
Tamaşa edirdi hər yoldan ötən.

Hünərin səfası acıdır müdam,
Odur hünər suyu içmir bir adam.
Alçaq adamların cəhalət odu
Hünəri küləyə vermişdir tamam.

*Tərcümə edən: N.Rəfibəyli*

## ORTA ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI
bölməsi üzrə

### İMADƏDDİN NƏSİMİ

#### Mövsimi-novruzü neysan...

Mövsimi-novruzi neysan aşikar oldu yenə,
Şəhrimiz şeyxi bu gün xoş badəxar oldu yenə.

Qönçədən gül baş çıxardı, saldı üzündən niqab,
Bülbüli-şeyda xətibi-laləzar oldu yenə.

Əski dünya yengi xələt geydi bu mövsimdə uş,
Çöhrəsi dövrü bu gün nəqşü nigar oldu yenə.

Nərgisi gör, cam əlində mey sunar ariflərə,
Cümləsin məst eylədi, kəndi xumar oldu yenə.

Badə içmək rövzədə gər sən dilərsən hur ilə,
Yar əlin tut, bağçaya gir, novbahar oldu yenə.

Saqiya, cami gətir kim, mən uşatdım tövbəmi,
Əski təqvimim mənim bietibar oldu yenə.

Sən Nəsimi razini, ey dan yeli, yarə yetir
Kim, anın halı pərişan, biqərar oldu yenə.

**ŞAH İSMAYIL XƏTAYİ**

**Bahar oldu ki, aləm gülşən oldu...**

Bahar oldu ki, aləm gülşən oldu,
Gözün aç, gör cahan nə rövşən oldu.

Bəzəndi hər bir ağac bir gül ilə,
Ağaclar cümlə gül pirahən oldu.

Açıldı yazilər, bitdi çiçəklər,
Gül ilə şol bənəfşə susən oldu.

İrişdi vədəsi badi-baharın,
Behər su gül hezəran xərmən oldu.

Mana ol dust bolsa, dost ancaq,
Nə ğəm, gər cümlə aləm düşmən oldu.

Çox əgləndin gələndə, ey Xətayi,
Məgər sana bu yerlər məskən oldu?

**AZƏRBAYCAN ƏDƏBİYYATINDA**
**ERKƏN REALİZM DÖVRÜ**
bölməsi üzrə

**“Hasan paşanın Çənlibelə gəlməsi” qolu**
*(“Koroğlu” dastanından, ixtisarla)*

Qasid qasidin dalına düzülmüşdü. Xotkara gündə bir xəbər gəlib çatırdı. Özü də bir-birindən qara, bir-birindən bəd xəbərlər: Bolu bəyin ölməyi, Ərəb Reyhanın ölməyi. İndi də xəbər gəlib çatmışdı ki, Koroğlunun oğlu tapılıb gəlib. Özü də necə oğul? Elə bir bundan hesabını apar ki, Koroğlunun özünü iki dəfə yıxıb.

Bu xəbəri eşidəndən sonra xotkarın əli lap yerdən-göydən üzüldü. Tez bir qasidi bir namə ilə göndərdi Hasan paşaya ki, “gərək əlində yağ da daşsa, qoyub özünü mənə yetirəsən”.

Hasan paşa namədən hali olub qaldı mat-məəttəl ki, necə eləsin? Getsin, necə getsin? Getməsin, necə getməsin? Çox götür-qoydan sonra baxdı ki, getməkdən başqa çarəsi yoxdu. Tədarük görüb İstanbula yola düşdü.

Xotkar Hasan paşanı görcək elə birinci sözü bu oldu:

– Hasan paşa, bir mənə de görüm nəyi gözləyirsən? Gözləyirsən, Koroğlu gəlib səni Toqatda, məni də İstanbulda öldürsün?!

Hasan paşa dilini saldı işə. Min yerdən min bəhanə gətirdi. Ancaq heç biri bir quruşa dəymədi. Xotkarın axırıncı sözü bu oldu ki:

– Hasan paşa, bilmirəm. Sənə qırx gün möhlət verirəm. Ya budu ki, gərək Çənlibeli dağıdıb Koroğlunun başını gətirəsən, ya budu ki, qırx birinci gün sənin özünü dar ağacından asdıracağam.

Hasan paşanın qüdrəti qalmadı ki, bircə kəlmə kəsə. Ordan durub birbaş gəldi Toqata. Qoşun böyüklərini yığıb başladı hazırlığa. İndi Hasan paşa burada hazırlaşmaqda olsun, sənə deyim Aşıq Cünundan.

Aşıq Cünun bütün bu şeylərin hamısını cikindən-bikinə kimi əl altından öyrənib, daban aldı Çənlibelə. Əhvalatı, necə ki biz bilirdik, eləcə Koroğluya danışdı. Koroğlu dedi:

– Eybi yoxdu. Siz öz işinizdə olun! Qoyun gəlsin. Hasan paşa ilə də burada görüşərik.

Bu sözdə Dəli Həsən yeridi qabağa, dedi:

– Koroğlu, özünə çox da arxayın olma. Buna Hasan paşa deyərlər. Bu nə Bolu bəyə bənzəməz, nə də Ərəb Reyhana. Qoy biz də hazırlaşaq.

Dəlilər də, xanımlar da hamısı Dəli Həsənin fikrini bəyəndilər. Axırda belə oldu ki, Dəli Həsən dəlilərin üç min say-seçməsini ayırıb Çənlibelin Toqat baxarındakı bəndərləri tutdu. Başladılar Hasan paşanı gözləməyə.

Bir gün keçdi, beş gün keçdi, on beş gün keçdi, Hasan paşadan xəbər çıxmadı.

Günlərin bir günü səhər tezdən Koroğlu bir də baxdı ki, budu, keşikçi bir adam gətirir. Gəlhagəl, gəlhagəl, Koroğlu baxdı ki, bu adam elçi paltarındadı. Soruşdu:

– Kimsən? Nə istəyirsən?

Elçi ədəb salamını yerinə yetirib dedi:

– Qoç Koroğlu, mən sənin dostun Ələmqulu xanın qasidiyəm. Gəlmişəm, sənə xəbər verəm ki, Ələmqulu xan öz başının adamları ilə sənə qonaq gəlir.

Koroğlu dedi:

– Xoş gəlir, səfa gətirir. Hər kim mənə qonaq gəlsə, gözümün üstündə yeri var.

Ondan Dəmirçioğlunu, Eyvazı, bir də Gürcüoğlu Məmmədi çağırdı ki:

– Tez olun, hazırlıq görün! Gərək Ələmqulu xanı elə qarşılayaq ki, Gürcüoğlu Məmmədin, bir də Ruqiyə xanımın başı aşağı olmasın.

Hazırlıq başlandı. Qoyun kəsən kim, ocaq yandıran kim, atını tumarlayan kim, elə oldu ki, elə bil Çənlibel toya hazırlaşır. Koroğlu tez bir adam qaçırtdı Dəli Həsənin yanına ki, bəs əhvalat belədi. Qonaq gəlir. Tez gəlsin. Ondan üzünü tutdu elçiyə ki:

– Yaxşı, xan nə vaxt gələcək?

Elçi dedi:

– Qoç Koroğlu, xan gəlib. Mən onları Çənlibelin üç ağaclığındakı bulağın başında qoyub gəldim. Dedilər ki, biz Koroğlunu burada gözləyəcəyik.

Koroğlu qalxdı ayağa ki:

– Evin yıxılsın, bəs səhərdən niyə bunu mənə demirsən? Kişinin yanında biabır olduq. De görüm, neçə nəfərdirlər?

Koroğlu hay vurdu yeddi yüz dəli atlansın. Özü də Dəli Mehtəri səslədi ki, Qıratı gətirsin. Bəli, dəlilər atlandı. Qırat gəldi. Koroğlu ayağını qoydu üzəngiyə ata minsin, nə fikirləşdi, nə fikirləşmədi, birdən üzünü Bəlli Əhmədə tutub dedi:

– Bəlli Əhməd, mən qayıdınca elçinin əlinə-ayağına zəncir vurub göz altında saxlarsan.

Bəlli Əhməd "baş üstə" deyib o saat bir ağır kotan zəncirini saldı elçinin boynuna. Elçi işi belə görəndə qışqırdı.

– Bu nədi? Mən bu saat gedib xana deyəcəyəm. Qonağın elçisini də zəncirə vurarlar?

Bəlli Əhməd dedi:

– Ayə, narahat olma! Bu bizim qaydamızdı. Elə ki Koroğlu qayıdıb gəldi, ondan sonra səni lap yuxarı başda oturdacağam.

Elçi başladı dartınıb-çırpınmağa ki:

– Mənə heç bir şey lazım deyil. Bu saat məni buraxın, mən çıxıb gedirəm.

Koroğlu nə fikirləşdi, nə fikirləşmədi, birdən Misri qılıncı çəkib cumdu elçinin üstünə, tutdu onun boğazından ki:

– Bu saat de görüm, sən kimsən? Buraya nəyə gəlmisən? Yoxsa başını bədənindən ayıracağam.

Elçi işi belə görəndə düşdü Koroğlunun ayaqlarına ki:

– Amanın bir günüdü, Koroğlu! Bir qələtdi eləmişəm əcdadım ilə. Mənə yazığın gəlsin. Bir sürü külfətim var. Aman ver, deyim.

Koroğlu dedi:

– Amandı, de! Amma yalan desən, vay halına!

Elçi dedi:

– Vallah-billah, bircə kəlmə yalan desəm, hər nə bilirsən elə! Necə ki var, düzünü deyəcəyəm. Amma gərək söz verəsən ki, məni buraxacaqsan.

Dəlilər, xanımlar hamısı mat-məəttəl qaldılar ki, görəsən, bu nə sirdi. Koroğlu dedi:

– Dedim sənə ki, amandasan. Danış!

Elçi başladı ki:

– Can Koroğlu, mən səhərdən hər nə demişəmsə, hamısı yalandı. Mən heç bilmirəm ki, Ələmqulu xan kimdi. Məni buraya göndərən toqatlı Hasan paşadı. Budu, on beş min qoşun ilə gəlib sənin üstünə. Bu adla istəyir ki, səni aparıb qabaqca özünü tuta, sonra da Çənlibelə yeriş eləyə.

Koroğlu qayıdıb oturdu, dedi:

– Yaxşı, bəs qoşun hardadı?

Elçi dedi:

– Biz buraya axşam çatmışıq. Gecə ilə qoşunu bəndərgahlarda gizlədib, özü yüz-yüz əlli adamla səni bulaq başında gözləyir.

Koroğlu getdi fikrə. Elə bu dəmdə Dəli Həsənin dalınca gedən adam başılovlu gəldi ki:

– Hər yeri ələk-vələk elədim. Nə Dəli Həsən var, nə də dəlilər.. Bütün bəndərgahlar da boşdu.

Koroğlu qalxıb tutdu onun boğazından ki:
– Sən nə danışırsan?
Dəli dedi:
– Can Koroğlu, məni niyə öldürürsən? Mən işin olanın sənə deyirəm. İnanmırsan, adam göndər, yoxlatdır.
Tez dəlilərdən bir neçəsini göndərdilər. Xəbər gəldi ki, bəs deyilən doğrudu. Nə Dəli Həsən var, nə də ki dəlilər. Koroğlunun gözləri döndü qan çanağına. Elə oldu ki, day bir adam cürət eləyə bilmədi ağzını açıb bir kəlmə dinə. Nigar xanım işi belə görəndə durub gəldi qabağa. Dedi:
– Koroğlu, belə dayanmaqdan bir şey çıxmaz. Olan olub. İndi bir tədbir görmək lazımdı. De görək nə eləyək. Düşmən kəsib qapının ağzını.
Koroğlu elə bil yatmışdı, oyandı. Durdu ayağa. Amma durdu, nə durdu. Elə qalxdı ki, elə bil Qaf dağı gurultu ilə yerindən oynadı. Elə bircə bunu dedi ki:
– Neynək. Qoy olsun.
Sonra üzün Eyvaza tutdu, dedi:
– Dəlilərdən iki min götürüb kəsərsən bəndərgahları. Onu-bunu bilmirəm. Çənlibelə bir adam buraxsan, başını özüm kəsəcəyəm.
Ondan döndü Dəli Mehtərə, dedi:
– Dəlilərdən yetmiş nəfər götür. Hasan paşanın qabağına gedəcəyik.
Koroğlunun bu sözündən dəlilər qaynamağa başladılar. Koroğlu baxdı ki, dəlilər buna razı deyillər. Amma qorxudan da bir adam cürət eləyə bilmir ki, danışsın, dedi:
– Tez olun! Gərək Hasan paşa başa düşməsin ki, biz onun işdəklərini bilmişik.
Sonra üzünü tutdu Dəmirçioğluya, dedi:
– Qorxmursan ki?
Dəmirçioğlu güldü, dedi:
– Can Koroğlu, sən rüsxət ver, onları kotan zənciri ilə Toqatacan qovlayım. Qorxmaq nədi?
Koroğlu dedi:
– Hazırla zəncirini! Yerdə qalan dəlilərin hamısını götürüb kəsərsən Yağı qoruğunun bəndərini. Elə ki mən dava başladım, özünü vurarsan qoşuna. Ya budu gərək hamımız qırılaq, ya budu gərək Çənlibelə düşmən ayağı dəyməyə. Amma dəstənin içinə qorxaq adam buraxma. Araya pərxaşlıq salar.
Qərəz, Koroğlu elə ki deməlisini dedi, tapşırılmasını tapşırıb qurtardı, atı mindi, Dəli Mehtəri də yetmiş dəli ilə götürüb düzəldi yola.
Çənlibel dəydi bir-birinə. Eyvaz hay vurdu, iki min dəli belə ayrıldı. Dəmirçioğlu hay vurdu, iki min dəli belə ayrıldı. İşi belə görəndə xanımlar da qalxdılar ayağa. Qılınc götürdülər, altdan geyinib üstdən qıfıllandılar. Eyvaza qoşulub bəndərgahlara çıxdılar. İndi hərə öz işində olsun, bir görək Koroğlugil nə elədilər.
Koroğlu dəlilər də yanında gəlib çatdı elçinin dediyi bulağın yanına. Koroğlu elə gedirdi ki, guya heç bir şeydən xəbəri yoxdu. Bulağa bir az qalmış baxdı ki, budu necə elçi demişdi, olar yüz, yüz əlli adam əyləşiblər burada. Elə ki Koroğlugili gördülər, hamısı qalxdılar ayağa. Koroğlu da gəlib çatdı. Ucadan bir xoşgəldin eləyib soruşdu:
– Bəs hanı xan?
– Koroğlu, xan yoxdu, gələn paşadı. Sənə mən zəhmət vermişəm. Ancaq məni gərək bağışlayasan. Mən qorxdum ki, sən gəlməyəsən, sənin dostun Ələmqulu xanın adını verdim.
Koroğlu dedi:
– Gəlmisən, lap yaxşı eləmisən. Qonaq ki var, bizim əzizimizdi, iki gözümüzdü. Buyurun, gedək! Hamınıza gözümüz üstə yer var.
Hasan paşa dedi:

– Əziz olasan. Mən elə bilməsəydim, heç Toqatdan durub buraya gəlməzdim. Mən bilirdim ki, sən mərd adamsan. Məni bu qoca vaxtımda başıaşağı eləməzsən.

Koroğlu dedi:

– Allah eləməsin. Başıaşağı düşmənin olsun. Buyurun, gedək! Ayə, Dəli Mehtər, qonaqlara yol göstər!

Hasan paşa dedi:

– Yox, Koroğlu, gəl elə biz söhbəti indi buradaca eləyək. Eybi yoxdu. Elə getmiş kimi varıq. Vaxt olar, inşallah, Çənlibelə də gedərik. Bir də mən Çənlibelə belə getmək istəmirəm. Oraya, Allah qoysa, mən gərək başqa cür gedəm.

Koroğlu hərifin sözlərini başa düşdü. Ürəyində dedi: "Ay sənin o meyidini görüm. Allah qoysa, səni Çənlibelə mən öz istədiyim kimi aparacağam".

Koroğlu Hasan paşa ilə danışa-danışa ətrafa nəzər yetirdi. Gördü qoca tülkü qoşunu elə gizlədib ki, bir nəfərinin də başı görsənmir.

Hasan paşa dedi:

– Düş, Koroğlu! Düş, elə söhbətimizi bu bulağın başında eləyək.

Koroğlu bir yoldaşlarına baxdı, başa düşdü ki, heç kəs onun atdan düşməyinə razı deyil. Heç, əslinə baxsan, belə yerdə atdan düşmək ağıllı iş də deyildi. Amma ki Koroğlu bunu öz qeyrətinə sığışdıra bilmədi. Fikirləşdi ki, əgər atdan düşməsəm, deyərlər qorxdu. Odu ki elə birdən aşırılıb atdan düşdü, yüyəni Dəli Mehtərə verib özü Hasan paşanın yanına gəldi. Koroğlu elə cəld atdan düşdü ki, dəlilər heç bir şey eləyə bilmədilər. Durub gözləməyə başladılar.

Bəli, elə ki Koroğlu ilə Hasan paşa bulağın başında qabaq-qabağa əyləşdilər, Hasan paşa sözə başlayıb dedi:

– Koroğlu, məni xotkar sənin yanına göndərib. Bəsdi bu qədər xotkara düşmən oldun. İstəyirəm, xotkarla səni barışdıram. Xotkar deyir, o mənim böyük oğlum, Bürcü Sultan kiçik oğlum. İstəyir, köçüb yanıma gəlsin, istəyir elə Çənlibeldə otursun. İstəyir, bütün qoşun sərkərdəliyini ona tapşırım. Sən də day uşaq deyilsən. Bilirsən ki, bu işin axırı yoxdu. Cavanlıq idi, elədin, necə deyərlər, day həvəsdi, bəsdi. Gəl bu daşı ətəyindən tök. Elə buradan birbaşa mənimlə gedək İstanbula, qurtarsın getsin.

Koroğlu dedi:

– Hasan paşa, adam var, dil işlədər, adam var, əl işlədər. Mən indiyə kimi əl işlətmişəm. Odu ki dildə sənin kimi yağlı-yağlı kəsib doğraya bilməyəcəyəm. Mən sözü bir dəfə deyərəm. Onu da dəyişmərəm. Nə qədər ki bu dünyada mən varam, xotkar var, mən ona düşmənəm. Siz elə bilməyin ki, mən sizin işlərinizi bilmirəm. Xotkar səni buraya niyə göndərib, sən buraya necə gəlmisən, hamısı mənə bəllidi. Mən Koroğluyam. Məni aldatmaq, tora salmaq olmaz. Əlim, ayağım dəyməmiş qoşununu da götür, çıx burdan get! Mən xotkara da düşmənəm, sənə də.

Bunu deyib Koroğlu durdu ayağa, Hasan paşa da durdu. Amma Koroğlunun gözü ətrafda idi. Hasan paşa nə elədi, nə cürə xəbər verdisə, Koroğlu bir də baxdı ki, dörd bir ətrafdan qoşun qalxdı ayağa.Yavaş-yavaş başladılar yeriməyə. Koroğlu gördü ki, hə, necə fikirləşmişdisə, eləcədi. Hasan paşa onu salıb qoşunun düz ortasına. Özü də qoşun nə qədərdi? Adam elə bil göbələkdi, yerdən çıxır. Bir suiçim saatda dörd bir tərəf oldu adam. Koroğlu bir belə baxdı, dedi:

– Hasan paşa, sən deyirdin ki, mən xotkarın böyük oğluyam. Yaxşı, bəs oğulu atanın yanına aparmaq üçün bu qoşun, bu sursat, bu cəbbəxana nəyə lazımdı?

Hasan paşa dedi:

– Koroğlu, sən indi mənim əlimdə əsirsən. Burada on beş min qoşun var. Min canın olsa, biri mənim əlimdən qurtarmayacaq. Gəl nahaq qana bais olma! Öz xoşunla təslim ol!

Koroğlu ətrafına nəzər salıb gördü qoşun getdikcə irəliləyir. Lap üzük qaşı kimi qalıblar arada. Dedi:

– Hasan paşa, özün bilirsən ki, neçə dəfələrlə mənim əlimə fürsət düşüb, amma səni öldürməmişəm. Sən elə bilmə ki, mən səndən qorxmuşam, ya öldürə bilməmişəm. Yox, mən səni bax bu gün üçün saxlayırdım. İndi ya sənə verən Allah, ya mənə.

Koroğlu bunu deyib istədi ata tərəf getsin. Hasan paşa hökm elədi, başındakı adamlar birdən siyirməqılınc töküldülər onun üstünə. Dəli Mehtər istədi dəlilərə hay vursun, Koroğlu əl elədi ki:

– Dayan!

Ondan döndü, paşaya dedi:

– Hasan paşa, gəl bu qoşunu qırdırma! Sən də atını min, mən də. Bu meydanda vuruşaq. Ya sən məni öldür, ya mən səni. Bununla da davamız qurtarsın.

Hasan paşa dedi:

– Bunlar hamısı qorxaqlıqdandı. Mən sənin fikrini başa düşürəm. Sən bizi yubatmaq istəyirsən. Ancaq keçmiş ola. Xotkarın fərmanı budu ki, sənin ya başını aparam, ya özünü. Hasan paşa bunu deyib birdən başının adamlarına hay vurdu ki:

– Tutun, bağlayın qollarını!

Adamlar töküldülər. Koroğlu əlindəki şeşpəri tovlayıb bir sağa hərlədi, bir sola hərlədi, özünə yol açıb çıxdı. Dəli Mehtər Qıratı buraxdı. At bir dəfə fınxırıb dördəmə özünü yetirdi Koroğluya. Koroğlu qızılquş kimi sıçrayıb atın belinə düşdü, bir dəli nərə çəkib özün vurdu qoşuna.

Hasan paşa da hay vurdu, qoşun dörd tərəfdən töküldü. Koroğlu üzün Yağı qoruğuna tərəf tutub dedi:

Mərd igidlər, dava günü gəlibdi,
At sürüb meydana çıxan gündü bu.
Müxənnətlər tər savaşa varıbdı,
Vuruban atından yıxan gündü bu.

Comərd igid heç qaçarmı meydandan?
Qılınc çəkib hayıf alaq düşmandan,
Qorxaq kəslər boyun əyib pünhandan
Sinilib xəlvətdən baxan gündü bu.

Qoç Koroğlu, qılınc götür dəstinə,
Müxənnət paşalar dolub qəsdinə,
Qarı düşman hücum edib üstünə,
Nizəni gözünə soxan gündü bu.

Dəmirçioğluya elə bir işarə bəs idi. Hay vurdu, dəlilər siyirməqılınc töküldü qoşunun üstünə. Hasan paşa işi belə görəndə hay vurdu ki, qoşun o tərəfə yerisin.

Koroğlu dedi:

– Hasan paşa, görürsən ki... Bax indi sən mənim əlimdəsən. Bir həmlədə səni yerlə yeksan elərəm. Amma ki dəymirəm. Qoşununa sərkərdəlik elə.

Dava qızışdı. Koroğlu dəliləri davada görəndə ürəyi telləndi. Dedi:

Dolun at belinə, qoç dəlilərim,
Xotkarı taxtından endirək, hoydu!
Talayaq mülkünü, alaq canını,
Evini başına endirək, hoydu!

Bir hayqırsam, polad qollar boşalar,
Düşmanlar əlimdən çəkər haşalar,
Öldürək xotkarlar, qıraq paşalar,
Meydanı məhşərə döndərək, hoydu.

Söz elə təzəcə tamam olmuşdu ki, qoşunun dal tərəfindən nərə səsi gəldi. Koroğlu da, Hasan paşa da – hər ikisi geri döndü. Koroğlu baxdı ki, Dəli Həsən üç min dəli ilə daldan özünü vurdu Hasan paşanın qoşununa. Koroğlu qaldı məəttəl ki, bu necə olan işdi. O, əvvəl-əvvəl elə bildi ki, Dəli Həsən Hasan paşanın köməyinə gəlir. Baxdı ki, kömək nədi? Dəli Həsən bir suiçim saatda Hasan paşanın qoşununu qatım-qatım qatlayıb ağnatdı bu tərəfə. Dava qızışdı, nə qızışdı. Dəli Həsən qızğın davada qışqırıb dedi:

– Ayə, Dəmirçioğlu, vur!.. Qabaq sənin, dal mənim. Görək kim tez qurtaracaq.

Dəmirçioğlu sözü eşitcək qılıncı atdı yerə. Əl eləyib belindən kotan zəncirini açdı:– Dəli Həsən, mənim dəstəm xırdadı. Görürəm ki, zənciri tovlamasam, səndən geri qalacağam. Ya mədəd!

Zənciri başladı hərləməyə. Qabaq kəsildi, dal kəsildi. Ortada da Koroğlu özü. Qoşun başladı sağa, sola yayılmağa.

Eyvaz Hasan paşanın qoşununu belə görəndə qalxdı ayağa. Atı minib bəndərgahlardakı dəlilərə hay vurdu. İki min dəli də Eyvazla sol tərəfdən təpildi qoşuna. Koroğlu işi belə görəndə Qıratı cövlana gətirdi.

Hasan paşa gördü iş şuluqdu. Belə getsə, buradan bir nəfər adam qurtara bilməyəcək. Odu ki hərci badabad deyib atın başını döndərdi, bir dəstə qoşunla Koroğluya hücum elədi. Koroğlu Misri qılıncı çəkib onları qabaqladı. Di bir sağa vurdu, bir sola vurdu, qoşunun ağzını sındırıb qaçağa saldı. Axır ki, qoşun davam gətirə bilməyib təslim oldu. Koroğlu hay vurub davanı dayandırdı. Hasan paşanın özünü də əsirlərin qabağına salıb Çənlibelə gətirdi. Ondan üzün dəlilərə tutub dedi:

– Hanı Dəli Həsən?

Dəli Həsən dəlilərin içindən çıxıb Koroğlunun qabağına gəldi. Yetişəndə qılıncın çıxardı, iki əllərinin üstündə tutub Koroğlunun qabağında diz çökdü. Dedi:

– Qoç Koroğlu, hər şeydən qabaq mənim böyük bir taqsırım var. Gərək ondan keçəsən. Mən sənə xəbər verməmiş bəndərgahları boşaldıb, dəliləri götürüb getmişdim. Amma onu deyim ki, mən qəsdən belə eləmişdim. Hasan paşanın qoşun ilə gəlməyini keşikçilər axşamdan mənə dedilər. Onun qoşunu necə yerbəyer eləməyini, necə pusqu düzəltdiyini mən görmüşdüm. Qorxdum ki, işi sənə xəbər versəm, Çənlibelə səs düşə, düşmən işi bilə, fikrini dəyişə. Odu ki səssiz-səmirsiz dəstəni götürüb gecə ilə onların dalında pusquya girdim.

Koroğlu dedi:

– Afərin. Mən elə belə də fikirləşirdim. Mən indi sənin bugünkü işinin əvəzini vermək istəyirəm.

Ondan üzün tutdu Hasan paşaya. Dedi:

– Hasan paşa, sən mənim yolumda bir qızın Dona xatını keçəl Həmzəyə verdin. Bir qızın Dünya xanımı da Bolu bəyə vermək istəyirdin, ancaq İsabalıya qismət oldu. Eşitdiyimə görə, sənin bir qızın da var, Bulğar xanım adında. Onu gərək Dəli Həsənə verəsən. Götür bu saat bir namə yaz, göndər, Bulğar xanım gəlsin buraya. Qorxma, bizdə bir qayda var ki, hərə öz istədiyinə gedir. Bəyənər, gedər, bəyənməz, genə də sənin qızındı. Səninlə birinci şərtim budu.

Hasan paşa dedi:

– De görüm, ikinci şərtin nədi?

Koroğlu dedi:

– Hələ sən naməni yaz, ver, sonra da ikinci şərtimi deyəcəyəm.

Hasan paşa gördü, ayrı əlac yoxdu. Kağız götürüb Koroğlunun dediyi kimi yazdı. Koroğlu naməni alıb qoydu cibinə.

Ondan dedi:

– Hasan paşa, indi qulaq as, ikinci şərtimi deyim. Ancaq, əslində, şərt deyil, mənim əhdimdi. İndi yerinə gəlib.

Koroğlu bunu deyib üzünü tutdu Dəli Mehtərə, dedi:

– Ayə, Dəli Mehtər, Qıratla Düratı buraya çək!

Dəli Mehtər o saat Qıratla Düratı çəkdi ortalığa.

Koroğlu dedi:

– Hasan paşa, mənim atam Alı kişi səni kişi bilib bu iki atı sənə bağışlamaq istədi. Bu yaxşılığın əvəzində sən bu atların üstündə onun gözlərini çıxartdırdın. Odu ki bu Çənlibelə gələndən mən əhd eləmişəm. İndi əhdim yerinə gəlib. Nə qədər ki ömrün var, Çənlibeldə qalıb bu iki ata mehtər olacaqsan.

Ustad deyir ki, bir neçə gündən sonra Bulğar xanım Çənlibelə gəldi. Koroğlu onu Dəli Həsənə verib toyunu elədi.

## MOLLA PƏNAH VAQİF

### Pəri

Boyun sürahıdır, bədənin büllur,
Gərdənin çəkilmiş minadan, Pəri!
Sən ha bir sonasan, cüda düşübsən
Bir bölük yaşılbaş sonadan, Pəri!

İxtilatın şirin, sözün məzəli,
Şəkər gülüşündən canlar təzəli,
Ellər yaraşığı, ölkə gözəli,
Nə gözəl doğubsan anadan, Pəri!

Üz yanında tökülübdür tel nazik,
Sinə meydan, zülf pərişan, bel nazik,
Ağız nazik, dodaq nazik, dil nazik,
Ağ əllərin əlvan hənadan, Pəri!

Avçısı olmuşam səntək maralın,
Xəyalımdan çıxmaz hərgiz xəyalın.
Ənliyi, kirşanı neylər camalın,
Sən elə gözəlsən binadan, Pəri!

Günəş təki hər çıxanda səhərdən
Alırsan Vaqifin əqlini sərdən.
Duaçınam, salma məni nəzərdən,
Əskik olmayasan sənadan, Pəri!

**AZƏRBAYCAN ƏDƏBİYYATINDA MAARİFÇİ REALİZM DÖVRÜ**

bölməsi üzrə

## QASIM BƏY ZAKİR

### Vilayətin məğşuşluğu haqqında
*(ixtisarla )*

Xəbər alsan bu vilanın əhvalın,
Bir özgədir keyfiyyəti-Qarabağ.
Həqdi, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun səyaq?

Qüttəüttəriqin vüfuru vardır,
Yaylaqda, aranda qatar-qatardır.
Yenə ötür-ötür, apar-apardır;
Bizim başımızda çatdadı çanaq.

Zərgər, Drağarda aləm-aşikar,
Bir ucdan oğurlar, bir ucdan satar.
Vay odur, sahibi at başı tutar,
Yüz yerdən tökülər üstünə çomaq.

Əgər xəbər alsan Molla Şəfini,
Oğru dürüst qarışdırıb kefini.
O, Qalada biçər ölü kəfəni,
Çöldə üç atını soyublar çılpaq.

Qarabağda nə day qaldı, nə dana,
Bugün-sabah qaçar hərə bir yana;
Tənbeh etmək ilə Xındırıstana,
Xub saldı nizama ölkəni qoçaq.

Birindən şikayət edəsən əgər,
Danışmağa qoymaz, sözünü kəsər.
Qardaş malı kimi ortadan bölər,
Murovlar olublar oğruya ortaq!

Görsən, tanımazsan Yarımsaqqalı,
Çıxıb əndazədən dövləti, malı.
Xandəmirov çaldı, çapdı mahalı,
O ki tutub özün keçəl qurumsaq.

Üləmalar üz döndərib Xudadan,
Usanmaz bir ləhzə cövrü cəfadan.
Başı əmmaməli seyid-molladan
Taətdə övladır o qatmaqurşaq.

Fəraqət oturub hər kəs bir işdə,
Nə yazda yarıdıq, nə də ki qışda;
Ya Rəbb, neyləmişdik, bu dağılmışda,
Haram oldu bizə bir qarış torpaq?!

Çəkilib köksümə dağlar, düyünlər,
Kafirə olmasın nəsib bu günlər.
Qınamasın məni könlübütünlər,
Fikrim dağınıqdır, xatirim övraq.

Gərçi vilayətdə çox idi əhval,
Müyəssər olmadı, şərh edəm əlhal.
Bir parasın yazıb eylədim irsal,
Bu şərt ilə nə diş bilsin, nə dodaq.

**AŞIQ ƏLƏSGƏR**

**Yaylaq**

Könlüm qaranquştək uçub qoynuna,
Gəzir hər yamacı, hər yalı, yaylaq!
Ruhum təzələnir, məst olur ürək,
Görəndə bu çağı, bu halı, yaylaq!

Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,
Bənövşə, qantəpər, qızlar örpəyi,
Qoyun mələşməsi, çoban tütəyi,
Çəkir uzaqlara xəyalı, yaylaq!

Qırxqız, Alaqaya, Çilgöz, Narışlar,
Murov, Uzunyoxuş, Dəlidağ, Qoşqar!
Hansı oğul, deyin, sizi unudar?!
Düşərmi el sizdən aralı, yaylaq?!

Ələsgər köynəkdən çıxartsın sazı,
Yenə cuşa gəlsin eşqi, avazı,
Tərifləsin allı-yaşıllı yazı,
Unutma bu böyük kamalı, yaylaq!

## TƏNQİDİ REALİZM VƏ ROMANTİZM DÖVRÜ

bölməsi üzrə

## CƏLİL MƏMMƏDQULUZADƏ

### Poçt qutusu

Noyabr ayının 12-ci günü idi. Hava çox soyuq idi. Amma hələ qar əlaməti görsənmirdi. Həkim axırıncı dəfə xanın naxoş övrətini yoluxub cavab verdi ki, dəxi naxoşun əhvalı yaxşıdır; belə ki, bir həftəyədək səfərə çıxmaq mümkün olar. Xan çox tələsirdi İrəvana getməyə; çünki xanı orada çox vacib işlər gözləyirdi. Və bir də ki, qorxurdu qar yağa və hava dəxi də soyuya və naxoş üçün yola çıxmaq qeyri-mümkün ola. Xan götürdü qələmi, irəvanlı dostu Cəfər ağaya bu məzmunda bir müxtəsər kağız yazdı:

"Əzizim! Bir həftəyədək, ümidvaram, İrəvana gəlim övrət-uşaq ilə. Artıq-artıq təvəqqe edirəm, buyurasan, bizim otaqlara fərş salıb, əlbəttə-əlbəttə, peçləri yandırsınlar ki, otaqların havası piş əz vəqt təmizlənsin və isinsin, bəlkə, naxoş üçün oradan narahatçılıq üz verməsin. Bu kağızın cavabını mənə teleqraf vasitəsilə yetirəsən. Sən mənə dediyin işlərin hamısını yerbəyer eləmişəm. Xudahafiz!

Sənin xeyirxahın Vəli xan. 12 noyabr".

Xan kağızı bükdü qoydu paketə, üstünü yazıb və markasını yapışdırıb istədi nökəri çağırsın ki, aparıb salsın poçta; amma tez xanın yadına düşdü ki, nökəri göndərib özgə işə. Bu heyndə qapı döyüldü. Xan çıxdı və gördü ki, qapını döyən xanın öz kəndlisi, "İtqapan" kəndinin əhli Novruzəlidi. Bu şəxs çox vaxt xanın yanına gəlib-gedər və hər gələndə olmaz ki, undan, əriştədən, baldan, yağdan gətirməsin. Bu səfər də Novruzəli əliboş gəlməmişdi; çünki xanı görcək əl ağacını dayadı qapının bucağına və başladı qapının o biri tayını açmağa. Qapını açıb bir yüklü ulağı sürdü həyətə "çoçi-çoçi" deyə-deyə və yükün arasından üç-dörd toyuq-cücəni çığırda-çığırda yerə qoyub, yükü açıb dolu çuvalları saldı yerə və xanın üzünə baxıb ikiqat əyilib salam verdi. Xan salamı alıb dedi:

– A kişi, Novruzəli! Bu nə zəhmətdi çəkmisən?

Novruzəli çuvalların kəndirini aça-aça cavab verdi:

– Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam...

Bu sözü deyə-deyə Novruzəli başladı üstünün tozunu silməyə... Çünki günortadan bir saat keçirdi və ola bilərdi ki, poçtun vaxtı keçsin, xanın ağlına belə gəldi ki, yazdığı məktubu versin Novruzəli aparıb salsın poçta.

Xan üzünü tutdu qonağa:

– Novruzəli, poçtxananı tanıyırsan?

Novruzəli cavab verdi:

– Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?

– Çox əcəb, nəçərnik divanxanasını ki tanıyırsan?

– Bəli, xan, başına dönüm, tanıyıram, niyə tanımıram. Keçən həftə mən elə gəlmişdim nəçərniyin yanına şikayətə. Xan, and olsun sənin başına, bizi katda çox incidir. Əslinə baxsan, bizim bu katdamız özgə tayfadandı; odu ki bizi görməyə gözü yoxdu. Keçən həftə mənim iki buzovum itmişdi. Getdim...

– Hələ bu sözləri sonra deyərsən. Qulaq as, gör nə deyirəm: nəçərnik divanxanasının qabağında bir yekə dam-daş var, qapısının ağzında bir qutu vurulub divara, haman qutu poçt qutusudu. O qutunun bir xırda və uzun qapağı var. Bu saat apar bu kağızı, haman qutunun qapağını qovza, kağızı sal qutunun içinə, qapağını yatırt və tez qayıt gəl!

Novruzəli hər iki əlini açdı xanın qabağına, qorxa-qorxa kağızı aldı, bir az baxdı xanın üzünə, sonra çəkildi divara səmt və yerə əyilib istədi kağızı qoysun divarın dibinə. Xan ucadan dilləndi:

– Qoyma ora! Qoyma ora! Kağız çirklənər, tez apar sal qutuya, qoy gəl!

– Xan, başına dönüm, qoy bu ulağın başına torba keçirdim; heyvandı, ac qalmasın, yoldan gəlib.

– Yox, yox... Heç ziyanı yoxdu. Kağızın vaxtı keçir. Torbanı sonra keçirdərsən ulağın başına.

– Di elədə qoy ulağın qıçını bağlayım, yoxsa gedər həyətdə ağacları gəmirər.

– Yox, yox... heç eybi yoxdu, qaç tez, kağızı sal gəl!

Novruzəli kağızı ehmal qoydu qoynuna və genə dedi:

– Xan, qadanı alım, bu xoruzlar qaldılar burda, heyvandılar, qoyaydın, qıçlarını açıb, bir az dən səpəydim bulara. Elə dən də gətirmişəm.

Novruzəli əlini saldı cibindən dən çıxarsın... Xan ucadan səsləndi:

– Yox, yox!.. Qoy hələ qalsın. Qaç, çaparaq kağızı sal poçta!

Novruzəli əl ağacını götürüb başladı uşaq kimi qaçmağa. Sonra bir zad fikirləşib qayıtdı və üzünü tutdu xana.

– Xan, qadanı alım, dəsmalın içində yumurta var, gözdə-qulaqda olun, yoxsa ulaq ağnar, yumurtaları sındırar.

Xan daha ucadan səsləndi:

– Daha uzun danışma. Qaç kağızı sal; vaxtı keçir.

Novruzəli istədi uzaqlaşsın, xan onun dalınca çığırdı:

–Novruzəli, bilməzsən kağızı verərsən özgəsinə ha!.. Heç kəsə vermə, heç kəsə göstərmə! Tez sal qutuya, qayıt gəl!

Novruzəli dəxi də ucadan cavab verdi:

– Niyə, mən uşaq deyiləm ki, kağızı özgəsinə verəm! Məni o qədər də xam bilmə. Heç naçərnik də bu kağızı mənim əlimdən ala bilməz.

Novruzəli bu sözləri deyəndən sonra gözdən itdi... Xan girdi otağa və üzünü arvadına tutub şirin dillə dedi:

– Di hazırlaş, mənim gözümün işığı. Kağız yazdım İrəvana ki, otaqları sazlasınlar. İndi daha gedə bilərik. Maşallah, yaxşısan. Həkim özü deyir ki, havanı dəyişmək səndən ötrü lap vacibdi.

Bir qədər də arvadı ilə getmək barəsində söhbət edəndən sonra nökəri gəldi və xana dedi:

– Xan, bu ulaq kimindi, bu şeyləri kim gətirib?

Xan cavab verdi:

– Ədə, o şeyləri yerbəyer elə! Onları bizə itqapanlı Novruzəli sovqat gətirib.

Nökər cücələri və yumurtaları apardı aşpazxanaya və ulağı sürüb qatdı töyləyə, qapısını örtdü, sonra gəlib un çuvalının birisinin ağzını açıb, içindəki undan bir çimdik götürüb, gətirdi tutdu xanın qabağına və dedi:

– Xan, yaxşı ağ undu.

Xan una baxandan sonra buyurdu nökərə küçə qapısını bağlasın və çörəyi çəkib gətirsin.

Çörəyin yeyilməyi iki saat çəkdi. Ancaq çörəkdən sonra Novruzəlinin kağızı poçta aparmağı xanın yadına düşdü. Xan nökəri çağırıb soruşdu və nökər cavab verdi ki, hələ kəndli poçtdan qayıtmayıb. Xan Novruzəlinin bu qədər yubanmağına təəccüb elədi və fikrinə gəldi ki, bəlkə, Novruzəli kağızı poçta salıb özünü verdi bazara çörəkdən-zaddan alıb yesin və yainki bazarlığı-zadı var, eləsin. Bir saat da keçdi, Novruzəli gəlmədi.

Xan nökəri çağırıb dedi ki, getsin poçta səmt və görsün harda qaldı Novruzəli və nə bais oldu ki, bu qədər yubandı. Yarım saat keçməmiş nökər qayıdıb cavab verdi ki, kəndlini görə bilmədi. Xan çıxdı balkona və bir papiros yandırıb başladı var-gəl eləməyə. Dəxi ona aşkar

oldu ki, Novruzəlinin başına bir iş gəldi ki, bu qədər yubandı. Xan bu fikirdə idi, polis yasavulu dayandı qapıya və xanı görcək dedi:

– Xan, pristav buyurur, gələsiniz polsaya və kəntdinizə zamın olasınız. Yoxsa zamını olmasan, pristav göndərəcək navaxta.

Xan bu sözlərə o qədər təəccüb elədi ki, üzünü yasavulun üzünə tutub mat qaldı və heç bilmədi ki, nə desin. Sonra dilləndi:

– Balam, o kətdi bir fağır adamdı, o nə qayırıb ki, pristav onu tutub saxlayıb?

Yasavul cavab verdi:

– Daha mən heç zad bilmirəm. Ancaq özün polsaya buyursan, yaxşı olar; yoxsa yazıqdı o kişi.

Xan bu əhvalatı övrətinə bildirmədi ki, narahat olmasın. Geyinib getdi polisə və əvvəl akoşkadan dustaqların damına baxıb gördü ki, yazıq Novruzəli bir neçə dustaqlar ilə oturub damın bucağında və uşaq kimi ağlayır, gözünün yaşını çuxasının ətəyi ilə silir...

Xan Novruzəlinin əhvalatını pristavdan öyrənib və ona zamın olub kəndlisini saldı yanına və gətirdi evə. Novruzəli həyətə girən kimi başladı ağlamağa və saman torbasını ulağın başına keçirdib çömbəldi divarın dibində. Xan girdi evə və bir papiros yandırıb çıxdı balkona, Novruzəlini yanına çağırıb dedi:

– Di indi əhvalatı nağıl elə, Novruzəli! Sənin bu hekayətin çox şirin hekayətdi. Kitaba yazılmalıdı. Nağıl elə təfsilən, yəni hamısını birbəbir. Başla burada kağızı götürüb aparmağından, ta dama düşməyinə kimi...

Novruzəli durdu ayağa, xana yavıqlaşıb, çuxasının ətəyi ilə gözünün yaşını silib başladı:

– Başına dolanım, xan, məni çövür balalarının başına, məni bağışla! Mənim heç bir günahım yoxdur. Bir kətdi adamam, mən nə bilirəm, kağız nədi, qutu nədi, poçt nədi? Başına dönüm, xan, məni çövür o gülüzlü balalarının başına. Heç ziyanı yoxdu, həyə ölmənəm, sağ qalaram, qulluq elərəm, əvəzi çıxar, bir qələtdi eləmişəm, ta neyləmək? İşdi, belə oldu. Bular hamısı Allahdandı. Gərək belə olaymış. Bağışla məni, xan. Mən ölənə kimi nökərəm sənə...

Bu sözləri deyib, Noruzəli bir az da yavıqlaşdı xana və istədi onun ayaqlarından öpsün. Xan bir az dala çəkilib dedi:

– Novruzəli! Heç ürəyini sıxma. Mən sənə nə deyirəm ki? Sən mənə nə pislik eləmisən ki, mən səni bağışlayım?

– Qurban olum sənə, bundan artıq daha nə pislik olacaq? Kağızı əlimdən verdim o kafir oğlu kafirə, o da qoydu cibinə, çıxdı düzəldi yola, qoydu getdi.

– Kim kağızı qoydu cibinə, qoydu getdi?

– O kafir oğlu urus, dana!

– Hara qoydu getdi?

– Getdi girdi orada bir yekə dam-daş vardı ki, qapısına qutu vurulubdu, getdi girdi ora.

Xan bir qədər duruxdu:

– Bəs sən kağızı qutuya salmadın?

– Necə ki salmadım! Elə kağızı qutuya salan kimi kafir gəlib qutunu bilmirəm nə təhər açdı, kağızı götürdü apardı.

– Qutuda sən saldığın kağızdan başqa ta özgə kağız yox idi?

– Necə ki yoxdu? Çox kağızlar vardı. Elə onların hamısını yığışdırıb apardı.

Xan qah-qah çəkib güldü.

– Yox, Novruzəli, gərək hamısını nağıl eliyəsən, başdan axıra kimi: necə kağızı apardın, necə saldın qutuya və nə üstə urusla savaşdın.

Novruzəli başladı:

– Xan, başına dönüm, mən kağızı buradan apardım, getdim çıxdım nəçərnik divanxanasının yanına. Sən mənə nişan verdiyin dam-daşı tapdım və qutunu tapdım, getdim qutunun qapağını qaldırdım. İstədim, kağızı salam qutuya; bir kağıza baxdım, bir qutuya baxdım.

Doğrusu, qorxdum ki, sənin mənə qeyzin tuta. Doğrusu, bilmədim salım, salmıyım; çünki yadımdan çıxdı səndən soruşum ki, kağızı qutuya salandan sonra durum qutunun yanında, ya qoyum gəlim evə. Fikirləşdim ki, əgər kağızı salım, durum qutunun yanında, havədəyədək durum. Axı qurbanın olum, xan, özün gördün ki, ulağı ac qoydum getdim, cücələri qıçı bağlı qoydum. Bir tikə un gətirmişdim. Hələ indiyə kimi də qalıb burda. Xan, başına dolanım, qoy elə indi yaxşı vaxtdı, qoy nökər gəlsin, bu çuvalları götürək qoyaq evə, yağış-zad yağar, un islanar.

– Yox, Novruzəli, sənin işin yoxdu... De, de sonra necə oldu?

– Kağızı salmadım. Qutunun qapağını örtdüm, çəkildim durdum bir az kənarda. Əvvəl istədim, qayıdıb gəlib səndən soruşum, sonra, doğrusu, qorxdum, mənə qəzəbin tuta. Doğrusu, qorxdum öz könlündə deyəsən ki, Novruzəli çox heyvan adamdı, çox eşşək adamdı. Qərəz, çömbəldim divarın dibində ki, bir az yornuğumu alım. Aha, gördüm ki, bir erməni uşağı, olardı bax bu boyda, olardı on iki-on üç yaşında, gəldi, getdi düz qutunun yanına, qapağını qalxızdı və sən mənə verdiyin kağız kimi bir kağız saldı qutuya, qapağını örtdü, üz qoydu getdi işinə. Nə qədər o nainsafı çağırdım soruşum ki, desin görək bəs kağızı qutuda qoyub hara gedir, bilmirəm dilimi anlamadı, nədi ki, heç cavab vermədi, heç zalım oğlu üzümə də baxmadı. Elə erməni uşağı uzaqlaşmışdı, bir urus arvadı tez-tez gəlib qutuya yavıqlaşıb bir kağız saldı, qoydu, getdi. Ta indi mən bir az ürəkləndim, ta dedim, vallah, görükən budu ki, elə bu qutuya salınan kağızlar gərək qalsınlar qutunun içində. Mən o qədər ürəkləndim ki, bismillah deyib, cürətnən getdim qutunun qapağını qaldırdım, kağızı saldım qutuya, çöndüm gəlim qulluğuna. Qutudan elə buradan ora kimi uzaqlaşmışdım ki, haman urus gəldi yetişdi qutunun yanına. Mən əvvəl elə bildim ki, bu da istiyir qutuya kağız salsın. Amma gördüm xeyr, hərifin fikri özgədi, qutunun yanından sağ əlini uzadıb qutunun içinə. Mən əlüstü duydum ki, hərif istəyir kağızları oğurlasın... Xan, çox başağrısı verirəm, məni bağışla, oğlana buyur gəlsin, məni yola salsın, bivaxtdı, gedib kəndə yetişə bilmənəm.

– A kişi, hələ hara qoyuram səni gedəsən. Nağıl elə görüm, sonra necə oldu?

– Bəli, başına dolanım, xan, qurban olsun sənə mənim yetim-yesirim! Sənsiz mənim bir günüm olmasın!.. Bəli, gördüm ki, hərif utanmaz-utanmaz kağızları qutudan ehmallıca çıxartdı, dəstələyib vurdu qoltuğuna! Qutunun qapısını örtüb istədi düzəlsin yola. Mən tez qaçıb yapışdım urusun qolundan, qoymadım getsin. Dedim, ay aşna, hara aparırsan kağızları? Xalq səndən ötrü kağızları bura salmıyıbdı ki! Dinməz-söyləməz üzünün suyunnan xalqın kağızlarını qoy yerinə! Dedim, Novruzəli hələ ölmüyübdü ki, sən onun ağasının kağızını aparasan. Belə işlər yaxşı deyil, adam özgənin malına tamah salmaz. Məgər sizin şəriətdə oğurluq günah yazılmayıbdı?

Xan, məni çövür balalarının başına, məni mürəxxəs elə, qoyun gedim: bivaxtdı, hava qaranlıqlayır.

– Hələ tələsmə, gedərsən... Sonra necə oldu?

– Qoy görüm harda qaldım... Ədə, qoyma-qoyma, ulaq tənəkləri sındıracaq.

Novruzəli istədi qaçsın ulağın yanına, xan qoymadı.

– Novruzəli, getmə, hələ getmə. De görüm sonra necə oldu?

– Ta necə olacaq? Nə qədər yalvardım, yapışdım ki, mənim xanım məni öldürər. Dedim, barı mənim xanımın kağızını ver; illah dedi ki, verməyəcəm. Gördüm ki, hərif istəyir, qoya qaça. Vallah, hirs vurdu təpəmə, ikiəlli yapışdım kafirin çiynindən, bunu üzü üstə elə gətirdim yerə ki, heybətdən ağzı qanadı. Sonra nəçərnik divanxanasından saldatlar tökülüb məni döyə-döyə aparıb atdılar dama. Sənin qədəmlərinə belə mən qurban olum. Sən olmasaydın, məni indi çoxdan göndərmişdilər Sibirə, çünki damda məndən savayı, bir neçə dustaq vardı, mənə dedilər ki, o urus qulluq adamıdı. Ta... mən neyləyim? Xan, başına dolanım, di gör günah kimdədi?

Xan çox güldü, çox qah-qah çəkib güldü.

Hava qaranlıqlaşmışdı. Novruzəli boş un çuvallarını ac ulağın üstünə salıb, ulağı qatdı qabağına və zoğal ağacı ilə döyə-döyə getdi kəndinə.

Üç gündən sonra xana İrəvandan teleqraf çıxdı ki, "kağızın yetişib və otaqlar hazırdı". Xan yığışıb getdi İrəvana.

Ay yarımdan sonra Novruzəlini divana gətirib "qulluqçunu bihörmət eləmək barəsində" üç ay navaxt kəsdilər, amma Novruzəli günahını boynuna almadı. Hələ üç ay da keçdi, ancaq bu xəbər İrəvanda Vəli xana çatdı. Xan bir qədər fikir elədi.

## ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

### Mirzə Səfər

Mirzə Səfərlə biz tanış olanda onun yaşı qırx beşlə əllinin arasında idi. Özü də qəza dəftərxanasında qulluq edərdi. Rusca savadı az olduğundan ancaq işi mübəyyizlik idi. İyirmi beş manat da maaşı vardı.

Mirzəyə hər yerdə ehtiram göstərərdilər. Bununla belə, onun bircə nəfər həqiqi dostu var idi – saatsaz usta Zeynal. Mirzə hər gün nahardan sonra gedib, usta Zeynalın dükanında əyləşib onunla söhbət edərdi və söhbət əsnasında cibindən qozdan, fındıqdan, kişmişdən çıxarıb ortalığa tökərdi. Mirzənin cibləri çərəzdən boş olmazdı. Görürdünüz, yolla gedərkən dayanıb, cibindən bir qoz çıxarıb divarın daşına dayayıb, ağacının başı ilə sındırdı və yeyə-yeyə getdi.

Usta Zeynalın dükanında Mirzə qəzəllər oxuyub, sonra da oxuduğu qəzəlləri rus dilinə tərcümə edərdi. Usta Zeynal həmçinin bir arif kişi idi. O da gözəl şeirlər oxuyardı. O idi ki, Mirzə Səfərin onunla həmişə söhbəti tutardı. Dəftərxanada Mirzənin hörmətini gözlərdilər. Çünki sair mirzələr bir abbası, altı şahı hər işə gələndən rüşvət alardı, amma Mirzə öz maaşına kifayət edib bir qəpik də olsun rüşvət almazdı və deyərdi: "Rüşvət almaq adamı qorxaq və gözükölgəli edər, rüşvət aldığın adamların hansını görsən, gərək ikiqat baş əyəsən... Nə lazım? Qulluğumda təmiz olaram, maaşıma qənaət edərəm, bir kəsə ehtiyacım olmaz, həmişə də başıuca gəzərəm, iyirmi beş manat məvacibim var, ayda bir on manat da evə gəlib ərizə yazdıranlardan qazanıram, bu da mənim başımdan girib ayağımdan çıxar".

Mirzənin zamanında bazarda ucuzluq idi, yaxşı qoyun ətinin girvənkəsi dörd qəpik, çörəyin girvənkəsi iki qəpik, yağın pudu dörd manat idi. Mirzə qazandığı para ilə dolanıb oğlanlarına da tərbiyə verərdi. Dünyada təməllüq, yaltaqlıq nə olduğunu Mirzə bilməzdi. Bir bəyə, bir xana etina eləməzdi və deyərdi: "Nə vaxt qapılarına çörəyə getsəm, verməsinlər".

Bir dəfə bir nəfər şəxs dəftərxanaya gəlib katibdən öz kağızından dolayı məlumat istəyir, katib cavab verir ki, kağızın Mirzə Səfərdədir, üzünü ağardar, apararsan. Şəxs Mirzəyə tərəf gəlir:

– Mirzə, mənim kağızımı, mümkün isə, yaz, aparım.

– Dayan, bu saat yazaram, əlimdə özgə iş var.

– Bilirsiniz, mən Həsən ağanın qohumuyam?

Mirzə qələmi əlindən buraxıb kişinin gözlərinin içinə baxdı.

– Doğrudan, Həsən ağanın qohumusan?

– Doğrudan.

– Sən Allah, Həsən ağanın qohumusan?

– Vallah, doğru deyirəm.

– Sən Həzrət Abbas, Həsən ağanın qohumusan?

– Həzrət Abbas haqqı, Həsən ağanın qohumuyam.

– Deyinən sən öl, Həsən ağanın adamıyam.
– Sən öl, Həsən ağanın adamıyam.
– Bəs elə isə gəl min mənim boynuma. Neynəyim, Həsən ağanın qohumusan, gözlə, vaxtında kağızın hazır olar, apararsan.
İş üçün gələn kəndlilərlə Mirzə həmişə şirin dillə zarafat eləyərək söhbət edərdi. Keçmiş vaxtlarda dəftərxanalarda qulluqçuların gündə biri idarə bağlandıqdan sonra qalıb təcili məktubları, teleqramları qəbul edərdi.
Bir gün növbət Mirzəyə gəlmişdi. Dəftərxananın səkisi üstündə əyləşib özünü havaya verirdi.
Bir neçə nəfər də kənddən gəlmiş adamlar küçənin ortasında oturub öz aralarında danışırdılar. Mirzə bunların birisinə əl elədi:
– A kişi, bura gəl, bura gəl.
Kişi durub gəldi.
– Nə buyurursan, Mirzə?
– Bir dil ki qəm düçarı ola, ağlar, ağlamaz?
– Mən nə bilim, ay Mirzə.
– Ənduhi-qüssə yarı ola, ağlar, ağlamaz?
– Başına dönüm, ay Mirzə, mənim belə şeylərdən başım çıxmaz. Avam adamam.
– Doğrudur, avamsan, bunlar gözəl sözlərdir, get oğlunu oxut. Belə-belə şeirlərdən ləzzət aparsın.
Bir dəfə nə üstə isə naçalnikin buna qəzəbi tutub dedi:
– Səfər! Papağını götür, buradan get!
Mirzə Səfər qalxıb şax naçalnikin sifətinə baxdı:
– Cənab naçalnik, siz yəqin edin ki, mən buradan gedəsi olduqda, papağımı qoyub getməyəcəyəm.

Külahın satgilən xərc et, tüfeyli olma namərdə,
Cahanda kəllə sağ olsun, külah əskik deyil mərdə!

Şeri oxuyub, bir növ, rusca tərcümə etdi.
Yoldaşları hamısı bir dillə naçalnikdən xahiş etdi ki, onun taqsırından keçsin. Mirzə Səfər özü isə bir vəziyyətdə durub, sifətində yalvarmaq nişanəsi olmayaraq baxırdı.
Mirzənin təmiz qulluqçu olmağına qiymət qoyurdular və yoldaşları da onu çox istəyirdilər. Ona görə Mirzəni vəzifəsində saxladılar.
Mirzə Səfərin iki oğlu edadiyyə məktəbinin beşinci sinfində oxuyurdu. Mirzənin məişəti ağır olduğundan məktəb nəzdində olan cəmiyyəti-xeyriyyə onun uşaqlarını dərs pulundan azad etmişdi.
Bir gün uşaqlar məktəbdən gəlib Mirzəyə xəbər verdilər ki, daha bu ildən onları məktəb pulundan azad etməyəcəklər, pul verməsələr, hər ikisini məktəbdən xaric edəcəklər.
Sabahı gün Mirzə naçalnikdən izin alıb məktəb müdirinin yanına getdi. Müdir dedi:
– Mən kənardan gəlmiş bir adamam, başım ancaq məktəbin işlərinə məşğuldur. Uşaqların atalarının vəziyyətləri mənə məlum deyil, məlum olsa da, mənim əlimdən bir iş gəlməz, sizin oğlanlarınız hər ikisi yaxşı oxuyur. Onların məktəbdən çıxarılmalarına mən çox əfsus edirəm. Mən sizə məsləhət görürəm, gedib cəmiyyətin sədri Həsən ağa ilə görüşəsiniz. İş onun əlindədir.
Məlum oldu ki, Mirzə Səfərin Həsən ağanın qohumu ilə rəftarı ağanın qulağına çatıb, o da qeyzlənib cəmiyyəti-xeyriyyə iclasında deyibdir ki, Mirzə Səfərin vəziyyəti mənə aydın məlumdur və uşaqlarını öz xərci ilə oxutmağa onda imkan var. İclasdan çıxanda üzvlərdən biri Həsən ağadan xəbər aldı:
– Ağa, Mirzə Səfər yazıq deyilmi, biz hamımız onun vəziyyətinə bələdik, bu zülmü onun haqqında gərək siz etməyəydiniz.
Ağa cavab verdi:

– Məgər siz onun nə qədər azğın olduğunu görmürsünüz?! Nə adama etina edir, nə də salam verir, guya bu adamların hamısı onun nökəridir. Yəqin, yağlıdır ki, belə dolanır. Yağlı olmasa, o da qalan çinovniklər kimi adamın yerini bilər.

Mirzə Səfər məyus evə qayıtdı.

Arvad ərinin halətinin pozğunluğunu xəbər aldıqda Mirzə dedi:

– Nə eləyim, ay arvad, bu gün-sabah uşaqları məktəbdən xaric edəcəklər. Ondan sonra mən onların üzlərinə nə gözlə baxacağam? Həsən ağanın evi yıxılsın, mənim evimi o yıxdı.

– Qəm eləmə, kişi, sən ki özün şkola görməyibsən, yenə bir parça çörəyin var. Uşaqlar az-çox oxuyublar, çörəksiz qalmazlar.

– Mən yediyim məgər çörəkdir? Zəhrimar o çörəkdən yaxşıdır. Sabah qulluqdan çıxarsalar, acından ölməyə məcbur olacağam. Həsən ağa kimi zalımın biri getdi naçalnikdən xahiş elədi, bir də görəcəksən papağımı qoltuğuma verib saldılar eşiyə. Oğlanlarımı mən avara görsəm, yəqin, özümü öldürərəm.

Mirzə iştahsız nahar yeyib yatmaq istədi, hərçi çalışdı? yuxusu gəlmədi. Durub libasını geyinib getdi usta Zeynalın dükanına. Həmişə sifətindən şad, dili şeirli daxil olan Mirzə Səfər bu dəfə məyus girib, salam verib əyləşdi. Usta Zeynal xəbər aldı:

– A Mirzə, gözümə bikef dəyirsən, nə olub, xeyir ola?

– Xeyir olmamış nə var?! Elə bir qədər bu gün ovqatım təlx olub.

– Söylə görək.

– Nə söyləyim? Həsən ağanın evi başına uçsun, gedib məktəbdə deyib ki, filankəsin pulu aşıb-daşır, uşaqlarını öz xərci ilə oxuda bilər. İndi uşaqları göndəriblər üstümə və xəbər veriblər ki, ayın on beşinədək qırx manat verməsəm, ikisini də məktəbdən xaric edəcəklər. Mənim mədaxilimi bilirsən.

Çox çətinliklə onların kitablarını, libaslarını düzəldirəm. Hər yarım ildə qırx manat, ildə həştad manat eləyir. Mən bunu haradan düzəldim? Uşaqlar məktəbdən çıxarılsa, mən vərəmləyib öləcəyəm.

Usta Zeynal Mirzə Səfərə Həsən ağanın yanına getməyi məsləhət gördü.

Mirzə Səfər neçə dəqiqə usta Zeynalın üzünə baxıb birdən ayağa qalxıb dedi:

– Usta Zeynal, bu nə təklifdir mənə edirsən? Mən Mirzə Səfər gedim Həsən ağanın ayağına yıxılım? Mən acından ölməyə razı olaram, oğlanlarımın ikisinin də başını kəsərəm, amma gedib Həsən ağa kimi adama yalvarmaram. Qoy uşaqları qovsunlar.

Usta Zeynal bunu eşitdikdə dəzgahın dalından qalxıb gəlib Mirzənin boynunu qucaqlayıb üzündən öpdü.

– Mirzə, mən səni sınayırdım. İndi səndə olan istiqaməti-məcazi aydın görürəm. İndi görürəm ki, sən ağır günündə də gedib heç kəsin ayağına yıxılmazsan. Afərin sənə, Mirzə Səfər! Bu gündən sonra mən malımı, canımı sənin kimi dostun yolunda qoyaram. İndi gəl biz bir iş görək. Sənin məişətin ağır keçir, indi bir az da ağırlaşacaq. Mən də ki, saatsazlığımla səndən çox qazanmıram. Gəl sənin uşaqlarının oxumasına şərik olaq. Oğlunun birinin xərcini sən çək, o birisininkini də mən çəkim. İldə həştad manat sənin üçün ağır yükdür. Amma qırx manat döy-sındır düzəldərsən. Mənim də gücüm çatar.

Mirzə Səfər usta Zeynalın boynunu qucaqlayıb başladı üzündən öpməyə.

Bir də usta Zeynal baxıb gördü ki, Mirzə Səfərin gözlərindən yaş axır.

– Ağlamaq lazım deyil, Mirzə, sən indiyədək heç kəsdən minnət götürməyibsən. Amma mən səninlə iyirmi ildən artıqdır ki, dostam, bu mənim qardaşlıq töhfəmdir. Əmi qardaşı oğluna töhfə verəndə nə olar?

Usta Zeynal qarşısındakı çayçını səslədi. Çayçı iki stəkan çay gətirib qoyub getdi.

– Mirzə, çay iç, ürəyin toxtasın. Dünyadır, belə də getməz.

Mirzə çay içib, bir qədər də usta Zeynalla söhbət edib gəldi evə. Ayın on beşində Mirzənin oğlanları qırx manat aparıb məktəb haqqı verdilər.

***

Mirzə Səfərin oğlanları ikisi də bir ildə məktəbi tamam etdi. Bu münasibətlə Mirzə bir plov verdi. Məlum ki, qonaqlarının əzizi usta Zeynal idi.

Uşaqlar bir neçə gün dincəldikdən sonra bir axşam Mirzə usta Zeynalı şama dəvət etdi. Çörək yedikdən sonra Mirzə üzünü usta Zeynala tutub:

– Usta Zeynal, bu uşaqlar qurtarıblar, bunları belə qoymaq olmaz, yarımçılıqdan fayda olmaz. Mənim bunları ali məktəbdə oxutmağa qüvvəm çatmaz. Sən də indiyədək mənə bəqədri məqdur kömək edibsən. İndi bir tədbir lazımdır.

Usta Zeynal fikrə getdi. Bu halda Mirzənin kiçik oğlu atasına üzünü tutub dedi:

– Ata, ayda on beş manat qardaşıma göndərə bilərsən?

– Yox, oğul, gücüm çatmaz. On manata… bəlkə... Bəs sən?

– Mən bir belə fikir eləmişəm, qardaşım getsin oxumağa. Mən də burada başlayım dövlətlilərin uşaqlarına dərs verməyə. Qazandığım pulu göndərim qardaşıma. O qurtarıb gələndən sonra da mən gedərəm, o mənə pul göndərər. Bəlkə, mən dərs verməkdən o qədər pul qazandım ki, heç sənin on manatına ehtiyac olmadı.

Bu məsləhəti hamı xoşladı.

Bir gün Mirzə Səfər Rastabazardan ötərkən qulağına səs gəldi:

– Mirzə Səfər, Mirzə Səfər!

Dönüb gördü ki, o səsləyən Həsən ağadır, tacir Hacı Qulunun dükanında oturub oradan əl edir.

Mirzə Həsən ağaya tərəf getdi.

– Ağa, nə buyurursan? Hacı Qulu, salaməleyküm!

Həsən ağa dedi:

– Mən səni gözaydınlığı verməyə çağırdım, eşitdim, uşaqların məktəbi qurtarıblar, gözün aydın!

– Sağ ol, ağa!

– Şükürlər olsun, gəldikcə ziyalılarımızın sayı artır, onları bir göndər yanıma gəlsinlər, bir söhbət edək.

– Nə üçün gəlsinlər, ağa?

– Necə nə üçün? Məktəb qurtarıblar, ağsaqqala gərəkdirmi bir vizit versinlər. Baxım görüm nəyə ləyaqətləri var, bir əməlli qulluğa qoyum işləsinlər, sən də bir qədər istirahət elə.

– Ağa, qulluğa qoymaq fikrim yoxdur. İstəyirəm, uşaqlarımı ali təhsil almış görüb, gözlərimi yumum.

– A kişi, sən bir kasıb adamsan, ali təhsil görmüş uşaqları sən neyləyirsən? Ali təhsilin ildə min manatdan çox xərci var. Mən oğluma ayda yüz manat göndərirəm, yenə “gördüm” demir. Sənə varlılarla tarazıya girmək nə yaraşar? Yorğanına bax, ayaqlarını uzat!

– Ağa, məsləhətiniz çox gözəldir, ömrünüz uzun olsun, siz həmişə mənim uşaqlarımın qeydinə qalıbsınız. Onlar ancaq sizin kölgənizdə oxuyub dərsi tamam ediblər. Çox razıyam sizdən. Üç il bundan qabaq uşaqlar haqqında etdiyiniz yaxşılıq indi də mənim yadımdan çıxmır.

Həsən ağanın rəngi dəyişdi:

– Nə demək istəyirsən, bu eyhamların mənası nədir?

– Bir məna yoxdur, ağa! Ovqatınız təlx olmasın. Ancaq uşaqlarımın gələcəyinin fikrini də mənim özümə vagüzar ediniz. Nə vaxtda sizin qapınıza gəlib çörək istəsəm, nökərlərə buyurun, məni qovsunlar. Bağışlayın, başağrısı verdim. Xidmətinizdən mürəxxəs olaq. Xudahafiz, Hacı Qulu.

Mirzə Səfər getdi. Həsən ağa Hacı Quluya:

– Görürsən, hacı, xalq nə payədə qudurub?! Hər qor-qoduq özünü adam cərgəsinə qoşur. Buna deyən gərək: “Ay qoturun biri, sən neyləyirsən ali təhsil görmüş oğulu? İki oğlun məktəbi tamam edib, çox gözəl, hərəsini bir işə qoy, səni dolandırsınlar”. Camaat gəldikcə qudurur. Verdiyi cavaba bax!

Həsən ağa ovqatı təlx qalxıb getdi evinə.

İki aydan sonra Mirzə Səfərin böyük oğluna tədarük görüb Rusiyaya yola saldılar. Usta Zeynal Mirzə Səfərin oğluna xeyir-dua verib, yaxşı yol və müvəffəqiyyət diləyib bir qızıl saat da peşkəş verdi.

Mirzə Səfərin kiçik oğlu başladı dövlətli balalarına dərs verməyə.

Müəllimlikdə böyük qabiliyyət göstərdiyindən işləri günü-gündən tərəqqi etməkdə idi, qardaşına nəinki artığınca pul göndərirdi, hətta aybaay bir qədər də öz gələcəyi üçün kənara qoyurdu.

Bahar fəslinin axırında Mirzə Səfərin oğlu darülfünun tələbəsi formasında evlərinə görüşməyə gəldi. Bir-iki gündən sonra Həsən ağa Mirzəni bazardan keçən görüb çağırdı:

– Mirzə Səfər, bir buraya zəhmət çək.

Mirzə gələndə onun əlini bərk sıxdı:

– Dünən oğlunu gördüm, maşallah, yaxşı oğlana oxşayır, ona deginən, bir mənim yanıma gəlsin, deginən, əmin xahiş edirdi ki, sabah axşama çaya qonaq gələsən.

Mirzə təəccüblə ağanın üzünə baxdı:

– Bilirsiniz, ağa, mənim oğlum bu saat məndən ağıllıdır. Mən ona heç bir məsləhət görə bilmərəm, öz təklifini özü yaxşı bilir.

– Sən ona deginən, oğlun Yevropa adətlərinə, yəqin, bələddir, özü bilir ki, ağsaqqallara vizit vermək lazımdır.

– Baş üstə, deyərəm. Xudahafiz.

Həsən ağa dübarə Mirzəyə əl verdi.

***

Mirzə Səfər ölüm bəstərində idi. Böyük oğlu təbib bir yanında əyləşib tez-tez atasının sinəsinə yaş məhrəba salırdı, lazım olduqca atasına dərman içirdirdi. Kiçik oğlu mühəndis böyük qardaşının əmrlərinə itaət edirdi. Əczaxanaya getmək, həkim yanına yüyürmək, kətan islatmaq və sairə. Usta Zeynal da bir tərəfdə məyus əyləşib dostunun üzünə baxırdı.

Mirzə gözlərini açdı.

– Balalarım, yavuğa gəlin, əlinizi mənə verin.

Oğlanlarının əllərini aldı əllərinə.

– Balalarım, dünyada mən çox ömür etmişəm. Sizin yolunuzda nə qədər çalışıb məramıma çatmışam və xatircəm, qeydsiz dünyadan gedirəm. Cəmi ömrümü işimdə təmiz olmuşam. Bir adama təməllüq, yaltaqlıq eləməmişəm, sizə mənim vəsiyyətim: ac qalsanız da, Həsən ağa kimi adamlara gedib yalvarmayın. Onuntək adamlardan uzaq qaçın. Siz təmiz, namuslu dolanarsınızsa, həmişə müvəffəqiyyət sizi tapar. Mən gedirəm. İkinci sizə vəsiyyətim: bu usta Zeynalı həmişə ata gözündə görərsiniz. Mən dünyada ancaq onda etibar gördüm.

Mirzə Səfər bu sözləri deyib həmişəlik gözlərini yumdu.

Mirzənin ölməyinin xəbəri şəhərə yayıldı. Oğlanlarının xatirəsi üçün tamam şəhərin tüccarı, əyanı onun dəfnində iştirak edirdilər. Hətta Həsən ağa da təşrif gətirmişdi.

Mirzənin dəfnindən sonra neçə gün xalq oğlanlarının yanına sər-səlamətliyə gəlib-getdilər. Bu gəlib-getməklik rəsmiyyət idi. Ancaq bir nəfəri Mirzənin vəfatı yandırırdı.

O adam usta Zeynal idi.

İfadəli oxuda istifadə edilən
**şərti işarələr**

| | | | |
|---|---|---|---|
| 1 | \| | Qısa fasilə (bir sayına bərabər) | sətri |
| 2 | \|\| | Qısa fasilə (iki sayına bərabər) | sətri |
| 3 | \|\|\| | Uzun fasilə (üç sayına bərabər) | sətri |
| 4 | — | Məntiqi vurğu | sətiraltı |
| 5 | ↗ | Tonun yüksəlməsi | sətirüstü |
| 6 | ↘ | Tonun alçalması | sətirüstü |
| 7 | ..... | Sözün uzadılması, yaxud cümlənin hissəsinin oxu tempinin aşağı salınması | sətiraltı |
| 8 | → | Tempin artırılması (oxunun sürətləndirilməsi) | sətiraltı |
| 9 | ⌒ | Yanaşı gələn sözlərin birnəfəsə deyilməklə oxunması | sətirüstü |
| 10 | ⍑ | Misrada fikir tamamlanmayıb növbəti misraya köçürüləndə qoyulur | sətri |

## LÜĞƏT

### A

Ab – su
Abgüşt – bozbaş, piti
Abi-həyat – həyat suyu, dirilik suyu; əfsanəyə görə, zülmətdə olan bir çeşmənin suyudur, onu içmək kimə qismət olsa, əbədi ömür qazanar
Afaq – üfüqlər
Afət – 1) gözəl; 2) bəla, fəlakət, müsibət.
Ağac – təxminən 6–7 kilometrə yaxın uzunluq ölçüsü
Axur – heyvanlara yem tökmək üçün taxtadan, daşdan düzəldilmiş yer
Akoşka – rus dilindəki "okoşka" sözünün təhrif olunmuş şəkli: kiçik ölçülü pəncərə (nəfəslik)
Alp – cəsur, igid
Amadə – hazır
Amal – qayə, məqsəd
Arif – bilici, hər şeydən xəbərdar
Arifbəsər – gözüaçıq, incəlikləri görən göz
Arşın – metrik ölçü sistemi qəbul olunanadək işlədilən, 0,71 metrə bərabər uzunluq ölçüsü
Asayiş – asudəlik, rahatlıq
Asiman – göy, səma
Aşinalıq – dostluq
Atəşi-dəhhaşe-düvəl – burada: dövlətlərin dəhşətli hücumları
Ayğır – erkək at

### B

Babət – təhər, hal, vəziyyət
Badəxar – şərab içən
Badi-səba – səhər əsən xəfif, sərin yel; meh
Bağrıqara – quş adı
Barin (rusca) – ağa
Baş Gözəldərə – Qərbi Azərbaycanda kənd adı
Başı açıq – indiki Gürcüstan Respublikasının ərazisindədir
Batman – əsasən, 20 girvənkə ağırlığında olan köhnə çəki ölçüsü
Batil etmək – puça çıxarmaq, heç eləmək, batırmaq
Bazburut – görkəm, boy-buxun
Bazarnik (rusca) – bazarbaşı, keçmişdə bazara nəzarət edən şəxs
Beççə – bala
Beşanə – daraqla
Bədöy – harın at, cins at
Bəklə – gözlə
Bəqədri-məqdur – mümkün olan qədər
Bəndər – keçid, yol
Bəstər – yataq
Bəyaz – ağ
Bidar – oyaq
Biçarə – 1) yazıq, miskin, fağır, məzlum; 2) çarəsiz, əlacsız, aciz
Bihiss – hissiz

Bihudə – boş, faydasız, əbəs
Binəva – yazıq, fağır, bədbəxt, zavallı
Billah – Allah haqqı
Bişəkk – şəksiz, şübhəsiz
Börk – papaq, baş geyimi
Buğra – dəvə
Bu heyndə – bu zaman, bu anda
Bülbüli-şeyda – vurğun bülbül

**C**

Cağ – çəpər
Cam – badə, qədəh
Camal – gözəllik, üz gözəlliyi
Cəbbəxana – silah, hərbi ləvazimat istehsal olunan və saxlanılan yer
Cəhli-namərd – cahil, namərd adam
Cəlal – əzəmət, ehtişam, dəbdəbə, təmtəraq
Cəng – döyüş, dava
Cığa – saçın üzə tökülən hissəsi
Cism – bədən, vücud
Cövlan etmək – dolanmaq, hərlənmək, fırlanmaq, dövr etmək, dövrə vurmaq
Cövşən – dəmir geyim, zireh
Çuğulçu – xəbərçi
Cüda – ayrı

**Ç**

Çabuq – tez
Çarşov – çadra: qadınların başdan-topuğa qədər bədənlərini örtmək üçün işlətdikləri bürüncək
Çeşmə – yerin altından sızıb çıxan su mənbəyi: bulaq, qaynaq
Çeşmi-əhvəl – əyri göz, həqiqəti görə bilməyən
Çılğın – dəliqanlı, dəli
Çıraqban – çıraqlarla işıqlandırılmış
Çitəmə – "çitələmək" (deşiyi, yırtığı calayıb tikmək, yamamaq) sözündəndir, burada: sıx-sıx
Çort vozmi (rusca) – lənətə gələsən; lənət sənə
Çuval – böyük kisə
Çü – elə ki

**D**

Dabbaxda gönünü tanımaq – bir adamın keçmişinə və hər cür gizli işlərinə yaxşı bələd olmaq, iç üzünü bilmək
Dadü-fəryad – yardıma çağırma, dada yetişmə
Dam qurmaq – tor qurmaq, tələ qurmaq
Damən – ətək
Danadil – bilikli, təcrübəli
Danə-xuriş – yemək, içmək üçün ərzaq, toxum, tum
Darğa – 1) şəhər, mahal və ya vilayət hakimi; 2) bazar keşikçilərinin başçısı
Day – bir daha, bir də
Day – biryaşar at balası, dayça
Dehqan – kəndli, əkinçi

Dəftərxana – bir idarənin kargüzarlıqla məşğul olan şöbəsi
Dəhən – ağız
Dəhr – burada: dünya
Dəmsaz – yoldaş
Dəni – alçaq, əclaf
Dəndan – diş
Dərağuş – ağuşuna almaq, bağrına basmaq, qucaqlamaq
Dərdmənd – dərdi, kədəri olan, ürəyi dərdli
Dərgah – saray, böyüklərin qapısı
Dəst – əl
Dəsti-əcəl – əcəl əli; ölümün yaxınlaşması
Dideyi-giryan –ağlayan göz
Dil – ürək, könül
Dilbər – gözəl, sevgili
Dilşad – qəlbi şad, fərəhli, qəlbən razı olan
Divanə – dəli
Dinşəməz – ayırmaz, fərq qoymaz
Dördəmə – dördayaq, dördnal, birnəfəsə, çaparaq
Drağar – Qarabağda kənd adı

## E

Edadiyyə məktəbi – gimnaziya
Ehya – canlandıırmaq, diriltmək
Elmi-ürfan – mərifət elmi
Eşik – bayır, dışarı, çöl

## Ə

Əbri-neysan – burada: aprel yağışı
Əcaib – çox qəribə, çox təəccüblü, qeyri-adi, görünməmiş
Ədavət – ürəkdə saxlanılan düşmənçilik hissi, kin-küdurət, qərəz, birinə qarşı qəzəb hissi
Ədl – haqq və düzgünlük, insaf, mürüvvət
Əfğani-yetiman – yetimlərin fəryadı
Əfsər – təhrif olunmuş rus sözü; burada: zabit
Əhl – burada: sözün sahibi
Əhli-şər – şəriəti bilən adamlar, din xadimləri
Əhbab – dostlar
Əhvalpürsan olmaq – xəbər tutmaq, vəziyyəti öyrənmək
Əjdər – əjdaha
Əqdəm – əvvəl
Əqidə – insanın mühit, həyat, varlıq haqqındakı düşüncə və inamı; etiqad, inam, məslək
Əlhal – indi, bu saat
Əlkasibü-həbibüllah – Allah halal zəhməti ilə dolananın dostudur.
Əmr – burada: iş
Ənar – nar
Ənbər – gözəl qoxulu maddə
Ənbərin – gözəl ətirli
Əndazə – ölçü, hədd
Əndəlib – bülbül

Əndυhi – qəm, kədər
Əncam – çarə
Ənis – həmdəm, yoldaş
Ənlik-kirşan – qadınların üzünə sürtdüyü kosmetik maddə
Ər – igid
Ərbab – burada: varlı, dövlətli
Ərəfat – 1. Məkkədə ərəfə günü hacıların durduğu yer; 2. Məkkənin şərqində yerləşən dağın adı
Ərməğan – hədiyyə, bəxşiş, pay, sovqat, töhfə
Ərş – göy, asiman
Ərz etmək – bildirmək, anlatmaq, məlum etmək, ifadə etmək
Əşhəd ən la ilahə illəllah – Şahidlik edirəm ki, Allahdan başqa illah yoxdur!
Əspir – quş adı
Əşrəfi – qızıl pul
Əta eylə – bağışla, ver
Əyricə – Qərbi Azərbaycanda dağ adı

F

Faxtə – çölgöyərçini
Fanatizm – fanatik adamın düşüncə və hərəkət tərzi; başqa etiqadlara düşmən münasibət bəsləyib öz inandığına hədsiz sədaqət göstərmə, təəssübkeşlik
Fanatik – dindarlığı həddini aşaraq başqa dinlərə düşmən münasibət bəsləyən adam; qatı mövhumatçı
Fənd-fel – hiylə, kələk, fırıldaq, biclik
Fərş – döşənəcək (xalça, palaz, cecim və s.)
Fəşanə qılmaq – yaymaq, saçmaq
Fəzlə – artıq, çox
Fitnə – 1) qarışıqlıq, ara pozma, ara qarışdırma; 2) qurğu, tələ, hiylə
Firəng – Fransa, Avropa; burada: bütün ölkələrin padşahı mənasında
Firqeyi-islam – islam camaatı, müsəlmanlar
Firqət – ayrılıq
Fövrən – dərhal, həmin saat, əlüstü, tez
Füsunkar – valehedici, məftunedici, heyranedici, əfsanəvi

G

Gəda – keçmişdə yoxsul, aşağı təbəqədən olan adamlara verilən ad
Gəmirtləmək – dişləyib yemək, gəmirmək
Gərçi – buna baxmayaraq, hərçənd
Gərdən – boyun
Girvənkə – 400 qrama bərabər köhnə ağırlıq ölçüsü
Gövhəri-əsrar – sirli qiymətli daş-qaş, inci, cavahir
Guşənişin – adamlardan qaçan, evdən bayıra çıxmayan adam
Gülşən – güllük, çiçəklik
Gülpirahən oldu – güllərdən köynək geydi
Gürbə – pişik
Güruhi-bəşər – insanlar
Güruhi-izam – hörmətli adamlar
Güruhi-xeyr əsər – xeyirli iş görən adamlar
Güşvarə – sırğa; burada: saçın ucuna bənd edilmiş bəzək əşyası

H

Hadis olmaq – baş vermək
Halət – hal, vəziyyət
Harami – quldur, yolkəsən
Heybət – qorxu və eyni zamanda hörmət hissi oyandıran hal, görkəm
Hezar – min
Hezəran – minlərlə
Həccac – VII əsrin sonu, VIII əsrin əvvəllərində İraqın qəddar və zülmkar hakimi
Həbibüllah – Allahın dostu
Hədis – 1) yeni, təzə; 2) peyğəmbərin, imamların kəlamı
Həqarət – hörmətsizlik, təhqir; alçaldıcı, heysiyyətə, mənliyə toxunan hərəkət, söz
Həqir – qədir-qiyməti, hörməti, etibarı olmayan; burada: kasıb, yoxsul, miskin, zəlil
Həmşirə – bacı
Həmşəri – "həmyerli" sözünün danışıq forması. Cənubi Azərbaycandan gəlmiş soydaşlarımız bir-birini belə adlandırırdılar.
Həpsi – hamısı
Hərrac-bazar – qədimdə qul satılan bazar
Hərdəm – həmişə, müntəzəm, daima
Həşmət – cah-cəlal, dəbdəbə, əzəmət
Həzyan – sayıqlama, sərsəmləmə
Hilal – Türkiyə bayrağındakı aypara nəzərdə tutulur.
Hikmət – fəlsəfə, bilik, elm
Himməti-türkan – türklərin səyi
Hoqqabazi-naqabil – qabiliyyətsiz hoqqabazlar
Humanizm – insan ləyaqətinə hörmət; insanpərvərlik, insansevərlik
Hur – huri, gözəl qız
Huş-guşla – bütün diqqətini toplayaraq, fikrini cəmləşdirərək
Hürr – azad
Hürufilik – dünya və insan haqqında dini baxışları yeni şəkildə izah edən fikir cərəyanı, fəlsəfi təlim kimi orta əsrlərdə geniş yayılmışdır. Bu təlimə görə, ərəb əlifbasının hərfləri Allahın, dörd ünsürün (od, su, torpaq, hava) insanın və mövcud olan hər şeyin eynidir. Bunların hamısı, hürufiliyə görə, bir vəhdət halında birləşir.
Hüsn – gözəllik, camal

X

Xab – yuxu
Xabi-əcəl – ölüm yuxusu
Xandəmirov – çarizm zamanı Şuşa qalasının komendantı. Daz olduğu üçün şair onu "keçəl qurumsaq" kimi təqdim etmişdir.
Xankirt baxarı – Xankirt: Qərbi Azərbaycanda dağ adı; baxar: görünən yer, mənzərə
Xar (olmaq) – alçalmaq, hörmətdən düşmək, üzüqara olmaq
Xatəm –1) üzük; 2) axırıncı, ən sonuncu
Xazini-gəncineyi-əsrar – sirlər xəzinəsinin qoruyucusu, xəzinədarı
Xəlbir – buğdanın, arpanın və s.-nin zibillərini təmizləmək üçün sağanağa keçirilmiş iri tordan ibarət alət

Xəlt – günah
Xəmr – şərab
Xəndan – burada: açılmış
Xətib – xütbə oxuyan
Xətibi-laləzar – çəmənlikdə xütbə oxuyan, çəmən natiqi
Xındırıstan – Qarabağda kənd adı
Xilaf – əks, zidd, yalan
Xof – qorxu
Xoşhallıqla – şad halda, məmnunluqla
Xotkar – hökmdar, başçı
Xub – yaxşı
Xuda – Allah
Xudbin – ancaq özünü düşünən, öz mənafeyini hər şeydən yüksək tutan adam; eqoist
Xuni-şəhidan – şəhidlər qanı
Xütbə – minbərdən camaata söylənən nəsihətamiz sözlər, nitq

## İ

İdyot (rusca) – gəlir (gəlmək)
İfçin – tam surətdə, bütün, hamısını
İftiraq – ayrılıq, hicran
İxtilat – danışıq, söhbət, məclis
İltica eləmək – pənah gətirmək
İqbal – bəxt, tale
İnayət qıl – kömək et
İntibah – oyanış, oyanma, canlanma, dirçəlmə deməkdir. XI-XII əsrlər Azərbaycan ədəbiyyatının çiçəklənməsi, intibah dövrü sayılır.
İrişdi vədəsi badi-baharın – bahar küləklərinin vaxtı çatdı.
İrsal – göndərmə, yola salma
İslahat qoymamaq – burada: pis vəziyyətə, yararsız hala salmaq, hal qoymamaq
İstiqaməti-məcaz – dönməz yol
İtmami-höccət – mübahisəni kəsmə, qurtarma
İttifaq – 1) birlik; 2) qəziyyə, əhvalat, hadisə
İzdrasti – təhrif olunmuş rus sözüdür: “salam” deməkdir
İzhar qılmaq – bildirmək, aşkar etmək
İzzət – hörmət

## J

Jalə – şəbnəm, şeh
Jandarm – çar Rusiyasında siyasi, inqilabi hərəkata qarşı mübarizə aparan xüsusi polis məmuru

## K

Kafur – Hindistanda emal olunan gözəl qoxulu, ağ rəngli maddə; burada ağ, dümağ mənasında işlənib.
Kama irdirməsin – kamına, arzuna çatdırmasın.
Kan – 1) mədən quyusu; 2) bir şeyin bol olduğu yer, mənbə
Katda – keçmişdə Azərbaycan kəndlərində kəndin inzibati işlərini idarə edən şəxs

Kazak – çar hakimiyyəti dövründə inqilabi hərəkatı boğmaq, fəhlə tətillərini yatırmaq üçün istifadə edilən süvari qoşunların əsgəri
Kəcavə – keçmişdə səfərə çıxan adlı-sanlı adamlar üçün minik heyvanlarının, adətən, dəvənin üstündə düzəldilən örtülü yer
Kəsalətli – ölgün, süst, kədərli, soyuq
Kəsb – əldə etmək, qazanmaq
Kəsbi-elm – bilik qazanmaq
Kəsəbə – kasıb, zəhmətkeş
Kəndi – özü
Köhlən – harın, yaxşı bəslənmiş at
Kövsər – dini inanca görə, cənnətdə olan bulağın adı
Köy – kənd
Kuzə – darboğazlı, qulplu, saxsı su qabı, bardaq, balaca səhəng
Küstahlıq – cəsarət, ədəbsizlik

Q

Qaçan – nə vaxt, haçan
Qafil – xəbərsiz, sayıq olmayan
Qala – burada: Şuşa qalası nəzərdə tutulur.
Qanrılmaq – çevrilmək, dönmək, üzünü çevirmək
Qasid – xəbər və ya məktub aparıb-gətirən adam; elçi, çapar
Qaim – 1) ayaq üstə duran, dayanan; 2) mövcud olan; 3) dik duran, şaquli duran; 4) namaz qılan, namaz üstündə olan; 5) möhkəm, mətanətli; 6) davamlı, bərk
Qavğa (qovğa) – səs-küy, həyəcan, döyüş
Qazaq – təhrif olunmuş rus sözüdür; süvari, qoşun hissəsinin əsgəri
Qeyb – göz önündə olmayan, gizli
Qeyz – acıq, hirs, qəzəb, hiddət
Qəba – paltar
Qəbayi-xizrpuşan – yaşıl paltar
Qədərlər – qədir-qiymət verənlər
Qəhr –1) acıq; 2) ümidin puça çıxması; 3) məcburi iş gördürmə
Qəhrinə – ümidin puça çıxmasına, burada: ayrılığına
Qələbəyi – qala (şəhər) hakimi, şəhər böyüyü, şəhərin baş hakimi
Qəribü zar – vətənindən uzaqda ağlayan, nalə edən
Qəsabə – köhnə zamanlarda qadın paltarının yuxarısından aşağıya doğru uzanan bəzəkli yaxalıq
Qəvvasi-bəhri-mərifət –mərifət və bilik dənizinin üzgüçüsü
Qırlaquş – qaranquş
Qırxqız, Alaqaya, Çilgöz, Narışlar, Murov, Uzunyoxuş, Dəlidağ, Qoşqar – Azərbaycanın təbiətində gözəlliyi ilə seçilən dağlarının, yaylaq yerlərinin adları
Qilü-qal – mübahisə, dedi-qodu, söz, danışıq
Qlava – çar hakimiyyəti dövründə şəhər idarəsi rəisi, bələdiyyə idarəsi başçısı
Qopuz – qədim Azərbaycanda saza oxşar musiqi aləti
Qorodovoy – Rusiyada çar hakimiyyəti dövründə aşağı rütbəli polis
Qovzamaq – qaldırmaq
Qövmi-avam – avam camaat

Qövsi-qüzeh – göy qurşağı
Qubernator – çar hakimiyyəti dövründə quberniya (vilayət) rəisi, vali
Qurşun – güllə
Qurumsaq – namussuz, qeyrətsiz
Qüttəüttəriq – yolkəsən

## L

Ləbxamuşan – dinməzlər, susmuşlar
Ləhzə – an, dəqiqə
Lölöi-şəhvar – əla inci, şahanə inci

## M

Maçin – Hind-Çin
Mar – ilan
Mehman – qonaq
Mehr – sevgi, nəvaziş, mehribanlıq
Mey – içki
Mey sunar ariflərə – ariflərə mey verər (gözəlliyi dərk edənləri bihuş edər).
Mədəd – kömək, yardım, imdad, aman
Məfkurə – burada: məqsəd
Məğşuş – dağıdılmış, qarışdırılmış, alt-üst edilmiş
Məhbut – heyrət içərisində, mat qalmış
Məhcub – 1) örtülü; 2) utancaq
Məhzun – qəmli, kədərli
Məkr – hiylə, biclik, kələk
Məlal – kədər, qəm
Məlhəm – dəva, dərman
Mərəkə – səs-küy, qışqırıq-bağırıq, qalmaqal
Mərifət – tərbiyə, qanacaq
Məslək – əqidə, yol
Məsud – xoşbəxt, bəxtiyar, səadətli
Məva – məskən, yer
Miqdar – qədir-qiymət, hörmət
Miləl – millətlər
Mina – 1) büllur şüşə; 2) qızıl və gümüş əşyaların üstünə çəkilən xüsusi rəng
Min gəz – min dəfə
Minbər – məscidlərdə vaizin, xətibin xütbə oxuduğu çoxpilləli kürsü
Mirzə – keçmişdə yazı-pozu işləri ilə məşğul olan adam; katib
Misli-heyvan – heyvan kimi
Malades – təhrif olunmuş rus sözüdür; burada: afərin, əhsən
Möhnət – həsrət, qəm, kədər
Murov – keçmişdə kənd yerlərində polis
Mübəyyizlik – yazı köçürmək, katiblik
Müdam – daim, həmişə
Mühlik – öldürücü, həlakedici
Müjdə – muştuluq
Müxənnət – namərd
Mültəci – pənah gətirən, sığınan
Mürəxxəs olmaq – çıxıb getmək, azad olmaq

Müslih – 1) islah edən, barışdıran; 2) sülh və asayişi bərpa edən
Müştəhəqqim – layiqəm, haqqım var.
Müşk – gözəl qoxulu maddə
Müşkül – çətin
Müttəhim – günahkar, müqəssir, məhkəmədə ittiham edilən adam

## N

Naçalnik – çarizm dövründə: polis, jandarm rəisi
Nadanlıq – savadsızlıq, avamlıq
Nalbənd – heyvanların ayağına nal vuran
Naməhrəm – yad
Nasıl – necə
Navaxt – qazamat, dustaqxana
Neştər – iynə
Neysan – aprel ayı; aprel ayında yağan yağış
Nəhy – qadağan
Nəş – cəsəd
Nigar – burada: gözəl, sevgili
Niqab – duvaq, üz örtüyü, yaşmaq
Nimtənə – üst geyimi
Növheyi-nisvan – qadınların şivəni
Nuri-didəm – gözümün nuru

## O

Oqolodoçni – təhrif olunmuş rus sözüdür; çarizm dövründə şəhər polis məmuru
Ovqati-təlx – kefi, əhvalı pozulmuş
Oylaq – düzənlik, geniş sahə
Ozan – el şairi, aşıq

## Ö

Öfkələnmək – hirslənmək, əsəbiləşmək
Övla – daha gözəl, daha üstün
Övraq – darmadağın, korlanmış, sökülüb dağılmış
Övraqi-şəcər də təngə-təngə – ağac yarpaqları da pul-pul idi.
Övrət – arvad, həyat yoldaşı
Öyləm – burada: günorta vaxtı yeyilən yemək

## P

Payə – burada: mərtəbə, dərəcə
Peşkəş – bəxşiş verilən, bağışlanan şey; hədiyyə
Peykəri-üryan – çılpaq bədən
Pərişan – dağınıq, qatma-qarış, nizamsız; qəmli, kədərli, qüssəli
Pərxaşlıq – dava, döyüş; burada: qarışıqlıq
Pirahən – köynək
Piş əz vəqt – qabaqcadan
Pişvaz etmək – gələn adamı qarşılamaq, qabağına çıxmaq
Polsa – polis sözünün təhrif olunmuş tələffüzüdür.
Pristav – çar hakimiyyəti dövründə yerli polis rəisi
Pud – 16,4 kiloqrama bərabər ağırlıq ölçüsü

R

Raz – sirr
Rəisani-sahibül-ezaz – hörmət sahibi olan başçılar
Rəiyyət – bir dövlətin tabeliyində olanlar, təbəə
Rəsm – adət, surət, şəkil
Rişt – 1) tel, sap; 2) əlaqə, vasitə, rabitə
Riştə-riştə – bir-bir
Riza – razılıq
Rövşən – aydın, işıqlı
Rövzə – cənnət, behişt
Röya – yuxu
Rumka – qədəh; şərab, su içmək üçün qab, piyalə, kasa
Rüsxət – izin, icazə

S

Saçma – boş, mənasız danışmaq
Sahibnəzər – düşüncəli, mərifətli
Sail – dilənçi
Saqın – çəkin
Saqi – məclislərdə şərab paylayan
Saqınmaq – qorunmaq, ehtiyat eləmək
Sancaq – bayraq
Sar – yırtıcı quş
Sajın – metr sisteminin tətbiqindən əvvəl işlənmiş 2,134 metrə bərabər uzunluq ölçüsü
Sarıyal – Qərbi Azərbaycanda yer adı, dağ beli
Savuş – get, aradan çıx
Sayə – kölgə
Sayrı – xəstə
Səbatlı – sözünün üstündə duran, iqrarında möhkəm olan; dəyanətli, mətanətli, əzmli
Sədəf tərkibi təndir – tərkibində mirvari olan sədəf kimidir.
Səd-həzaran – yüz minlərlə
Səhhət ola ona hadis – sağlam ola, sağala.
Səhih – doğru, düzgün
Səmərsiz – faydasız, xeyirsiz
Səmt – tərəf
Səna – dua, tərif
Səngər – gülllədən, qəlpədən qorunmaq üçün qazılan çuxur, xəndək
Sərbənd – yaylıq, baş örtüyü, çarqat
Sərdar – keçmişdə bir vilayəti idarə edən və dövlət başçısı adından sərəncam vermək hüququna malik hakim
Sərəfrazi – başıucalıq, dikbaşlıq
Sərəfraz olmaq – başıuca olmaq, yüksəlmək, şərəflənmək
Sərpa – başdan-ayağa, tamamilə
Sər ta qədəm – başdan ayağa qədər
Sərü saman – qayda, intizam; burada: işin qaydası, səliqə-sahmanı
Sərvər – başçı
Sərzəniş – qaxınc, danlaq, tənə, məzəmmət; başaqaxma

Sidq – doğruluq, həqiqət, düzlük
Simü zər – gümüş və qızıl
Sinirli – əsəbi
Sinn – yaş (insanın yaşı)
Sipər – qalxan
Siyah – qara (rəng)
Sobak (rusca) – it, köpək
Spasibo – təhrif olunmuş rus sözü; burada: çox razıyam, təşəkkür edirəm
Strajnik – burada: keşikçi, qoruqçu
Sud (rusca) – məhkəmə
Suxtə – 1) yanmış, yanıq; 2) dərdə, əzaba düçar olan
Sultan Səncər – Səlcuqi hökmdarı Məlik şahın oğludur
Süfati-hicran – ayrılıq sifətləri
Süleyman – dini rəvayətə görə, müdrik hökmdar olub, quşların, heyvanların dilini bilib.
Sürahi – uzunboğaz su qabı, dolça
Sür – çoxillik qamışın yoğun gövdəsindən hazırlanan nizə
Sürbə – dəstə

## Ş

Şabaş – toy məclislərində oynayanlara xanəndə və çalğıçılar üçün verilən pul
Şahbaz – tərlan, şahin
Şax – budaq
Şaqaylı – çiçək adı
Şaşırmaq – özünü itirmək
Şaşka (rusca) – qılınc
Şeşpər – altıdilli toppuz
Şəha – ey şah
Şivə – işvə, naz-qəmzə
Şonqar – qızılquş
Şuriş – qarışıqlıq
Şühəda – şəhidlər

## T

Tar – qaranlıq, zülmət
Tatarı – qırmanc, qamçı
Təbdili-tevr ilə – vəziyyətini, halını dəyişərək
Təğafül – qafillik
Təhəmmül – səbir etmək, dözmək
Təhəssürlə – həsrətlə, təəssüflə
Təkəbbür – iddia, təşəxxüs, lovğalıq, özünü çəkmə
Təkur – kafirin (Allahın varlığına inanmayan, imansız) başçısı
Təməllüq – ikiüzlülük
Tərəqqi – inkişaf, irəliləyiş
Təriqət –1) hakim dindən ayrılmış dini icma, islam məsləklərindən hər biri; 2) əqidə məsləkdaşlarının təşkilatı
Tərcüman – 1) tərcüməçi; 2) ifadə edən, çatdıran, əks etdirən
Tən – bədən
Təsbih – 1) təsbeh; 2) dua

Toğan – şahin quşu
Tuhaf – boş, mənasız
Tüccar – tacirlər
Tüfeyli – başqasının zəhməti hesabına yaşayan adam, müftəxor

**U**

Uçitel (rusca) – müəllim
Ulus – el
Uryadnik (rusca) – çarizm dövründə qəza polisində aşağı rütbə
Uş – bu, belə
Uşatdım – sındırdım
Uyqu (uyğu) – yuxu

**Ü**

Üləma – alimlər, burada: din xadimləri
Ün – səs
Ünüm ünlə – səsimi eşit
Ürfan (irfan) – bilik, mərifət

**V**

Vagüzar – öhdəyə qoyma
Varislik – bir adamın ölümündən sonra yaxın qohumluq və ya vəsiyyətə görə onun malına, mülkünə və s.-yə sahib olma hüququ
Verst dağı – Qərbi Azərbaycanda dağ adı
Vəzi-mədar – dolanacağımın, güzəranımın vəziyyəti
Vila – yer, ərazi
Vizit versinlər – burada: görüşə gəlsinlər, hörmətlərini bildirsinlər
Von (rusca) – rədd ol!
Vüfur – çoxluq, bolluq

**Y**

Yarımsaqqal – çarizm zamanı Şuşa şəhərinin polis rəisi Əmirxanov nəzərdə tutulur. O, saqqalının ortasını qırxdırdığı üçün şair onu yarımsaqqal adlandırıb.
Yasavul – çarizm dövründə kənd yerlərində polis nəfəri
Yavrum – balam, körpəm, əzizim
Yavuq – yaxın
Yeləm – pişikotu, yapışqan
Yengi – yeni
Yığnaq – yığıncaq; yığılmış, toplanmış adamlar
Yosma – gözəl
Yusif – Yaqub peyğəmbərin oğlu. Atası onu digər oğullarından çox istədiyi üçün qardaşları paxıllıq edib quyuya atmışlar. Şərq ədəbiyyatında Yusif gözəllik rəmzi kimi işlədilir

**Z**

Zəhmər – burada: dəhşət
Zəlilü-xar – hörmətsiz, etibarsız, gözdən düşmüş
Zəmin – yer, torpaq
Zənbur – cır arı
Zənəxdan – çənədə, yanaqda batıq

Zər – qızıl
Zərb – şiddət, güclülük, təzyiq
Zərbi-dəst – qol gücü, qüvvət
Zərnişan – qızıl suyu ilə vurulmuş naxışı olan parça
Zərgər – Qarabağda kənd adı
Zinət – bəzək, yaraşıq
Zinhar – məbadə, amandır, saqın, ehtiyatlı ol
Ziyadə – çox, artıq, çoxlu
Zülf – saç

## QISA ƏDƏBİYYATŞÜNASLIQ TERMİNLƏRİ LÜĞƏTİ

1. **Bədii sual** – əsərin emosional təsirini artırmaq üçün fikrin sual tərzində ifadə olunmasına deyilir. Adi, qrammatik sualdan fərqli olaraq, bədii sualda cavab almaq məqsədi güdülmür. Məsələn: Məhmət Akif Ərsoy "İstiqlal marşı" əsərində bədii sualdan istifadə etmişdir: *Kim bu cənnət vətənin uğrunda olmaz ki fəda?*
2. **Bədii təsvir vasitəsi** – əsərdə bədii dilin mühüm tərkib hissəsidir. Sözün məcazi mənası əsasında yarandığına görə *məcazlar da* adlanır. Epitet, təşbeh, metafor əsas bədii təsvir vasitələrindəndir.
3. **Bədii ifadə vasitəsi** – bədii dilin mühüm tərkib hissəsidir. Bədii ifadə vasitələri daha çox cümlə şəklində olmasına və bitmiş fikir ifadə etməsinə görə bədii təsvir vasitələrindən fərqlənir. Təkrir, bədii sual, kinayə, bədii təzad bədii ifadə vasitələridir.
4. **Bənzətmə –** bədii əsərdə bir əşyanın, hadisənin özündən daha qüvvətli əşyaya, hadisəyə oxşadılmasına deyilir. **Bənzətmə** əvəzinə ərəb sözü olan **təşbeh** termini də işlədilir. Bənzətmədə çox zaman *kimi, tək* və s. bənzətmə qoşmalarından istifadə olunur. Məsələn: *Şaxtalı havada küçəyə çıxan uşağın əlləri buz kimi soyuq idi.* Burada bənzətmə dörd tərkib hissədən ibarətdir: Uşağın əlləri – bənzəyən, buz – bənzədilən, kimi – bənzətmə qoşması, soyuq – bənzətmə əlaməti. Təşbeh bənzətmə qoşması olmadan – bənzəyən və bənzədilən vasitəsilə də yaradıla bilər: *Əlləri buzdur.*
5. **Boy** – dastanın bir qolu, bitkin hissəsidir.
6. **Beyt** – şeirin iki misradan ibarət olan nisbətən bitkin hissəsinə deyilir.
7. **Bədii təzad** – bədii əsərdə məzmunca bir-birinə zidd iki anlayış və ya vəziyyətin qarşılaşdırılmasına deyilir. Məsələn, M.Ə.Sabir "Əkinçi" şeirində kəndlini istismar edən mülkədarın iç üzünü açmaq üçün bədii təzaddan istifadə etmişdir: *Söz açma mənə* ***çox çalışıb az yeməyindən.***
8. **Bənd** – şeirin bir neçə misradan ibarət qismən bitkin parçalarına deyilir.
9. **Dastan** – şifahi xalq ədəbiyyatının epik növünün irihəcmli janrıdır. Nağıldan fərqli olaraq, dastanda nəsrlə nəzm növbələşir, hadisələr nəsr dili ilə nəql edilir, qəhrəmanların hiss və həyəcanları şeir parçaları vasitəsilə verilir. Şifahi xalq ədəbiyyatımızda qəhrəmanlıq və məhəbbət dastanları geniş yayılıb. Azərbaycan dastanları ozan-aşıq sənətinin məhsuludur.

10. **Dialoq** – yunanca "*söhbət, müsahibə*" deməkdir. Bədii əsərdə iki və daha artıq şəxsin bir-biri ilə danışığıdır. Dialoq əsərdəki hadisələrin mahiyyətinin, surətlərin daxili aləminin açılmasında mühüm rol oynayır.

11. **Dram** – dramatik növün janrıdır. Dramda həm komediya, həm də faciəyə xas əlamətlər özünü göstərir. Dramda komediya üçün səciyyəvi olan gülməli epizodlara yer verilir. Lakin dramın bütünlüklə komik, gülməli səhnələr üzərində qurulması mümkün deyil. Dramın qəhrəmanı faciədə olduğu kimi ciddi münaqişəyə girsə də, faciədən fərqli olaraq, qarşılaşdığı güclü şər qüvvələrə qalib gəlir. Dram janrında əsərlər həm nəsrlə, həm də nəzmlə yazıla bilər.

12. **Dramaturq** – dramatik növün komediya, dram, faciə janrlarında əsər yazan sənətkarlara deyilir.

13. **Dramaturgiya** – hər hansı bir yazıçının dramatik əsərlərinin cəminə deyilir. Hər hansı bir xalqın, yaxud bütöv bir tarixi dövrün dramatik əsərlərinə də *dramaturgiya* deyilir. Məsələn, Cəlil Məmmədquluzadənin dramaturgiyası, XX əsr Azərbaycan dramaturgiyası və s.

14. **Epiqraf** – əsərin və ya onun hissələrinin əvvəlində başqa sənətkarlardan, görkəmli şəxsiyyətlərdən və ya müəllifin özündən hikmətli fikirlərin verilməsidir. Epiqrafda verilən fikirlər əsərin məzmunu, ideyası ilə sıx bağlı olur. C.Məmmədquluzadə "Qurbanəli bəy" hekayəsində məşhur rus satiriki N.V.Qoqolla bağlı epiqraf vermişdir: *Allah sənə rəhmət eləsin, Qoqol!*

15. **Epitet** – yunanca "*əlavə*" deməkdir. Bədii əsərdə sözün təsir gücünü artırmaq üçün ona artırılan məcazi mənalı təyinedici sözdür. Epitetə bədii təyin də deyilir. *Şirin çay* birləşməsində "şirin" sözü məcazi mənada işlənmədiyindən epitet deyil, *şirin söz* ifadəsində isə *şirin* məcazi mənalı söz olduğundan epitet sayılır.

16. **Epizod** – bədii əsərin bitkin bir parçasıdır.

17. **Epos** – yunanca *danışmaq, söyləmək, nağıl etmək, fikri təhkiyə əsasında çatdırmaq* mənasında işlənir. Şifahi xalq ədəbiyyatında epos böyük bir tarixi mərhələni əhatə edən qəhrəmanlıq dastanlarına da deyilir; məsələn, "Koroğlu" eposu və s.

18. **Ədəbi qəhrəman** – təsvir olunan hadisələrin mərkəzində duran və yazıçının irəli sürdüyü ideyanın əsas ifadəçisinə çevrilən surətə deyilir. Bədii əsərin qəhrəmanı müsbət olduğu kimi, mənfi də ola bilər.

19. **Ədəbi növ və janrlar** – bədii əsərlər üç ədəbi növə ayrılır: *epik, lirik və dramatik növ*. Epik əsərlərdə təhkiyə, təsvir, lirik əsərlərdə tərənnüm, dramatik əsərlərdə əyani göstərmə əsas, aparıcı əlamətlərdir. Hər bir ədəbi növün müxtəlif şəkilləri vardır ki, onlara **janrlar** deyilir. Məsələn, **epik əsərlərin** əfsanə, nağıl, dastan, təmsil, hekayə, **lirik əsərlərin** rübai, qəzəl, bayatı, gəraylı, qoşma, **dramatik növün** isə dram, komediya, faciə janrları vardır. Dramatik janrlara *pyes* də deyilir.

20. **Ənənə** – əvvəlki ədəbi hadisə ilə yeni ədəbi hadisə arasında ardıcıl varislik əlaqəsidir. Bir və ya bir neçə yazıçının yaradıcılığının sonrakı sənətkarlar tərəfindən öyrənilən və inkişaf etdirilən ideya-sənətkarlıq xüsusiyyətləri. Məsələn, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, M.Ə.Sabirin realizminin ideya-bədii kökləri M.F.Axundzadə və Q.Zakirin yaradıcılıq ənənələri ilə üzvi surətdə bağlıdır.

21. **Əruz** vəzni – ərəb şeirinin ana vəznidir. Ədəbiyyatda "əruz" sözü şeir haqqında elm mənasında işlənir. Bu vəzn VIII əsrdə ərəb alimi Xəlil ibn Əhməd tərəfindən sistemə salınmış, sonralar digər müsəlman ölkələrinə, o cümlədən Azərbaycana da yayılmışdır. Bu vəzndə əsas şərt misrada hecaların sayca bərabər olması yox, uzun və qısa hecaların müəyyən qayda ilə düzülməsidir.

22. **İdeya** – seçilmiş mövzu, təsvir edilən surətlər, hadisələr vasitəsilə yazıçının oxucuya çatdırmaq istədiyi başlıca fikir, müəllif niyyətidir.

**23. İllüstrasiya** – bədii əsərin mətni ilə əlaqədar olan və bu mətnin izahına kömək edən şəkil. Ədəbi əsərlərdə, xüsusən uşaq ədəbiyyatında, dərsliklərdə illüstrasiyadan geniş istifadə olunur. Bu, mətnin asan anlaşılmasına kömək edir.

**24. Klassik** – xalq içində şöhrət tapmış böyük yazıçı. Klassik sənətkarların əsərləri öz əhəmiyyətini və təravətini heç vaxt itirmir.

**25. Klassik ədəbiyyat** – keçmişin və ya müasir dövrün ən dəyərli, nümunəvi ədəbiyyatı. Ümumxalq məhəbbəti qazanan və milli mədəniyyət xəzinəsinə daxil olan ölməz əsərlər müəllifi klassik yazıçı adını alır. Məsələn, Ə.Xaqani, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, Ş.İ.Xətayi, M.P.Vaqif, C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid və başqa sənətkarlar klassik ədəbiyyatın böyük simalarıdır.

**26. Kompozisiya** – bədii əsərdə həyat hadisələrinin bir-biri ilə əlaqələndirilməsinə və müəyyən bir sistemdə qurulmasına deyilir. Əsərin ideya-məzmununun açılmasında onun quruluşu, tərkib hissələrinin düzülüşü, surətlərin əlaqə və münasibətlərinin təşkili, hadisələrin təsviri mühüm rol oynayır. Yazıçı əsərdə surətləri, hadisələri hansı ardıcıllıqla, necə təqdim edəcəyinə, süjetin inkişaf tərzinə xüsusi diqqət yetirir. Sənətkarın kompozisiyanın qurulmasında istifadə etdiyi vasitələr rəngarəngdir. *Epiqraf, proloq, epiloq, lirik haşiyə, peyzaj* kompozisiyanın ünsürləridir.

**27. Konflikt** – bədii əsərdə süjetin inkişafının, iştirak edənlərin mübarizəsinin əsasını təşkil edən münaqişə, toqquşmadır. Bədii əsərin qəhrəmanlarının xarakteri konflikt vasitəsilə açılır.

**28. Kinayə** – bədii ifadə vasitələrindən biri olub, fikrin ifadə tərzinin onun daxili mənasına qarşı qoyulmasına deyilir. Kinayə əvəzinə istehza mənasını verən *ironiya* termini də işlənir. Kinayə ərəbcə *tənə etmək, toxunmaq* deməkdir. Kinayədə obrazın mənfi cəhəti müsbət mənalı sözlərlə pərdələnərək tənqid olunur. Məsələn, qorxaq adama igid, tənbəl adama zəhmətkeş deyilməsi kinayə yaradır.

**29. Gəraylı** – aşıq şeirinin geniş yayılmış janrlarındandır. Dördlük şəklində olan gəraylının hər bəndi 4 misradan, hər misrası 8 hecadan ibarət olur. Bəndlərin qafiyə quruluşu abvb; cccb; qqqb şəklindədir. Son bənddə şair təxəllüsünü söyləyir.

**30. Qəsidə** – lirik növün janrıdır. Daha çox ictimai mövzularda, təntənəli, təmtəraqlı üslubda yazılır, ən azı 15 beytdən, yəni 30 misradan ibarət olur. Qafiyə quruluşu qəzəldəki kimidir: *aa, ba, ca, ça, da* və s.

**31. Qəzəl** – lirik növün janrıdır. Daha çox məhəbbət mövzusunda yazılan qəzəl 5-10 beytdən ibarət olur. *Mətlə beyt* həmqafiyə olur: aa. Digər beytlərin birinci misrası sərbəst, ikinci misrası birinci beytlə həmqafiyə olur: *ba, ca, ça, da* və s.

**32. Qol** – dastanın bitkin bir hissəsidir.

**33. Qoşma** – lirik növün dördlük şəklində olan janrıdır. Aşıq şeirində geniş yayılıb. Hər bəndi dörd misradan, hər misrası 11 hecadan ibarət olur. Bəndlərin qafiyə quruluşu *abvb; cccb; qqqb* şəklindədir. Son bənddə sənətkar öz təxəllüsünü söyləyir. Qoşmada bəndlərin sayı, əsasən, tək (3, 5, 7) olur.

**34. Lirika** – yunan sözüdür. Musiqi alətinin – liranın sədaları altında oxunan şeirlərə, nəğmələrə lirika deyilib. Lirika ədəbi növlərdən biridir. Belə əsərlərdə insanın hiss, duyğu və düşüncələri yüksək emosionallıqla əks etdirilir. Lirikanın məhəbbət, ictimai, siyasi, fəlsəfi, peyzaj kimi növləri var.

**35. Lirik qəhrəman** – lirik əsərlərdə tərənnüm olunan hiss, duyğu və həyəcanların əsas ifadəçisidir. Lirik qəhrəmanla şairin şəxsiyyəti arasında möhkəm əlaqə vardır, lakin onları eyniləşdirmək olmaz. Lirik qəhrəmanın yaşantıları çox vaxt başqalarının yaşantıları ilə üst-üstə düşür.

**36. Litota –** yunanca *kiçiltmə* deməkdir. Təsvir olunan predmet və ya hadisənin ölçüsünün, qüvvəsinin, əhəmiyyətinin bilərəkdən kiçildilməsidir.

**37. Marş –** dilimizdə "əsgərlikdə yürüş üçün verilən əmr", "dövlət tərəfindən qəbul edilmiş və milləti, dövləti təmsil etmək üçün hazırlanmış musiqi əsəri, nəğmə" mənalarında işlədilir.

**38. Metafor –** bədii təsvir vasitəsi olub *köçürmə* anlamındadır. Metaforda müəyyən əşyanın əlaməti müqayisə əsasında digər əşyanın üzərinə köçürülür. Məsələn, *təbiət oyandı* metafordur, burada insana aid olan əlamət təbiətin üzərinə köçürülmüşdür. Metafor təşbehə bənzəsə də, aralarında fərq vardır. Təşbehdə həm bənzəyən, həm də bənzədilən işlənilir*: Buludlar insan kimi göz yaşı tökdü.* Bu nümunədə təbiət bənzəyən, insan bənzədilən olduğu üçün təşbehdir. Metaforda bənzəyən göstərilir, bənzədilənin isə adı çəkilmir, yalnız əlaməti nəzərə çatdırılır: *Buludlar göz yaşı tökdü.*

**39. Məcaz** – sözün məcazi mənası əsasında yaranan bədii təsvir vasitələrinə – epitet, təşbeh, metafor, metonimiya, simvola deyilir.

**40. Məqtə** – şeirin (xüsusən qəzəl və qəsidələrin) son beytinə deyilir.

**41. Mətlə** – şeirin (xüsusən qəzəl və qəsidələrin) ilk beytinə deyilir.

**42. Monoloq** – bədii əsərdə bir adamın öz müsahibinə, səhnədəki digər surətlərə, yaxud öz-özünə müraciətlə söylədiyi nitqdir. Dramatik əsərdə bəzən monoloq qəhrəmanın tamaşaçılara müraciəti şəklində olur. H.Cavidin "Ana" mənzum dramının sonunda qatil Murad getdikdən sonra səhnədə tək qalan Səlma ananın dediyi sözlər onun monoloqudur.

**43. Mövzu –** yazıçının bədii əsərdə diqqət mərkəzinə çəkdiyi əsas həyati məsələlər, səciyyəvi hadisələrdir. Mövzu əsərin ideyası ilə sıx əlaqəlidir.

**44. Nəsr** – ədəbi yaradıcılığın iki əsas tipindən (nəsr, nəzm) biridir. Nəsr əsərlərinin vahidi olan cümlə adi danışıq formasına yaxın bir şəkildə – cümlələr və abzaslar şəklində yazılır. Nəsr əsərləri adi dil normaları əsasında qurulur. Burada cümlədəki sözlərin qrammatik sıralanmasının pozulmasına az təsadüf olunur. Nəsrin şeirdən fərqli özünəməxsus ahəngi vardır. Nəsrdə süjet, hadisələrin inkişafı daha çox yer tutur.

**45. Nəzirə** – başqa bir yazıçının bu və ya digər əsərinin təsiri altında, bənzətmə yolu ilə yaradılan əsərə deyilir.

**46. Nəzm** – ərəb sözü olub, mənası nizam-intizam deməkdir. Bədii əsərin yazılma formalarından (nəzm, nəsr) biridir. Nəzmlə yazılmış əsərlərdə fikir adi danışıq formasından fərqli, emosional şəkildə misra, beyt, bəndlərdə ifadə edilir. Nəzm əsərlərinin bir xüsusiyyəti də misralarda söz sırasının pozulması hallarının (inversiyanın) geniş yayılmasıdır. Nəzmin əsas əlamətləri bunlardır: *ahəng, ölçü, qafiyə, rədif, bölgü, inversiya.*

**47. Novella** – hekayənin gözlənilməz sonluqla bitən formasına deyilir. Ə.Haqverdiyevin "Bomba" əsəri gözlənilməz sonluqla bitdiyi üçün novella adlanır.

**48. Realist metod** – sənətkarın bədii əsər yazarkən istifadə etdiyi yaradıcılıq metodlarından biridir. Latınca *realis* sözündəndir, mənası *olduğu kimi, həqiqət* deməkdir. Realist metodun əsas tələbi həyat hadisələrini olduğu kimi təsvir etməkdir. Bu metodda real hadisələrin təsviri əsas yer tutur.

**49. Realizm** – müəyyən dövrdə realist metodla yazıb-yaradan sənətkarları birləşdirən ədəbi cərəyan. XX əsrin əvvəllərində tənqidi realizm bədii metodunun nümayəndələri (C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev və başqaları) "Molla Nəsrəddin" jurnalının ətrafında birləşmişdilər.

**50. Romantizm** – həyat hadisələrini olduğu kimi yox, özünün arzuladığı, görmək istədiyi kimi yazıb-yaradan romantik sənətkarların birləşdiyi ədəbi cərəyandır. Romantik metodla əsər yazan sənətkar həyat hadisələrinə öz subyektiv baxışlarını, ideal saydığı, öz təxəyyülünün məhsulu olan hadisələri əks etdirir.

**51. Remarka** – dramatik əsərdə iştirak edən şəxslərin zahiri görkəmi, yaşı, səhnəyə gəlməsi və getməsi, davranışı, hisləri, hərəkətləri, səhnədəki vəziyyət və s. haqqında müəllifin

verdiyi izahatdır. Remarka çox zaman mötərizə içərisində verilir, pyesi tamaşaya qoyan rejissor, rolları ifa edən aktyorlar üçün bir göstəriş rolunu oynayır. Remarka oxucular üçün də məlumat mənbəyi olur.

52. **Replika** – əsərdə bir şəxsin başqa bir şəxs tərəfindən söylənən sözlərə qısa cavabıdır.

53. **Rübai** – lirik növün cəmi dörd misradan ibarət olan, ictimai-əxlaqi məzmun daşıyan janrıdır. Həcmcə kiçik olmasına baxmayaraq, dörd misrada bitkin, məna və ideyaca dərin fəlsəfi fikir ifadə edilir. Rübaidə birinci, ikinci, dördüncü misralar həmqafiyə olur, üçüncü misra sərbəst buraxılır. Bəzi rübailərdə misraların dördü də həmqafiyə olur.

54. **Satira** – müxtəlif ədəbi növ və janrlarda (hekayə, şeir, dram və s.) ictimai həyatdakı mənfilikləri qəzəblə ittiham edən, kəskin surətdə ifşa edən əsərlərə deyilir. Satirada ifşaedici, öldürücü gülüş əsas yer tutur, sənətkar həyatın eybəcər tərəflərini qəsdən qabardır, mübaliğəli təsvir edir. O həmin mənfiliklərin insan həyatına, mənəvi dəyərlərə zidd olduğunu göstərməklə oxucunu düşünməyə, mənfi hallara qarşı mübarizə aparmağa sövq edir. Yumor isə islahedici, mərhəmət doğuran gülüşdür. Yumor oxucuda tənqid hədəfinə mərhəmətli münasibət yaradır.

55. **Sufizm –** orta əsrlər islam Şərqində geniş yayılmış dini təriqət, mənəvi-əxlaqi düşüncə və davranış sistemidir. *Suf* ərəb sözü olub qaba yundan hazırlanmış parça mənası verir. İlk sufilər zənginlikdən uzaq sadə həyat yaşadıqlarını bildirmək, başqalarından fərqli qrup olduqlarını göstərmək üçün yun paltar geyinirdilər. Sufilər nəfsə uymamağı, dünyadakı həvəslərdən uzaqlaşıb mənəvi təmizlənməklə Allaha qovuşmağı öz məqsədlərinə çevirmişdilər. Orta əsrlər Azərbaycan klassik ədəbiyyatında sufizm ideyaları geniş əks olunmuşdur.

56. **Surət** (obraz) – bədii əsərdə yazıçının yaratdığı obrazdır. Bədii əsərdə insan surətləri ilə yanaşı, təbiət, heyvan, əşya surəti də yaradıla bilər.

57. **Süjet –** bədii əsərdə hadisələrin müəyyən xətt üzrə inkişaf etdirilməsinə deyilir. Süjet fransız sözü olub, əsərdə təsvir olunan mahiyyət və hadisə deməkdir. Süjet xəttinin inkişafında beş əsas mərhələ var: 1. *Ekspozisiya* (bədii müqəddimə, bədii zəmin, giriş) – gələcəkdə baş verəcək hadisələrin təməli qoyulur. Hadisənin başvermə şəraiti aydınlaşdırılır. 2. *Zavyazka* (düyün) – vəziyyətin getdikcə mürəkkəbləşməsini, hadisələrin inkişafında maneə, düyün yarandığını göstərir. 3. *Kulminasiya* (zirvə nöqtəsi) – hadisələrin, ziddiyyətlərin ən yüksək inkişaf nöqtəsinə çatdığını göstərir. 4. *Razvyazka* (açılış) – ziddiyyətlərin tədricən aradan qalxdığını, düyünün açılmağa doğru getdiyini göstərir. 5. *Final* (bədii sonluq) – hadisələrin müəyyən sonluğa çatmasıdır.

58. **Təhkiyə** – epik əsərlərdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hadisə oxucuya təhkiyə (danışmaq, söyləmək, nağıl etmək) yolu ilə çatdırılır. Əsərdəki hadisələr ya müəllifin, ya da qəhrəmanın dilindən nağıl edilə bilər.

59. **Təxəllüs** – sənətkarların özlərinə seçdikləri poetik ad, yaradıcılıq ləqəbidir.

# MÖVZULAR ÜZRƏ İNTERNET MƏNBƏLƏRİ

| Mövzular | Mənbələr |
|---|---|
| Qədim və zəngin ədəbiyyatımız "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy" | http://www.anl.az/el/latin_qrafikasi/axe/kd-q.pdf Ön söz T.Hacıyev. |
| Ə.Xaqani. "Gənclərə nəsihət" | X.Yusifli. Xaqani Şirvani və ədəbi irsi. Xaqani Şirvani. Seçilmiş əsərləri. http://www.anl.az/el/x/xsh_se.pdf |
| Nizami Gəncəvi. "Sultan Səncər və qarı" | X.Yusifli. Nizami Gəncəvi və onun "Sirlər xəzinəsi" poeması. http://www.anl.az/el/n/231568.pdf |
| Nizami Gəncəvi və Məhsəti Gəncəvinin yaradıcılığı üzrə sinifdənxaric oxu dərsi | http://www.anl.az/el/n/231568.pdf. X.Yusifli. Rəvayətlər dumanı arxasından boylanan sənətkar. http://www.anl.az/el/m/mg_r.pdf |
| İ.Nəsimi. "Ağrımaz" | İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. Ön söz. H.Araslı, T.Kərimli. http://www.anl.az/el/n/inesimi_e1.pdf |
| Ş.İ.Xətayi. "Bahariyyə" | Xətai Şah İsmayıl. Əsərləri ön sözün müəl. X.Yusifli. http://www.anl.az/el/latin_qrafikasi/kae/kae.php |
| M.Füzuli. "Söz" | Əsərləri. 6 cilddə. I c. http://www.anl.az/el/f/fm_e1.pdf |
| İ.Nəsimi və Ş.İ.Xətayinin yaradıcılığı üzrə sinifdənxaric oxu dərsi | http://www.anl.az/el/n/inesimi_e1.pdf http://www.anl.az/el/latin_qrafikasi/kae/kae.php |
| "Koroğlu ilə Bolu bəy" ("Koroğlu" dastanından) | "Koroğlu".İ.Abbaslı. Azərbaycan qəhrəmanlıq eposu. http://anl.az/el/latin_qrafikasi/axe/ www.youtube.com/watch?v=dAb-lg0ODjQ |
| M.P.Vaqif. "Hayıf ki, yoxdur" | Əsərləri. Ön söz. H.Araslı. Şeirimizin fəxri. whttp://www.anl.az/el/v/mpv_e.pdf , Molla Pənah Vaqif (film, 27.08.2011) – YouTube www.youtube.com/watch?v=LbMBMA5GNZs |
| "Koroğlu" dastanı və M.P.Vaqifin "Pəri" qoşması üzrə sinifdənxaric oxu dərsi | Molla Pənah Vaqif.Film.YouTube Molla Pənah Vaqif.Film.YouTube "Koro\www.youtube.com/watch?v=LbMBMA5GNZsww.youtube.com/watch?v=dAb-lg0ODjQ |

| | |
|---|---|
| Q.Zakir. “Durnalar” | Seçilmiş əsərləri. Ön söz. K.Məmmədov. http://www.anl.az/el/z/zq_se.pdf |
| Aşıq Ələsgər. “Dağlar” | Əsərləri. Ön söz. İ.Ələsgər. http://anl.az/el/a/ae_e.pdf. Aşıq Ələsgər (film, 1972) - YouTube www.youtube.com/watch?v=tWuP0D5-F4 |
| S.Ə.Şirvani. “Qafqaz müsəlmanlarına xitab” | Seçilmiş əsərləri. I cild. http://www.anl.az/el/alf25/shse_se1.pdf |
| Q.Zakirin  və Aşıq Ələsgərin yaradıcılığı üzrə sinifdənxaric oxu dərsi | Seçilmiş əsərləri. Ön söz. K.Məmmədov. http://www.anl.az/el/z/zq_se.pdf |
| C.Məmmədquluzadə. “Qurbanəli bəy” | Əsərləri. I c.Həbibbəyli. Ustad Mirzə Cəlil_Məmmədquluzadə. http://www.anl.az/el/m/mc_e1.pdf |
| M.Ə.Sabir. “Əkinçi” | Hophopnamə. Ön söz. M.Məmmədov.M. Ə.Sabir irsinin nəşr tarixindən.  http://www.anl.az/el/s/mes_h1.pdf Mirzə Ələkbər Sabir (film, 31.05.2012) – YouTube |
| Ə.Haqverdiyev. “Bomba” | Ə.Haqverdiyev, Seçilmiş əsərləri.I c. Ön söz . |
| M.Hadi. “Türkün nəğməsi” | Cavid ömrü. Film.You Tube. Hadi. M.Seçilmiş əsərləri.Ön söz. Y.Qarayev. http://www.anl.az/el/h/hm_se.pdf |
| H.Cavid. “Ana”. Təhlili | Cavid ömrü. Film.You Tube. Hadi. M.Seçilmiş əsərləri.Ön söz. Y.Qarayev. http://www.anl.az/el/h/hm_se.pdf |
| M.A.Ərsoy. “İstiqlal marşı” | http ://www.dailymotion. com/video/xwb7fn_12-mart-istiklal-marsi-mehmet-akif-ersoy-kisa-film_school |
| Ə.Haqverdiyev və C.Məmmədquluzadənin yaradıcılığı üzrə sinifdənxaric oxu dərsi | “http://www.anl.az/el/m/mc_e1.pdf Mirzə Səfər” filmi - http://www.anl.az/el/m/mc_e1.pdf http://www.youtube.com/watch?v=fjvKGe_-pmw “Poçt qutusu” filmi. |

# OXUMAĞI MƏSLƏHƏT GÖRÜRÜK

**I bölmə üzrə**

Atalar sözü.
"Uşun Qoca oğlu Səgrəyin boyu" ("Kitabi-Dədə Qorqud" dastanından).

**II bölmə üzrə**

Nizami Gəncəvi. "Xeyir və Şər", "Nuşirəvan və bayquşların söhbəti", "Simnarın dastanı", "Süleyman və əkinçi", "Bərdənin tərifi".
Xaqani Şirvani. "Şirvanın tərifi", "Əmisi Kafiyəddin Ömər ibn Osmanın tərifi" ("Töhfətül-İraqeyn"dən parçalar).
Məhsəti Gəncəvi . "Rübailər".

**III bölmə üzrə**

Qazi Bürhanəddin. "Tuyuqlar".
İmadəddin Nəsimi. "Bulunmaz" qəzəli.
Məhəmməd Füzuli. "Pənbeyi-daği-cünun içrə nihandır bədənim" qəzəli, "Padişahi-mülk" qitəsi, "Meyvələrin söhbəti".
Şah İsmayıl Xətayi. "Kərəm eylə" gəraylısı.

**IV bölmə üzrə**

"Dəmirçioğlunun Çənlibelə gəlməyi" qolu ("Koroğlu" dastanından).
Molla Pənah Vaqif. "Durnalar" qoşması.
Molla Vəli Vidadi. "Durnalar" qoşması.
Molla Vəli Vidadi. "Dəli könül, gəl əylənmə qürbətdə" qoşması.
"Vidadinin Vaqiflə deyişməsi".

**V bölmə üzrə**

Qasım bəy Zakir. "Keçdi növbəti-zimistan" şeiri.
Qasım bəy Zakir. "Təmsillər".
Xurşidbanu Natəvan. "Qərənfil" qəzəli.
Aşıq Ələsgər. "Yaylaq", "Gərəkdi" qoşmaları.
Seyid Əzim Şirvani. "Təmsillər"

**VI bölmə üzrə**

Cəlil Məmmədquluzadə. "Quzu", "İranda hürriyyət" hekayələri, "Millət", "Azərbaycan", "Cümhuriyyət" məqalələri.
Mirzə Ələkbər Sabir. "Səttarxana" şeiri, "Amalımız, əfkarımız ifnayi-vətəndir"satirası.
Məhəmməd Hadi. "Dilək" şeiri.
Abbas Səhhət. "Vətən", "Yay səhəri".

**Dünya ədəbiyyatından seçmələr**

Yunus Əmrə. "Mənalı söz deyənlərin" şeiri.
Migel de Servantes. "Don Kixot".
Əlişir Nəvai. "Beşinci səyyahın hekayəti" ("Yeddi səyyarə" poemasından).

BURAXILIŞ MƏLUMATI

**Ədəbiyyat – 8**
Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün ədəbiyyat fənni üzrə
**DƏRSLİK**

Tərtibçi heyət:

| | |
|---|---|
| Müəlliflər | **Əliyev Soltan Hüseyn oğlu**<br>**Həsənov Bilal Ağabala oğlu**<br>**Mustafayeva Aynur Cəfər qızı**<br>**Verdiyeva Nuriyyə Vəli qızı**<br>**Məmmədova Sədaqət Qurban qızı** |
| Redaktor | **Kəmalə Abbasova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Məzahir Hüseynov, Elmir Məmmədov** |
| Korrektor | **Kəmalə Cəfərli** |

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2023-036**



Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi: 9,3. Fiziki çap vərəqi13.
Şriftin adı və ölçüsü: School qarnituru 10-12 pt. Səhifə sayı: 208.
Kağız formatı: 70×1001/16. Kəsimdən sonra ölçüsü 16,5×24,0
Sifariş __ . Tiraj 157500. Pulsuz. Bakı – 2023.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 24.05.2023**

Çap məhsulunu hazırlayan:
**“Bakı” nəşriyyatı** (Bakı, H.Seyidbəyli küç., 30)

Çap məhsulunu istehsal edən:
**“Təhsil NP” MMC** (Bakı, F.Xoyski küç., 121a)

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

